Türk ellərindən-3

ƏLİ ŞAMİL

QAZAXISTAN:

yol qeydləri, məqalələr

Bakı 2026

REDAKTOR: **Aynur QƏZƏNFƏRQIZI,**
Filologiya üzrə fəlsəfə doktoru

Əli Şamil. Qazaxıstan: yol qeydləri, məqalələr,
Bakı: "İmza" nəşrlər evi 2026, 364 səh.
alishamil@yahoo.com

Kitaba daxil edilmiş portret oçerklərdə, ensiklopedik radio verlişlərdə və elmi məqalələrdə Qazax xalqının xoşbəxt gələcəyinə can atmış, bu yolda müstəmləkəçilərin müqavimətilə rastlaşmış, represssiyay məruz qalmış insanların ömür yolundan söz açılır. Vətənsevər oğulları məhv etmək üçün ikiüzlü siyasət aparan Rus-Sovet siyasətçiləri və məmurlarının gizli yazışmaları oxucuya çatdırılır.

İSBN 978-9952-37-648-7

© Əli Şamil, 2026

İÇİNDƏKİLƏR

Oğuz -qıpçaq ilişkilərində yeni mərhələ 5
Ön söz 9
Sürgün olunanların sorağı ilə 21
Əhməd Yasəvi Yurdunda Türkoloji konqres 78
Əlifba islahatçısı, folklorçu, pedaqoq, dövlət qurucusu Ahmet Baytursunov.....120
Qasım Ulunun (oğlu) şərəfli ölümü 199
Ruslara xidmət edən vətənpərvər xan nəvəsi Şokan Valixanov 209
Cuci xanın nəslindən olan Əlixan Bökeyxanovun taleyi 220
Çılğın şair, coşğun vətənsevər Mirjakub Dulatov 242
İşğalçılara qarşı mübarizəni vətəndə başlayıb, mühacirətdə davam etdirmiş Mustafa Çokay 252
Vahid Türk Tatar Dövləti qurmaq istəyən, kommunist Sanjar Asfandiyarov.....283
Türkçü baxışlarına görə həbs edilən və həbsxanada ölən Maqjan Jumabayov (Cumabayov).....294
RSFSR Xalq Komissarlar Soveti sədrinin müavinliyinə yüksəldilən və məhv edilən Turar Riskulov 311

Sovetlərin Səudiyyə Ərəbistanında səfir kimi istifadə edib sonra məhv etdikləri Nəzir Törekulov 328
Şəkərim Kudayberdiyev 341
Muhammetjan Seralindir 348
Muhammetjan Tınışbayevdir 355

OĞUZ -QIPÇAQ İLİŞKİLƏRİNDƏ YENİ MƏRHƏLƏ

Bilgisayarın həyatımıza daxil olması nəşriyyat işlərini də asanlaşdırdı. Kitabların illərlə mətbəələrdə, nəşriyyatlarda növbə gözləməsinə son qoyuldu. Beləcə müəlliflər yalnız fikirlərini oxuçuya tez çatdırmaq imkanı əldə etmədilər, həm də yol verilmiş yanlışılqları qısa müddətdə aradan qaldırmağa imkan yarandı. Yəni kitabın nəşrindən sonra oradakı yanlışlıqları düzəldib təkrar nəşr etmək və ya elektron variantını saytlarda yerləşdirmək problemi həll edilmiş oldu.

"Türkçülüyün qurbanları. (Qazaxıstan)" kitabını oxucuya payladıqdan sonra orada bəzi yanlışlıqlarla rastlaşdım. Bu yanlışlıqların bir qisminin diqqətsizlikdən yarandığını ayıq oxucuhəmin dəqiqə görür. Məsələn, "Ruslara xidmət edən vətənpərvər xan nəvəsi Şokan Valixanov" məqaləsində (səh.21) yazılıb: "İşğalçı Rusların köləsi kimi deyil, xalqına bağlı bir ruhda böyüdüyünə görə Ayxanın tərəfini tutan soltanlar və bəylər Şinğısı (Çingiz) 1834-cü ildə "böyük soltan" elan etdilər. 1935-ci ilin noyabrında isə "böyük soltan" elan edilən Şinğısı (Çingiz) oğlu Şokan dünyaya gəlir". 1835-cu ilin 1935-ci il kimi verilməsi gözdən yayınmır..

Yaxut "Vahid Türk-Tatar Dövləti qurmaq istəyən kommunist Sandjar Asfandiyarov" məqaləsinin

sonunda “KQB tərədində həbs edilən Sandjar Asfandiyarovu uzun və işgəncəli istintaqdan sonra 1918-ci il fevralın 25-də güllələyirlər” cümləsindəki 1918-ci il rəqəminin yanlış olduğu göz qabağındadır. Birincisi 1918-ci ilin fevralında heç KQB yaradılmamışdı, ikincisi məqalə 1918-1937-ci illərdə Sandjar Asfandiyarovun rəhbər vəzifələrdə işləməsində söz açılır. Burada rəqəm 1938-ci il kimi yazılmalı olduğu halda 1918-ci il yazılmışdır.

Adların yazılışında və başqa sözlərin yazılışında da yanlışlıqlar vardı. Bu yanlışlıqları görən dosttanışlar narazılıqlarını bildirirdilər. Tələbəlik dostum, uzun müddət nəşriyyatda işləmiş Səfalə Nəzərli isə ona bağışlamış olduğum kitabı az sonra mənə qaytardı. Kitabı açdıqda gördüm ki, o bir naşir peşəkarlığı ilə oxuduqca səhflərə qələmlə qeyd edib.

Onun bu diqqətini yüksək qiymətləndirərək yanlışlıqları aradan qaldırmağa çalışdım və dostum, zəhmətsevər araşdırıcı və səmimi insan Ədalət Tahirzadənin iradlarını da nəzərə aldım.

“Türkçülüyün qurbanları. (Qazaxıstan)” kitabını nəşriyyata verərkən Şəkərim Kudayberdiyev, Muhammetjan Seralin, Muhammetjan Tınışbayev haqqında məqlələrim TRT və Azərbaycan İctimai Radiosunun birgə proqramı “Qorqud Ata”da səsləndirilməmiş, Qazaxıstana iki səfərdə yazdığım “Sürgün olunmuşların isi ilə (7-16.06. 2013) və

“Əhməd Yəsəvi Yurdunada Türkoloji kinqre” (24-30.2020) məqalələrim hələ çap olunmamışdı.

Hər iki yol qeydimi kitaba əlavə etməyi lazım bildim. Lakin həcm böyük olub oxucunu yormasın deyə Qazaxısdanda iştirak etdiyim elmi konfranslarda oxuduğum məruzələri və orada çap olunmuş məqalələrimi, eləcə də Qazaxıstanda doğulub Doğu Türküstanda yaşamış, uyğur şairi və inqilabçısı Lütpulla Mütəllip və Doğu Türküstan qazaxlarından olan, Altay pələngi kimi tanınan Osman Batr, Qazaxıstanın Manqışlaq bölgəsində doğulmuş, milliyətcə Türkmən olan Gümüşəli Börüyev haqqında məqalələri də buraya daxil etmədim.

Dilçilər Azərbaycan Türkcəsini Oğuz qrupuna daxil etsələr də qıpçaq ünsürləri də açıq-aydın hiss edilir. Bu da bölgədə yaşayanların bir qisminin soykökünün qıpçaqlarla bağlı olmasıdır. Qafqazda yaşayan qıpçaq soylular Qazaxıstanda, Qırğızıstanda, Rusiya Federasiyasının güneyində yaşayan soydaşlarından yüz illər öncə ayrılsalar da onlar dillərindəki, mədəniyyətlərindəki, folklorlarındakı yaxınlığı qoruyub saxlaya bilmişlər. Müstəmləkəçilərin uzunmüddətləi planı öz təsirini göstərib onlar arasında ayrılığı dərinləşdirməyə çalışsalar da istəklərinə tam nail ola bilməmişlər.

Orda şəhərində nəşrə başlayan «Qazaqstan» qəzetinə Hacı Zeynalabdin Tağıyevin qəzetin nəşri üçün 1000 som (rubl) ianə göndərmişdir. Qəzet sonra nəşrini Uralski şəhərində davam etdirmişdir. Bu haqqda «Qazaqstan» qəzetinin 1912-ci il martın 6-da

çap olunan 8-ci sayındakı Qumar Karaşın (Ömər Qaraş) "Bakı" başlıqlı xəbərində də bilgi var.

O dövrdə Hökumət Türküstan və Stepnoy Quberniyalarında Rus dilində bir neçə qəzet nəşr edirdi. Hacı Zeyalabdin Tağıyev qazasların Ruslaşmaması, asimmle edilməməsi üçn onlarda milli şüur formalaşdıracaq qəzetə böyük məbləğdə yardım etməsi heç də təsadüfi deyildi. Bununla Hacı Zeynalabdin Tağıyev xalqlarımız arasında körpü yaratmağa çalışırdı. Lakin istər çar Rusiyasının, istərsə də Sovet hökumətinin rəhbər işçiləri belə xeyirxah işlərə müxtəlif yollarla əngəl olurdular.

Bu iş getdikcə sürətlənəcək. Yaxın gələcəkdə Türk xalqlarının ədəbiyyatı, Türk xalqlarının tarixi, Türk xalqlarının folkloru, Türk xalqlarının terminlər sözlüyü və b. kitablar nəşr edilməyə başlayacaq. Bütün bunlar Türk xalqları arasında ortaq ünsiyyət dilinin yaranmasına yol açacaqdır.

Kitabda yazı qaydalarımızın pozulmasına bilərəkdən yol verdim. Çünki orada yanlışlıqlar çoxdur və Türk xalqları üçün o yanlışlıqları aradan qaldırmağa çalışmalıyıq.

20.04.2014

ÖN SÖZ

Qazaxıstan haqqında ilk dəfə eşitdiklərimi çox dumanlı xatırlayıram. Çünki o vaxtlar çox kiçik idim. Ailəmizdə hamımızın hörmətini saxladığı, ehtiramla yanaşdığı və "Bəşir əmi" deyə müraciət etdiyi Bəşir Rustam oğlunun ailəsindən söz düşəndə tez-tez Qazaxıstanı yada salırdılar. Çünki Bəşir əminin böyük oğlu Mayıl zorla aparıldığı İkinci Dünya Savaşından qaçaraq dağlarımıza sığınmışdı.

Kəndimizin adamlarında qaçaqlara qarşı bir hörmət, sayqı vardı. Onlar çar Rusiyası dövrünün qaçaqlarının da, Sovet hökumətinə qarşı çıxanların da haqqında həvəs və qürurla danışırdılar. Sovetlərin bütün təbliğatları, necə deyərlər, yalnız rəsmi idarələrdə, hökumət məmurlarının yanında eşidilirdi.

Ümumiyyətlə, bizim tərəflərdə daha çox qaçaqlardan və aşıqlardan danışardılar. Qaçaqlıq bir qürur doğuracaq iş, qəhrəmanlıq sayılırdı, onlar haqqında xatirələr, rəvayətlər söyləyirdilər.

Bəşir əminin oğlu Mayıl az müddət də olsa, qaçaqlıq etmiş, ancaq kəndimizdən və ya ətraf kəndlərdən kimisə öldürdüyünü eşitməmişdim. Sovet hökuməti əsarət altına aldığı xalqların azadlıq mübarizəsinə qalxacaqlarından qorxaraq qaçaqlara, ailələrinə, qohumlarına, onlara yardım edənlərə çox sərt divan tuturdu. Belə ki, savaşdan qaçan Mayılı da öldürməklə kifayətlənməmişdi. Onun bacı-qardaşlarını, hətta analığını da

Qazaxıstana, atası Bəşir Rüstəm oğlunu da başqa yerə sürgünə göndərmişdi. Sürgündə Bəşir əminin kiçik oğlu Ələmdar ölsə də, anaları Gülbayaz, ata bir ana ayrı qardaşları Ərzuman, Ənvər, bacıları Gilas, Gülbəs, eləcə də Bəşir Rustam oğlu Qazaxıstandan çətinliklə kəndimizə dönə bilmişdi.

Qazaxıstan bir sürgün yeri olaraq gündəmdən düşməmiş "xam torpaqlar" kimi aktuallaşmışdı. 1960-cı illərdə bizim kənddən də "xam torpaqlar"da müvəqqəti işləməyə, ailələrinə çörəkpulu qazanmağa gedənlər olurdu. Onlar geri döndükdə iş şəraitinin çətinliyindən nə qədər gileylənsələr də, görüşdükləri, ünsiyyətdə olduqları qazaxlardan xoş xatirələr danışırdılar.

Onların söhbətlərindən qazaxların bizimlə anlaşıqlı dildə danışdıqlarını, İslam dininə inandıqlarını öyrəndim. Onlardan öyrənə bilmədiyim yalnız bu idi ki, qazax çölləri nədən boş qalmış, "xam torpağ"a çevrilmişdir. 1960-cı illərdə SSRİ-nin hər yerindən "komsomol putyovkası", "tələbə inşaat dəstəsi", "sürgün" adı altında "xam torpaq"ları əkib-becərməyə yüz minlərlə insan göndərilirdi. Ailəsini dolandırmaq üçün, iş tapmaq üçün müvəqqəti, müqavilə ilə işləməyə gedənlərin sayı da az deyildi.

Qəribəsi bu idi ki, kəndimizdə işçi qüvvəsi çatışmayanda qonşu Çəmbərək (Krasnıselo) rayonunda yaşayan malakanları müqavilə ilə gətirib taxıl biçinində, ot biçinində işlədirdilər. Amma öz kəndimizdən olanlara müqavilə ilə iş vermirdilər. Ona görə də kəndimizdən

fiziki cəhətdən sağlam, işgüzar gənclərin bəziləri də illərlə yaz-yay aylarında Qazaxıstana müqavilə ilə işləməyə gedirdilər. Çox vaxt onlar dəqiq ünvan bilmədən, iş tapacaqlarına qəti əmin olmadan, neçə deyərlər bəxtə-xuda oraya yola düşürdülər.

Uzun illər beynimdə dolaşan bu suala çox-çox sonralar cavab tapa bildim. Anladım ki, Rusiya bu yerləri işğala başlayandan sonra yüz minlərlə qazağı məhv edib. Özünü dünya füqərasının, kasıb-küsubunun himayədarı elan edən, insan haqlarının qoruyucusu kimi göstərən, millətlər arasında bərəbərlik yaradacağını vəd edən Sovetlər, hakimiyyətə gəldikləri ilk gündən sinfi mübarizə, vətəndaş müharibəsi adı altında yüz minlərlə insanı məhv edib. Varlıların var-dövlətini əlindən alaraq ölkəni yoxsulluq girdabına batırıb. Bu azmış kimi, 1920-ci illərin sonlarında kollektiv təsərrüfat yaratmaq istəyilə milyonlarla heyvanın baxımsızlıqdan, aclıqdan qırılmasına səbəb olub. Qazaxların əsas dolanışıq mənbəyi olan qoyun sürüləri məhv edildiyindən minlərlə qazağın aclıqdan, soyuqdan ölmələrinə gətirib çıxarıb. Sonralar oxuduğum qaynaqlardan öyrəndim ki, 1917-1929-cu illərdə aclıqdan, xəstəlikdən, silahlı basqınlardan ölən qazaxların sayı dörd milyona çatıb.

Universitetdə oxuyanda artıq qazaxların Qıpçaq soyundan gəldiklərini, türklərin bir qolu olduğunu bilirdim. Ali məktəbi bitirib Naxçıvan Vilayət Partiya Komitəsinin qəzetində işləyəndə bir neçə dəfə Qazaxıstana getməyi planlasam da, maddi durumum buna

imkan vermədi. Əksər azərbaycanlı kimi mənim də içimdə qazaxlara qarşı bir ehtiram, məhəbbət vardı.

Bir hadisəni unuda bilmirəm. Həmişə oturub-durub Sovet dövrünü tərifləyən Suliddin Qasımlı yeni nəşr etdirdiyi kitabını mənə bağışladı. Suliddinlə eyni illərdə Jurnalistika fakültəsində oxumuşuq. 1990-cı illərin sonlarında da bir təşkilatda – Azərbaycan Ensiklopediya Nəşriyyat Birliyində çalışırdıq.

Kitabı səhifələyərkən diqqətimi şairin 1970-ci illərdə yazdığı "Qazax qardaşım, traktorçu Tanabaya" şeiri diqqətimi cəlb etdi. Kommunist Partiyasının üzvü olub-olmadığını bilmədiyim, Kommunist Partiyasını tərifləyən Suliddin bəyə millətçiliklə yoğrulmuş şeirini göstərərək: "Kommunistsinizsə, nədən belə millətçi şeirlər yazıbsınız, beynəlmiləlçilikdən uzaqlaşıbsınız?" – deyə xəbər aldıqda o, gülümsəyərək: "Kitabı diqqətlə oxusan, ondan da millətçi şeirlərlə rastlaşacaqsan. Sənə qalsa, məni pantürkist də elan edəcəksən!" – cavabını verdi.

Az keçmədi Suliddin Qasımlının kitabı haqqında Bakı Dövlət Universitetinin magistrlərindən birinin məqaləsini oxudum. O, şairin türkçülük ideyalarının təbliğindəki rolunu yüksək qiymətləndirmişdi. Demək istədiyim odur ki, özünü kommunist, beynəlmiləlçi sayanlarımızın da daxilində həmişə bir millətsevərlik şüuru hakim olmuşdur. Bunu kitaba daxil etdiyimiz məqalələrdə də oxucularımız aydın görəcəklər. Belə ki, Rusiyaya – Sovetlərə xidmət edənlər, onlarla iş

birliyində olanlar da milli məsələ gələndə özlərini saxlaya bilməmiş, millətini müdafiə etmiş, həyatlarını təhlükəyə atdıqlarını görsələr də, yollarından çəkilməmişlər.

Yaxın tariximizlə maraqlandıqda görürdüm ki, azərbaycanlıları Qazaxıstana yalnız sürgünə, həbsxanalara göndərməyiblər. 1920-ci illərin sonlarında xeyli partiya-sovet işçisi də Qazaxıstana və Qırğızıstana rəhbər vəzifələrdə işləməyə göndərilib. Çox-çox sonralar bildim ki, 1916-cı ildə başlayan xalq üsyanından sonra bölgədə ziyalılara da divan tutulub. 1927-1929-cu illərdə isə hətta Sovetlərə xidmət edən, onlar üçün işləyən qazax-qırğızların böyük bir qisimini də millətçilikdə suçlayıb, həbsə atdıqlarından kadr qıtlığı yaranıb.

1986-cı ildə Almatıda Sovet hökumətinə qarşı baş qaldırmış üsyan yatırılanda, yüzlərlə insanın məhv edildiyini, izsiz-soraqsız yoxa çıxarıldığını eşidəndə də bərk narahat oldum. Lakin oraya gedib kədərimi onlarla bölüşə bilmədim. Dost-tanış arasında Sovetlərin işğalçı siyasətini qınamaqla qaldım.

Qazaxıstana getməyə can atmamın səbəbi sürgünə göndərilmiş axısqa türkləri, xüsusən də Aşıq Xəstə Hasanın nəslindən olanlarla görüşmək idi. Universitetin son kursundan axısqalı Xəstə Hasanın şeirlərini toplamağa başlamışdım. Bu həvəsi məndə 1972-ci ildə Türkiyədən Gürcüstanın Keşəli kəndinə, uzun illər üzünü görmədiyi bacısı ilə görüşə gəlmiş karslı aşıq İslam Ərdənər oyatmışdı. Bütün ciddi-cəhdlərimə

baxmayaraq Xəstə Hasanın nə ömür yolunu öyrənə, nə də şeirlərini toplaya bilirdim. Azərbaycan aşıqlarının böyük qismini tanısam da, onlar bu işdə mənə yardımçı ola bilmirdilər. İstər aşıqlarımızın, istərsə də aşıq yaradıcılığını öyrənən araşdırıcılarımızın bu mövzuda yetərincə bilgisi yox idi.

Ağbabalı aşıq İsgəndər Gülməmmədovla tanışlıqdan sonra Xəstə Hasan haqqında bilgim artdı. Tez-tez Qazaxıstana, sürgün olunanların toy-düyünlərində çalıb-oxumağa gedən İsgəndər Gülməmmədov Xəstə Hasanın şeirlərini çalıb-oxumaqla yanaşı, Çıldır-Axısqa bölgəsinin aşıqlarını yaxşı tanıyan, aşıq havalarını yaşadan, bir sözlə, aşıq mühiti haqqında çox bilgisi olan birisiydi.

İlk dəfə Xəstə Hasanın nəslindən olanların Almatı yaxınlığındakı Talqar şəhərində yaşadığını Aşıq İsgəndərdən eşitdim. O, sonralar bizim aramızda bir körpü yaratdı. Bu "körpüdən" yararlanıb, Xəstə Hasanın ömür yolunu öyrənməyə, şeirlərini toplamağa çalışdım.

Xəstə Hasanın nəsilindən olanlarla görüşüm 2007-ci ildə mümkün oldu. Elmi simpozyumlardan tanıdığım balıkəsirli, Azərbaycan siyasi mühacirətinin araşdırıcısı Səbahəttin Şimşir xanımı Nahidə Şimşir ilə birlikdə Almatı şəhərindəki Abay adına Pedaqoji Universitetinə müəllim işləməyə getmişdilər.

Təşkilatçılıq bacarığı ilə seçilən, oraya gedən kimi "Abay Yıllığı" adlı məqalələr toplsu çap etdirən Səbahəttin bəy 2007-ci il mayın 16-20-də Almatıda bir simpozyum da təşkil etdi. "Birinci Uluslararası Ortak

Dəyərlər Simpozyumu" adlanan toplantıya Azərbaycandan Bakı Dövlət Universitetinin professoru Vaqif Soltanlı və mən də qatılmışdıq. Bütün xərcləri ödənən simpozyuma getməklə Xəstə Hasanın sürgündə olan qohumları ilə görüşdüm.

Görüşün təşkilatçısı isə Almatıda o zaman kiçik bir yeməkxana işlədən, Naxçıvandan tanıdığım, xalq hərəkatı fəallarından Elçin Abbasov oldu. O, sürücüsü uyğur olan bir maşın kirələyib, bizi Almatıdan təxminən 70-80 kilometr aralıdakı Talqar şəhərinə, Xəstə Hasanın nəslindən olanlarla görüşə göndərdi.

Səfərimiz uğurlu alındı. Aşıq İsgəndər Ağbabalı vasitəsilə qiyabi tanış olduğum və məktublaşdığım Murtuza Tursunovun (Namazov) evinə getdik. Onun süfrəsində çörək kəsdik. Xəstə Hasan mövzusunda xeyli söhbət etdik. Sonra arxivindəki Xəstə Hasanla bağlı materialları da alıb gəldik. Mən Xəstə Hasan kitabını çapa hazırlasam da, institumuzdakı bəzi səbəblərdən kitabın nəşri ildən-ilə təxirə salınaraq 2012-ci ilədək yubadıldı.

"Axısqalı Xəstə Hasan" kitabı gec çap olunsa da, ona maraq böyük oldu. Az sonra Elçin Abbasovun səyi və işgüzarlığı nəticəsində "Axısqalı Xəstə Hasan" kitabı Almatıda yaşayan Xəstə Hasanın qohumları tərəfindən təkrar nəşr edildi. Dünya Axısqalılar Birliyinin "Axısqa" qəzeti kitabdan parçaları il boyu verdi.

Bu məni Türkiyə Radiosunun "Türkiyənin səsi" və Azərbaycan İctimai Radiosunun birgə hazırladığı

“Qorqud Ata” proqramında səsləndirilmiş verilişlərimi yenidən gözdən keçirməyə həvəsləndirdi. “Türk dünyasının məşhurları” rubrikası altında gedən bu verilişlərin bəziləri üzərində işləyib, qəzet-jurnallara məqalələr yazmışdım. Qazaxlar haqqında yazdıqlarımı yenidən gözdən keçirdim. Bəzi məqalələri yenidən redaktə etdim, bəzilərini də yeni faktlarla zənginləşdirdim.

İnzibati ərazi bölgüləri adətən dəyişkən olur. Kitabdakı məqalələrdə hadisələrin bəzən bu günkü Qazaxıstan Respublikasının sərhədlərindən kənarda cərəyan etməsi oxucunu çaşdıra bilər. 19-cu yüzilin sonları, 20-ci yüzilin əvvəllərində Rusiya imperiyası qazaxların əsasən toplu halda yaşadıqları əraziləri Türküstan, Həştərxan, Kazan, Orenburq (bu quberniya bəzən də sadəcə Çol və ya Çol quberniyası kimi də yazılır. Bu quberniyanın böyük qismi Başqırdıstan Cümhuriyyətinə daxildir. – ***Ə.Ş***.) quberniyaları arasında bölmüşdü. Buna görə də qazaxların muxtariyyat uğrundakı mübarizəsi adı çəkilən quberniyalarda gedirdi.

Kitabı hazırlayarkən təkrarçılıqdan qaçmaq üçün məqalələrdəki bəzi faktları ixtisar etdik. Rus və Avropa qaynaqlarında qazaxların ad və soyadları qazaxlardakı kimi deyil, öz dillərinin qaydalarına uyğun yazılır. Biz isə dillərimizdə eyni səslərin olduğuna görə və qazaxlara sayqı olaraq haqqında söhbət açdığımız adamların ad, ata adı, soyadı və toponimləri onlarda olduğu kimi yazmağa çalışdıq. Onu da xatırladım ki, türk xalqlarında

insanlar daha çox ad, ata adı və mənsub olduqları tayfanın adı ilə tanınırlar. Ruslarda isə nəsli bildirən, sonu "ov", "yev"lə bitən familiya daha çoxdur. Onlar Rusiya əsarətində olan türk, müsəlman xalqlarının övladlarını qeydiyyata alanda, haqqında yazanda familyalarını öz dillərinə və sistemlərinə uyğunlaşdırmışlar. Beləcə Kenesarı Qasım ulu (yəni oğlu, qıbçaq qrupuna daxil olan türklər oğlu sözünü "ulu", "ulı" kimi yazırlar – ***Ə.Ş***.) Kenesarı Kasımova, Əlixan Bökeyxan ulu Alixan Bukeyxanova, Mustafa Şokan ulu Mustafa Çokanova və b. çevrilmiş olur. Ona görə də məqalələrimizdə eyni adamın ad və soyadının fərqli yazılışına rast gəlinəcəkdir.

Qazaxıstanla Azərbaycan uzun illər Rusiya imperiyasının, sonralar da SSRİ-nin tərkibində olduğundan sıx iqdisadi, siyasi, mədəni əlaqələri olmuşdur. Lakin bizim haqqında söhbət açdığımız insanlardan uzun illər nəinki Azərbaycanda, hətta Qazaxıstanda da ya heç yazılmamış, yazılanlarda isə onların əsil fəaliyyətlərinə kölgə salınmışdır.

Türk xalqları ilə əlaqələrimdən xəbərdar olan şair Əhməd Oğuz 1995-ci ildə məni Azərbaycan Radiosunda veriliş hazırlamağa dəvət etdi. Mənəvi tələbatımı ödədiyinə görə qonararının azlığını düşünmədən razılaşdım. Beləcə hər ay bir dəfə otuz dəqiqəlik veriliş hazırlamağa başladım. "Qonaq eldən gələr" adlanan bu verilişdə mən hər dəfə bir türk xalqının tarixindən, mədəniyyətindən, insanlarından söhbət açırdım. Səya-

hətlərdə, xarici ölkələrdə qatıldığım sempozyumlarda görüşdüyüm insanlardan aldığım müsahibələri dostların göndərdiyi lentlərdəki musiqi parçaları ilə bəzəyərək verilişi maraqlı etməyə çalışırdım.

Azərbacan Radiosunun ötürücüləri zəif olduğundan hazırladığım verilişlər istədiyim təsiri göstərmirdi. Azərbaycana tez-tez gələn TRT "Türkiyənin səsi"nin Azərbaycan Verilişləri Redaksiyasının rəhbəri Seyfəddin Altaylı da radiomuzun qüsurlarını görür və jurnalistlərin əməyinin səmərəli olmamasından narahat olurdu. Var gücü ilə çalışırdı ki, Azərbaycan jurnalistlərinin vətənpərvərlik mövzusunda hazırladığı yazıları, radio verilişləri geniş yayılsın. Onun illər uzunu yaratdığı dostluqlar, apardığı danışıqlar öz bəhrəsini verdi və həyata keçirmək istədiyi layihəsinin reallaşmasına imkan yarandı. 2007-ci ildə Bakıda Türk Dünyası Qurultayı keçirilərkən, onun səyləri nəticəsində TRT-nin rəhbərliyi özünün də iştirakıyla, Azərbaycan Radiosu və Azərbaycan İctimai Radiosu ilə müqavilə bağladı. Müqavilə şərtlərinə görə gündə bir saat birgə veriliş hazırlanıb efirdə səsləndiriləcəkdi. Verilişləri, müqavilə bağlayan tərəflərin hər biri öz vəsaiti hesabına hazırladacaqdı. Beləcə verilişləri, Azərbaycanın ötürücüləri vasitəsilə cumhuriyyətimizin ərazisində, TRT-nin ötürücülərinin texniki imkanları güclü olduğundan isə dünyanın hər yerinə yayacaqdılar. Beləliklə, istər Azərbaycan Dövlət Radiosu, istər Azərbaycan İctimai Radiosu heç bir vəsait ödəmədən gündə bir saat da olsa,

şərikli hazırlanmış verilişlərini dünyanın hər yerinə yaymaq imkanı qazanacaqdı.

2008-ci ildən qədəm götürən və ayda bir dəfə hər iki radio ilə aparılan ortaq verilişlər ilin axırına kimi davam etdi. Həmin ilin avqust ayında yenə Seyfəddin Altaylının səyləri ilə Azərbaycanın hər iki radiosu ilə əlavə protokol imzalandı. Bu protokola əsasən, 2009-cu il yanvar ayının 1-dən hər gün olmaqla ortaq canlı verilişlər başlanmalı idi. Azərbaycan İctimai Radiosu müqavilə şərtlərinə əməl edərək, Seyfəddin Altaylının adını qoyduğu "Qorqud Ata" adlı ortaq veriliş başladı. Azərbaycan Radiosu ilə bağlanmış müqavilə isə pozuldu. Seyfəddin Altaylı bundan bərk əsəbləşdi, çünki o, Türkiyə ilə qardaş olan Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini, dövlətçiliyinin çiçəklənməsini hər şeydən üstün tuturdu, bunu müstəqillik dövründə və müstəqillikdən sonrakı zamanda da öz əməlləri ilə sübut etmişdi. Uzun müddət əziyyət çəkib rəsmiləşdirdiyi, üstəlik, Azərbaycan üçün əvəzsiz önəmi olan, dövlətimizin dünya miqyasında təbliğatına imkan yaradacaq bu önəmli layihəsi çox asanlıqla pozulmuşdu. Özü də bu işi pozan uzun illər Seyfəddin Altaylı ilə dostluq edən, millətçi kimi tanıdığımız bir insan idi.

TRT ilə Azərbaycan İctimai Radiosunun birgə proqramı olan "Qorqud Ata" rubrikasında mənə Seyfəddin bəy tərəfindən həftədə bir dəfə on üç-on dörd dəqiqəlik "Türk dünyasının məşhurları" verilişini aparmaq tapşırıldı. Bu verilişdə mənim qarşıma Sovet

təbliğatının məşhurlaşdırdığı insanları deyil, əsasən milləti üçün böyük işlər görmüş, lakin hakim rejimlər tərəfindən məhv edilmişləri tanıtmaq tapşırıldı. Beləcə türk xalqlarının millətsevər insanları haqqında bilgilər toplayaraq dinləyicilərə çatdırmağa çalışdım.

Mən təkcə radio verilişlər hazırlamaqla qalmadım, milləti və vətəni üçün fədakarlıq edənləri oxuculara da tanıtmağa çalışdım. Düşündüm ki, müstəmləkəçiliyə qarşı mübarizədə eyni yolu keçmiş xalqlarımızın tarixini öyrənməklə oxucularımızın Qazaxıstana və qazaxlara diqqəti bir az artar.

Bu kitab TRT və Azərbaycan İctimai Radiosunun birgə proqramı olan "Qorqud Ata" rubrikasında səsləndirilmiş verilişlər və qəzet-jurnallarda çap olunmuş məqalələr əsasında hazırlanmışdır.

SÜRGÜN OLUNANLARIN SORAĞI İLƏ

Azərbaycan Dövlət Diaspor Komitəsinin məlumatına görə, Qazaxıstan Respublikasına sürgün olunan, təyinatla, komsomol göndərişi ilə və ya iş tapmaq üçün gedən soydaşlarımızın sayı 100 minə yaxındır. Qazaxıstan Axısqa Türklərinin Milli Mərkəzi isə orada 200 min axısqa türkü yaşadığını yazır.

1937-ci ilə kimi Axısqa türkləri ilə Azərbaycan türkləri bir-birindən ayrılmırdı. Belə ki, Ömər Faiq Nemanzadə Axısqadan, Cəlil Məmmədquluzadə də Naxçıvandan gəlib Tbilisidə türkcə "Molla Nəsrəddin" jurnalını çap etdikləri kimi, Əhməd Pepinov da Bakıda satirik "Zənbur" jurnalını nəşr edir, Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində işləyirdi. Axısqalılar yaşayan rayonlarda rəhbər vəzifə tutan, kəndlərdə müəllim işləyən Azərbaycandan getmiş onlarla aydın da vardı. Ömər Faiq Nemanzadə də Azərbaycanın müxtəlif bölgələrində müəllim və ya başqa vəzifələrdə işləmişdi.

Axısqada rəhbər vəzifədə işləyənlərdən biri də Ağa Sultanov (Qasım İsmayılovun, Hökumə Sultanovanın qardaşı. İndiki Göranboy rayonu uzun illər Qasım İsmayılov adını daşımış, onun adına küçələr, təşkilatlar verilmişdir. Hökumə Sultanova da uzun illər rəhbər vəzifələrdə işləmişdir) olmuşdur. Azərbaycan SSR Maarif Naziri, Azərbaycan

Kommunist (bolşeviklər) Partiyasının ikinci katibi, Gəncə mahal Partiya Komitəsinin katibi işləmiş Ağa Sultanovu 1933-cü ildə Gürcüstan SSR-in Axalkalaki rayon Partiya Komitəsinə birinci katib işləməyə göndərirlər. O, rayonda yaşayan türklərin sıxışdırıldığının qarşısını almağa, surgün edilmələrini durdurmağa çalışır. Rəhbər partiya işində çalışsa da, bu işin Moskvadan planlaşdırıldığını görmür. Moskvanın sərhəddə yaşayan türklərin azaldılması, necə deyərlər, bölgəni türklərdən təmizləməsi siyasətindən xəbərsiz olur.

Gənc və çılğın Ağa Sultanov özü də bilmədən Moskvanın istəyinə qarşı durduğuna görə KQB əməkdaşlarının təşkil etdiyi sui-qəsdin qurbanı olur. Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının birinci katibi Mir Cəfər Bağırov (Ağa Sultanov Mir Cəfər Bağırovun tövsiyyəsi və təqdimatı ilə Axalski rayonuna işləməyə göndərilmişdi) onun cənazəsini gətirdib Bakıda ehtiramla dəfn etdirir. Sonra sui-qəsdin iştirakçıları işi elə qurdular ki, guya Ağa Sultanov məişət zəminində öldürülüb. Onun cənazəsini gətirib hörmətlə dəfn edənlərə qarşı hücumlar başlayır.

1937-ci ilədək axısqalılarla eyni millət sayılırdıq. Bu gün tarixi ədaləti bərpa edib millətimizin və dilimizin türk olduğunu yazdıra bilsək, onda Qazaxıstanda yaşayan soydaşlarımızın sayı 300 mindən

çox olur. “Gizli miqrantlar”ı da bura əlavə etsək, rəqəm bir az da artar.

Almatıda olarkən neçə-neçə insanın iki aydan bir Qırğızıstan sərhəddinə keçərək pasportlarını qeyd elətdirib geri döndüklərinin şahidi oldum. Qazaxıstanda yaşayanların siyahısına düşməyən belə miqrantlar illərdir orada yaşayır, işləyir, uşaqları da məktəblərdə təhsil alır.

Qazaxıstanda yaşayan soydaşlarımızı aşağıdakı kimi qruplaşdırmaq olar: 1. “Qolçomaq”, “xalq düşməninin ailəsi” adı ilə sürgünə göndərilənlər və onların uşaqları, 2. “Vətən xaini” adı ilə sürgün olunanlar, 3. Xam torpaqlara yarı xoş, yarı güc işləməyə göndərilənlər, 4. Ali məktəbləri və texnikumları bitirib təyinatla göndərilənlər, 5. Xidməti iş adı altında göndərilənlər, 6. 1990-cı ildən sonra Azərbaycanda dolana bilməyib iş tapmaq ümi-dilə Qazaxıstana gedənlər.



Almatıda Sovet dövründə tikilmiş beynəlxalq olimpiya kompleksi

Sayları az olduğuna görə bölgüyə daxil etmədiklərimiz də var. Onlar Qazaxıstana rəhbər vəzifədə işləməyə göndərilənlərdir. 1920-50-ci illərdə Azərbaycandan Qazaxıstana on minlərə ailə sürgün edilirdisə, Novruz Rzayev, Üzeyir Şabanov və başqaları da yüksək rəhbər vəzifələrə aparılırdı.

Son illər Qazaxıstanda nəşr olunan sənəd toplularında və araşdırma kitablarında sürgün olunan insanların adı, atasının adı, soyadı, yaşı göstərilən siyahılara, onların hansı kənddə yerləşdirildiyinə dair bilgilərə tez-tez rast gəlmək olur. Həmin kitablardan birindən Azərbaycandan sürgün olunanların siyahısının fotosurətini çıxardım. Təəssüf doğuran odur ki, həmin kitablarda sürgün olunanların hansı rayondan, hansı kənddən göndərildikləri haqqında bilgi yoxdur. Azərbaycanda isə sürgün olunanlar haqqında belə sənəd topluları nəşr edilsəydi, çox yaxşı olardı. Onda həm yollarda ölənlərin sayını müəyyənləşdirmək olar, həm də soydaşlarımızın haradan sürgün olunduqlarını bilərdik.

Haqsız yerə sürgün edilənlərin böyük bir qismi cəza müddətləri başa çatdıqdan sonra məmur özbaşınalığından qorxaraq Azərbaycana dönməyiblər. Beynəlxalq təşkilatların qərarlarına və tövsiyələrinə ciddi əməl olunmadığı üçün Gürcüstan hökuməti Axısqa türklərinin vətənə dönmələrini hələ də əngəlləyir.

Qazaxıstan Respublikası keçmiş Sovetlər Birliyində ərazicə Rusiya Federasiyasından sonrakı yeri tutur. SSRİ-dəki müttəfiq və muxtar respublikalara rəhbər vəzifələrə üzüyola, sözəbaxan milli kadrlar təyin edilirdi. Lakin bu qayda Qazaxıstanda gözlənilmirdi. Rəhbər vəzifələrdə ruslar çoxluq təşkil edirdi. Hətta uzun müddət Nazirlər Sovetinin sədri, Ali Sovetin Rəyasət Heyətinin sədri və Mərkəzi Komitənin birinci katibi vəzifəsində ruslar, ermənilər, gürcülər və b. millətlərdən olanlar işləmişdirlər.

Qazaxlar hökumətin köçürmə siyasətinə qarşı dəfələrlə üsyanlar qaldırsalar da, bu üsyanlar qan içində boğulmuşdu.

20-ci yüzilin başlanğıcında isə gözlənilən xalq üsyanlarının qarşısını almaq məqsədilə, Rusiyanın daxili işlər naziri və Baş naziri olmuş Stolipinin planı əsasında mərkəzi quberniyalardan aztorpaqlı rus kəndliləri Qazaxıstana köçürülmüş, onlara əkib-becərməyə məhsuldar torpaqlar verilmiş və məskunlaşmaları üçün lazımi şərait yaradılmışdır. Torpaqları əllərindən alınan qazaxların müqaviməti isə qəddarlıqla yatırılmışdı.

Sovet hakimiyyəti illərində yalnız Rusiyadan deyil, keçmiş SSRİ-nin hər yerindən on minlərlə ailənin bura sürgün edilməsinə baxmayaraq, bölgədə hər kvadrat kilometrə düşən əhalinin sayı Ukrayna, Belarusiya, Güney Qafqaz, Özbəkistan və Tacikistandan çox-çox aşağıdır.

Qazaxıstanda, Ukraynada və ölkənin başqa bölgələrində əhalinin var-yoxunu əlindən alıb onları kütləvi ölümün cənginə atmışdılar. Qazaxıstanda 1928-ci illə müqayisədə 1933-cü ildə insanların və onların yaşamını təmin edən heyvanların sayı belə azalmışdır. İnsanlar 6 milyon 100 min nəfərdən 2,5 milyon nəfərə, davarlar 28 milyon 566 min başdan 1 milyon 386 min başa, qaramal 5 milyon 951 min başdan 55 min başa, atlar 13 milyon 516 min başdan 885 min başa, dəvələr 2 milyon başdan 63 min başa enmişdi.

Əslində əhalinin və mal-qaranın məhvinə səbəb Qazaxıstana rəhbər vəzifəyə göndərilimiş bolşevik Filipp Qoloşyokinin 1925-ci ildən başlayaraq "qolçomaqlara qarşı mübarizə" adı altında apardığı və "Kiçik Oktyabr inqilabı" adlandırılan planın acı nəticəsi idi.

Nikita Xruşşovun hakimiyyəti illərində ölkənin ərzağa olan tələbatını ödəmək üçün yollar axtarılırdı. Çıxış yolu kimi "Xam torpaq" layihəsi ortaya atılıb. Bu, Qazaxıstanda xaraba qoyduqları yerləri yenidən dirçəltmək, Qazax çöllərində dəmyə taxıl əkmək, yeni kəndlər, qəsəbələr, şəhərlər salmaq demək idi.

SSRİ-nin müxtəlif bölgələrindən Qazaxıstana yarı zor, yarı xoş insanlar göndərilir, boz çöllər əkilir, şəhərlər, qəsəbələr, kəndlər salınır.

SSRİ-nin dağılması ərəfəsində sürgün olunmuş almanlara Almaniya hökuməti sahib çıxdı. Sovetlər Birliyinin hər yerində olduğu kimi Qazaxıstanın da

iqtisadiyyatında bir çöküş başladı. Yaşam şərtləri ağırlaşdığından rusların böyük bir qisminin geriyə köçü başladı. Beləliklə, ölkədə yenə işçi qüvvəsi qıtlığı yarandı. Qazaxıstan hökuməti 1920-30-cu illərdə xarici ölkələrə köçmüş qazaxları və onların övladlarını geri qaytarmaq üçün bir sıra həvəsləndirici tədbirlər həyata keçirdi. Kütləvi köçün qarşısını almaq üçün də bir sıra tədbirlər gördü. Hazırda Qazaxıstanda 100-dən çox xalq yaşayır və onların əksəriyyətinin dərnəkləri fəaliyyət göstərir.

Qazaxıstanda yaşayan soydaşlarımızla görüşməyə, orada araşdırmalar aparmağa gənclik illərimdən maraq göstərsəm də, buna təxminən 35 il sonra nail ola bildim.

Xəstə Qasımın bir bağlamasının doğurduğu mübahisə

Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinin dördüncü kursunda oxuyanda, yəni 1972-ci ilin aprelində tələbə yoldaşım Osman Əhməd oğlu sevinc və qürurla uzaq qohumu Qənbərin çox çətinliklə (yəni məmurlara rüşvət verməklə) Türkiyədə yaşayan dayısı Aşıq İslam Ərdənəri Keşəliyə (Gürcüstan Respublikası Marneuli rayonunda kənd) qonaq gətirdə bildiyini söylədi. Bu gözlənilməz xəbər elə bil ağlımızı başımızdan çıxardı.

Hər ikimiz gündüz oxuyurduq. Təqaüd də alırdıq. Lakin bu təqaüdlə dolana bilmədiyimizdən gecələr işləyirdik. Qərara aldıq ki, həmin gün Osmanın doğulduğu kəndə gedək. Dərsdən qaçdığımıza görə dekanlığın, işə getmədiyimizə görə rəhbərliyin verəcəyi cəza da bizi fikrimizdən döndərə bilmədi.

Borçalıya, Kür üstü Keşəli kəndinə yollandıq. Dərsi və işi qoyub gəlişimiz Osmanın valideynlərini narahat etsə də, bizi danlayıb həmin gün geri göndərmədilər.

Dəvət gözləmədən, icazə almadan, Türkiyəlilər demişkən, ayağımızın tozu ilə Qənbərgilə getdik. İçəri girəndə evi adamla dolu gördük. Əksəriyyəti də bizim kimi çağırılmamış qonaqlar idi.

Aşıq İslam Ərdənəri görmək istəyənlər ev sahibindən icazə almağı ağıllarına belə gətirmirdilər. Necə deyim, Qənbərin evi məscidə dönmüşdü. Hamının üzünə açıq idi. Kim nə vaxt istəyirdi, gəlirdi, nə vaxt istəyirdi, gedirdi. Oturmağa yer olmayanda gənclər ayaq üstə, divara söykənib qulaq asırdılar.

Yalnız keşəlilər deyil, ətraf kəndlərdən, rayonlardan da İslam Ərdənəri görməyə, onu qonaq aparmağa gəlirdilər. Onun maraqlı söhbəti maqnit dəmiri çəkən kimi hamını özünə çəkirdi. Kənar yerlərdən gələnlər bəzən İslam Ərdənəri çölə çağırıb təklikdə söhbət edirdi. Geri dönənlərin üzü güləndə xoş xəbər aldığını bilirdik. Yaxşı xəbər almayanlar evə qayıtmır, ağlaya-ağlaya gedirdilər. İslam

Ərdənərlə təklikdə danışmaq istəyənlər bolşeviklər 1920-21-ci illərdə Güney Qafqazı işğal edəndən sonra, kollektivləşmə illərində, İkinci Dünya Savaşında "itkin düşmüş" qohumlarını axtaranlar idi.

Qars şəhərinin yaxınlığındakı Ladıkars (Kümbətli) kəndində yaşayan İslam Ərdənər aşıq olduğundan Türkiyədə çox yeri gəzmişdi. Ona görə də Qafqazdan gedən Azərbaycan türkləri haqqında geniş bilgisi vardı. Lakin məclislərdə, toplumda bu mövzuda qətiyyən danışmazdı. Adam çox olan yerdə, adətən, aşıqlarımızın ömür yollarından, şeirlərindən, dastanlarımızdan, gəlmişdən-getmişdən şirin söhbətlər edərdi.

Biz də bu söhbətlərə həvəslə qatılırdıq. Söhbətlərin birində Türkiyədə çap olunan, Azərbaycanda M.F.Axundov adına Respublika Kitabxanasına və Elmlər Akademiyasının Kitabxanasına göndərilən "Folklor araştırmaları" dərgisindən oxuduğum "Bir su ver" rədifli şeirin bildiyim misralarını söyləyib müəllifini tərifləyəndə İslam Ərdənər həmin şeirin Xəstə Hasana nəzirə olduğunu söylədi. Məclisdəkilərin çoxu etiraz etdi. Çünki hamımız Xəstə Hasanı istedadsız aşıq, ədəbi oğru kimi tanıyırdıq.

Aşıq İslam Ərdənər Xəstə Hasanın "Bir su ver" divanisini söylədi. Adamların səbir və maraqla dinlədiyini görüb aşığın ikinci bir divanisini də saz çalmadan pəsdən oxudu. Divani belə idi:

Abi-çeşmə göllərində sona da bir, qaz da bir.
Süsən, sünbül, mor bənəvşə, bülbül ötər yazda bir.
Vaqif dərddən xəbərdardır, Gövhərinin qiyməti yox.
Qul Qaranı, Qara Zülal, Aşığ Omar sözdə bir.

Qurbanı haqq aşığıydı, dayıma xamnan sökər.
Dəstinə alıp qələmi, xəddinə bir xədd çəkər.
Çöllü İsmail tacidi, cannan qasavət tökər.
Kərəm ki yandı atəşə, od da birdi, köz də bir.

Molla Xəlis dəlalətdən içdi eşqin badasın,
Küftadıya pay verdilər onnan da ziyadasın,
İrfanı dərya-ümmandı, keçmək olmaz adasın,
Aşıx Seyfi, Usta Polad, Dəli Tamı sazda bir.

İçdim eşqin badasını, həm oxuyam, həm yayam,
Böylə getməz bu rüzigar, həlbət gələr bir ayam,
Sənə min iki yüz on səkkiz, yox tarixin sayam,
Çox aşıxlar gəldi-getdi, Xəstə Həsən yüzdə bir.

Sonra da "belə qüdrətli bir şeirlər deyən aşıq ədəbi oğru olmaz!" hökmünü verdi.

Məclisdəkilər Aşıq İslam Ərdənərə böyük hörmət göstərsələr də, onun dedikləri ilə razılaşmadılar. Aşıq şeiri həvəskarı olan, gözlərini açıb özlərini aşıq mühitində görən, onlarla aşıq məclisində iştirak edən adamlar geri çəkilmək istəmədilər. Söhbət uzandı. Kimsə gedib akademik Həmid Araslı kimi nüfuzlu bir

alimin redaktorluğu ilə 1963-cü ildə Bakıdakı "Elm" nəşriyyatında çap olunmuş "Aşıq Ələsgər. "Əsərləri" kitabını gətirdi.

Kitabdan Aşıq Ələsgərin:

Dörd kıtab hər yana yol göstərər,
Nəfs ilə mərifət olur şeş cahat,
Böylə əmr eyləyib qüdrəti-qadir,
Bu əmrə qol qoyan tez tapar nicat,
Eylə etiqat!

Şəhr aydı bayram onun gülüdü,
İki ay bir-birinin müttəsilidi,
Üç yüz altmış altı gün-bir ilidi,
Səkkiz min yeddi yüz səksən dörd saat-
Gəl verim isnat!
Altıda qarışdı Nuhun tufanı,
Qırx ilə sərgərdən gəzdi hər yanı,
Altı min altı yüz insan, heyvanı,
Hərə öz dilində eylədi fəryad,
İstədi imdad.

Neçə müddət qərq oldular tufana,
Əmr etdi, kəbutər gəzdi hər yana,
İki yüz otuzda tapdı bir dənə,
Nuh üçün fəhmində gətirdi sovqat,
Qıldı ibadət.

Altmış altı ayə niyə danmısan
Belə məlum bizi avam sanmısan,
Dünya ciftəsinə sən aldanmısan,
Unutma ükbanı, bu dünyanı at,
Afərin ustad.

Qasım "qaf"nandı, Həsən "hey"nən,
Xeyir çəkməz ustadından deyinən,
İşim yoxdu seyyidnən, bəynən,
İxtiyarımdadı qalan məxluqat
Daimül-övqat. –

şeirini oxudular.

Aşıq İslam Ərdənər səbirlə dinlədi və şeiri tərifləndi. Sonra da kitabın izahlar bölümündəki aşağıdakı şeirləri və yazını oxudular: "Rəvan aşıqlarından Xəstə Həsən adlı birisi Xəstə Qasımın "Daimül-övqat" qafiyəli müstəzad qıfılbəndini öz əsəri kimi yazdırıb, bir üzünü Ələsgərə, bir üzünü də Aşıq Miskin Bürcüyə göndərir. Aşıq Ələsgər qıfılbəndi həmin müstəzad ilə açır, altıncı bənddə də qıfılbəndin Xəstə Qasımın əsəri olduğunu ona xatırladır. Xəstə Qasımın qıfılbəndi belədir:

Bir çarşıda dörd dərvişə uğradım,
Dördü bir-biriynən eylər ixtilat.
Dördünün də dili ayrı, dini bir,
İki də biz onlarınan şeş cahat.
Əsil kainat.

Bir şəhərin gördüm padişahını,
Qulun, yasovulun, hər dəsgahını,
Üç yüz altmış altı xoş süpahını
Onlar bir kişidən istədi sürsat,
Xoş çəkər səffat.

Altı, səkkiz, doqquz idi binası,
Otuz cəlalı var, bəyaz sinəsi,
Altı min altı yüz məddü mənası,
Ərəb idi, əcəm idi, türkü, tat,
Bir ismə fəryad.

Altıdan qırxatan sərgərdan idi,
İki yüz otuzdan özün tanıdı;
Altı min altı yüz pasiban idi,
Kimi yahu çəkər, kimi əssalat,
Kim edər fəryad.

İki dərya xoş görünmür gözünə,
İki qırx dörd gəlməz ərin dizinə;
Xəstə Qasımın bu şerinə, sözünə
Qazı, molla, müctəhidlər qaldı mat,
Tapmadı kəlmat.

Miskin Bürcünün Xəstə Həsənə göndərdiyi cavabı da burada verməyi məsləhət bildik:

Arif olan, bizə bir namən gəldi,
Amma ona baxdım, təlx oldu ovqat.

Şair bunu nə növ ilə düzəltdi,-
İmlası rəkikdi, inşası qələt.

Verdim çaparlara mindi səməndi,
Dəydi oymaqlara, gəzdirdi kəndi,
Nə qədər var idi alim, əfəndi,
Onlar da bu sözə tamam qaldı mat.

Apardım derdərə: “aset inça səs? “
Dedi:“asdex yegnin dun uy umes “.
And içdi mahrasa: “xacı-kidumçes“,
Pop skazal: “Yey boqq, niznayem, brat!”

Sən ol əhli-xibrə, biz olaq dağlı,
Sözün məddi gərək mənaya bağlı.
Nə çərən-pərəndi mərhumun oğlu,
Sənəmi qalıbdı hər cəfəngiyyat?

Müsəmma Miskinəm, mən zişdi-camal,
Çün adam güdmüşəm, nə qoyun, nə mal,
Sən ki cüz etmisən bu nəzmi-kamal,
Bizə lazım deyil, özgələrə sat!”



Şəkildə: İş adamı Elçin Abbas, Dünya Axısqa Türkləri Birliyinin sədri Ziyaddin Kasanov və Əli Şamil

İslam Ərdənər diqqətlə qulaq asıb, bir az fikrə getdikdən sonra təxminən belə dedi: "Birincisi, Xəstə Hasan irəvanlı deyil, Axısqanın Levis kəndindəndir. İkincisi, o, ömrünün son illərində dediyi "Yüzdə bir" divanisində "Sənə min iki yüz on səkkiz" misrası var. Bu şeirin deyildiyi tarixdir. Onu miladiyə çevirəndə 1803-1804-cü il edir. O, illərdə Aşıq Ələsgər heç dünyaya gəlməmişdi. Üçüncüsü, Xəstə Hasanla Aşıq Ələsgərin yaşadığı mahallar bir-birindən uzaqdır. Adətən, axısqalılar bazara-dükana Tiflisə, Borçalıya, Qarsa, göyçəlilər isə Gəncəyə, İrəvana, Naxçıvana

gedərlərmiş. Ümumiyyətlə, Göyçə ilə Axısqa arasında gediş-gəliş, sıx əlaqə də olmayıb.

Kitabı hazırlayanlar niyə belə yanlışlığa yol verdiklərini bilmirəm. Sakit bir vaxtda, diqqətlə oxusam, yazılanlarda çox səhv taparam. Yəqin kitabı təkrar nəşrə hazırlayanda belə yanlışlıqları düzəldərlər."

Məclisdəkilər Aşıq İslam Ərdənərlə razılaşmasalar da hörmət əlaməti olaraq söhbəti çox uzatmadılar. Onun söylədiyi "Yüzdə bir" divanisində adı çəkilən aşıqların bir çoxu haqqında nə məclisdəkilərin, nə alimlərimizin, nə də məşhur aşıqlarımızın bilgisi vardı.

İslam Ərdənər Xəstə Hasanın bir neçə "Divani"sini, "Cığalı təcnisi"ni də söylədi. Onun söylədiyi şeirləri nə mən və mənim kimi universitetdə oxuyanlar, nə məclisdəkilər, nə də məşhur aşıqlarımız bilirdi. Aşıqlardan eşitmədiyimiz və kitablarda görmədiyimiz bu şeirləri cib dəftərçələrimizə yazdıq.

Alimlərimizin yazdığı izahların cazibəsindən çıxa bilmirdim. İslam Ərdənərin söylədikləri də məntiqli və inandırıcı görünürdü. Beləcə o, içimə bir şübhə toxumu səpib getdi.

"Aşıq Ələsgər" kitabını təkrar-təkrar oxuduqda İslam Ərdənərin haqlı olduğunu gördüm. Kimdən toplandığı, hansı qaynağa əsaslandığı göstərilməyən bu parçalarda ilk diqqətimi cəlb edən Miskin Bürcünün adına verilmiş şeirin möhürbəndi oldu.

Şeirin möhürbəndində Miskin Bürcü deyil, Müsəmmə Miskin yazılmışdı. Yadıma düşdü ki, erməni qaynaqlarında yazılmış aşıq şeirlərimizi və dastanlarımızı araşdıran İsrafil Abbasov Miskin Bürcü haqqında da yazıb. Onun yazdığını bir də oxudum. Gördüm ki, Miskin Bürcü Gəncə şəhərində yaşayıb. Milliyyətcə erməni olan Miskin Bürcü peşəkar aşıq olmayıb.

Dolanışığını təmin eləmək üçün küçələrdə gəzib-oxuyub. 1848-ci ildə gənc yaşlarında ölüb. Onun türk dilində, erməni əlifbası ilə yazılmış şeir dəftəri də Yerevan şəhərindəki Matenedarən adlı Əlyazmalar İnstitutunda saxlanılır. Naxçıvanda "Şərq qapısı" qəzetində işləyərkən redaktordan məktub alıb Yerevana getdim. Erməni əlifbasını bilmədiyimdən tanıdığım bir nəfərə Miskin Bürcünün dəftərini oxutdum. Orada Aşıq Ələsgər kitabında Miskin Bürcünün adına verilmiş şeir yox idi.

Beləcə qətiləşdirdim ki, bu şeir Miskin Bürcünün deyil. Bəs şeirin möhürbəndində adı çəkilən Müsəmmə Miskin kimdir? Belə bir aşıq olubmu? Bu suala cavab tapmağım da çox çətin oldu. Çünki aşıq ədəbiyyatı ilə bağlı yazılı qaynaqlarda və aşıq yaradıcılığını öyrənən alimlərimiz Miskin Bürcü haqqında bir şey yazmamışdılar.

Bir təsadüf Müsəmmə Miskin haqqında bilgi əldə etməyimə səbəb oldu. Aşıq şeirinin, əfsanələrin toplanmasında böyük əməyi olan Sədnik Paşayevə

Aşıq Ələsgərin «Daimül-övqat» şeirinə yazılmış izahla bağlı şübhələrimi bölüşdüm. Məni diqqətlə dinlədikdən sonra dedi ki, şübhələnməyin əsaslıdır. Miskin Bürcü ilə Müsəmmə Miskin eyni adam deyil. Müsəmmə Miskin Miskin Abdalın nəslindəndir. 19-cu yüzilin birinci yarısında Gədəbəy rayonunun Böyük Qaramurad kəndində yaşayıb, sonra İrana köçüb.

Müsəmmə Miskinin "Qal indi" və "Arzular" şeirlərini 1970-ci ilin sentyabrında Gədəbəy rayonundakı "Tərəqqi" qəzetində nəşr etdirmişəm. Sonra yeni materiallar tapmadığımdan o mövzuya bir daha qayıtmadım. Rayon qəzeti geniş yayılmadığından aşıq yaradıcılığını araşdıranlar da həmin şeirlərə diqqət yetirmədilər.

Sədnik Paşayevə təşəkkürümü bildirdim. "Tərəqqi" qəzetini tapıb oxudum. 19-cü yüzilin birinci yarısında yaşamış bir aşığın şeirlərində rus dilində sözlər işlətməsi mənə inandırıcı görünmədi. Bu şeir sonrakı illərdə, yəni rus dili Azərbaycanda yayılandan sonra deyilmiş şeirdir.

40 il Xəstə Hasan axtarışında

Aşıq İslamın söhbətindən sonra 40 il Xəstə Hasanın sorağında oldum. Gah Türkiyəyə İslam Ərdənərə məktublar yazdım, gah da Xəstə Hasanın şeirlərini bilən insanları, onun nəslindən olanları axtardım. Neçə-neçə aşıqla görüşdüm. Onlardan Xəstə

Hasan haqqında bilgi əldə etməyə, şeirlərini toplamağa çalışdım. Tələbə yoldaşım Osman Əhmədoğlunun köməyi ilə Aşıq Hüseyin Saraclı ilə görüşdük.

Aşıq Hüseyin Saraclı dedi ki, Xəstə Hasanın şeirlərini bilsə-bilsə Ağbabanın Ellərоyuğu kəndindən (Ermənistan SSR Amasya rayonundakı Ellər kəndi) olan Aşıq İsgəndər bilər. Onu da tapmaq çətindir. İlin çoxunu Qazaxıstanda olur. Oraya sürgün olunmuş Azərbaycan və Axısqa türklərinin məclislərini aparır.

Soraq ha soraq, Xəstə Hasanın nəsli ilə yaxından tanış olan, şeirlərini və haqqında yaradılmış dastanları gözəl bilən Aşıq İsgəndər Ağbabalını (Gülməmmədovu) tapdım. Nəticədə anladım ki, "Aşıq Ələsgər" kitabının izahlar bölümündə verilən və kitabın sonrakı, təkmilləşdirilmiş nəşrlərində təkrarlanan yanlışdır. "Aşıq Ələsgər" kitabına daxil edilən şeir Misgin Bürcünün deyil, Müsəmmə Misginindir. Hər iki addakı Misgin sözü araşdırıcılarımızı da, aşıqlarımızı da, oxucularımızı da çaşdırıb.

Türkiyədə, Gürcüstanda, Azərbaycanda çap olunan kitabları, qəzet və jurnalları oxudum. Topladığım şeirlər Xəstə Hasanın ustad bir sənətkar olduğunu, ədəbi oğurluğa ehtiyacı olmadığını göstərirdi. Əldə etdiyim şeirlər, məktublar və yazılar əsasında bir kitab, 5-6 məqalə yazdım, bir neçə məruzə hazırlayıb elmi konfranslarda oxudum, mətnlərini çap etdirdim. Amma içimdəki Xəstə Hasanın nəslindən olanları görmək, onlardan bilgi toplamaq istəyi sönmürdü.

2007-ci il mayın 16-20-də Almatıdakı Abay adına Pedaqoji Universitetdə “Birinci Uluslararası Ortaq Dəyərlər Simpoziumu” keçirilirdi. Simpoziumun təşkilatçısı balıkəsirli, Azərbaycan mühacirətinin Türkiyədəki ən gözəl araşdırıcılarından olan, dosent Sabahettin Şimşir idi. Onun sayəsində mən Almatıya getdim və simpoziumda “Ahıskalı Hasta Hasanın şeirləri Kazakıstanda” mövzusunda məruzə etdim. Simpoziumda Azərbaycandan tək mən deyildim. Bakı Dövlət Universitetinin professoru Vaqif Sultanlı da vardı.

Naxçıvandan tanıdığım, milli azadlıq hərəkatı fəallarından olan və hal-hazırda Qazaxıstanın Almatı şəhərində yaşayan Elçin Abbaslı mənim Xəstə Hasan haqqında yazdıqlarımdan və onun nəslindən olanları görmək istəyimdən xəbərdar idi.

Elçin bəy Talqara nə vaxt getmək istədiyimizlə maraqlandı. Biz də simpozium proqramını gözdən keçirdik. Toplantı iştirakçıları ilə birlikdə Almatı yaxınlığındakı qızıl geyimli döyüşçü-şahzadənin kurqanını ziyarətdən sonra Talqara getmək istədiyimizi Elçin bəyə bildirdik.



Şəkildə: soldan Vaqif Sultanlı, Əli Şamil, Fatma Açıq və Birsel Karakoç Qızıl geyimli döyüşçü-şahzadə kurqanının yanında.

Səhəri gün Elçin bəy qaldığımız hotelə gəldi. Gülə-gülə dedi: "Maşın kirələmişəm. Qapıda sizi gözləyir. Nə vaxt istəsəniz, Talqara gedə bilərsiniz. Mənim bu gün işim çox olduğundan sizə yoldaşlıq edə bilməyəcəm. Sizin könlünüz xoş olsun deyə uyğur sürücünün maşınını kirələdim."

Bakı Dövlət Universitetinin professoru Vaqif Sultanlı ilə birlikdə qəlyanaltı edib Talqara doğru yola çıxdıq. Maşın təzə, yollar rahat, uyğur sürücü də şirindil. Üstəgəl Vaqif bəy kimi zarafatcıl, ikibaşlı danışmağı sevən bir yol yoldaşın ola. Harada ciddi danışdığını, harada zarafat etdiyini müəyyənləşdirənə

kimi baxırsan ki, iş-işdən keçib. Avam vəziyyətində qalıbsan.

Almatıdan günçıxana doğru gedirik. Sağımızda əl uzatsan çatar kimi görünən, başı qarlı Almalıq dağları görünür. Yolun sağı və solu taxıl zəmisi olsa da, görünən yeni açmış qıpqırmızı lalələrdir. Yol kənarında və aralıda seyrək ağaclar görünür. Necə deyərlər, könül açan bir mənzərə.

Vaqif Sultanlı ciddi tərzdə Mir Cəfər Bağırovu yamanladı: "Azərbaycan türklərinin sürgün edilməsinin qarşısını almasaydı, biz də Kırımlılar, Axısqalılar kimi bu gözəl yerlərə köçürülərdik. Bax, cənnət kimi yerlərdir. Lalələr də necə gözəl açıb. Hava da sərin. Almalıq dağının zirvələri də elə bil ağ örpəyə bürünüb. Oradan necə sərin meh əsir.

Kürdəmirdə olsaydıq, tər dabanımızdan axardı. Bağırov sürgün edilməmizə əngəl olmasaydı, canımız şoranlıqdan qurtarmış olardı. Özümüz də, övladlarımız da belə cənnət kimi yerlərdə yaşayardıq".

Öncə elə bildim Vaqif Sultanlı Mir Cəfər Bağırovu repressiya illərinə görə yamanlayır. Cümləsinin sonunu eşidəndə gülmək məni tutdu. Kürdəmirdə doğulub, boya-başa çatan Vaqif müəllim gözünü açandan o qədər şoran çöllər görüb ki, indi başı qarlı dağları, yamyaşıl çölləri, məhsuldar tarlaları görəndə zarafatından qalmadı.

Almatıdan Talqara gedən yolun kənarında Axısqa türkləri yetişdirdikləri çiyələyi, tərəvəzi satır.

O kənddə ki çiyələk, tərəvəz satılmır, demək, onlar qazax kəndləridir. Qazaxlar oturaq həyata keçsələr də, hələ də heyvandarlıqdan ayrıla, meyvə, tərəvəz yetişdirib satmağa alışa bilmirlər. Harada heyvan kəsilib, asılıbsa, ət satılırsa, demək, o kəndlərdə qazaxlar yaşayır.

Təxminən saat yarıma Talqara çatdıq. Murtaza Tursunovun ünvanı məndə vardı. Qazaxıstanda da Sovetlərlə bağlı bir çox küçə, meydan, şəhər adları dəyişdirildiyindən köhnə ünvanı tapa bilmədik. Üz tutduq məscidə. Milliyyətcə qazax olan məscid imamı ilə görüşdük. Azərbaycandan gəldiyimizi eşidəndə gənc imamın üzü güldü. Ona özümüzlə apardığımız "Qurani-Kərim" kitabını, təsbeh, canamaz bağışladıq. Məscidin imamı da bizə mehribanlıq göstərdi və Murtaza Tursunovu yaxından tanıdığını söylədi. Beləcə onun göstərdiyi istiqamətə gedib axtardığımız evi tapdıq.

Aşıq İsgəndərin vasitəsilə tanış olub, məktublaşdığım Murtaza Tursunovla görüşdük. Gəncliyində əkin-biçin işləri ilə məşğul olmaqla yanaşı aşıqlıq da edən Murtaza ixtiyarlaşdıqdan sonra mollalığa başlamışdı. Gəlişimizə çox sevindi. Azərbaycanın durumu ilə maraqlandı. Tanıdığı adamları xəbər aldı. O, evdəki cavanları kimlərisə çağırmağa göndərdi.

Murtaza 2006-cı ildə Almatıda "Axıska xalqının şair və dastanları" adlı kitab nəşr etdirib. Kitaba Xəstə Hasan haqqında bildiyi şeirləri və dastanları daxil edib. Belə bir xeyirxah işə görə ona təşəkkürümüzü

bildirdik. O, kitaba “Məndən yadigar olsun Ali Şamila. Özünə yadigar olsun 2007. ildə bizə qonax oldu və bu mənim kitabımı yadigar verdim. Yazan Mürtəza Bəndər oğlu Namazovdu. Yadigar. Levisli” yazıb mənə verib. Kitabın üstündə də “Mürtəza Levisli (Namazov)” yazılmışdı.

Kəndin adı Lebis, Lepis kimi də yazılır. Rəsmi sənədlərdə əsasən Lepis yazılsa da, axısqalıların əksəriyyəti Levis deyir.

Ondan adının Murtaza deyil Mürtəzə, soyadının Tursunov deyil Namazov yazılması ilə maraqlandım. Onları belə izah etdi: “Bizim levislilər Murtaza demir, Mürtəza deyir. Mən də adımı onlar dediyi kimi yazıram. O ki qaldı familiyamın Tursunov deyil, Namazov yazmamın səbəbi: biri ata babalarımın, o biri isə ana babalarımın adıdır. Sənədlərdə də gah Tursunov yazıblar, gah Namazov.”

Biz söhbət edərkən yaşı 50-ni keçmiş, orta boylu bir kişi də gəldi. Başındakı araqçından axısqalı olduğunu bildik. Ev sahibindən heç nə xəbər almadan bizimlə mehribanlıqla görüşdü və söhbətə qoşuldu. Anladıq ki, Murtazanın çağırtdırdığı adamlardandır və ona bizim gəlişimiz haqqında xəbər vetiblər.

Mən söhbətimizin əsas mövzusu Xəstə Hasan olmasını istəyirdim. Lakin hər şey mənim istədiyim kimi getmirdi. Söhbətin mövzusu tez-tez dəyişirdi. Qazaxıstana gələrkən yolda başlarına gələnləri, sürgün yerində ilk günlərdə, sonralar çəkdikləri ağrı-

acıları xatırlayıb ağlayır, bizi də kövrəldirdilər. Ailələrini dolandırmaq üçün kiçik yaşlarından işləməyə başlayan, oxumağa vaxt və imkan tapmayan bu insanları vətən sevgisi şair edib. Düşündüklərini, hiss və həyəcanlarını şeirlə deməyə çalışıblar.

Axısqalıların Şair Mamoş kimi tanıdığı həmsöhbətimiz yazdıqlarını bir yerə toplayaraq 2006-cı ildə Şimkent (Çimkənd) şəhərində çap etdirib. "Yaranan təbiətə vurğunam" adlandırdığı kitabına "Ali Şamil müəllimə mən Mamoşdan hədiyyələr olsun. Oxuyun, kanayaxlar yaradın, onda biz də sizlərə, çox razı olarıx. İmzalıyan Şair Mamoş. 20.05.2007 il" yazaraq mənə bağışladı.

Murtaza Tursunovun göndərdiyi ikinci adam geri qayıdıb Günəş Oruc qızının evdə olmadığını dedi. Söhbətdən öyrəndik ki, Günəş Talqarda polis idarəsində işləyib. Xəstə Hasanın şeirlərini və haqqında söylənən rəvayətləri də makinada o yazıb. Mutaza ilə Günəşin atası Oruc yaxın qohumdurlar.

Murtazanın göndərdiyi o biri çağırışçı da geri qayıtdı. Utana-utana dedi ki, Söyünə Azərbaycandan gələnlər olduğunu, Xəstə Hasanın şeirlərini Bakıda çap etdirmək istədiklərini dedim. O, gəlmədi. Dedi ki, Xəstə Hasan haqqında özüm kitab yazıram.

Çay içə-içə 4-5 saatdan çox söhbət etdik. Söhbətimiz, bəlkə də, uzanacaqdı. Vaqif bəy nahar hazırlığı gördüklərini hiss edib kasıb ailəni xərcə salmamaq üçün ayağa qalxdı.

Sağollaşıb ayrılarkən Murtaza Tursunovdan Xəstə Hasanın makinada yazılmış şeirlərinin surətini istədim. Etiraz etmədi, amma makina yazıları çox qarışıq olduğundan onları seçməyə, qaydaya salmağa azı bir saat vaxt lazım idi.

Vaqif Sultanlı zirək tərpənərək dedi: "Siz yazılanları əzbər bilirsiniz. Kitab hazırlamaq çox ağır işdir. Sizin də bu işin öhdəsindən gəlməyə nə gücünüz var, nə də maddi imkanınız.. Bunları verin əziyyətini Əli bəy çəksin. O, sizin xidmətinizi dan-maz. Kitabı hazırlayarkən materialların hansını sizdən aldığını mütləq yazar. Sonra da bunları verər arxivə. Gələcək araşdırıcılar da arxivdən alıb istifadə edər, sizə dua oxuyar. Burada qalsa, itib-batacaq. Oğul-uşağınızdan da eləsi yoxdur ki, bunları bir yerə toplayıb çap etdirə."

Vaqif Sultanlının söhbəti Murtaza Tursunovu yumşaltı. Əlyazmaları özündə saxlayıb makina yazılarını mənə verdi. Vaqif müəllim olmasaydı, mən materialların bir hissəsini almayacaqdım. Bakıya gələndən sonra isə içimdə belə bir şübhə qalacaqdı: "Bəlkə, Murtazada qalan yazıların içərisində Xəstə Hasanın başqa şeirləri vardı?!"

Vaqif Sultanlının hünərilə Murtaza Tursunovdan aldığım yazıları və lentləri əməkdaşı olduğum AMEA Folklor İnstitutunun arxivində qeydiyyatdan keçirdim və Xəstə Hasan mövzusunu iş planıma daxil etdirdim.

Almatıda Jeltoksan üsyanı

Simpozium günlərində qazax alimlərindən bizi 1986-cı ilin dekabrın 17-də öldürülmüş insanların məzarı üzərinə və onların xatirəsinə ucaldılmış abidəyə aparmalarını xahiş etdik. İstəyirdik, vətən və millət yolunda şəhid olanların ruhuna fatihə oxuyaq.

Hərəsi bir bəhanə gətirdi. Bu, bizi çox təəccübləndirdi. Elə bil Qazaxıstandan gəlmiş alimlər məndən xahiş edirlər ki, bizi Şəhidlər xiyabanına apar. Mən ya deyirəm, vaxtım yoxdur, ya deyirəm, sabah vaxt tapsam, apararam.

Sabahettin Şimşir bizim durumumuzu görüb dedi: "Rahatsız olmayın. Mənimlə birlikdə gedərik. Bunlar hələ də içlərindəki qorxudan qurtulmayıblar." Sabahettinin bu sözü bizi daha da təəccübləndirdi. Soruşduq ki, mitinqlər zamanı öldürülənlərə bəraət verilib, onlar qəhrəman adlandırılıb, xatirələrini əbədiləşdirmək üçün abidə qoyulub. Belə olan halda alim dostlarımız nədən qorxurlar?

Sabahettin Şimşir dedi: "Səbir edin, oraya gedəndə deyərəm." Biz də səbir etdik. Dinc nümayişə çıxdıqlarına görə öldürülmüş gənclərin xatirəsinə ucaldılmış abidəyə gəldik. Bir dəstə qərənfil qoyub fatihə oxuduq.

Sabahettin Şimşir dedi: "Meydanın o başındakı bina şəhər icra hakimiyyətinindir. İcra hakimi 1986-ci ildə Qazaxıstan komsomol təşkilatının rəhbəri, keçmiş

qaydalarla desək, Qazaxıstan Lenin Kommunist Gənclər Təşkilatının birinci katibiydı. Mitinq iştirakçılarına divan tutulmasının ilham vericilərindən biri olub. Onun kimi yüzlərlə adam hələ də rəhbər vəzifədədir. Onlar üzdə, rəsmi toplantılarda mitinqə divan tutulmasını pisləsələr də, daxillərindəki Sovet düşüncəsindən hələ qurtula bilməyiblər. 20 ildən çox keçməsinə baxmayaraq adamların içlərində qorxu hissi hələ də qalır. Neçə ildir Almatıdayam, mən də öldürülənlərin dəfn olunduğu yeri dəqiq bilmirəm.

Sözdə "Jeltoksan üsyanı"ndan danışırlar, hər il həmin günü qeyd edir, abidəyə çələng qoyurlar. Amma o günlərin dərindən öyrənilməsini və təbliğini istəmirlər. Necə deyərlər, xalqın qəzəbinə tuş gəlməmək, vəzifələrini qorumaq xatirinə ölümlərinə imkan verdikləri gənclərin abidəsi üzərinə təntənəli çələngqoyma mərasimi keçirirlər. Qazaxıstanda vəziyyət belədir. Ağlınız Bakıya getməsin. Xalq Cəbhəsi hakimiyyətə gəlməsəydi, bir az təmizləmə aparmasa idi, Azərbaycan da yəqin bu durumda olacaqdı."

Mən dodaqaltı gülməkdən özümü saxlaya bilmədim. "Sabahettin bəy, dediklərıniz doğru. Amma bu hadisənin görünən tərəfidir. Sovetlər Birliyinə, Rusiya müstəmləkəçilərinə qulluq edən adamlar Qazaxıstanda, Azərbaycanda, Ukraynada və başqa yerlərdə də eynidir. 1989-1990-cı illərdə 1918-1920-ci illərdə qurulmuş cümhuriyyətin üçrəngli bayrağını qaldıranları döyənlər və döydürənlər bu gün

rəhbər vəzifələrdədir. Üç rəngli bayrağın altında rüşvət alır, firavan yaşayırlar. Həmin bayrağa öncə də nifrət edirdilər, indi də nifrət edirlər. Sadəcə vəzifələrini itirməmək xatirinə, pul toplamaq üçün həmin bayrağı başlarının üstündən asırlar. Özü də bu buqələmunlar elə məharətlə maskalana bilir, gəl görəsən. Üçrəngli bayrağı qaldırıb başımız üzərində küçələrdə dalğalandıraraq yürüdüyümüzə görə məni döydürən adamların neçəsi rəhbər vəzifədədir. Onlar bu gün məni həmin bayrağın düşməni kimi təqdim edirlər" dedim.

Sabahettin bəy də, Vaqif Sultanlı da təxminən belə dedilər: "Həmişə belə olub, indi də eyni şəkildə davam edir. Burada təəccüblü bir şey yoxdur".

Qazaxlar dekabr ayına xalq arasında Jeltoksan deyirlər. Hadisələr də həmin zaman baş verdiyindən tarixə "Jeltoksan üsyanı" kimi düşüb.

Üsyana səbəb kimi Qazaxıstan Kommunist Partiyasının birinci katibi Dinmuhammed Kunayevin 1986-cı il dekabrın 16-da istefaya göndərilib yerinə qazax olmayan Gennadi Kolbinin təyin edilməsi göstərilir.

Əslində, bu səbəb deyil, bəhanə idi. Çünki 1920-ci ilin may ayından başlayaraq 1986-cı ilin dekabr ayınadək Qazaxıstanda kommunist partiyasına rəhbərlik etmiş 18 nəfərdən cəmi 4-ü milliyyətcə qazax olmuşdu. Onlardan Muhammedxafiy Murzaqaliyev 1921-ci ilin yanvarından iyuluna kimi, yəni cəmi altı

ay, İsmail Yusupov 1962-ci ilin dekabrından – 1964-cü ilin dekabrına kimi, yəni cəmi 2 il birinci katib işləmişdir.

Qazaxıstanda yaşayan erməni və gürcülərin sayı o qədər azdır ki, siyahıyaalmada onlar "başqa xalqlar" qrafasında gedir. Bu da o deməkdir ki, sayları 0,001 %-dən azdır. Buna baxmayaraq Azərbaycanda rəhbər vəzifədə işləmiş, müsəlmanlara divan tutmuş gürcü Viktor Neneşvili və erməni Levon Mirzoyan Qazaxıstanda Kommunist Partiyasına rəhbərlik etmişlər. Nə onlar təyin ediləndə, nə də onlardan başqa 12 nəfər qazax olmayan təyin ediləndə xalq ayaqlanmamış, üsyan qaldırmamışdır.

Üsyana səbəb əhalinin güzəranının getdikcə ağırlaşması, qazax dilinin sıxışdırılması, xalqın tarixinin təhrif edilməsi, ölkədə rəhbər vəzifələrə rusların və rusdillilərin təyin edilməsi və s. məsələlər olmuşdur.

Sovetlər Birliyində hakimiyyəti ələ almış Mixail Qorbaçov köhnə kadrları işdən uzaqlaşdırır, özünə yaxın bildiyi adamları hakimiyyətin müxtəlif pillələrində yerləşdirirdi. Sovet ənənəsinə uyğun olaraq bu proses sakitliklə davam edirdi. Gözlənilməyən bir yerdə – Qazaxıstanda milli zəmində üsyanın qəflətən baş qaldırması Sovet rəhbərliyini şok vəziyyətə saldı. Onlar elə düşünürdülər ki, keçmiş Sovet respublikaları arasında Qazaxıstan və Qırğızıstanda milli zəmində etiraz baş verə bilməz.

Çünki orada ruslaşdırma siyasətinin uğurla başa çatmaqda olduğunu düşünürdülər.

Dinmuhammed Kunayevin vəzifədən uzaqlaşdırılmasının səhəri, yəni 1986-cı il dekabrın 17-də etiraz əlaməti olaraq 200-300 qazax tələbəsi küçələrə çıxdı. Onların şüarları Mixail Qorbaçovun yenidənqurma və aşkarlıq şüarlarına uyğun olsa da, Gennadi Kolbinin hakimiyyətə gətirilməsinə etiraz etmələri Moskvanı qorxuya saldı. Yerli qazax milisləri və hakimiyyətdə olanlar da etirazçıları sakitləşdirməyə cəhd göstərmədilər.

Kənardan gətirilmiş milis və hərbçilərin qəddarlığı isə üsyanın sürətlə yayılmasına səbəb oldu. Ruslaşdırmaya qarşı baş vermiş kortəbii üsyanı Moskva milli zəmində qarşıdurma kimi qələmə verməyə başladı.

Almatılılara ilk qoşulan Karakanda şəhərinin gəncləri oldu. Sonra da ölkənin əsasən güney bölgəsindəki şəhərlərdə etiraz hərəkatı başladı.

Sovet rəhbərliyi bunu nə qədər gizli saxlamağa çalışsa da, mümkün olmadı. Xarici radioların verdiyi qeyri-dəqiq xəbərlər milli respublikalarda sürətlə yayıldı, mərkəzi hakimiyyətə nifrəti artırdı. Şayiələr həqiqətdən daha sürətlə yayıldı. Qazaxıstanda 100 minlərlə insanın küçələrə çıxdığı, minlərlə insanın qəddarlıqla öldürülərək dəfn edildiyi haqqında xəbərləri inkar edə biləcək elə bir rəsmi qaynaq yox idi.

Sovetlər Birliyində bu hadisə nə qədər gizlədilməyə çalışılsa da, 1991-ci ildə Qazaxıstanda "Jeltoksan üsyanı"nı təhqiq edən komissiya yaradıldı. "Jeltoksan üsyanı" zamanı rəhbər vəzifələrdə işləyənlərin əksəriyyəti ölkədə yenə də güc sahibi olduqlarından özlərinin xalqa divan tutmalarını gizlətmək üçün təhqiqat komissiyasının işinə maneə törətməyə çalışdılar.

Biz simpozium günlərində Qazax alimlərindən "Jeltoksan üsyanı"nda ölənlər, yaralananlar, həbs edilənlər haqqında bir bilgi ala bilmədik. Bakıya döndükdən sonra mətbuatda yazılanları gözdən keçirdim. Onların biri mənə daha inandırıcı göründü. Onu aşağıda verirəm: "Milis və başqa hüquq-mühafizə orqanları tərəfindən 8500 nəfər tutuqlandı. 1700 nəfərdən artıq şəxs ağır bədən xəsarətləri (əsasən kəllə-beyin xarakterli) aldı. Prokurorluq orqanlarında 5324, KQB-də (Dövlət Təhlükəsizliyi Komitəsi) 850 nəfər dindirildi. 900 nəfər inzibati cəzaya (qısa müddətli həbs, cərimə) məhkum edildi. 1400 nəfərə xəbərdarlıq elan olundu. 319 nəfər işdən azad edildi. 309 tələbə universitetlərdən qovuldu. 99 nəfər cinayət məsuliyyətinə cəlb edildi və onlardan biri – 20 yaşlı Qayrat Noğaybay ulı Rısqulbekov 1988-ci il mayın 21-də hələ də tam aydın olmayan şəraitdə öldürüldü. Onu da qeyd edək ki, bu gəncə ölüm hökmü çıxarılmışdı və sonradan hökm 20 illik həbslə əvəz edilmişdi. 1992-ci ildə, artıq bağımsız

Qazaxıstan Respublikası həmin olayların bütün iştirakçıları kimi Qayrata da bəraət verdi. Bununla da qalmayaraq prezident Nursultan Nazarbayev 1996-cı ildə onu "Xalq qəhrəmanı" adına layiq gördü (ölümündən sonra).

Həmin olayların dağıdılması zamanı öldürülənlərin sayı nə az, nə çox: düz 174 nəfər olub! Üstəlik, öldürülənlərin dəfni gizli şəkildə həyata keçirilb. Həm də toplu məzarlarda. Öldürülənlərdən 168-i cəmi 58 məzarda dəfn edilib."

Bakıda və Almatıda çap olunan Xəstə Hasan kitabları

Xəstə Hasan və çağdaşları haqqında radio-televiziyada dəfələrlə çıxış etmiş, elmi konfranslarda məruzələr oxumuş, bir neçə məqalə yazmışdım. Haqqında kitab hazırlamağı isə Almatı səfərindən sonra qətiləşdirdim.

Ayrı-ayrı aşıqlardan və çap olunmuş kitablardan, qəzet və jurnallardan topladığım şeirləri müqayisəli şəkildə sistemləşdirdim və 2012-ci ildə Bakıda "Axısqalı Xəstə Hasan. (Şeirləri və şeirlərinin yaranması haqqında söhbətlər)" adı altında çap etdirdim. Kitabın bir neçə nüsxəsini də Almatıda yaşayan dostum Elçin Abbaslıya göndərdim. İstəyirdim, həm özü oxusun, həm də Molla Murtazanın ailəsinə, Xəstə Hasanın nəslindən olanlara versin.

Kitab Azərbaycanda sükutla qarşılandı. Elçin bəydən isə xoş xəbər gəldi. O dedi ki, kitabın bir nüsxəsini Qazaxıstan Axıska Türklərinin Milli Mərkəzinə verib. Milli Mərkəzin başqan yardımçısı Şahismayıl kitabın nəşrini maraqla qarşılayıb, mərkəzin qarşıdakı günlərdə keçiriləcək toplantısında Almatı nəşri məsələsinin müzakirə ediləcəyini söyləyib. Mən Şahismayılı şəxsən tanımasam da, Milli Mərkəzin başqanı Ziyəddin Kasanov haqqında çox oxumuşdum.

Az sonra Elçin Abbaslı təkrar zəng vuraraq "Axısqalı Xəstə Hasan" kitabının Almatı nəşrinin rəsmiləşdiyini, kitabın nəşrinə "Ahıska" qəzetinin redaktoru Rövşən Məmmədoğlunun rəhbərlik edəcəyini, mətbəə xərclərini isə Xəstə Hasanın nəslindən olan iş adamı Abbasəli Paxralı oğlu İsmayılov öz üzərinə götürdüyünü xəbər verdi.

Bu iki insanı görməsəm də, Rövşən Məmmədoğlunun fəaliyyətindən, onun təşkilatçılıq bacarığından xəbərim var idi. Onun təşkilatçılıq bacarığı haqqında fikir yürütmək üçün "Ahıska" qəzetinin bir neçə sayını gözdən keçirmək kifayətdir. Üç dildə nəşr edilən qəzetin internet saytı da var. Bu da dünyanın müxtəlif ölkələrinə səpələnmək məcburiyyətində qalmış Axısqa türklərinin internetdən qəzeti oxumalarına şərait yaradır.



Axısqa Türkü, iş adamı Abbasəli Paxralı oğlunun qardaşı oğlunun toyunda. Öndəki sırada oturanlar. Bəyin sağdışı, bəy və gəlin. Ayaq üstə duranlar: Əzizə Şamil, Elçin Abbas, Əli Şamil və Abbasəli Paxralı oğlu.

"Axısqalı Xəstə Hasan" kitabı üzərində yenidən işləyib Rövşən bəyə göndərdim. 2013-cü ilin Novruz bayramı günlərində Almatıda kitab 500 nüsxə çap olundu və bir neçəsi də mənə göndərildi. Kitabı gözdən keçirəndə qanım qaraldı. Diqqətsizlikdən kitaba yeni daxil etdiyim şeirlərin hansı səhifədə verildiyi, kitabın Almatıdakı hansı nəşriyyatda çap edildiyi və s. göstərilməmişdi. Xəstə Hasanın nəslindən olan bir neçə adamın portret və ailəvi şəkillərinin verilməsini isə uğurlu saymaq olardı. Rövşən Məmmədoğlu axısqalıların diqqətini çəkmək üçün redaktoru olduğu qəzetin hər sayının bir

səhifəsini kitabdakı materiallara ayırmışdı. Beləcə "Axısqalı Xəstə Hasan" kitabı bütövlükdə həm də qəzetdə çap edilmiş oldu.

Abbasəli Paxralıoğlunun qardaşı oğlunun toyunda

Qəzetin oxucularının sayı çox olduğundan kitaba maraq da artıb. Necə deyərlər, xatirələr oyanmağa başlayıb. İnsanlar bir yerə toplaşanda, bir-birlərilə görüşəndə Xəstə Hasandan, onun həyatından, şeirlərindən danışmağa, ata-babalarından eşitdiklərini söyləməyə başlayıblar.

Beləcə, Xəstə Hasan mövzusu aktuallaşıb və mənim də Almatıya çağırılmağım gündəmə gəlib. Bir neçə dəfə telefon danışığından sonra şərtləşdik ki, 2013-cü ilin iyununda Almatıda olum. "Axısqalı Xəstə Hasan" kitabının yaranmasında böyük əməyi olan, birlikdə "Aşıq İsgəndər Ağbabalı" kitabını yazdığımız (bu kitab Xəstə Hasanın öyrənilmə tarixinə həsr olunmuş xatirələr və sənədlər toplusudur), xanımım Əzizə Ağaəli qızı ilə Almatıya uçduq.

Bizi hava limanında Elçin Abbaslı qarşılayıb evinə apardı. Xalq Hərəkatının fəallarından olduğuna görə Naxçıvanda həbs edilməklə üzləşən Elçin bəy zirək çıxdı. Canını götürüb Qazaxıstana qaçdı. Min bir əziyyətlə özünə iş qurduqdan sonra ailəsini də yanına apardı.

Şəhərin köhnə Almatı deyilən hissəsində Azərbaycanda katec deyilən birmərtəbəli, həyətyanı sahəsi olan iki ev alıb. Onlardan birini sökərək ikimərtəbəli rahat bir ev tikib. Ailəsi ilə birlikdə orada yaşayır və yaxınlıqda kirayələdiyi binada açdığı mağazanı işlədir. Bizim hotelə getməyimizə də imkan vermədi. Almatıda olduğumuz günlərdə qulluğumuzda durdular, bizi şəhərdə gəzdirdilər.

Ədəbiyyat və İncəsənət İnstitutunda

Almatıda ilk işim Qazaxıstan Elmlər Akademiyasının Muxtar Auezov adına Ədəbiyyat və İncəsənət İnstitutuna getmək oldu. Qazaxlarla bizi mədəniyyət, dil və din birləşdirməkdən başqa orada yüz minlərlə soydaşımızın yaşaması alimlərimizin, ziyalılarımızın, dövlət adamlarımızın həmişə diqqətində olub. Buna görə də AMEA Folklor İnstitutunun rəhbərliyi Qazaxıstanla əlaqələri genişləndirməyə, orada yaşayan soydaşlarımızdan folklor toplamağa səy göstərb. Bölgədəki demokratik mühit də birgə layihələr hazırlayıb həyata keçirməyə, orada işləməyə, elm ocaqları ilə əməkdaşlıq etməyə imkan verirdi.

AMEA Folklor İnstitutunun xarici ölkələrlə əlaqələr bölməsinin müdiri və institut direktorunun müşaviri kimi öncədən Qazaxıstan Elmlər Akademiyası Muxtar Auezov adına Ədəbiyyat və İncəsənət

İnstitutunun əməkdaşları ilə internetdə yazışaraq bir çox məsələləri razılaşdırmışdım. Qalırdı bağlayacağımız müqavilənin detallarını üzbəüz müzakirə etmək. İlk görüşdüyüm əlyazmalar şöbəsinin müdiri, filologiya elmləri doktoru Toqtar Əlibekov oldu. Onunla öncədən elmi simpoziumda tanış olmuşdum. O, məni rəhbərlik etdiyi şöbənin əməkdaşları, elmi fəaliyyəti ilə tanış etdi və çalışdığı elm ocağının gördüyü işlərdən danışdı.

Məni ən çox maraqlandıran folklor şöbəsi idi. Folklor şöbəsinə prof., filologiya elmləri doktoru Baxçan Aribayeva rəhbərlik edir. Onun tədqiqat sahəsi türk xalqlarının dastanlarıdır.



Əli Şamil folklor şöbəsinin əməkdaşları ilə.

Şöbənin əməkdaşlarından filologiya elmləri namizədi Ağedil Toyşanoğlu mifologiya üzrə ixtisaslaşıb və türk monqol miflərinin qarşılıqlı əlaqəsindən namizədlik dissertasiyası yazıb.

Filologiya elmləri namizədi Azamat Axan oğlu koroğluşünaslıq, elmi işçi Nasixat Nabiulla tarixi eposlar, Disenqul Cahan mərasim folklorunun araşdırıcısıdır. Uzun illər folklor şöbəsinə, həmçinin Ədəbiyyat və İncəsənət İnstitutuna rəhbərlik etmiş, məşhur alim, akademik Seyit Kaskabasov yaşına görə təqaüdə çıxsa da, həftədə bir-iki dəfə keçmiş iş yerinə gəlir və gənclərə məsləhətlər verir.

Toqtar Əlibekovdan eşidəndə ki, 101 cildlik "Babalar sözü" (qazaxlar şifahi xalq ədəbiyyatını babalar sözü adlandırırlar) kitabının son saylarını mətbəəyə göndəriblər, heyrət məni bürüdü. Sonra 25 cildlik müəllifi məlum olan folkloru, akınların (bizim aşıq şeirləri adlandırdığımız) şeirlər kitabının bir neçə sayını, eləcə də folklora aid çoxcildlik əlyazmalar kataloqunun 9-cu cildini mənə verəndə özümü saxlaya bilməyib "Kiçik bir kollektivlə bu qədər işi neçə gördünüz?" deyə xəbər aldım. Toqtar Əlibekov gülümsəyərək dedi ki, daha Sovet dövründəki kimi işləmirik. Hökumət qrant ayırır. Biz də o vəsaiti mənimsəmirik, iş görə biləcək insanlara veririk. Kənardan da mütəxəssislər cəlb edir, onların zəhmət haqqını ödəyirik. Üstəlik həmin qrantlar hesabına Çində, İranda, Əfqanıstanda, Özbəkistanda və b. yer-

lərdə, yəni Qazaxıstandan kənarda yaşayan qazaxlardan folklor materialları toplayırıq.

Direktor şöbə müdirlərinə tapşırmışdı ki, institutun hər bir əməkdaşı niyyət protokolu ilə bağlı təkliflərini hazırlasın. Həmin gün böyük xəyallar içərisində Ədəbiyyat və İncəsənət İnstitutundan ayrıldım. Razılaşdıq ki, iyunun 14-də direktorun otağında görüşüb elm ocaqlarımız arasında bağlanacaq niyyət protokolunun şərtlərini müzakirə edək.

İyunun 14-də Qazaxıstan Elmlər Akademiyası Ədəbiyyat və İncəsənət İnstitutunda elm ocaqlarımız arasında bağlanacaq niyyət protokolunun layihəsinin müzakirəsi yüksək işgüzarlıqla keçdi. İnstitutun direktoru, Qazaxıstan Elmlər Akademiyasının müxbir üzvü, Çokan (Şokan) Vəlixanov adına Dövlət Mükafatı laureatı, filologiya elmləri doktoru Uəlimxan Qalimjanov bir neçə dəfə Azərbaycanda olduğunu, Qazax rayonuna getdiyini söyləməklə yanaşı, elm ocaqlarımız arasında əlaqələrin zəifliyinə, günün tələblərinə cavab vermədiyinə təəssüfləndiyini bildirdi. Əminliklə söylədi ki, başladığımız bu xeyirxah işi elm ocaqlarımız deyil, təhsil müəssisələrimiz də davam etdirəcək. Azərbaycandan Qazaxıstanın ali təhsil ocaqlarına, eləcə də Azərbaycanın təhsil ocaqlarına Qazaxıstandan oxumağa gənclər göndəriləcək. Xüsusən humanitar sahəyə diqqəti artırmaqla indiyədək mövcud olan boşluğu doldurmaq mümkün olacaq.



Şəkildə: Qazaxıstan Elmlər Akademiyasının müxbir üzvü, Çokan (Şokan) Vəlixanov adına Dövlət Mükafatı laureatı, filologiya elmləri doktoru Uəlimxan Qalimjanov "Oyköz" kitabına avtoqraf yazıb mənə verərkən.

Çıxışının sonunda "Oyköz" kitabını avtoqraf yazaraq mənə bağışladı. Mən də Bakının simvolu sayılan "Qız qalası" tablosunu, "Uygur, Qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı", "Kırım sevgisi", "Axısqalı Xəstə Hasan" "Türkçülüyün qurbanları (Qazaxıstan)" kitablarımı direktora bağışladım. O, hədiyyələri diqqətlə gözdən keçirdikdən sonra "Qız qalası" tablosunu iş stolunun üzərinə qoydu və bağışladığım kitabların adlarını bərkdən oxuyaraq dedi: "Azərbaycanda türklük sevgisi, soykökə maraq, türk xalqlarını öyrənmək, ortaq cəhətləri ortaya qoymaq və təbliğ etmək istəyi bizdən güclüdür.

Folklor İnstitutunun bir əməkdaşı 8 türk xalqının mədəniyyətini, ədəbiyyatını, folklorunu Azərbaycanda tanıdıb. Bizim institutun əməkdaşları böyük işlər görsələr də, türk xalqlarını öyrənməkdə və təbliğ etməkdə onlardan çox geridə qalır. İnstitutumuzun elmi işçilərinin hamısının yaradıcılığını gözdən keçirsək, 4 türk xalqı haqqında kitab tapa bilmərik."

Almatıda olarkən Sovet hakimiyyəti illərində Qazaxıstana sürgün olunan soydaşlarımız, onların yaşadıqları kənd və qəsəbələr haqqında da sənədlər toplamağa çalışdım. Azərbaycandan Almatı vilayətinə sürgün olunanların adları, soyadları, yaşları, yerləşdirildikləri rayon, kənd haqqında bilgilər folklor toplamaga gedəcək əməkdaşlarımıza bələdçi ola biləcək.

Ədəbiyyat və İncəsənət İnstitutunda niyyət protokolunun layihəsini müzakirə edərkən Qazaxıstan Axısqa Türklərinin Milli Mərkəzində olduğumu, Milli Mərkəzin rəhbəri Ziyəddin Kasanov və oradakı iş adamlarının bölgəyə sürgün olunanlardan folklor nümunələri toplanması üçün mütəxəssislər göndərməmizi, birgə elmi toplantılar, şənliklər keçirməyi müzakirə etdiyimizi, Ziyəddin Kasanovun qarşıdakı illərdə beynəlxalq səviyyədə Xəstə Hasan günlərinin keçirilməsinin vacibliyindən söz açdığını dedim. Uəlimxan Qalimjanov Ziyəddin Kasanovun fəaliyyətini yüksək qiymətləndirdi və birgə fəaliyyətin vacibliyindən söz açdı.

Toyda kitab təqdimatı

Rövşən Məmmədoğlu Elçin bəyə zəng vurub iyunun 12-də Qazaxıstan Axıska Türklərinin Milli Mərkəzinə dəvət edildiyimizi söylədi. Saat 19.00-da Axıska Türklərinin Milli Mərkəzində tanışlıq mərasimi başladı. Toplantıya Milli Mərkəzin vilayət, şəhər, rayon və kənd şöbələrinin müdirləri və başqa qonaqlar dəvət edilmişdi. Ciddi rəsmiyyətdən çox uzaq, olduqca səmimi ortamda keçən görüşdə mən Azərbaycandan apardığım kiçik hədiyyəni Qazaxıstan Axıska Türklərinin Milli Mərkəzinə – Ziyəddin Kasanova təqdim etdim. Onlar da Qazaxıstanın rəsmi toplantılarında olduğu kimi mənim əynimə qazax milli xalatını geyindirib, başıma papaqlarını qoyduqdan sonra fikir müəllifləri Fuat Uçar və Rövşən Məmmədoğlunun olduğu, Qazaxıstan Axıska Türklərinin Milli Mərkəzinin fəaliyyətinə həsr olunmuş "Ata yurddan doğan günəş" adlı fotoalbom bağışladılar. Fotoalbomun üzərinə "Sevgi və sayğılarla, ən böyük axıskalı Əli Şamilə. Z.Kasanov. 12.06.2013." yazılmışdı.

Toplantı gecə saat 2:00-dək davam etdi. Nə mən onların söhbətlərindən doyurdum, nə də onlar məndən ayrılmaq istəyirdilər. Söhbət zamanı İstanbulun Taksim meydanındakı etiraz mitinqlərinə də münasibət bildirildi. Toplantıda iştirakçılar "Türkiyə hökuməti icazə versə, biz gedib orada sakitlik yaradarıq"

deyəndə mən onlara təəccüblə baxırdım. Bunu hiss edən Ziyəddin Kasanov "Orada heç bir güc tətbiq etmək lazım deyil. Etiraz mitinqinin iştirakçılarını ikicə illiyə burada yaşamağa məcbur etmək lazımdı. Onda demokratiya nə olduğunu bilərlər".



Şəkildə Abbasəli Paxralı oğluna Azərbaycanın xəritəsini bağışlayarkən

Soldan: Əli Şamil Axısqa Türklərindən, iş adamı Abbasəli Paxralı oğluna Azərbaycanın xəritəsi olan tablonu bağışlayarkən.

Söhbətin mövzusu hərdən dəyişsə də, yenə Xəstə Hasan üzərinə dönürdü. Təklif edildi ki, qarşıdakı illərdə Almatıda beynəlxalq Xəstə Hasan günləri keçirilsin. Həmin günlərdə elmi məruzələr dinlənilməklə yanaşı, şeir, saz-söz, milli yeməklər və s. müsabiqəsi də olsun. Ziyəddin Kasanov həmin dəqiqə təklifi yüksək dəyərləndirdi. Mən də təklif etdim ki, Folklor İnstitutu sürgün olunmuş soydaşlarımızdan folklor materialları toplamaq istəyir. Bu iş birgə görülsə, daha effektli olar.

Ziyəddin Kasanov və yanındakı iş adamları Azərbaycandan folklor toplamağa gələcək alimlərə hər cür yardım edəcəklərini vəd etməklə kifayətlənməyib onun qısa müddətdə həyata keçirilməsini istədilər. Belə qərara gəldik ki, bu iş üçün ən münasib vaxt sentyabr, oktyabr aylarıdır.

Toplantının sonuna yaxın Rövşən Məmmədoğlunun təşkilatçılıq bacarığı bir daha özünü göstərdi. Onun toplantı zamanı çəkilən şəkillərdən kolleksiya düzəldərək iştirakçılara, təqdimetmə mərasimində çəkilmiş şəkilləri böyütdürüb, bəzəkli çərçivədə mənə və Ziyəddin Kasanova verməyə vaxt tapdığına heyran qalmaya bilmədim.

Səhərisi gün isə bizi Xəstə Hasanın nəvə-nəticəsinin yaşadığı Talqara dəvət etdilər. Burada ustad sənətkarın nəslindən olan bir gəncin, Abbasəli Paxralı oğlunun qardaşı oğluna toy edirdilər. Toyla "Axıskalı Xəstə Hasan" kitabının tanıtımını bir araya gətirmişdilər. Toydan öncə axısqalı ağsaqqallarla görüşüb söhbətləşməyimiz məni də, onları da kövrəltdi.



Talqarda Xasta Hasanın törəmələri və onların qohumları arasında

Toplantı ikimərtəbəli “Altun adam” şadlıq sarayında keçirilsə də, gəlinin gətirilməsi və məclisə təqdim edilməsi uşaqlıq illərimi yada saldı.

350-400 nəfərin toplaşdığı məclis son illər gördüyüm toylardan onunla fərqlənirdi ki, burada bəylə gəlin, onların valideynləri ilə yanaşı, ulu babaları Xəstə Hasan, onun şeirləri və haqqında yazılmış kitab haqqında da söz deyilirdi.

İstər axısqalıların, istər azərbaycanlıların, istərsə də Qafqazdan sürgün olunanların təşkil etdikləri toylara əsasən axısqalılardan və ya uyğurlardan təşkil edilmiş musiqi kollektivlərini dəvət edirlər. Onların repertuarında Azərbaycan mahnıları üstünlük təşkil edir.

Toy mənim 1960-cı illərdə kəndimizdə gördüyüm toylardan o qədər fərqlənmirdi. Toyda pul yazdıran görmədim. Bəylə gəlini salonun ortasında oturtmuşdular. Qohumlar gəlib xoşbəxtlik arzulayır, onlara hədiyyələr verirdilər. Bu hədiyyələrin də əksəriyyətini qızıl əşyalar təşkil edirdi.

Məni də söz deməyə, bəylə gəlinə xeyir-dua verməyə dəvət etdilər. Hazırlıqsız yaxalanmağım bir anlıq çaşqınlıq yaratdı. Çünki mən elə bilirdim kitab təqdimatına dəvət edilmişəm. Toy olacağından da xəbərsizdim. Gəncləri təbrik edənlərin heç biri də pul vermirdilər. Gedib gənc ailəyə xoşbəxtlik arzuladım. Gözüm Elçin Abbaslıda idi. Onun məni vəziyyətdən necə çıxaracağını düşünürdüm. Gözləmədiyim halda

xanımım mənə yaxınlaşdı və xəlvətcə qolbağını ovucuma qoydu.

1973-cü ildə nişanlananda Əzizəyə söz vermişdim ki, onu Təbrizə aparacam və orada qızıl qolbağ alacam. Vədimə 18 il sonra, sərhəd məftilləri söküləndən sonra əməl edə bildim. Təbrizə ilk gedişimizdə yerli ustaların düzəltdiyi gözəl bir qolbağ aldım. Dost-tanışın bəyəndiyi qolbağı xanımım əzizləyə-əzizləyə, toy məclislərinə gedəndə qoluna taxırdı. Əzizənin ovcuma qıstırdığı qolbağın Təbrizdən alındığını dedim və gəlinin qoluna taxdım. Təbriz sözü adamları həm kövrəltdi, həm də sevindirdi. Gur alqış səsası salonu bürüdü.

Toyda verilən yeməklər də Azərbaycanda gördüklərimdən o qədər fərqlənmirdi. Amma süfrələr bizdəki şadlıq saraylarındakı kimi yeyilən və yeyilməyən salatlarla, yeməklərlə yüklənməmişdi. Nə yeyilirdisə, onlar süfrəyə verilirdi.

Bizdə toyun sonlarına yaxın təntənə ilə süfrəyə plov verilir. Onun da çox hissəsi yeyilmir. Axısqa toylarında isə sonda süfrəyə mantı verilir. Hamı da mantının gətirilməsini gözləyir. Özü də olduqca gözəl bişirilir. Demək olar ki, tullantıya getmir. Bizlərin gürcü xəngəli dediyimiz xörəyə bənzər mantını axısqalılar çox dadlı hazırlayırlar. Gürcü xəngəlinin başında xəmir qalın olduğundan yeyılmir, atılır. Amma mantının bükülən hissəsinin xəmirini elə nazik

edirlər ki, atılmır. Mantının içərisinə qoyulan çəkilmiş ət də gürcü xəngəlininkindən dadlı olur.

Şadlıq evini işlədən Abbasəli Paxralı oğlu dedi ki, süfrədən kabab və b. xörəklər geri qayıtdığını görmüşəm, amma mantının geri qayıtdığını görməmişəm.

Ziyəddin Kasanov işi olduğundan məclisə nümayəndəsi Rövşən Məmmədoğlunu göndərmişdi. O da məclisdə gözəl bir çıxış etdi. Ziyəddin Kasanovun qarşıdakı illərdə Xəstə Hasan günləri keçirəcəyini söyləyəndə yalnız axısqalılar deyil, qazaxlar, inquşlar, uyğurlar və başqaları da bu gözəl təşəbbüsü alqışlarla qarşıladılar. Rövşən bəy də Ziyəddin bəyin sözçüsü kimi vəzifəsini yerinə yetirmək, çıxış etmək, bəylə gəlinə hədiyyə verməklə yanaşı, qəzetçilik işini də görür, şəkil çəkdirib, məqalə üçün faktlar toplayırdı. Bir sözlə, o, həm də ideoloji iş aparırdı.

"Axısqalı Xəstə Hasan" kitabının mətbəə xərclərini ödəmiş Abbasəli Paxralı oğlu İsmayılov isə bu toplantının təşkilatçısı idi.

Toplantının təbliği məsələlərinə yenə Rövşən Məmmədoğlu rəhbərlik edirdi. İdeoloji işdə böyük uğurlar qazanan, Qazaxıstanda olduğu müddətdə "Sürgün", "Vətənə doğru" və başqa dəyərli kitablar, onlarla məqalələr nəşr etdirən bu işgüzar insan bir neçə dəfə kommersiya sahəsində də bəxtini sınamağa çalışsa da, uğursuzluğa düçar olmuşdu.



Qızıl döyüşçünün kurqanı olan Issık vadisi. Şəkildə: solda Əzizə Şamil və Xəstə Hasanın qohumlarından Günəş Oruc qızı, Abbasəli Paxralı oğlu

...Toplantıdan sonrakı gün Ziyəddin Kasanov və onun dostları olan iş adamları ilə süfrə arxasında geniş söhbət etdik. Söh-
bətimizin əsas mövzusunu isə iş adamlarının dəstəyi ilə elmi, mədəni, kütləvi toplantıların keçirilməsi təşkil edirdi.

“Qızıl adam”ın ziyarətində

...Almatıya gələsən, Türk mədəniyyətinin incisi “Qızıl adam” kurqanına ziyarət etməyəsən, bundan böyük günah nə ola bilər ki? Bu yerə marağı məndə rəhmətlik Mirəli Seyidovun “Qızıl adam” kitabı oyatmışdı. Həmişə qürur duyurdum ki, Mirəli müəllim belə bir kitab yazıb. Keçən dəfə Almatıda keçirilən simpoziumdan araşdırıcılarla birlikdə orada olmuşduq. İndi həm özüm təkrar oraya getməyi, həm də xanımımı aparmağı planlamışdım.

Abbasəli Paxralı oğlu “Qızıl adam” kurqanına getmək istəyimizi duyduqda: “Sizi mən aparacağam. Talqardan ora 15-20 kilometrdir. O yerlərin indi gözəl vaxtıdır, tez-tez gedir, qonaqlarımızı da aparıram” – dedi.

İyunun 14-də, günün ikinci yarısında Abbasəli Paxralı oğlunun maşınında onun yaşadığı Talqar şəhərinə, oradan da Esik (Isık) çayı vadisinə yollandıq. Almatının təxminən 50 kilometr doğusunda yerləşən vadi indi istirahət mərkəzinə çevrilib. Hər gün buraya onlarla insan gəlir. 1969-cu ilədək isə bura heç kimin diqqətini çəkməyən bir yer olub. Isık gölü yaxınlığında, çay vadisində yol çəkərkən qaraj yeri düzəltmək üçün torpağı hamarlamaq istəyirlər. Bu zaman divarları bölgədəki şam ağacından kəsilmiş dirəklərdən olan bir sərdabənin üstü açılır. Sərdabədəki qızıl geyimli adam işçiləri heyrətə gətirir. Nə

yaxşı ki, orada çalışanlar hissə qapılıb sərdabəni talan etmirlər. Tapıntı haqqında Qazaxıstan EA Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutuna xəbər verirlər. Kemal Akişevin rəhbərlik etdiyi arxeoloqlar qrupu burada işləyir və dünyanın ən nadir abidələrindən birinin tapıldığını elan edir. Bu tapıntı yalnız Qazaxıstanın, keçmiş Sovetlər Birliyinin alimlərini deyil, dünyanın ən məşhur arxeoloqlarının, sənətşünaslarının, tarixçilərinin heyrətinə səbəb olur.

Sərdabədə bir gənc şahzadə dəfn edilibmiş. Onun əynində kaftan da, dar süvari şalvar da, yumşaq çəkmə də xalis qızıldan hazırlanıbmış. Paltarın ipləri də qızıldan olub. Yəni qızıl əyrilərək sapa çevrilib və bu sapla qızıl parçaları bir-birinə tikilib. Gəncin belindəki 16 lövhədən ibarət qızıl kəmər, qızılla süslənmiş xəncərinin qəbzəsi və qını, eləcə də qızıldan hazırlanmış at, aslan, pələng, bəbir, qurd, maral, dağ keçisi, ov quşu fiqurları yalnız arxeoloqları deyil, mədəniyyət tarixini öyrənən dünyanın ən böyük mütəxəssislərini belə mat qoyub. Ümumiyyətlə, qəbirdən tapılan qızıl parçalarının sayının dörd minə yaxın olduğunu yazırlar.

Ən gözlənilməzi isə gümüş təbəqə üzərindəki Göytürk əlifbasına uyğun bir əlifba ilə türkcə yazılmış "Xanın oğlu 23-də öldü" yazısı olub.

Bu tapıntı yüz illərdir "köçəri türklər mədəniyyətdən uzaq olublar" deyənlərə sanki sərt bir şillə kimi dəydi. Miladdan öncə 4-cü yüzilliyə aid

edilən bu tapıntı onu göstərir ki, türklər 2500 il öncə qızılı əritməyi bacarmaqla yanaşı, qızıldan sap əyirməyi də bacarıblar. Onların istifadə etdikləri Göytürk əlifbası da miladın 5-7-ci yüzillərində yaradılmayıb. Ondan çox-çox öncə mövcud imiş. Belə qədim və yüksək mədəniyyətə sahib bir xalqa hələ də əyri gözlə baxanlara nə deyəsən?!

Qızıl geyimli şahzadənin sərdabəsi tapılan yerdə sərdabəni bərpa etməklə yanaşı, şahzadəyə böyük bir heykəl də qoyulub. Təəssüf ki, burada gözəl bir muzey yaradılmayıb, tapıntı haqqında turistlərə bilgi verən olmadığı kimi, kitabçalar, xatirə əşyaları da satılmır. Gələnlər sərdabəyə və heykələ 5-10 dəqiqə baxıb şəkil çəkdirdikdən sonra yaxınlıqdakı qızıl balıq hovuzlarının yanına gedərək orada tutulan balıqları bişirtdirib yeməkdən başqa bir iş görə bilmirlər.

Qazaxıstanda olarkən ikinci bir Qızıl geyimli şahzadə qəbrinin də tapıldığını, geniş araşdırılmadığından haqqında bilgi verilmədiyini söylədilər.

Qazaxıstana səfərim zamanı olduqca xoş qarşılandım və geri dönərkən də uzun müddət onun təsirindən ayrıla bilmədim. Bir daha əmin oldum ki, türklər tarixi yaratmaqla yanaşı, həm də tarixi yazıb və böyük mədəniyyətlərin yaranmasına imza atıblar. Sadəcə son yüzilliklərdə biz öz mədəniyyətimizə, yazımıza sahib çıxıb, onu öyrənərək dünyaya tanıda bilməmişik. Biz mədəniyyətimiz, tariximiz haqqında

başqalarının yazdıqlarına, öyrəndiklərinə istinad etməyə daha çox meyl göstərmişik.


Qazaxıstan səfərinin sonu və ya "Son söz" əvəzi

Qazaxıstana səfərim zamanı olduqca xoş qarşılansam da, mənim üçün üzücü olan məsələləri də oxucularla bölüşmədən yazını tamamlamaq istəmədim. Görüşdüyüm soydaşlarımızın bir çoxunda qazaxlara, xüsusən də ana dilində danışanlara bir soyuq münasibət gördüm. Mədəniyyətimiz, dinimiz bir, dillərimiz yaxın olsa da, soydaşlarımız rus dilində təhsil aldıqlarından və rus-sovet təbliğatının təsirindən ana dilində danışan qazaxlara yuxarıdan aşağı baxırlar.

Qəribəsi budur ki, yaşadıqları bölgədəki dünyanın ən məşhur tapıntısı – Qızıl geyimli şahzadənin sərdabəsi tapılan yerə getməyən, muzeylərdə olmayan, ümumtürk tarixini və ədəbiyyatını oxumayan bu insanlar qazax dilinin rəsmi status qazanmasına ruslardan daha çox etiraz edirlər.

Əsli Gürcüstandan olan, istefaya çıxmış polkovnik giley-güzar edir, narazılığını bildirirdi. Mən nədən narazı qaldığını soruşduqda "bizi burada sıxışdırırlar" dedi. Mən maraqla "Siz deyəndə kimi nəzərdə tutursunuz?" deyə xəbər aldıqda "Rus dilliləri sıxışdırırlar!" cavabını verdi.

Mən səbrimi basa bilmədim. “Sizin ana diliniz qazaxların dilindən o qədər də fərqlənmir. Danışanda j səsinin birini bir qəpiyə işlədirsiniz.



Elçin Abbaslının həyətində oturub yol qeydlərimi yazarkən

Qazaxlar sözün əvvəlində j səsini çox işlədir, sizsə sözün ortasında. Hələ də gələjəm, gedəjəm, oturajam, durajam deyirsiniz. Qazaxıstan müstəqilliyini elan edəndən sonra minlərlə qazax dili kursu açıldı. Hətta ruslar belə qazax dilini öyrəndi. Necə oldu ki, 60 ilə yaxın burada yaşadınız, işlədiniz, rəhbər vəzifə tutdunuz, amma qazax dilini öyrənmədiniz?”

Cavabı mənim üçün çox gözlənilməz oldu: “Mən niyə bu çobanların dilini öyrənməliyəm ki?”

İstər Azərbaycandan sürgün olanların övladları, istər iş dalınca gedib orada yaşayanlar bizləri sevgi ilə qarşılayırlar. Qonaq aparmağa, yedirdib-içirtməyə çalışırdılar. Zülümlər görmüş insanların övladlarının necə yaşadığını, nə düşündüyünü bilmək üçün onların dəvətlərini qəbul etməyə çalışırdım.

Sovet hökumətinin qəribəliklərindən biri də bu olub ki, Azərbaycandan sürgün etdiyi adamlara Qazaxıstanda yaxşı işlədiklərinə görə yüksək orden-medallar, fəxri adlar, hətta neçə nəfərə Sosialist Əməyi Qəhrəmanı adı da verilib. Belə çıxır ki, sürgün olunanlar siyasi dünyagörüşünə görə deyil, bölgəni işçi qüvvəsi ilə təmin etmək üçün aparılıblar.

Azərbaycandan qələm sahibləri durmadan ahnalə çəkirlər ki, soydaşlarımızı yer-yurdlarından etdilər, vətəndən sürgünə göndərdilər. Onlar sürgündə çox zülümlər gördülər. Minlərlə insanımız aclıqdan, soyuqdan, xəstəlikdən öldü, vətən həsrətilə dünyasını dəyişdi. Bütün bunların hamısı doğrudur. Amma sürgün olunanların çoxunun övladı bizim kimi düşünmür. İş adamı olanlar, pul qazananlar məclislərdə yeyib-içəndə Azərbaycana qayıtmaq bir yana, Vətən haqqında xoş bir fikir də söyləmirlər. Yeyib-içmək məclislərinə çox səxavətlə pul xərcləyən bu insanlar süfrə arxasında daha sərbəst olur düşündüklərini senzur etmədən danışırlar. Məclislərdə eşitdiklərimə heyrət etdim. Stalinin sağlığına badə qaldırırlar. Deyirlər ki, yaxşı ki, Stalin babalarımızı sürgün edib. Əgər biz də Azərbaycanda qalsaydıq, ora-

dakı qohumlarımız kimi pis gündə yaşayardıq... Və yaxud Qorbaçovun şərəfinə badə qaldırırlar. Deyirdilər: "Yaxşı ki, SSRİ-ni dağıtdı, biz də mal-mülk, var-dövlət sahibi olduq».

Onlardan Azərbaycana dönmək fikrində olub-olmadıqlarını, qazandıqları pullardan Azərbaycana yatırım qoyub-qoymayacaqlarını xəbər aldıqda adama çox istehza ilə cavab verir, 5-10 il əvvəl Azərbaycana gələrkən gömrükdə onları necə "hörmət" etməyə məcbur etdiklərini, polislərin onları necə tora saldıqlarını yada salıb gülürdülər. Hətta dəfələrlə eşitdiyim lətifələri öz başlarına gəlmiş hadisə kimi danışırlar. Onlardan biri belə dedi: "Maşınımla gedirdim. Yol polisi məni saxlayıb kəmər bağladığıma işarə edərək "Beş manata görə özünü nə boğursan?!" dedi. Mən də şənimə sığışdırmayıb polisə beş manat verdim və kəməri də açdım. Heç 200-300 metr getməmişdim ki, başqa bir yol polisi məni saxlayıb kəməri bağlamadığıma görə cərimələdi".

Almatıdakı axısqalıların dərnəyi mənə azərbaycanlıların dərnəklərindən daha təşkilatlanmış göründü.

Qazaxıstanda milli oyanış isə öz işini görür. 1990-cı illərədək Almatıda qazaxca cəmi bircə orta məktəb varmış. Bu məktəbə də yetərincə şagird gəlmirmiş. İndi respublikanın hər guşəsində milli məktəblər açılır, qazax dilini öyrənmək istəyənlər üçün pulsuz dil kursları təşkil edilir. Qazax dilində məktəblərin, televiziya və radio verilişlərinin, qəzet

və jurnalların, kitabların sayı gündən-günə artır. Hətta rusdilli məktəblərdə qazax dili dərsləri keçilir. Küçələrin, meydanların, elm və təhsil müəssisələrinin adları milliləşdirilir, uzun illər adlarının belə çəkilməsi qadağan olunan vətənsevərlərə əzəmətli abidələr ucaldılır, məscidlər tikilir.

Lakin hələ də kitab mağazalarında 1986-cı ilin dekabrında Sovet əsgərlərinin, milislərin öldürdüyü nümayişçilər, qazax dissidentləri haqqında kitablara rast gəlmək olmur.

Bütün bunlara baxmayaraq bəzilərinin dediyi: "Türklər tarix yaradıblar, amma tarix yazmayıblar" fikrinin əksini gördüm. Qazaxıstandan tapılan abidələr, muzeylərdə nümayiş etdirilən maddi-mədəniyyət nümunələri və son illərdə türk dünyasının hər yerində gedən elmi araşdırmalar, yazılan kitablar və məqalələr onu göstərir ki, türklər tarix yaratmaqla yanaşı, tarixi yazıb və böyük mədəniyyətlərin yaranmasına imza atıblar.

07-16 iyun 2013-cü il.

Məqalə öncə "525-ci qəzet"in 2013-cü il iyul ayının 15, 16, 17 və 18-dəki saylarında və "Parçalanmış Türküstanı gəzərkən" (Bakı: "Elm və təhsil" nəşriyyatı, 2021) kitabının 45-84-cü səhifələrində çap olunmuşdur.

ƏHMƏD YƏSƏVİ YURDUNDA TÜRKOLOJİ KONQRES

Dünyanı nüvə silahı ilə qorxudan Sovetlər Birliyi qonşuları üçün bir təhlükə mənbəyi sayılırdı. Türkiyə quzeydəki nəhəng qonşusunun sərhədlərinə "bismillah" demədən baxmağa belə cəsarət etməzdi. 1990-cı ildən sonra dünya düzəni dəyişməyə başladı. Lakin qonşu dövlətlərin rəhbərlərinin canından Sovet qorxusu çıxmadı. 1991-ci ildə SSRİ-nin tərkibindəki 15 respublika müstəqilliyini elan etdikdən sonra Türkiyə, gec də olsa, Azərbaycanda və Türküstanda yaşayan xalqlarda milli şüur oyatmaq üçün hərəkətə keçdi.

1991-ci il iyunun 6-da Qazaxıstan hökuməti qədim Yəsi şəhərində Xoca Əhməd Yəsəvi adına Türküstan Dövlət Universitetinin açılması haqqında qərar verdi. Ölkənin iqtisadi gücü zəif olduğundan yeni açılan ali təhsil ocağı maliyə sıxıntısı içərisində idi. Türkiyənin universitetə yardım təklifi Qazaxıstan hökuməti tərəfindən xoş qarşılandı. Beləcə yeni açılan Xoca Əhməd Yəsəvi adına Türküstan Dövlət Universiteti Türkiyə və Qazaxıstan hökumətləri arasındakı razılaşmaya əsasən 1992-ci il oktyabrın 31-dən Xoca Əhməd Yəsəvi adına Uluslararası Türk-Qazax Universiteti adlandırılmağa başlayır. Universitetin əsas maliyə xərclərini Türkiyə hökuməti öz üzərinə götürdü.

850 nəfər müəllim və texniki işçinin çalışacağı ali təhsil ocağında dərslərin qazax, türk, ingilis və rus dillərində keçilməsi nəzərdə tutulmuşdur. İlk gündən universitetin nəzdində türkologiya, ekologiya, arxeologiya, təbiət elmləri, tibb və Avrasiya institutları, 3 elmi və 2 informasiya jurnalı fəaliyyətə başladı.

Qısa müddətdə ciddi elmi mərkəzə çevrilən universitetdə uluslararası toplantılar keçirildi, dünyanın nüfuzlu ali məktəblərinin professorları mühazirələr oxumağa dəvət edildi, müəllim və tələbələr xarici ölkələrə təcrübəyə göndərildi.

Ali təhsil ocağına türk xalqlarının hər birindən öncədən müəyyən edilmiş sayda tələbə qəbul edildi. Azərbaycandan da hər il planlaşdırıldığı qədər gənc orada oxumağa başladı. Universitet türk xalqlarının övladlarına elm-bilik verməklə yanaşı, həm də onlardakı milli mənsubiyyət hissini gücləndirdi.

Universitet yeni olsa da, istedadlı və zəhmətsevər araşdırıcıları işə cəlb edə bildiyi üçün bölgənin nüfuzlu türkoloji mərkəzi kimi tanındı. Burada araşdırıcıların uluslararası toplantıları keçirilir, müzakirələr aparılır, gənc kadrlar dünyanın tanınmış universitetlərinə təcrübə mübadiləsinə göndərildiyi kimi, tanınmış türkoloqlar da burada mühazirələr oxumağa dəvət edilirlər. Universitetin müəllimləri də, idarəediciləri də əsasən Qazaxıstandan və Türkiyədən olanlardır.



Şəkildə: Əhməd Yəsəvinin türbəsi

Ali təhsil ocağının adı da uğurlu seçilib. Çünki həm Əhməd Yəsəvi burada yaşayıb, həm də yaydığı fikirləri ilə türk dilinin zənginləşməsinə, türk xalqlarının yaxınlaşmasına xidmət edib.

Xoca Əhməd Yəsəvi türbəsi təmirdən sonra

Rusiya bölgəni işğal edərkən 1867-ci ildə yaratdığı general qubernatorluğun adını Türküstan, Türküstanın quzeyində yaratdığı general-qubernatorluğu Stepnoy (Çöl) adlandırmışdır. Lakin işğalçı yürüşlərini davam etdirib Şərqi Türküstanı (Çinin Sintsyan-Uyğur Milli Rayonu adlandırdığı bölgəni) və Cənubi Türküstanı (Əfqanıstanın quzeyi və İran

İslam Respublikasının quzey-doğusu) müstəmləkəsi altına ala bilməmişdi.

Bolşeviklər 1918-ci ildə Rusiya Federasiyasının tərkibində Türküstan Muxtar Sovet Sosialist Respublikası yaratdıqlarını elan etdilər. Lakin yerli xalqlar çar Rusiyasının siyasətini davam etdirən bolşeviklərlə razılaşmadılar. Alaş Respublikası, Kokand hökuməti yaratdılar. Yeni yaranmış bu dövlətlər daxili ziddiyyətlərdə və getdikcə güclənən Rusiya hərbi güclərinin davamlı hücumları qarşısında duruş gətirməyərək məğlub oldular.

1924-cü il oktyabrın 27-də Sovetlər Birliyi Türküstan Muxtar Sovet Sosialist Respublikasını ləğv edərək Türkmənistan, Tacikistan, Özbəkistan (Özbəkistanın daxilində Qaraqalpaq Muxtar Sovet Sosialist Respublikası. Yerli sakinlər özlərinin və respublikalarının adını Qaraqalpaq, özbəklər Qoraqalpag yazsalar da, bizdə hələ də bir çox qələm sahibi rus dilinin təsiri ilə Karakalpak yazır.), Qırğızıstan və Qazaxıstan Sovet Sosialist Respublikalarını yaratdığını elan etdi. Bu da müstəmləkəçilərin "Parçala, hökm sür!" siyasətinin nəticəsi idi.

Şəkildə konqres iştirakçılarından bir qrupu Əhməd Yəsəvinin türbəsi önündə

Sovetlər Birliyi dönəmində Türküstan adı, demək olar, hər yerdən qaldırılsa da, hərbi hissədən

qaldırılmamışdı. Mərkəzi Daşkənddə olan böyük bir əsgəri birləşmə Türküstan Hərbi Dairəsi adlandırılırdı.



Lakin bölgədə müstəmləkə əleyhinə mübarizə İkinci Dünya Müharibəsinin sonlarına kimi gah gücləndi, gah zəiflədi. Bolşeviklər hakimiyyətə qarşı çıxan qüvvələri *basmaçılar* adlandırdılar. Çünki milli qüvvələrin müəyyən bir ərazini tutub rus hərbçilərinə qarşı dirəniş göstərməyə gücləri çatmırdı. Fərqli-fərqli bölgələrdən rus hərbçilərinə, onlara xidmət edən yerli məmurlara basqınlar edirdilər. Ona görə də adları tarixə basmaçılar kimi düşdü.

Sovetlər Birliyi dağılanda əsarət altında olan respublikalar öz müstəqilliklərini elan etdilər və sürətlə inkişafa başladılar. Türkologiya ilə məşğul

olanlara çox vaxt pantürkist damğası vurulub, həbsə atıldığı yerlərdə müstəqillikdən sonra Türkoloji mərkəzlər yaradıldı. Qazaxıstanın güney bölgəsində yaradılmış Uluslararası Türk-Qazax Universiteti də belə türkoloji mərkəzlərdən biridir.

2013-cü il aprel ayının 19-20-də Türküstanda "5-ci Uluslararası Türkoloji Konqres" keçiriləcəkdi. Konqres "Kültürəl etkiləşim və mədəniyyətlər ittifaqı" adı altında təşkil edilmişdi. Konqresə qatılmaq üçün "Bekir Sıtkı Çobanzade'nın Türk Halklarının Kültürel Etkileşim ve Değişiminde Rolu" mövzusunda bir məruzə göndərmişdim. Elmi heyət məruzəmi bəyənərək mənə də dəvətnamə göndərmişdi.

"5-ci Uluslararası Türkoloji Konqres" Qazaxıstan Respublikasının güneyindəki kiçik şəhər **Türküstanda** 2013-cü il aprelin 19-20-də keçiriləcəkdi... (Qazaxıstan hökumətinin nədən bu şəhərin adını Türküstan qoyduğunu anlaya bilmirəm).

Filipp Qoloşyokin və onun "Kiçik Oktyabr inqilabı" planı

Qazaxıstanın ərazisi olduqca böyük olduğundan (2.724.900 kvadrat kilometr, yəni orada 31 Azərbaycan kimi dövlət yerləşər) idarəetməni asanlaşdırmaq üçün 14 vilayətə bölünüb. Onlardan biri 1932-ci ildə yaradılmış Güney Qazaxıstan vilayəti olub. Mərkəzi Çimkənd (qazaxlarda ç səsinin ş səsinə

çevrilməsi yayğın olduğundan şəhərin adını Şimkənd, bizim Çokay dediyimiz adı Şokay yazırlar) olan vilayətin ərazisi 116 min 95 kvadrat kilometrdir. 1962-ci ildə vilayətin adı dəyişdirilərək mərkəzindəki şəhərin adı ilə Çimkənd adlandırılıb. Qazaxıstan 1991-ci ildə müstəqilliyini elan etdikdən sonra adı yenidən dəyişdirilərək Güney Qazaxıstan vilayəti şəklini alıb.

Qazaxıstanın başqa vilayətləri ilə müqayisədə buranın iqlimi mülayim, torpağı məhsuldar, suyu boldur. Belə ki, vilayətdə pambıq, çəltik, tütün, taxıl, çətənə, bostan-tərəvəz bitkiləri əkib becərirlər. Məhsuldar üzüm və meyvə bağları var.

Bu gün Türküstan adlandırılan şəhərin yerində keçmişdə Yəsi şəhəri varmış. Türküstanın ən qədim mədəniyyət mərkəzlərindən olan Yəsi, Sayram, Otar kimi şəhərlər də burada yerləşib.

Bölgənin havası mülayim, suyu bol, torpağı məhsuldar olsa da, mənim yaddaşımda daha çox sürgün yeri kimi qalıb. Bu da səbəbsiz deyil. Uşaqlıq və yeniyetməlik illərimdən Qafqazdan sürgün olunanların çoxunun sorağı Çimkənddən gəlirdi. Gəncliyimdə Axısqalı Xəstə Hasanın ömür yolunu öyrənməyə və şeirlərini toplamağa çalışanda da axısqalıların sürgün olunanlarının çoxunun Çimkənd və çevrəsində yaşadıqlarını deyirdilər.

Sonralar bildim ki, Türküstanı işğal etmək istəyən bolşeviklər döyüşlərdə on minlərlə qazaxı öldürüb,

kəndlərini dağıdıb, mal-qarasını əlindən alıb. Bu da tarixə qazax xalqının soyqrımı kimi daxil olub.

Əsl adı və soyadı Şaya İtsikoviç olan Filipp Qoloşyokin 1925-ci ilin oktyabrında Qazaxıstan Vilayət Partiya Komitəsinə birinci katib təyin edildiyi ilk gündən dinc əhaliyə divan tutmağa başlayıb. Yəni azacıq maddi imkanlı insanları qolçomaq adı ilə güllələdib, ailələrini sürgünə göndərib. Mal-qaralarını, mülklərini kolxoza (kollektiv təsərrüfat) daxil edib. Nəticədə baxımsızlıqdan kolxozdakı mal-qara qırılıb.

Qolçomaqları bir sinif kimi yox etmə, kollektivləşmə, mərkəzi hakimiyyətin ərzaq təchizatı planını böyütmə adı altında kəndlilərin mal-qarasını zorla əlindən alıb. Bunu da Kiçik Oktyabr İnqilabı adlandırıb.

Mal-qarası əlindən alınmış, təsərrüfatı dağıdılmış insanlar kütləvi şəkildə ölümə təhrik edilmişdir. Filipp Qoloşyokinin özünü də məsləkdaşı olan kommunistlər 1941-ci il oktyabrın 28-də xalq düşməni adı ilə güllələmişlər.

1932-33-cü illərdə ölkə əhalisinin 38 faizi aclıqdan və xəstəlikdən ölüb. İtkinin yerini doldurmaq, bölgənin torpaqlarından istifadəni qaydaya salmaq üçün Qafqazdan, Rusiyadan və başqa bölgələrdən on minlərlə ailə sürgün adı altında buraya köçürülüb.

Buna görə də bölgədə qazaxlarla yanaşı özbəklərə, uyğurlara, azərbaycanlılara, koreyalılara,

ruslara, dunqanlara, taciklərə və b. xalqların nümayəndələrinə tez-tez rast gəlmək olur.

Qazaxlar əhalinin sayını 1926-cı ilin səviyyəsinə 1970-ci ildə çatdıra biliblər. Bu da təbii artım hesabına olmamışdı. "Xam torpaq" kompaniyasında minlərlə insanın Qazaxıstana işləməyə göndərilməsi nəticəsində əhalinin sayı artmışdı.

Uzun yolçuluğumuz

Konqrenin keçiriləcəyi Türküstan şəhəri xəritədə Çimkənddən o qədər də uzaq görünmür. Daşkənddən Özbəkistanla Qazaxıstan arasındakı sərhəd keçid məntəqəsinə maşınla 15-20 dəqiqəlik yol olduğunu bilirdim. Ona görə planlaşdırdım ki, konqredən 6-7 gün öncə Daşkəndə gedərəm. 2-3 gün orada dostlarla görüşüb, söhbətləşib, sonra Çimkəndə keçər, Azərbaycandan və Axısqadan oraya sürgün olunanlardan folklor nümunələri toplayaram.

Lakin konqrenin təşkilatçıları bileti Türk Hava Yolları şirkətinin Bakı-İstanbul-Çimkənd reysinə almışdılar. Yəni Bakıdan gedənlər İstanbula uçmalı, orada 7-8 saat gözlədikdən sonra 4 saatlıq bir yolçuluqla Çimkəndə çatmalıydılar. Çimkənddən də avtobuslar bizi Türküstana aparacaqdı.

Bu, həm vaxt itkisi, həm də əlavə xərc idi. Biletləri biz almasaq da, istəmirdim təşkilatçılar ikiqat xərc çəksinlər. Necə deyərlər, pulu kim verir,

tütəyi də o çalır. Biz də konqrenin təşkilatçılarının planı ilə hərəkət etməli olduq.

Azərbaycanlı araşdırıcıların sayı elmi toplantılarda digər ölkələrdən qatılanların sayı ilə müqayisədə həmişə çoxluq təşkil edir. Bu dəfə də belə idi. Özbəkistan, Qırğızıstan, Türkmənistan, Tacikistan konqre keçirilən yerə Azərbaycandan yaxın olmasına baxmayaraq, bizimkilər çoxluq təşkil edirdilər. İştirakçıların sayına görə Qazaxıstan və Türkiyədən gələnlərdən sonrakı yeri biz tuturduq.

Azərbaycandan Kamil Vəli Nərimanoğlu, AMEA Şərqşünaslıq İnstitutundan Elmira Fikrətqızı (Məmmədova), Kəmalə Ələkbərova və mən, İran İslam Respublikasından gəlmiş azərbaycanlılardan Bəhruz İmani, Mirəli Rezai, İsa Yılmaz vardı. Gürcüstanlı şərqşünas Mzisa Buskvadzeni də bizdən saymaq olardı. Çünki onun konqreyə qatılmasına biz körpü olmuşduq.

Çimkəndə 2013-cü il aprelin 18-də səhər tezdən çatdıq. Hava limanından Türküstandakı Xoca Əhməd Yəsəvi Uluslararası Türk-Qazax Universitetinin avtobusları ilə yola düşdük. Yol da nə yol, kəndarası torpaq yol olsaydı, daha tez və rahat mənzilbaşına çatardıq. Yolda təmir işləri getdiyindən az qala hər 2-3 kilometrdən bir yoldan kənara çıxır, çala-çuxur yolla yırğalana-yırğalana gedirdik. Beləliklə, 2 saata gedə biləcəyimiz yolu 6 saata getdik.

Qaldığımız hoteldən Xoca Əhməd Yəsəvi türbəsi görünürdü. O qədər yorulmuşdum və toz-torpağa batmışdım ki, uzun illərdi həsrətində olduğum ziyarəti həmin gün reallaşdıra bilmədim. Yuyunub, toz-torpaqdan qurtaran kimi yatdım.

Səhər yuxudan duranda ilk işim, yeməkdən öncə Xoca Əhməd Yəsəvinin qəbrini ziyarət etmək oldu. Sonra rahatca səhər qəhvaltısını elədim.

Konqrenin ilk günü

Toplantını səhər tezdənə salmamışdılar. Öncə Kültür Mərkəzində Baxçaşəhər Universitetinin hazırladığı "Mədəniyyətlərin anladılmayan hekayəsi: Batıya axan nəhir" adlı sərgiyə baxdıq və muzeyi gəzdik.

Toplantını Uluslararası Türki-Qazaxıstan Universitetinin rektoru, professor Lesbek Taşimov açdı, təhsil ocağının yaranması, inkişaf yolu və qarşıdakı planları haqqında bizlərə bilgi verdi. Sonra sözü universitetin Türkiyə tərəfdən rəhbəri, rektor vəkili adlandırılan professor Salih Aynurala, Türk Dil Qurumu başqanı professor Osman Horataya, Azərbaycandan professor Kamil Vəli Nərimanoğluna, Özbəkistandan Dil və Ədəbiyyat İnstitutunun Folklor şöbəsinin müdiri, professor Mamatkul Jurayevə və başqalarına verdi.

Nahardan sonra bölmə iclasları başladı. Bölmə iclaslarının keçiriləcəyi salonların adlarının "Kaşğarlı Mahmud", "Yunus Əmrə", "Məhəmməd Füzuli",

“Manas” adlandırılmasına sevindim. Sovet dövründə toplantı keçiriləcək salonlara ad verilmirdi. Sovetlərin çöküşündən sonra bu, ənənəyə çevrildi.

Proqramda məruzəçilərin 104 nəfər olduğu göstərilsə də, məruzəsi olmayan dəvət edilənlərlə birlikdə iştirakçıların sayı 150 nəfərə yaxın idi.

Konqreni təşkil edənlər Sovet dövrünün təsirindən qurtara bilmişdilər. Belə ki, proqramda məruzəçilərin adları sıra ilə düzülməmişdi. Kimin hansı salonda, saat neçədən-neçəyə kimi məruzə edəcəyi dəqiq göstərilmişdi. Toplantı salonları bir-birinə yaxın yerdə idi. Bu da istədiyim məruzəni dinləməyimə, sual verməyimə, müzakirədə iştirakıma imkan verirdi. Hətta rektor Lesbek Taşimovun aprelin 19-da saat 21.30-da qonaqların şərəfinə ziyafət verəcəyi də proqramda göstərilmişdi.

İstər Türkiyədə, istərsə də Türkmənistanda, Qırğızıstanda, Özbəkistanda, Qazaxıstanda, İranda və Avropa ölkələrində keçirilən elmi toplantılarda saka, altay, başqırd araşdırıcılarını hərdən görürdüm. Burada isə onlar daha çox idilər. Bu, sadəcə konqrenin keçirildiyi yerin Sibirə yaxınlığı ilə bağlı deyildi. Onlar Türkiyəyə də, Türkmənistana, Özbəkistana, Qazaxıstana, Qırğızıstana da Moskvadan getməli olurlar. Demək, bu yol yaxınlığı ilə deyil, konqreni təşkil edənlərin təşkilatçılığından irəli gəlirdi.

Türkiyədən, Türkmənistandan, Qazaxıstandan, Qırğızıstandan gələn araşdırıcılarla simpoziumlarda və

toplantılarda öncələr görüşmüşdük. Altaydan və Saxadan gələnlərlə isə ilk dəfə görüşürdüm. Məruzələr türk, qazax, rus dillərində olsa da, fasilələrdə, istirahət saatlarında, gəzintiyə gedəndə söhbətlərimiz əsasən Türkiyə türkcəsində və ya digər türk xalqlarının dillərində olurdu.

Qazaxıstanda, Qırğızıstanda, Başqırdıstanda rəsmi dil rus dili olsa da, oradan gələn araşdırıcılar çətinlik çəksə də, Türkiyədən gələn həmkarları ilə ana dilləri ilə Türkiyə türkcəsinin qarışığı olan bir dildə danışmağa çalışırdılar.



Şəkildə soldan. 1...., 2...., 3. Əli Şamil, 4. Kamil Vəli Nərimanoğlu, 5. Bəhruz İmani (Təbriz), 6. Elmira Fikrətqızı (Məmmədova), 7.Mirəli Rizai (Nəqədey), 8.Kəmalə Ələkbərli, 9...., 10. Bahadur Kərimov (Özbəkistan).

Sakadan, Altaydan gələnlər isə yalnız rus dilində danışırdılar. Bu da onu göstərirdi ki, türk xalqlarının birgə keçirdikləri toplantılara da qatılmayıblar.

Məruzələrin seçilməsinə ciddi diqqət yetirildiyindən dinləmək istədiyimin sayı çox idi. Heyfsilənirdim ki, eyni vaxtda ayrı-ayrı salonlarda olan məruzələrdən yalnız birini dinləyə biləcəm. Çıxışlardan sonra sual verilməsinə, müzakirələr aparılmasına da şərait yaradılmışdı. Bunlar da yüksək qiymətləndirdiyim cəhətlərdən idi.

Birinci günün bölmə iclaslarından sonra tələbə və müəllimlərin hazırladığı konsertə baxıb ləzzət aldım. Konsert proqramına türk, qazax, özbək, Azərbaycan, türkmən, və b. xalqların mahnı və rəqsləri salınmışdı. Azərbaycanlıların ifa etdikləri mahnı və rəqslər peşəkarların ifasında o qədər də fərqlənmirdi desəm, yəqin ki, yanılmaram. Musiqi duyumu yüksək olan Kamil Vəli Nərimanoğlu da onları çılğınlıqla alqışlayırdı. Onlar Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından bir parçanı da ifa etdilər. Operettanın film variantının dünyada geniş yayılması və ifaçıların ürəkdən oynamaları salondakıların sürəkli alqışına səbəb oldu.

Əhməd Yəsəvini tanıdan Əmin Abid

Aprelin 20-də iş günümüzə konqre iştirakçılarının Xoca Əhməd Yəsəvinin türbəsini ziyarətlə başladıq.

Xoca Əhməd Yəsəvinin adına ilk dəfə Əmin Abidin 1927-ci ildə "Maarif işçisi" jurnalının 3, 4 və 6-7-ci sayında çap etdirdiyi "Heca vəzninin tarixi" məqaləsində rast gəlmişdim. Onda mən ikinci kursda oxuyurdum. Məqalə mənə o qədər güclü təsir göstərmişdi ki, tələbə yoldaşım Osman Əhməd oğlu ilə birləşib ərəb əlifbası ilə yazılmış 25 səhifəlik məqaləni kiril əlifbası ilə köçürmüşdük.

Əmin Abid yazırdı: *"Türkçəliyin ümumi xarakteri göz önünə gətiriləcək olursa, heca vəzninin onlarca məqbul görünməsinin mənası kolaylıkla anlaşılır. Qayəsi daha böyük bir əksərinə məfkurəvi təlqinlərlə təsir yapmaq olan təkyə təşkilatı, xalq ruhunu nəzərə almaq və xalq ədəbiyyatı elementlərini kullanmaq məcburiyyətində idi. Bunun üçün təkyə şeiri milli xalq vəzni olan heca ilə yaradılırdı.*

Heca vəznini ilk dəfə olaraq Yəsəvi təkyəsində buluyoruz. Yəsəvilik təriqəti üzrə doğan ədəbiyyatın məhvəri miladi on ikinci əsrdə yaşamış şair, həkim Əhməd Yəsəvinin "Divan-i hikmət" adı altında toplanılan əsərləridir. Əhməd Yəsəvi hecayı kullanmaqla bərabər, ona daha əski zaman məhsullarındakı vəziyyətindən ayıran mütəkamil bir şəkil verməmişdir, onun əsərlərində də ətraflı misrayi-ahəngdən mərhum bulunaraq ibtidai texnikayı mühafizə etməkdədir. Bununla bərabər vəznin təkyələrdə tutulmasma və aynca on iki hecalı vəznin şaye bulmasına yardım etmişdir. "Divan-i hikmət"də ən çox kullanılan vəzn

yeddili ilə on ikililərdir. Hecanın bundan 800 il əvvəlki şəklini yaxından görə bilmək məqsədilə Əhməd Yəsəvinin iki mənzuməsini buraya alıyoruz. Birinci parça duraksız yeddilidir:

On səkkiz min aləmdə,
Heyran bulğan aşiqlər.
Tapmaq məşuq sorağın,
Sərsan bulğan aşiqlər.

Hər dəm başı örülüb,
Gözü xəlqə tirtulub,
Hər hötyö çur kulub,
Kiryan bulğan aşiqlər.

Göyüb yanub kül bulğan,
Eşqdə bülbül bulğan,
Kisti kursə fövl bulğan,
Mərdan bulğan aşiqlər.

Yol üstündə xak bulğan,
Sinələri çak bulğan,
Zikrin itib pak bulğan,
Nalan bulğan aşiqlər.

Himmət qövrin bağlağan,
Yürək bağrın bağlağan,
Fəryad urub ağlağan,
Giryan bulğan aşiqlər.

Kahi yüzü sarğarıb,
Kahi yolda gərib,
Təsbihləri ya həbib,
Cövlan bulğan aşiqlər.

Əhməd, sihnəm aşiq bul,
Sidqinin burla sadiq bul,
Dərgahığa layiq bul,
Canan bulğan aşiqlər.

Bu hikmət on ikilidir, üç durağı hayizdir".

Əmin Abid 1928-ci ilin oktyabrında yazdığı və 1930-cu ildə "Azərbaycanı öyrənmə yolu" toplusunun 4-5-ci sayında nəşr etdirdiyi 33 səhifəlik "Türk xalqları ədəbiyyatında mani növü və Azərbaycan bayatılarının xüsusiyyətləri (Beş min bayatı-mani üzərində yapılmış bir tətöbbönamədir)" məqaləsində də Əhməd Yəsəvi yaradıcılığına müraciət edir. O, yazır: *"Havi olduğu yeddi hecalı mənzum parçalar haqqında yukarıda məlumat verdigimiz "Divan-i lüğət ül-türkdən" sonra bu vəznində bizə qədər gələn əsər hicri altıncı əsrdə ölən Xoca Əhməd Yəsəvinin "Divan-i hikmət"idir. "Divan-i hikmət"in bir çox mənzumələri hecanın yeddilisi ilə və qitələrdən mürəkkəb silsilə halında yazılmışdır. Diqqət edərsək Əhməd Yəsəvinin işlətdigi yeddilinin şəkli ilə "Divan-i lüğət ül-türk"in havi olduğu yeddilərin şəkili arasında qüvvətli bir yaxınlıq*

var. Hər ikisində bəzi durak-təktsiz misralar istisna edilmək şərtilə yeddi hecalının 3+4 şəklinin havidir. Bunlar da eyni surətlə qitələrin üç ilk misraları öz aralarında, dördüncü misraları qitələrin dördüncü misraları arasında qafiyədardır; ifadə də cinas sənətindən uzak bir tərzdədir.

...Demək olur ki, "Divan-i lüğət üt-türk"ə təkəddüm edən zamanlardan Əhməd Yəsəvinin yaşadığı dövrə qədər hecanın yeddilisi, şəklən böyük bir xüsusiyyət göstərməmişdir. Fəqət burada bir cəhət nəzəri-diqqəti cəlb etməkdədir. Məlum olduğu üzrə Əhməd Yəsəvi bütün divanını heca vəznilə yazmışdır. O halda deyilə bilir ki, Əhməd Yəsəvi zamanında Orta Asiya türkləri heca vəznilə bir çox xalq mənzumələrinə malik olmuşdur. Hələ bu xalq mənzumələri içində yeddi hecalı çox modada olmuş olacak ki, mühitin ədəbi təsiri altında Əhməd Yəsəvi də yeddili vəzninə çox əhəmiyyət vermişdir. Şübhəsiz, bu günkü bayatı – mani zaman keç-dikcə lisani karakterini yeniləşdirdigindən onların bu dövrdən qalma kısımları olub-olmadığı haqqında bir fikir söylənmiyəcəkdir.

Əhməd Yəsəvidən zamanımıza və məmləkətimizə doğru gəlincə manilərlə əlaqədar olan ədəbi bir hadisəyə rast gəliriz. O da Azərbaycan ədəbiyyatında tuyuğ nevinin zühurudur" Günümüzdə Əmin Abidin yazdığı bu parçalar bəsit görünə bilər. 1970-ci illərdə Azərbaycanda Əhməd Yəsəvi haqqında geniş bilgi yox idi. Əmin Abidin Əhməd Yəsəvi haqqında yazdığı

bilgi məndə böyük maraq oyatdı. Oxuduqlarımı tələbə yoldaşlarım arasında yayırdım. Ondan sonra da Əhməd Yəsəvi və sufizmlə bağlı əldə edə bildiyim yazıları oxumağa başlamışdım.



Şəkildə: Azərbaycanlı tələbələrlə birlikdə

Oxuduqlarım məndə Əhməd Yəsəvinin məzarını ziyarət etmək həvəsi oyatmışdı. Heyf ki, maddi sıxıntıdan istədiyimi reallaşdıra bilmirdim. Türküstanda düzənlənən "5-ci Uluslararası Türkoloji Konqre" 43 il sonra arzumu reallaşdırmışdı.

Əhməd Yəsəvi və onun türbəsi haqqında rəvayətlər

Araşdırıcılar Əhməd Yəsəvinin qədim Sayram şəhərində doğulduğunu yazırlar. Şəhərin adını daşıyan Sayram çayı bu yerləri bolluq, bərəkət məkanına çeviribmiş. Buna baxmayaraq, Əhməd bin İbrahim bin İlyas doğulduğu şəhərin deyil, təhsil aldığı Yəsi şəhərinin adını özünə ləqəb götürüb. Minlərlə müridi olmasına, onun ideyalarına şifahi şəkildə yaymasına baxmayaraq, onlar zamanında mürşidlərinin ömür yoluna işıq salacaq bir əsər yazmamışlar. Buna görə də böyük sufi şairin doğum tarixi dəqiq bilinmir.

Əhməd Yəsəvinin müridləri onu o qədər əfsanələşdiriblər ki, ölüm tarixi bilinsə də, ona əsaslanıb doğum tarixini müəyyənləşdirmək olmur. 1166-cı ildə dünyasını dəyişdiyi söylənilir. Rəvayətlərə görə, sufi şair 63 yaşına çatanda "Peyğəmbər 63 il yaşayıb, bu yaşdan sonra yaşamağa utanıram" deyərək hazırlatdırdığı zirzəmiyə köçüb və 63 il də orada yaşayıb.

Kiçik yaşlarında anasını itirən Əhməd dövrünün tanınmış sufi-alimlərdən olan, atası Şeyx İbrahimdən yazıb oxumağı, şəriət qaydalarını, sufiliyin ilkin prinsiplərini öyrənib. 7 yaşında olanda atası da dünyasını dəyişib. Sufi-alim Arslan Baba 7 yaşlı yetimin fitri istedadını görüb ona himayədarlıq etmiş, elm və irfan öyrətmişdir. Arslan Baba ilə Əhməd Yəsəvinin

mürşid-mürid münasibətlərinə dair xalq arasında çoxlu rəvayətlər dolaşmaqdadır.

Arslan Baba dünyasını dəyişəndən sonra Buxaraya gələn Əhməd orada böyük övliya Yusif Həmadanidən dərs almışdır. Mürşidindən xilafət alan Əhməd müəllim dünyasını dəyişəndən sonra da bir müddət Buxarada qalıb mədrəsədə çalışmışdır.

Ömrünün sonrakı illərini Yəsi şəhərində keçirən sufi şair fəlsəfi-dini fikirlərini ana dilində dördlüklər şəklində söyləmişdir. Söylədikləri yazıya alınmayan bu dördlüklər müridlər və Yəsəviyyə təriqətinə qoşulanlar tərəfindən şifahi şəkildə Türküstanda, Azərbaycanda, Anadoluda, İranda, Balkanlarda, Quzey Qafqazda və başqa bölgələrdə yayılmışdır. Pir Sultan, Xoca Əhməd, Qul Xacə Əhməd təxəllüsü ilə söylənən bu şeirlər dil-üslubca bir-birindən fərqlənir. Bu da şeiri söyləyən dərvişlərlə bağlıdır. Yəni hər dərviş şeiri öz ləhcəsinə, dünyagörüşünə uyğun söyləmişdir.

Mürşidləri dünyasını dəyişəndən yüzillər sonra müridləri Əhməd Yəsəvinin şeirlərini bir yerə toplayıb, yazıya alaraq ona "Divan-i hikmət" adı vermişlər.

Əhməd Yəsəvinin həyat hekayəsi əfsanələşdirildiyi kimi onun qəbri üzərində tikilmiş əzəmətli türbə haqqında da çoxlu rəvayətlər dolaşmaqdadır. Rəvayətə görə, Əhməd Yəsəvi dünyasını dəyişəndən sonra qəbri üzərində kiçik bir türbə tikilir. Əmir

Teymur Türküstanda islamı yayan, türk dilini zənginləşdirən sufi şairə bu türbəni layiq görmür. 1389-cu ildə onun adına layiq bir türbə tikilməsinə göstəriş verir.

Tikintisi başa çatana yaxın gecə türbənin dağıldığını görürlər. Tikintini yenidən davam etdirsələr də, eyni hal təkrarlanır. Əmir Teymur yuxuda bir səs eşidir. Səs ona: *"Mürşidim Arslan Babanın qəbri üzərində türbə tikilməsə, mənim qəbrim üzərindəki türbənin tikintisi başa çatmayacaq"*- deyir.

Bundan sonra Əmir Teymur Arslan Babanın qəbri üzərində türbə tikdirir. Memar Xacə Hüseyin Əli Əhməd Yəsəvinin qəbri üzərində nəhəng ziyarətgah-türbənin tikintisinə başlayır. 1405-ci ildə Əmir Teymurun dünyasını dəyişməsi tikintinin dayanmasına səbəb olur. Sonralar tikinti başa çatdırılır.

Əmir Teymurun tapşırığı ilə memar Xacə Hüseyin Əli yalnız qəbirüstü türbə tikməyib. Böyük sufi şairi Əhməd Yəsəvi üçün böyük bir xatirə kompleksi tikib. Bu kompleksə məscid, dərvişlərin qalması və zikir etmələri üçün binalar, kitabxana, ziyarətə gələnlərin qalması üçün otaqlar, hamam, bazar və b. daxil edilmişdir. Onların arasında günümüzdə də sağlam qalmış tağlı darvazası olan böyük bina diqqəti çəkir. Binanın ucalığı 35 metrə çatır. Burada eyni vaxtda 1000 nəfərdən çox adam namaz qıla və zikr edə bilər.

Bölgənin kontinental iqlimini nəzərə alan memar binaların tikintisində qırmızı kərpicdən istifadə

etmişdir. Bu da binada havanın qışda çöldəki havadan 5-6 dərəcə isti, yayda isə sərin olmasına şərait yaradır. Memar divarlarda ağac dirəklərdən geniş istifadə etmişdir. Divarlara hörülmüş və ya divardan çölə uzanmış dirəklə binanın gözəlliyinə xələl gətirdiyi təsiri bağışlayır. Əslində bu dirəklər elə yerləşdirilmişdir ki, zəlzələ baş verəndə bina uçmasın. Kompleksin günbəzi firuzəyi şirli kərpiclərlə örtülmüş, çöl divarları, giriş qapılarının yanları firuzəyi şirli kərpiclərlə kufi xətti ilə yazılar yazılmış, içəri divarlar kaşılar və ornamentlərlə bəzədilmişdir.

Bina tikilərkən burada istifadə edilmək üçün misdən böyük bir qazan hazırlanmışdır. Ağırlığı 2 ton, dairəsi 2,5 metr, ucalığı 1,5 metr olan mis qazan Tayqazan adlandırılırmışdır. Bu qazanda ziyarətə gələnlərə sərin şərbət verilmişdir. Ruslar bölgəni işğal edəndə gözlərinə xoş görünən hər şeyi talayıb apardıqları kimi Tayqazanı da Sankt Peterburqa aparırlar.

1932-ci ildən Ermitaj muzeyində saxlanılan Tayqazanı Nursultan Nazarbayev 1989-cu ildə geri ala bilir.

Türkiyənin Qazaxıstanla apardığı danışıqlardan sonra TİKA 1993-cü ildə Əhməd Yəsəvi türbəsini əsaslı təmir etdirib. 2002-ci ildən isə YUNESKO bu möhtəşəm abidəni Dünya irsi siyahısına salıb.

Türbə muzeyə çevrilsə də, ziyarətə gələnlərə də mane olmurlar. Buna görə də bölgə Qazaxıstanda

inanc turizminin ən gur yerlərindən birinə çevrilib. Əhməd Yəsəvinin qəbrini ziyarətə gələnlər Arslan Babanın da qəbrini ziyarət edirlər. Eləcə də Arslan Babanın qəbrini ziyarətə gələnlər Əhməd Yəsəvinin qəbrini də ziyarət etmədən geri dönmürlər.

Qədim mədəniyyət beşiyi olan Yəsi, Sayram, Otar, Qızıl Orda kimi şəhərlər bir-birinə yaxın olmasına baxmayaraq, buraya gələn turistlərin sayı azdır. Bu da Türk xalqları arasında ədəbi-mədəni əlaqələrin zəifliyinin göstəricisidir.

Konqrenin ikinci günü

Azərbaycandan gedən araşdırıcıların məruzələri konqrenin ikinci günündə ayrı-ayrı salonda olduğundan əksəriyyətini dinləməyə imkanım oldu. Kamil Vəli Nərimanoğlunun məruzəsi "Kaşqarlı Mahmud" salonunda saat saat 10.15-10.30 idi. Onun "Türk dünyasında ortaq ilətişim dilinin problemləri" adlı məruzəsini böyük maraqla dinlədim. Məruzə elmi-strateji əhəmiyyət daşıyırdı.

Həmin salonda birinci fasilədən sonra, yəni saat 12.45-13.00-da Elmira Fikrət qızının (Məmmədova) oxuduğu "Türk dünyasında yaşnamələr (vücud-namələr) (Azərbaycandan, Qazaxıstandan, Türkiyədən, Türkmənistandan, Özbəkistandan, Quzey Kıbrıs Türk Cümhuriyyətindən, Başqırdıstandan, Tatarıstandan, Uyğurustandan toplanmış nümunələr əsasında)"

məruzəsi faktların zənginliyi ilə seçilirdi. Araşdırıcı demək olar ki, türk xalqlarının əksəriyyətində çap edilmiş və edilməmiş yaşnamələri (vücudnamələr) araşdırmaya cəlb edə bilmişdi. Bu da olduqca çətin, zəhmət tələb edən bir iş olduğunu göstərirdi.

AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı Kəmalə Ələkbərovanın məruzəsi günün 4-cü toplantısında, "Yunus Əmrə" salonunda saat 16.45-17.00-da dinlənildi. "19-cu yüzilin sonu 20-ci yüzilin başlarında türk dili Rusiyada" adlı məruzədən bəlli olurdu ki, çox gərgin keçən bir dövrdəki yüzlərlə sənədi, məqalə və kitabı oxuyub onu ümumiləşdirmək, nəticə çıxarmaq heç də asan olmamışdı. Araşdırıcı detallara getməmiş, ümumiləşdirmə əsasında dövrün mənzərəsini göz önünə sərməyə çalışmışdı.

Mən Kamil Vəli Nərimanoğlunun məruzəsini dinlədikdən sonra müzakirəyə qalmadan "Məhəmməd Füzuli" salonuna qaçdım. Çünki mənim məruzəm saat 10.30-10.45 arasında idi. Türkiyəli İsmail Doğanın "Türk xalqları arasındakı bilginin sağlanılmasında türkolojinin rolu nə olmalıdır?" məruzəsi bir az uzun olması mənim işimə yaradı. Belə ki, mən salona daxil olanda özbək Diloram Hamrayeva məruzəsinin son cümlələrini oxuyurdu.

Allahıma şükür etdim ki, gecikmədim. Bizim bölümün toplantısına professorlar Ali Akarla Mirzabergen Malbakov rəhbərlik edirdilər.



Şəkildə Türkiyəli professor Ali Akar konqrenin qatılım bəlgəsini Əli Şamilə təqdim edərkən

Məruzəmin mətnini oxumurdum, mətnə baxıb danışırdım. Buna görə də salonu yaxşı görürdüm. KQB-nin istintaq materiallarında Bəkir Çobanzadənin Vahid Türk Tatar Dövləti qurmaq istədiyindən və bu təşkilatın üzvlərindən söz açdım. Heyfsiləndim ki, Türkmənistanda, Özbəkistanda və Rusiya Federasiyasının bəzi respublikalarında araşdırıcılar arxivlərə buraxılmadığından bir çox məsələlərə aydınlıq gətirə bilmək olmur.

Çıxışımda 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayda iştirak edənlərin bəzilərinin

adlarını çəkərkən başqırd Xaris Yumakulovun da adını çəkmişdim. Məruzəmin bitməsini gözləmədən deyinənlər Başqırdıstandan gəlmiş professor M.Edibayev və onun deputat xanımı idi. Mən onların səslərini eşitsəm də, özümü eşitməməzliyə vurub çıxışımı davam etdirdim.

Suallar və müzakirələr bölmə iclasının sonunda idi. Professor M.Edibayev və onun deputat xanımı məndən sonrakı məruzəçilərin çıxışlarını gözləmədilər. Özləri birbaşa etirazlarını bildirdilər. Bu etirazlar mənə tanış idi. Azərbaycanda da, keçmiş Sovetlər Birliyindəki bir çox araşdırıcılardan da eşitmişdim. Hətta ciddi araşdırıcı olan dostlarımla da bu mövzuda dəfələrlə mübahisələrimiz olmuşdu.

Onlara görə 1937-1938-ci illərdə həbs edilənləri KQB müstəntiqləri döyərək yalan yazmağa məcbur ediblər. O illərdə, heç bir qruplaşma, gizli təşkilat olmayıb. Bütün bunlar KQB müstəntiqlərinin uydurmasıdır. Qəribədir ki, bu fikirdə olanların əksəriyyəti repressiyaya məruz qalmış aydınların heç olmasa 5-6-nın istintaq materiallarını oxumayıblar. M.Edibayev və onun deputat xanımı da belələrindən idi. Onlar repressiya olunanlara bəraət veriləndən sonra haqlarında yazılanlara dayanaraq fikir söyləyirdilər.

Bölmədə iclasa sədrlik edən Ali Akar rus dilini yaxşı bilmədiyindən söhbətin nədən getdiyini tam anlamır və onları da başa sala bilmirdi ki, qaydalara əməl etsinlər, sakit olsunlar. Toplantının sonunda

fikirlərini deyə bilərlər. Mırzabergen Malbakov isə nədənsə susurdu. Belə başa düşdüm ki, onlarla həmfikir idi. Mən isə opponentlərimə dedim ki, ilkin qaynaqlarla, KQB-nin istintaq materialları ilə tanış olmayanlarla mübahisəyə girişmək fikrim yoxdur.

Təsadüfən salona gəlmiş rektor Lesbek Taşimov başqırdları sakitləşdirdi. Dedi ki, qarşıdakı illərdə repressiya ilə ilgili geniş bir simpozium düzənləməyi planlayırlar. Oraya yalnız ilkin sənədlərə dayanıb məruzə hazırlayanları dəvət edəcəyik. Ona kimi siz də KQB-nin arxivindəki materiallarla tanış olarsınız. Gəlib burada geniş müzakirə edərsiniz.

Onun sözü başqırdları da, onlarla eyni fikirdə olanları da sakitləşdirdi.

Özbək dilini ortaq türk dilinə çevirmək istəyən ideoloq

Elmi simpoziumlarda, konqrelərdə, konfranslarda mübahisələr yalnız məruzələr dinlənən salonlarda olmur. Bəzən fasilədə, yemək süfrəsi arxasında, gəzintidə də davam edir. Özbəkistanlı professor Bəxtiyar Kərimovla ötən simpoziumlarda başlanan mübahisəmiz Türküstanda davam etdi. Bəxtiyar Kərimova görə özbək dili qədim türk dilinə daha yaxındır. Onun ortaq türk dilinə çevrilməsi üçün keçmiş Sovetlər Birliyində yaşayan türk xalqları Özbəkistanın

proqramını müdafiə etməli, özbək dilini ortaq türk dilinə çevrilməsində ona köməklik



Şəkildə soldan ...., Əli Şamil, Mirali Rizai (Nəqədey), Bəxtiyar Kərimov, ...

göstərməlidirlər. Mənim fikrimcə, bu gün ortaq türkcə deyilən bir dil yaratmaq mümkünsüzdür. Elmi simpoziumlarda, rəsmi danışıqlarda, toplantılarda danışmaq üçün ünsiyyət dili lazımdır. Sovetlər Birliyi dövründə rus dilindən necə istifadə edirdiksə, indi də Türkiyə türkcəsindən eləcə istifadə etməliyik. Çünki Türkiyə daha güclü bir dövlətdir, onun iqtisadiyyatı keçmiş Sovetlər Birliyində yaşayan xalqlardan daha çox inkişaf edib. Türk xalqlarının yüzlərlə gənci Türkiyənin ali təhsil ocaqlarında oxuyur, xəstə-xanalarında, elm ocaqlarında ixtisaslarını artırır. Televiziya-radio kanallarının sayı çox, texniki

imkanları güclü olduğu kimi onların çəkdikləri filmlərə də daha çox baxılır.

Bəxtiyar Kərimov isə mənim dediklərimi heç cür qəbul etmək istəmirdi. Orta yüzillərə aid faktlardan yapışıb qalırdı. Hər dəfə görüşəndə mübahisələrimiz uzun-uzadı davam etsə də, incikliyimiz, küsülülüyümüz olmurdu.

Bakıda nəşr edilmiş "Axısqalı Xəstə Hasan" kitabımın təkmilləşdirilmiş variantını aşığın nəslindən olan və Talqar şəhərində yaşayan, iş adamı Abbasəli Paxralı oğlu Almatıda nəşr etdirmişdi. Kitab mənə çatmamışdı. Almatıda yaşayan dostum Elçin Abbaslıya Türküstana gedəcəyimi demişdim. O da mənə zəng vuraraq Abbasəli ilə görüşüb 30 kitab aldığını və qatarla Türküstana göndərdiyini bildirmişdi. Elçin Abbaslı zəng vuranda Bəxtiyar Kərimov yanımda idi. Söhbətin nədən getdiyini bildi və dedi: *"Oğlum Bahadur burada doktoranturada oxuyur. Özbəkistandan gələn tələbələrə də rəhbərlik edir. Burada rahat yaşasın deyə maşın da almışam. Deyərəm gedib Əli amcasına göndərilən kitabları alıb gətirər"*.

Mən də zarafata salaraq: *"Bəxtiyar əkə, siz özbək dilinin ortaq dil olması uğrunda bu qədər mübarizə aparırsınız. Amma özünüz də çox vaxt Türkiyə türkcəsində danışmağa meyillənirsiniz"* – deyəndə, kəskin etiraz etdi. *"Ola bilməz"*- dedi. Mən də gülərək: "*Bax bu dəqiqə mənimlə danışanda "Əli*

əkəyə göndərilən kitabları gətirsin" demədiniz. "Əli amcasına gətirilən kitabları" – dediniz.

Bəxtiyar Kərimov bir az duruxub sonra gülərək: *"Özümdən asılı olmayaraq gah türkiyəlilərin, gah qazaxların, gah da sizin sözlərinizi işlədirəm*" – dedi. Mən də gülərək: *"Demək uzun-uzadı mübahisələrimizə gərək yoxdur. Özümüzdən asılı olmayaraq bir gün ortaq ünsiyyət dili yarandığını görəcəyik. Hamımız evdə ailəmizin, tanışlarımızın, qohumlarımızın yanında ata-anamızdan öyrəndiyimiz dildə, toplantılarda isə burada öyrəndiyimiz dildə danışacağıq"*

Bəxtiyar Kərimov fikrimlə razılaşmasa da, etiraz da etmədi. Bahadur Kərimov səhər tezdən məni hoteldən götürüb dəmiryol vağzalına apardı. Kitabları alıb geri qayıtdıq.

Kitabları konqre iştirakçılarına bağışladım, bir neçəsini də onlar vasitəsilə Türkiyədəki, Özbəkistandakı və Türkmənistandakı folklorçu dostlarıma göndərdim. Daha pul verib poçt ilə göndərməyə ehtiyac qalmadı.

Söhbət zamanı Bəxtiyar Kərimova yolumu qısaltmaq üçün təyyarə ilə Daşkəndə, oradan avtobusla Türküstana gəlmək istədiyimi deyəndə *"Aman, aman! Bir daha o fikrə düşməyin. İş dalınca yazda Rusiyaya gedib, payızda evlərinə dönən özbəklərin çoxu sənin gəlmək istədiyin yoldakı sərhədi keçirlər. Qazaxıstandan qatarla Rusiyaya gedirlər.*



Sovet dövründə tənqid edilən Ablay xana Qazaxıstan müstəqilliyini elan etdikdən sonra Türküstan dəmiryol vağzalında qoyulan heykəlin önündə

Mən gələndə sərhəd keçid məntəqəsində elə bir basırıq vardı, gəl görəsən. Diplomatik pasportum olmasına baxmayaraq, basırığı keçib sərhədçilərə yaxınlaşa bilmirdim. Sərhədə gəlməyimlə oranı keçməyim 8 saatdan çox çəkdi. Oturmağa yer yox, bir stəkan su tapmaq problem, tualet məsələsi də tamam başqa bir mövzu. Tualet adlandırılan yerə üfunətdən yaxınlaşmaq olmur. Oradan gəlmək istəsən, sərhəddəki vəziyyəti görüb, yəqin, Daşkəndə qayıda-caqdın. Görüşüb söhbət edə bilməyəcəkdik"- deyir.

Çimkəndli Axısqa türkləri

Toplantının birinci günü qeydiyyatdan keçib konqre proqramını alıb yaxalığımı yeni taxmışdım. İki nəfər mənə yaxınlaşıb əl verib görüşəndə qucaqladılar da. Tanımadığım adamların mehribanlığına təəccüblənmədim, onlar kimi mən də kövrəldim. İlk dəfə gördüyüm adamlar özləri haqqında bilgi verməyə tələsmirdilər. Konqredən verilən yaxalığı da asmadıqlarından adlarını, soyadlarını öyrənə bilmirdim. Daha yaşlısı "Kimlərdənsiniz?" – deyə soruşdu.

Mən sualı cavablandırmağa hazır deyildim. Beynimdən yüzlərlə fikir keçdi. Qarşımdakı adamları tanımağa çalışırdım. Qazaxıstana sürgün edilmiş uzaq qohumlarımdan və ya həmyerlilərimdən ola biləcəklərini düşündüyümdən dedim:

– Göyçənin İnəkdağ kəndindənəm.

Onlar bir-birinə baxdılar və soruşdular: "Axısqadan kimlərin xısımısınız (qohumusunuz)?" Danışıqlarındakı xısımından sözündən və verdikləri sualdan Axısqa türklərindən olduğunu bildim. Ümidlərini puç etməmək üçün dedim: *"Axısqalıların həpsi mənim, azərbaycanlıların xısmıdır. 1937-ci ilə kimi hamımız türk idik. Ömər Faiq Nemanzadəni Azərbaycanda tanımayan az adam olar. Əhməd Pepinov Azərbaycan Cümhuriyyətinin bakanı olub. Xasta Hasanın şeirlərini Borçalı aşıqları oxuyur..."* sözümü kəsərək: *"Bu ilin yanvarından "Ahıska" qəzetində ardıcıl olaraq sizin*

“Axısqalı Xasta Hasan” kitabınızdan parçalar verirlər. Oxuyur və qürur duyuruq. Ona görə elə bildik, axısqalısınız. Ağlımıza gəlməzdi ki, belə bir kitabı axısqalı yazmasın. Göyçədə doğulsanız da, kitabı axısqalı ürəyi ilə yazıbsınız”- dedilər.

Gülərək onların fikrini təsdiqlədim. İçimdə qəzetin təbliğatçılıq fəaliyyətini alqışladım. Qazaxıstanda bir neçə elmi məqalələrim çap olunub. Onlardan biri də 2007-ci ildə Abay adına Dövlət Pedaqoji Universitetində keçirilən simpoziumda oxuduğum “Hasta Hasanın şiirleri Kazakıstanda” məruzəmdir. Məruzəm simpozium materialları kitabında çap olunsa da, axısqalıların diqqətini çəkməyib. Adətən, elmi məqalələri məhdud sayda araşdırıcı oxuyur. Qəzeti isə yaşından, peşəsindən, vəzifəsindən asılı olmayaraq hamı oxuyur.

Adımı proqramda görən Sədir Hasanov və İbrahim Türki də qəzeti diqqətlə izlədiklərindən mənimlə görüşməyi qərarlaşdırıbmışlar. Axısqadan olan və Çimkəndə sürgün edilən Sədir Hasanov və İbrahim Türki elmə, ədəbiyyata maraqlı, milli mədəniyyətlərini yaşatmağa can atan insanlardandır. Çimkənddəki Axısqalılar dərnəyinin də fəal üzvüdürlər.

Onlar mənə konqredən sonra bir neçə gün Çimkənddə qalmağı, Axısqa dərnəyinin üzvləri ilə görüşməyi təkid etdilər. Məni razı salmaq Xəstə Hasanın şeirlərini bilən adamlarla, aşıqlarla görüşdürəcəklərini, geri dönüş biletimi də dərnəyin hesabına ala-

caqlarını dedilər. Öncədən işlərimi planlaşdırmadığımdan onların istəklərinə əməl edə bilmədim.

Konqrenin ikinci günü görüşəndə İbrahim Türki "Axısqa türklərinin tarixi, ədəbiyyatı və aşıqları" adlı kitaba "Ali Şamil qardaşıma. Müəllifdən. Türküstan. 20.04.2013" avtoqrafı yazıb mənə bağışladı.

2007-ci ildə Çimkənddəki "Kitab" nəşriyyatında çap edilən kitabı İbrahim Türki hazırlasa da, oradakı tarix bölümünü Sədir Hasanov, nəzm və nəsr bölümünü Məmməd Mürsəl oğlu ilə Kamal Qarayev, aşıqlar bölümünü aşıq Polad Məmməd oğlu ilə aşıq Bəçət Məhəmməd oğlu, "yazma ədəbiyyat" bölümünü İlham Katib (İlham İbrahim oğlu Xukayev) yazıb.

Kitabın 378-404-cü səhifəsindəki "Axısqa türk aşığı Xəstə Hasan haqqında nağıl" və "Xəstə Hasan" yazıları daha çox diqqətimi çəkdi. Orada Xəstə Hasan haqqında dastan rəvayətlər verilmişdi. Bu da aşığın ömür yolu haqqında fikirlərə aydınlıq gətirə bilər.

Sədir Hasanov və İbrahim Türkinin məruzələrini də diqqətlə dinlədim. Peşəkar araşdırıcı məruzələri deyildi.

Ayrılanda ünvanlarımızı, e-maillərimizi, telefon nömrələrimizi bir-birimizə verdik. Konqre iştirakçılarını aprelin 21-də İstanbula yola salmaq üçün Çimkəndə gətirəndə Sədir Hasanov və İbrahim Türki zəng vurdular. Hər ikisi xahiş edirdi ki, onların

qonağı olum, ailə üzvləri və dostları ilə görüşüm. Vaxt az olduğundan istəklərini yerinə yetirə bilmədiyimə heyfsiləndim.Türküstana çatdığımız gündən geri dönənədək universitetdə oxuyan azərbaycanlı tələbələrin əksəriyyəti yanımızda oldular. Onların bir neçəsinin valideynini uzaqdan tanısam da, Zaur Allahmanlının atası Məhəmmədi və əmisi Mahmudu yaxından tanıyırdım. Xalq Cəbhəsinin fəallarından olan Məhəmməd Allahmanlı bir neçə il öncə dünyasını dəyişmişdi. Folklorşünas alim, professor Mahmud Allahmanlının əsas iş yeri Azərbaycan Dövlət Pedaqoji Universiteti olsa da, yarımştat AMEA Folklor İnstitutunda da işlədiyindən tez-tez görüşürdük.

Tələbələrin bir-birləri ilə xoş münasibətləri, dara düşəndə yardımlaşmaları sevindirici hal idi. Necə deyərlər, əllərinə düşən pulu birgə xərcləyirdilər. Qərib yerdə kiminsə ac qalmasına, korluq çəkməsinə imkan vermirdilər. Universitetin Türkiyə tərəfdən rektor vəkili professor Salih Aynural mənimlə söhbətində onlardan bəzi gileyləri də etdi. Dedi ki, burada Qazaxıstandan, Türkiyədən olan tələbələr daha çoxdu. Amma yeganə Azərbaycanlı tələbələrdi ki, biri universitetdə, şəhərdə kiminləsə dalaşıbsa, hamısı toplaşıb onu müdafiə etməyə gedir. Bu da çox təhlükəli haldır. Kütləvi davalarda xəsarət almalar, ölüm hadisəsi də baş verə bilər. Buna görə həmişə onları nəzarətdə saxlamağa çalışırıq.

Türküstanda Xocalı soyqırımı abidəsi Universitet şəhərciyində Xocalı soyqırımına qoyulmuş abidə



Tələbələr Türkiyədən olan müəllimlərin rüşvət almadıqlarını, qazaxıstanlı müəllimlərinin bəzilərinə rüşvətlə qiymət yazdırmaq mümkün olduğunu söylədilər

Universitetin gələcəkdə güclü bir türkoloji mərkəzə çevrilməsi nəzərdə tutulsa da, hələ istənilən səviyyəyə gəlib çatmayıb. Tələbələrə ayda Türkiyə tərəf 120, Qazaxıstan tərəf 60 dollar həcmində təqaüd və vətənlərinə gedib-gəlmə xərcləri verir. Yeni tikilmiş rahat yataqxana da gənclərin mənzil, iaşə problemlərini ödəyir. Bütün bunlara baxmayaraq, Azərbaycandan buraya əsasən testdən keçə bilməyən gənclər gəlir. Bu da tədrisin səviyyəsini aşağı salır.

Tələbələrə ayda Türkiyə tərəf 120, Qazaxıstan tərəf 60 dollar həcmində təqaüd və vətənlərinə gedib-gəlmə xərcləri verir. Yeni tikilmiş rahat yataqxana da gənclərin mənzil, iaşə problemlərini ödəyir. Bütün bunlara baxmayaraq, Azərbaycandan buraya əsasən testdən keçə bilməyən gənclər gəlir. Bu da tədrisin səviyyəsini aşağı salır.

Türkiyədən gələn müəllimlər və texniki heyət bütün gücləri ilə tələbələrə milli şüur aşılamağa çalışırlar. Buna nail də olurlar. Azərbaycanlı tələbələrin təşəbbüsü ilə universitet şəhərciyində Xocalı soyqırımı abidəsi qoyulub. Azərbaycanlı tələbələr bizi böyük həvəslə oraya apardılar. Hər il universitetin tələbə və müəllimləri ilə birlikdə buraya gələrək erməni quldurlarının vəhşicəsinə qətlə yetirdikləri Xocalı qurbanlarının xatirəsini andıqlarını, ruhlarına fatihə oxuduqlarını dedilər.

Azərbaycan tələbələri 28 Mayda, 18 Oktyabrda və b. əlamətdar günlərdə maraqlı tədbirlər hazırlayıb müxtəlif ölkələrdən gələn gənclərə respublikamızı tanıtmağa çalışırlar.

Sırdərya (Seyhun) sahilində

Klassik ədəbiyyatımızda və orta yüzilliklərə aid yazılarda Ceyhun, Seyhun kimi yazılan çayların adlarını nə vaxt və nədən Amudərya, Sırdərya elədiklərini bilmirəm. Konqrenin sonuncu günü Sırdərya

gəzintisinə gedəcəyimizi oxuyanda təşkilatçılara ürəyimdə: "çox sağ olun" – dedim.

Səhər qəhvəaltısından sonra çantalarımızı da avtobusların yük yerinə qoyub Sırdəryanın kənarında universitetin işçiləri üçün təşkil etdiyi istirahət mərkəzinə yola düşdük. Yolboyu düzənlikdə əsasən yovşan və yulğun kolları, hərdən bir də saksaul ağacları görünürdü. Bəzi yerlərdə yeni açmış lalələr vardı.

Mənimlə yanaşı oturmuş rektor vəkili, professor Salih Aynural çöllüyü göstərərək: – *Bu il Sırdərya yaman daşdı. Çay boyu bəndlər vurulmasına, su anbarları yaradılmasına baxmayaraq, sahilindən bir neçə kilometr aralı olan çölə yayıldı. Gördüyünüz bu yerlər tamam suyun altında qalmışdı. Su çəkiləndən sonra çuxurlarda yaranmış gölməçələrdən uşaqlar balıq tuturdular. Ehtiyatsızlıq insan ölümünə, malqaranın tələf olmasına gətirib çıxardı. Çayın daşması xeyli ziyan vurdu. Yollar, binalar, körpülər dağıldı,* – dedi.

Həmsöhbətimə cavab olaraq:

– Seyhun çayının belə dəliliyi çox olub. Dəfələrlə daşıb yatağını dəyişib. Bu gün gördüyümüz yerlər Qazaxıstan Respublikası adlanır. 80-90 il öncə isə bu yerlər Qırğız çölü adlanırdı – İndi bunu qazaxların yanında desəniz, acıqları tutacaq. Elə bil yaddaşları pozulub. 1917-1918-ci ildə çağırdıqları qurultayları, – dedim.



Elmira Fikrətqızı (Məmmədova), Kəmalə Ələkbərova və Əli Şamil

Birinci Qırğız Qurultayı, İkinci Qırğız Qurultayı adlandırırdılar. Alihan Törə, Ahmed Baytursun, Maqjan Jumabayev, Mustafa Çokay və b. özlərini qırğız sayır, toplantılarının hamısını da qırğız toplantısı adlandırırdı.

Mustafa Çokayın adını çəkəndə gülmək məni tutdu. Salih Aynural nəyə güldüyümü başa düşmədiyindən təəccüblə mənə baxdı:

– Sayın Salih Aynural, Mustafa Çokay haqqında xatirələri oxuyubsunuzmu? – deyə xəbər aldım.

– Mustafa Çokay haqqında qazaxca, türkcə xeyli yazı oxumuşam. Sizin nəyi nəzərdə tutduğunuzu bilmədim.

– Mustafa Çokay yeniyetməliyində yaşıdları ilə qırğız çöllərində dana minərlərmiş. Yönlərini də Seyhun çayına doğru çevirərlərmiş ki, danalar çox uzağa getməsin. Yarışın qalibi olmaq üçün dananın quyruğunun altına bibər-istiot sürtərlərmiş. Arxaları qızışan danalar özlərini suya – Seyhun çayına çatdırmaq üçün qaçarlarmış – deyəndə Salih Aynural elə güldü ki, ətrafımızdakılar dönüb bizə baxdılar.

Salih Aynural:

– Bundan sonra gərək Mustafa Çokayın haqqında yazılanları yenidən oxuyam.

Bölgənin tarixindən, keçmişindən, gələcəyindən söhbət edə-edə, çala-çuxur, tozlu yolları keçib Seyhun çayının sahilinə çatdıq. Çay sahilindəki *qələmə* dediyimiz qovaq fəsiləsindən olan meşə zolağı gözəl idi. Bu meşə zolağı təbii yaranıb. Çayın daşmasından yaranan yeraltı sulardan qidalanan ağacların yarpaqları par-par parıldayır. Çay daşanda da bəzən sahilindəki meşə zolaqlarını da yuyub aparır.

Seyhun çayı dağlardan münbit torpaq, bitkilərə lazım olan minerallar, gübrələr gətirir. Daşanda isə onun həcmi daha da artır. Ona görə də Seyhun çayının suyu ilə suvarılan torpaqlar bol məhsul verir. Çay yatağında daşa, çınqıla, quma rast gəlmək olmur. Su elə durğundur ki, adam ilk baxışda çayın hansı tərəfə axdığını müəyyənləşdirməyə çətinlik çəkir.

Çayın sahili də, yatağı da saqqız kimi sarı palçıqdır. Ayağını qoyanda dartıb çıxartmaq olmur. Ona görə də çayda insanın da, heyvanların da üzməsi çox təhlükəlidir. Saqqız kimi palçığa batıb çayın qurbanına çevrilirsən.

Göydən "od yağan" çöldə çay sahilinin mehi və qovaq ağaclarının kölgəsi cənnət təsiri bağışlayır. Bunu nəzərə alan universitetin rəhbərliyi əməkdaşlarının gəlib burada sərinləməsi və dincəlməsi üçün yüngül binalar tikiblər.

Orada bir neçə saat gəzinib söhbət etsək də, çaya yaxın düşə bilmədik. Sahilindəki palçığa ayaq qoyan kimi dizə qədər batır, ayağımızı dartıb çıxara bilmirdik.

Naharı universitetin istirahət mərkəzində etdikdən sonra Çimkəndə doğru yola çıxdıq.



Şəkildə: Əli Şamil və gürcüstanlı araşdırıcı Mzisa Buskvadze

Normal halda bir saata getmək mümkün olan yolu təmir işlərinə görə üç saata gedə bildik. Çimkənddə qonaqlara milli qazax yeməkləri verdilər. Axşam saat 20:00-da İstanbula uçmaq üçün Çimkənd hava limanına gəldik.

24-30 aprel 2020-ci il.

Məqalə Əli Şamil. "Parçalanmış Türküstanı gəzərkən". (Bakı: "Elm və təhsil", 2021) kitabının 85-114-cü səhifələrindən alınmışdır.

ƏLİFBA İSLAHATÇISI, FOLKORÇU, PEDAQOQ, DÖVLƏT QURUCUSU AHMET BAYTURSUNOV

Özət

Qazaxların Arqun nəslindən olan Ahmet Baytursunov 1872-ci ildə doğulub. 1895-ci ildə Orenburq müəllimlər seminariyasını bitirərdikdən sonra qəzalarda müəllim işləyib. Hökümət əleyhinə təbliğat apardığına görə 1907-ci və 1909-cu ildə həbs edilib. 1911-ci ildə "Masa" (Ağcaqanad) adlı ilk şeirlər kitabını, 1913-cü ildə qazax yırçılardan topladığı "Er Sayin" dastanını nəşr etdirib. 1913-cü ildən "Kazax" qəzetinin redaktoru olub. Qazax-qırğızların "Alaş" milli təşkilatının (bu təşkilat sonralar partiyaya

çevrilib), eləcə də 1917-ci ildə keçirilən qazax-qırğız qurultaylarının təşkilatçılarından olan Ahmet Baytursunovu Torğay vilayətindən Rusiya Müəssələr Məclisinə seçib.

Əlixan Bekeyxanovun rəhbərliyi altında qurulan Alaş Orda Hökumətinə Ahmet Baytursunov da daxil olub. 1919-cu ilin aprelində sosialist yönlü bir qrupun tərkibində Moskvaya gedərək Sovet rəhbərləri ilə görüşüb.

1926-ci ildə Bakıda keçirilən I Türkoloji Qurultayda iştirak edib və latın əlifbasının deyil, islah olunmuş əski əlifbanın tərəfdarı kimi çıxış edib. 1929-cu il iyunun 12-də həbs edilib. 1934-cü ildəhəbsdən azad edildikdən sonra Almatı şəhərinə dönüb.

1937-ci ildə onu yenidən həbs edərək güllələnib.

Açar sözlər: Ahmet Baytursunov, qazax, Alaş Orda hökuməti, əlifba islahatçısı, I Bakı Türkoloji Qurultayı.

ALFABE REFORMCUSU, HALKBİLİMCİ, PEDAGOG, MEMUR AHMET BAYTURSUNOV

Ali Şamil Hüseyinoğlu
Azerbaycan Milli Bikimler Akademisi Folklor Enstitüsü başkanının Uluslararası İlişkiler Danışmanı

Özet

Kazakların Argun neslinden olan Ahmet Baytursunov 1872 senesinde doğar. 1895 yılında Orenburg öğretmenler okulunu bitirdikten sonra çalışmak için bölgelere gider. Hükumet aleyhinde propoganda yaptığı için 1907 ve 1909 yıllarında hapsedilir. 1911 yıllnda "Masa" (Sivrisinek) adlı ilk şiirler kitabını, 1913 yılında kazak yırçılardan topladığı "Er Sayin" destanını yayımlatmış. 1913 senesinde "Kazak" gazetesine editörlük yapmaya başlar. Kazak Kırgızların "Alaş" milli teşkilatının (bu teşkilat sonralar parti olur), hem de 1917 yılında düzenlenmiş Kazak-Kırgız kongresinin organizatörlerinden biri Ahmet Baytursunov Torğay vilayetinden Rusya Müessisler Meclisine seçilir.

Ali han Bekeyhanov'un rehberliyi altında kurulan Alaş Orda Hükumetine Ahmet Baytursunov da dahil olur. 1919 yılı Nisan ayında sosyalist yönümlü bir grup ile Moskova'ya gelerek Sovyet rehberliği ile görüşür.

1926 yılında Bakı'da düzenlenmiş I Türkoloji Kongreye katılır ve Latin alfabesinin değil, reform olmuş eski alfabenin taraftarı gibi sunum yapar. 1929 senesi Haziran'ın 12'de tutuklanır. 1934 yılında hapisten çıkar ve Almatı şehrine döner.

1937 senesinde yeniden tutuklanır ve kurşuna dizilir.

Anahtar kelimeler: Ahmet Baytursunov, Kazak, Alaş Orda hükumeti, alfabe reformcusu, I Bakı Türkoloji Kongresi.

AHMET BAYTURSUNOV, THE ALPHABET REFORMER, FOLKLORIST, PEDAGOG, EMPLOYEE

Ali Shamil
The Counselor of International Relationship of Folklore Institute

Ahmet Baytursunov who is the member Argun was born in 1872. He begun work as a teacher after finishing The Teacher Seminary of Orenburg at 1895. He was arrested because of propagating against the government in 1907 and 1909. Was published his first poem book by the name Masa at 1911, and the book of "Er Sayin" saga, collected from the kcazakh yirchis (singer of traditional music). He was an editor of newspaper of "Kcazakh" at 1913.

Ahmet Baytursunov who was the member of organization of "Alash" and was one of the organizers of Kcazakh-Kcirgiz congresses, was selected to the Assembly of Russia at 1917.

Ahmet Baytursunov was accepted to the administration of Alash Orda which was established by Ali khan Bekeykhanov. He had meet the Soviet leaders at Moscow on 1919.

He took part at the 1st Turkologic congrees which was organized at Baku on 1926. Ahmet Baytursunov protested to use the Latin alphabet, he was a supporter of reformed Old Arabic alphabet. Was arrested on 12 July of 1929. He turned back to Almaty city after imprisonment on 1934.

He was execute by shooting on 1937.

Key words: Ahmet Baytursunov, kcazakh, Alash Orda admnistration, alphabet reformet, 1st Turkological Congress

Giriş

Müstəmləkəçilər işğal etdikləri bölgələrin maddi və mənəvi sərvətlərini daha çox və daha tez mənimsəmək üçün yerli əhalinin öndəgedənlərindən istifadə edirlər. İşğalçılara açıq və sərt müqavimət göstərənləri öldür, həbsxanalara atır, sürgünlərə göndərir, tabe olanların, yeni ağalarına sədaqətlə qulluq edəcəklərini nümaiş etdirənlərin, mülayim davrananların, baş əyənlərin nəinki özlərinə, hətta

övladlarına və yaxın qohumlarına da müəyyən imtiyazlar verirlər.

Rusiya da müstəmləkəçilərin klassik metodundan yararlanaraq öncə işğal etdiyi bölgələrin öndərlərinin övladlarının bir qismini özünün ciddi nəzarəti altında olan təhsil ocaqlarında oxudur, sarayda və hərbi hissələrdə müəyyən qulluqlarda işlədərək təlim verir, sədaqətinə inandıqdan sonra döğulub boya-başa çatdığı bölgəyə idarəetmə və nəzarət sahəsində işləməyə göndərirdi.

19-cu yüzildə sənayenin sürətlə inkişafı ixtisaslı mütəxəssislərə, müxtəlif peşə sahiblərinə, ali və orta ixtisaslı insanlara tələbatı artırırdı. Tələbatı kənardan gətirilən kadrlarla ödəmək mümkün olmurdu. Buna görə də çar Rusiyası həm kadra olan tələbatını ödəmək, həm də bölgə əhalisini xristianlaşdırmaq, ruslaşdırmaq üçün ibtidai və orta təhsil verən məktəblər açır, oradan seçilənləri isə ali məktəblərdə oxudurdu.

İşğal edilmiş bölgələrdə işləməyə göndərilmiş məmurların övladlarının təhsil alması üçün açılan ibtidai və orta məktəblərdə yerli seçkinlərin uşaqlarının oxumasına da icazə verilirdi. Hökümət vəsaiti hesabına açılmış bu məktəblərdə yerli xalqların dillərinin, adət-ənənəsinin öyrənilməsinə də çəhd göstərilirdi. Lakin həmin məktəblər sürətlə artan tələbatı ödəmirdi. Buna görə də yerli təşkilatların büdcələri, xeyriyyə təşkiltlarının maliyə dəstəyi və

valideyinlərin vəsaiti hesabına da məktəblərin və təlim kurslarının açılmasına icazə verilirdi. Bu məktəblərdə tədris proqramından tutmuş, təlim-tərbiyəyədək hamısı hökumət məmurlarının nəzarəti altında olurdu.

Milli ziyalıların açdıqları təhsil müəssisələrinin əksəriyyətində proqram Rusiyanın hökumət məktəblərinin proqramı əsasında tərtib olunurdu. Rus şovinizmi ölkədə əsarət altındakı xalqlar üçün də hakim ideologiyaya çevrilmişdi. Proqram materiallarında, dərs deyən müəllimlərin söhbətlərində imperiya tərifl ənir, tərənnüm edilir, əsarət altında qalan xalqlar isə geridəqalmış kimi təqdim edilirdi. Müəllimlərin, şagird və tələbə yoldaşlarının davranışları müstəmləkə altında olan xalqların ayıq övladlarına da təsir edirdi. Onlar da öz xalqlarını azad görmək və demokratik bir cəmiyyətdə yaşamaq üçün yollar axtarırdılar.

Buna görə də dünyanın inkişaf etmiş ölkələrinin tarixini, mədəniyyətini öyrənir, onların təcrübəsindən yararlanmağa çalışırdılar. Müstəmləkə altında olan xalqlarının öndərlərinin mübarizə formaları və metodları bir birindən fərqlənirdi. Buna görə də mübarizədə fikir birliyinə nail ola bilmir, bəzən də güclərini biri-birini sıradan çıxarmağa sərf edirdilər.

Bütün ziddiyyətlərə, qarşıdurmalara, xəyanətlərə baxmayaraq xalq dar gündə ümidini oxumuşlara, ziyalılara bağlayırdı. Qazaxların məşhur nəsillərindən

olan Ahmet Baytursunov mustəmləkəçilərin nəzarəti altında olan təhsil ocaqlarında tərbiyə alsa da, ömrünü xalqının xoşbəxt gələcəyi üçün mübarizəyə həsr etmişdir.

1.**Ahmet Baytursunovun nəsli və ailəsi**

Ahmet Baytursunovun doğum tarixi qaynaqlarda fərqli-fərqli göstərilir. Bu da səbəbsiz deyil. Nəinki onun doğulduğu illərdə, hətta ondan 100 il sonralar da yeni doğulan uşaqların çoxuna doğum şəhadətnaməsi yazılmırdı. Yüz illər boyu qazaxlarda doğum və ölüm qeydləri ədətən məscidlərdə aparılırdı. Rusiya məscidlərin apardığı qeydləri rəsmi sənəd saymırdı. Doğum və ölüm haqqında qeydiyyatın dövlət idarələrində aparılması qanuniləşdirilmişdi. Əsarət altında qalan xalqlar da məcburiyyət qarşısında qalmasalar dövlət idarələri ilə əlaqə saxlamaq istəmirdilər. Hökumət məmurları isə obaları, qışlaqları gəzərək yeni doğulan və ölənlərin nizamlı qeydiyyatını aparmırdılar.

Ona görə də araşdırıcılar haqqında söhbət açacaqları insanların döğumu və ölümü haqqında çox vaxt rəsmi sənədlərdən deyil, onların müxtəlif illərdə, oxumağa gedərkən, işə girərkən yazdığı özkeçmişlərindən, həbs edilərkən müstəntiqlərin sorğularına verdiyi cavablardan, xatirələrdən istifadə edirlər. Bu da fərqli rəqəmlərin ortaya çıxmasına səbəb olur.

Ahmet Baytursunovun özkeçmişində də bunu aydın görmək ölur. Onun doğumunu gah 1870-ci il, gah 1872-ci il sentyabrın 5-i, gah 1873-cü il yanvarın 15-i, gah 1875-ci il yazırlar. Qazaxıstanlı araştırıcı, Ahmet Baytursunovun ev muzeyinin direktoru R.S.İmaxanbet onlarla sənədi tutuşduraraq bu qənaətə gəlib ki, Ahmetin doğum tarixi 1872-ci il sentyabrın 5-i olmalıdır **(İmaxanbet R.S., 2013:89)**

Qazaxlar onun adı və soyadını Ahmet Baytursınulı kimi yazsalar da, Rusya mənbələrinin təsiri ilə Ahmet Baytursunov kimi tanınır. Əslində Baytursun Ahmetin atasının adıdır. Türklərdə ada ata adı, nəsil-tayfa adları əlavə edilirsə, Rusiyada soyadına daha çox önəm verilir. Ruslar rəsmi məclislərdə insanları adətən öz adları ilə deyil, soyadları ilə çağırır. Bu üsul Rusiya əsarəti altında olan türk, müsəlman xalqlarına da tətbiq edildiyinə görə minlərlə qazax, qırğız, başqırd və b. xalqların övladlarının sənədlərində ata adları soyadı kimi yazılıb. Beləcə Ahmet Baytursun oğlu da Ahmet Baytursunova çevrilib.

Ahmet Baytursunov qazaxların Orta juzun (cuz) Arqun tayfasının Şoşak nəslindəndir. Bu nəsil ulu babaları, xalq batırı (pəhlivan, cəngavər –***Ə.Ş***.) Umbetayla həmişə qürür duymuşdur. Yaşadıqları bölgə də nəslin adı ilə Şoşak bölgəsi adlandırılmışdır. Bu nəsildən olan bir çox nüfuzlu, ötkəm insanların adları tarixə düşmüşdür.

Ahmetin anadan olduğu illərdə Rusiya Qazaxıstanı tamamilə işğal etmiş, Sırım Batur, Colaman Tileniş, İsatay Tayman, Kensarı Kasımoğlu üsyanlarını qəddarlıqla yatırmışdır. Necə deyərlər, Rusiya çarı I Pyotr Çin və Hindistanla ticarət əlaqələri qurmaq, karvan yollarını nəzarət altında saxlamaq üçün varislərinə: "Orda (indiki Qazaxıstan-Ə.Ş.) bütün Asiya ölkələrinə girmənin açarı və qapısıdır. Bütün Asiyaya oradan gedə biləcəyiniz üçün Ordanın Rusiyaya tabe olması lazımdır" vəsiyyətini etmişdir. Varisləri də onun vəsiyyətlərini 150 illik qanlı savaşlardan sonra yerinə yetirə bilmişlər **(Özdemir E., 2007:11).**

Rusiya işğal etdiyi bölgələrdə savaşları durdursa da, soyuq savaş davam edirdi. İşğalçılar Qazax torpaqlarında qalalar tikir, yaylaq-qışla həyatı yaşayan qazax ellərinin köçlərinə nəzarətdə saxlamağa çalışır, karvan yollarından xərac toplayır, bölgədə möhkəmlənmək üçün qazaxların əkinəyararlı torpaqlarını əllərindən alıb oraya Rusiyadan köçürüb gətirdiyi kəndiləri yerləşdirir, ənənəvi idarəetmə sistemini dağıdaraq özününkünü tətbiq edir, yeni inzibati-bölgülər yaradırdı. Ənənəvi olaraq qazax sultanlarından bəylər seçirdi. Rusiya 1824-cü ildə sultanların hökumət tərəfindən təyin edilməsi haqqında qanun qəbul etdi. Qazaxlara vətəndaşlıq hüququ verilmədi, onlar gəlmə statusunda saxlandı.

Ahmet Baytursunovun ata-babasının yaşadığı Torğay (bu ad rusdilli qaynaqlarda Turqay kimi yazılır- **Ə.Ş**.) bölgəsi və Ural bölgəsi Orenburq valiliyinə, Akmola və Semey bölgələri Batı Sibir valiliyin tabe edilmişdi. Çar İkinci Nikolayın 1891-ci il mayın 25-də verdiyi fərmanla dörd bölgə əsasında Omsk mərkəz olmaqla Stepnoy (yəni Çöl) quberniyası yaradılmışdır. Torğay vilayəti də bu quberniyanın ərazisinə daxil edilmişdir **(Stepnoe qeneral-qubernatorstvo,).**

Ahmet Baytursunov Torğay vilayətindəki Jilançık çayının Akkol gölünə töküldüyü yerdəki Sarıtubek aulunda doğulmuş (http://ksu.edu.kz/about/ego_imya_nosit_universitet/) , orada oxuma-yazma bilən insanların, sonra da Buxara mədrəsəsindən gəlmiş bir mollanın yanında ibtidai təhsil almışdır**(Cumabayev M., 1996:3).** "20. yüzyilin baslarında Kazakistan'da fikir hareketleri", mövzusunda doktora tezi yazan türkiyəli araşdırıcı Emin Özdemirin fikrincə, Ahmet Baytursunov mollaxananı bəyənmədiyinə görə atası onu iki sinifli Rus-qazax məktəbinə oxumağa göndərmişdir **(Özdemir E., 2007:11).**

2.Şoşakların məmurlarla toqquşması və həbslər

Şoşak nəsli ata-baba yurdları Torğay və Jinqildi çaylarının birləşdiyi yerdəki qışlaqda olarkən qəza

rəisi, polkovnik Yakovlev kazak dəstəsilə buraya gəlir. Qəza rəisi yaylaq-qışlaq həyatı sürən qazax ellərindən vergi toplamaqla yanaşı, nizam-intizama da nəzarət edirdi. Bölgədə yaşayan qazaxlar sürülərini yaylağa və qışlağa apararkən qəza rəisindən içazə almalı idilər.

Polkovnik Yakovlevin 1885-ci il oktyabrın 12-də (bəzi qaynaqlarda oktyabrın 20-də. – ***Ə.Ş***.) Şoşak nəslindən vergi toplaması qalmaqalsız keçmir. Qəza rəisin gözü qarşısında kazaklar qışlaqdakı qocalara, qadınlara, uşaqlara rəhm etmədən onları döyür, təhqir edir, özlərini soyğunçu kimi aparırlar. Şoşaklar məmurlara müqavimət göstərir. Ciddi qarşıdurma yaranır. Ahmetin atası Baytursun polkovnik Yakovlevi atdan yerə salır. Toqquşmada iştirak edən şoşakların çoxu yaralanır, bir nəfər ölür. Müqavimətlə rastlaşmış, döyülmüş kazaklar başı yarılan və huşunu itirən rəisləri Yakovlevi də alıb qaçırlar **(http://bankreferatov.kz/people/133-2009-01-13-15-58-37.html).**

Az sonra İrqız və Torğaydan qışlağa böyük cəza dəstələri göndərilir. Cəza dəstələti üsyançı adlandırdıqları qazaxlara divan tutur, qışlaqdakıların hamısını aparıb Torğay hərbi dairəsinin qaupvaxtına salır, mal-mülkləri də müsadirə edirlər. Bir il sonra Kazan Hərbi Dairəsinin Məhkəməsi şoşakları mühakimə edir. Rus dilini bilməyən qazaxların dediklərini tərcüməçilər olduğu kimi hakimə çatdırmır,

əksinə, ifadələri Yakovlev və onun kazak dəstəsinin xeyrinə, təhrif edilmiş şəkildə çevirirlər. Hakim bunu başa düşsə də bilərəkdən üstünü vurmur.

Kazan Hərbi Dairəsinin Məhkəməsi Ahmetin atası Baytursunu, əmiləri Aktası, Sabalakı və b. hökumətə qarşı çıxmaqda suçlayır. Baytursunua 15 il həbs cəzası kəsərək Sibirin dərinliklərindəki İtjekkenə, katorqaya yollayır. Qışlaqdakı kişilərin çoxu da müxtəlif müddətli həbs cəzasına məhkum edilir. Ahmetin əmisi Erqazıya da dörd il həbs cəzası verilir.

Uşaqlıqda şahidi olduğu bu hadisəni Ahmet Baytursunov 1909-cu ildə Semey həbsxanasında olarkən yazdığı "Anama məktub" şeirində geniş və duyğusal təsvir etmişdir **(Aytbayev Ö., 2013:12).** Erqazı həbsdən döndükdən sonra qardaşı uşaqlarını da himayəsinə götürür. O, Rus dilini bilmədiklərinə görə məhkəmədə və hökumət idarələrində çox əziyyət çəkdiklərin görür. Gələcəkdə belə hallarla rastlaşanda onlara kömək edə biləcək birisinin olmasını istəyir. Buna görə də qardaşı Aktasın oğlu Aspandiyarı rusca oxutmağı qərara alır. Ahmet də əmisinə rus dilində təhsil almaq istədiyini bildirir.

Anası Künşinin razılığı ilə əmisi Ahmeti 1886-cı ildə də Torğay qəsəbəsindəki ikisinifli rus-tuzem (Qafqazda rus-tatar məktəbi adlandırılan bu tip məktəblər Türküstanda və Sibirdə rus-tuzem məktəbi adlanırdı. Bu məktəblər əsasən kiçik məmur, tərçuməçi hazırlamaq üçün nəzərdə tutulsa da, oranı

bitirənlər çoxu sonralar xalqının öndərinə çevrilmişlər. – ***Ə.Ş***.) məktəbinə oxumağa göndərir (http://bankreferatov.kz/people/133-2009-01-13-15-58-37.html**).** O, bu məktəbi 1891-ci ildə bitirir **(İmaxanbet R.S., 2013:92).** Cünki bir sinifli məktəblərdə təhsil müddəti iki il, iki sinifli məktəblərdə isə təhsil müddəti üç il idi.

3.**Rusiyanın bölgəni xristianlaşdırma, ruslaşdırma siyasəti və Ahmet Baytursunovun təhsil illəri**

Əslində Ahmet Beytursunov və onun kimi yüzlərlə yeniyetmənin mollaxanalardan, mədrəsələrdən uzaqlaşdırılıb, hökumətin, ictimai təşkilatların və Rusiyada təhsil almış ziyalıların açdığı rus-qazax məktəblərinə göndərilməsinin arxasında hökumətin ruslaşdırma siyasəti dururdu. Krım savaşından (1853-1853) sonra Rusiyada millətçilik düsüncəsinin yüksəlməyə başlamasıyla birlikdə panslavyan düşüncəli Rus ziyalıları, Rusiyadaki müsəlman millətlərini ruslaşdırmaq, rus mədəniyyəti içərisində əritmək istəyirdilər. Bunun da yeganə yolunu onların xiristianlaşdırılmaısnda görürdülər.

Çar Rusiyasının müsəlman xalqlarına qarşı apardığı soyuq savaş təhsil sahəsində özünü daha qabarıqlığı ilə göstərirdi. Min ildən çox ənənəsi və tədris metodu olan, şagirdlərə və müəllimlərə böyük sərbəstlik verən mədrəsələrin açılmasını əngəlləyir və

durmadan onu tənqid edirdilər. Təbliğata uyan, Avropanın inkişafından gözləri qamaşan yerli ziyalılar da bilməyərək bu təbliğatın fəal iştirakçısına çevrilirdilər. Hansı ki, günümüzdə ABŞ və Avropanın bir sıra təhsil ocaqları mədrəsələrin tədris metodundan bacarıqla istifadə edir və bunu dünyaya bir yenilik kimi tanıdırlar.

Mədrəsələrin açılmasının əngəllənməsi azmış kimi, uşaqlarını orada oxutmaq istəylər valideyinləri bölgə müdirlərindən yazılı içazə almağa məcbur edirdilər. İçazə almayan valideynlər cərimələnirdilər. Hökumət 1874-cü ildə Qazaxıstandakı bütün məktəb və mədrəsələri Rusya Təhsil Nazirliyinin nəzarətinə götürmüşdü. 1876-ci il qanunu ilə qazax məktəblərinin yanında rus dilində dərs keçilən siniflərin açılması və mədrəsədə dərs deyən müəllimlərin rus dilində yazıb-oxumağı bacarması, rus hökumət məktəblərinin proqramı ilə tanış olması məcburi idi.

Təhsil Nazirliyi 1877-ci ildən qəza müdirlərinin icazəsi olmadan evlərdə, məscidlərin nəzdində məktəb və mədrəsə açılmasını qadağan etmişdi **(Özdemir E., 2007:41-49).**

Təsir isə əks təsir doğururdu. Hökumətin yaratdığı əngəllərə baxmayaraq məktəb və mədrəsələrin, eləcə də evlərdəki, məscidlər yanındakı icazəsiz fəaliyyət göstərən kursların sayı durmadan artırdı. 19-cu yüzilin sonlarında bölgədə məktəb və mədrəsələrin sayı 600-ə çatmışdı. Araşdırıcı H.Sebi-

tovun yazdığına görə, 1895-ci ildə Semey əyalətindəki 17 məktəb və mədrəsədə 900 şagird, Akmola əyalətindəki 15 məktəb və mədrəsədə 340 şagird, Sırdərya əyalətindəki 2409 məktəb və 34 mədrəsədə 28.988 şagird, 1897-cu ildə Yedisu əyalətindəki 88 məktəb və mədrəsədə 12 835 şagird, 1911-ci ildə Torğay əyalətindəki 13 məktəb və mədrəsədə 340 şagird təhsil alırdı. Rusiyanın Həştərxandakı qubernatoru İvanovski milli məktəb və mədrəsələrin artımından bərk rahatsız olurdu. O, 1882-ci ildə hökumət dairələrinə yazdığı məktubda məktəb və mədrəsələrin artmasının qarşısını almaq üçün tədbir görmələrini xahiş edirdi. Mədrəsələrdəki təhsil sisteminin sadəliyi, məzunların "Qurani-Kərim"i və tatarca yazılmış kitabları asanca oxumaları və anlamalarında onu bər narahat edirdi.

Qazaxları rəsmi dövlət məktəbləri vasitəsilə ruslaşdırmağın və xristianlaşdırmağın planlaşdırdıqları sürəylə getmədiyini görən hökumət yetgililəri 1872-ci ildə Almatıda missionerlərdən ibarət bir komitə qurdular **(Mirzahmetov M, 1993:31).** Bu komitənin missionerləri qarşısında iki vəzifə qoyulmuşdu: islam dininin əleyhində təbliğat aparmaq və xristianlığı təbliğ etmək! 1846-cı ildə Kazan şəhərində açılmış İlahiyyat Akademiyanın bitirən yüzlərlə məzun qazax çöllərində, şəhər və qəsəbələrdə, Sibirdə durmadan islam dini əleyhinə təbliğat aparır, xirstianlığı təbliğ edirdilər. 1847-ci ildə təşkil

edilmiş Tərcüməcilər Komitəsi xiristianlığ haqqında dini kitabları türk dillərinə tərcümə edib yayırdı. Hökümət, dini qurumlar, ictimai təşkilatlar xiristianlığı qəbil edənlərə köməklik göstərirdilər. Kilsələr bu işdə xüsusi fəallıq göstərirdi. Orenburq və Ural şəhərlərinin Baş piskoposu Daxili İşlər Nazirinə yazırdı: "Torğay əyalətində din dəyişdirmiş 26 qazax ailənin hər birinə ev tikmək və əkinçiliyi inkişaf etdirmələri üçün ildə 200 ruble (pul vahidi-Ə.Ş.) olmaqla 5200 ruble verilməsini rica edirəm." **(Pirmanov A. ve Kapeyeva A, 1997:69-70)**

Ahmet Baytursunov sonralar, yəni 1913-cü ildə "Kazak" qəzetinin 12-ci sayındakı "Cer cumusunda din cumusun kıstırmalav" məqaləsində yazırdı ki, 1892-ci ildə Kustanayda aclıq üzündən bir qazax kəndi, 1893-cü ildə 69 qazax dinini dəyişib xristian oldu. Rusiyanın qazaxları oturaq həyata keçirməkdə əsil məqsədi budur: yəni qazaxları xristianlaşdırmaq **(Baytursunov A, 1996).**

Ahmet maddi sıxıntı içərisində yaşasa da müəllim olmaq fikrinə düşür. 1891-ci ildə Orenburqdakı Müəllimlər Seminariyasında oxumağa gedir. Ailəsi bölgənin sayılıb-seçilən ailələrindən sayılsa da, atası və əmilərinin həbsi, torpaqlarının əllərindən alınması, vergilərin çoxluğu onu təhsil illərində çox çətinliklərlə üzləşdirir.

Rusiya hökümətinin qanunlarına görə, qazaxların yaşadıqları torpaqlar dövlət torpaqları idi. Bu

torpaqlar yerli xalqa, yəni qazaxlara müəyyən vergi müqabilində heyvanlarını otarmaq üçün verilirdi. Bölgəyə köçürülmüş rusların isə vəziyyəti tamam fərqli idi. Onlar əsasən əkinəyararlı torpaqlarda yerləşdirilmişdilər. 1905-ci ilədək Stepnoe (Çöl) quberniyasında yaşayan qazaxların məhsuldar torpaqlarından 5.144.115 desyatini[1], sonrakı illərdə Rusiyadan, Ukraynadan gətitilən 1 milyon 950 min kəndliyə 30.327.940 desyatin torpaq verilmişdir. Bunun nəticəsində də 1880-ci illə müqayisədə 1905-ci ildə qoyun və keçilərin sayı 24 faiz azalmışdı.

Hələ bu azmış kimi hər bir qazax ailəsindən rus idarəsinin xərclərini ödəmək üçün 2,5-3 ruble[2] vergi alınır, bu vergilərə beş ildə bir ruble artırılırdı. Bundan əlavə poçt yolları və məktəblərin saxlanması üçün də vergi ödəməyə məcbur edilirdilər **(Özdemir E., 2007:17-18).**

Ahmet Baytursunov kimi gənclərinin oxudulması, onlardan hökümət idarələrində istifadə edilməsi Rusiyanın gizli siyasətinin bir parçası idi. Hökumət öncələr qazax çöllərində və Sibirdə yaşayan türkləri soydaşları olan tatarların vasitəsilə istismar etmək istəyirdisə, sonradan bölgədə nüfuzu gücləndikcə onları sıxışdırmağa başladı. Quberniyalara mərkəzdən təlimat göndərimişdi ki, yerli xalqlardan olan

[1]desyatin - Keçmişdə Rusyada geniş istifadə olunan ölçü vahidi. 1 desyatin yaklasık 2.5 dönüm etmektedir.

[2]Rubl-Rusiyada işlədilən pul vahidi.

yeniyetmə və gənclərin təhsil haqqları ödənilsin, tatarlarınkı isə ödənilməsin. 1882-ci ildə qanun ilə quberniya və qəza mərkəzlərində tatar tərcüməçilər qazaxlarla əvəzlənməyə başladı.

1871-ci ildə milli məktəblərə nəzərət üçün müfəttişlik qurudu. Bu müfəttişliyə Radloff rəhbər təyin edildi. Təşkilata tatar məktəb və mədrəsələrini nəzarətdə saxlamaq, Sibirə, Türküstana gedən tatar müəllimlərinin yerli xalqlar arasında işləməsini, türksoylu uşaqlara dərs deməsin əngəlləmək tapşırılmışdı. Rusya tatarların qazaxlara yalnız təhsil sahəsində təsirini azaltmaqla kifayətlənmirdi, din, idarəçilik, mətbuat sahəsinə işləmələrinə də bir sıra məhdudiyyətlər qoymuşdu. Rus ziyalılarının və missionerlərin təsiri ilə hökumət 1868-ci ildə Orenburq müftülüyünün səlahiyyətlərini məhdudlaşdırdı, qazaxları müftülüyün idarə aparatından çıxarıldı. 1886-cı ildə verilən qanun isə tatarların Orta Asiyada geniş torpaq sahələri almalarını əngəllədi **(Özdemir E., 2007:46-58).**

1870-ci ildə martın 27-də Rusiya Təhsil Nazirliyi Qazaxıstanda və Türküstanda təhsilin səviyyəsini artırmaq adı altında missioner Nikolay İvanoviç İlminskinin (1822-1891) də üzv olduğu bir komissya qurur. Penzada doğulan, ortodoks missioneri kimi hazırlanan Nikolay İlminski Kazan İlahiyyat Akademiyasını bitirdikdən sonra 1851-1854-cü illərdə Osmanlı dövlətinin İstanbul, Dəməşq, Misir və b.

şəhərlərinə səyahətə göndərilmişdir. Türk, ərəb, fars dillərini dərindən öyrənən, araşdırmalar aparan, missioner 1861-ci ildə "Türk-tatar dilçiliyi kursuna giriş" kitabını yazmışdır. 1863-cü ildə Kazan Universitetinin türk-tatar dilləri kafedrasının professoru seçilmiş, uzun muddət Kazandakı Müəllimlər Seminariyasına rəhbərlik etmişdir. Rusiyanın əsarət altına aldığı türk-müsəlman xalqlarını ruslaşdırmaq, xristianlaşdırmaq siyasətinin nəzəri və əməli prinsiplərini hazırlayanlardan olan biri də Nikolay İlminski idi. Rusiya Təhsil Naziri D.A.Tolstoyun "Vətənimizin sərhədləri daxilində yaşayan xalqların (O, işğal altına alınan xalqları nəzərdə tutur.-**Ə.Ş**.) təhsili, onların ruslaşdırılmasına və qeyri-şərtsiz rus xalqı ilə qaynayıb qarışmasına xidmət etməlidir" - göstərişinə cavab olaraq Nikolay İlminski yazırdı: "İslam dini var olduqca, rus hərflərinin ərəb hərflərinə qarşı savaşı çox çətin olacaqdır."

Nikolay İlminskinin proqramına görə, Rusiya türk-müsəlman xalqlarının min ildən çox istifadə etdiyi ərəb əlifbasını kril əlifbası ilə əvəzlənməli, hər bir türk ləhcəsi üçün fərqli əlifba hazırlatmalı, bununla da yerli xalqları keçmişlərindən, mədəniyyətlərindən uzaqlaşdırılmalı, bir-birləri ilə əlaqəsini kəsməlidir. Onu bu proqramı çar Rusiyası dövründə tam həyata keçmədisə, Sovetlər çox bacarıqla bunu yerli ziyalıların əli ilə reallaşdırdı.

1870-ci ildə qurulan komissyanın fəaliyyətinin üzdə görünən tərəfi qazax və rus-qazax məktəblərində təhsilin səviyyəsini yüksəltmək idi. Hətta komissiyanın təklifi ilə hökümət 1874-cü ildə rus-qazax məktəblərinin ehtiyacını ödəmək haqqında qanun da vermişdi. Bu qanundan sonra yerli xalqlardan əlavə vergi toplamağa başlanmışdı. Əsdində bu qanun və göstərişlərin hamısının arxasında xalqı əski əfifbadan uzaqlaşdırmaq, öz tarixini, keçmişini untdurmaq dururdu. Bu məktəblərin bir mühümm vəzifəsi də dərslərdə - rus dilinə xüsusu önəm vemək, qazaxları rus dilində danışmağa, rus təfəkkürü ilə düşünməyə alışdırmaq idi. **(Özdemir E., 2007:46).**

Maarif və mədəniyyət vasitəsi ilə xristianlaşdırmanın getdiyi bir vaxtda Ahmet Baytursunov yaşamış, Rus-qazax məktəbində və Orenburq Müəllimlər Seminariyasında oxumuşdur.

4.Xristian türklərindən, çuvaş Aleksandr Alektorovun Ahmet Baytursunova təsiri

Orenburq Müəllimlər Seminariyasını (1895) bitirən Ahmet Baytursunovun dünyagörüşünün formalaşmasına Aleksandr Alektorov (1861-1919) kimi bacarıqlı pedaqoq və xristian missionerinin güclü təsiri olmuşdur. Omsk, Akmola və Semey qəzalarındakı məktəblərə nəzarət edən, bacarıqlı pedaqoq, milliyətcə çuvaş türklərindən olan Aleksandr

Alektorov yalnız Ahmete deyil, onlarla qazax, tatar, başqırd gəncinə güçlü təsir göstərə bilmişdir. Gələcəyin millətsevər, vətənpərvər ictimai-siyasi xadimləri, məşhur pedaqoqları, elm adamları ondan təsirlənmişlər.

Bu da səbəbsiz deyildi. Bölgədə İlminskinin missionerlik fəaliyyəti geniş yayılmışdı. Hökumət də hər vasitə ilə onu və onun tərəfdarlarını dəstəkləyirdi. Aleksandr Alektorov da İlminski ilə tanış olub onun missionerlik fəaliyyətini bəyənmişdi. Lakin onun yolu ilə getməmişdi. Belə ki, o kilsəyə bağlı qalmamışdı. Missionerlik fəaliyyətini təhsil sahəsində davam etdirmişdi. Onun təliminə görə missioner işğal altında olan xalqların dilini, dinini, tarixini, folklorunu, etnoqrafiyasını, həyat tərzini dərindən öyrənməlidir. Bunları bildikdən sonra əsarət altında olan xalqları əritmək üçün tədbirlər görülməlidir.

Ahmet Baytursunov kimi yeniyetmələr, gənclər və ziyalılar da Aleksandr Alektorovun hansı siyasəti yürütdüyünü görmür, onun millətələrinin mədəniyyətini, dilini öyrənməsinə böyük sevgi ilə yanaşır, tapşırıqlarını həvəslə yerinə yetirir, həm də ondan elmi araşdırmaların üsullarını öyrənirdilər. Bu da öz təsirini göstərirdi. Belə ki, Ahmet Baytursunovun gələcəkdə bir folklorçu və dilçi alim, tərcüməçi kimi formalaşmasında Aleksandr Alektorovun təsiri böyük olmuşdur. Qazax alimi A.Aldaşın yazdığına görə, hələ seminariyada təhsil alarkən, yəni 1894-cü ilin

avqustunda Ahmet Baytursunov rus təmsil ustası İvan Krılovdan etdiyi tərcüməni "Dala uyaleti qazeti"ndə çap etdirmişdir **(Aldaşın A. 2013:68)** .

1895-ci ildə seminariyanı bitirən Ahmet Baytursunov Aktöbe qəzasının Batpak nahiyyəsindəki Ahmetgeray Katıbakovun açdığı rus-qazax məktəbində müəllim işləməyə başlayır. Bir müddətdən sonra Ahmet Kustanay vilayətinin Auliekoldakı ikisinifli məktəbə dəyişilir. Həmin illərdə Ahmet Baytursunovun doğulub, boya başa çatdığı Torğay əyalətində 71 rus-qazax məktəbi fəaliyyət göstərirdi, o da müəllim işləməklə yanaşı qələmini bədii yaradıcılıqda da sınamağa çalışırdı. İlk qələm təcrübələrindən olan "Kirqızskaya primetı i poslovitsı" məqaləsi 1895-ci ildə "Turqayskaya qazeta" nın 39-cu sayında çap olunur. **(İmaxanbet R.S., 2013:92).**

Ahmet Baytursunov Auliekoldakı işlərkən evində qaldığı meşəbəyBirinci AleksandrİvanovunqızıAleksandra ilə dostlaşır. 1878-ci ildə Çelyabinskidə doğulan və rus-qazax məktəbində dərs deyən Aleksandra İvanovna ilə Ahmet Baytursunovun dostluğu çılğın bir məhəbbətə çevrilir. Elə bir məhəbbətə ki, onun qarşısını nə missionerlər, nə də kilisə ala bilir. Onlar 1897-ci ildə Troitsk şəhərindəki məsciddə islami qaydada nikahlarını qeyd etdirirlər. Aleksandra İvanovna dəliqanlı sevgilisinin eşqilə adını və ata adını dəyişdirərək Badrisafa Muxammedsadıq qızı edir. Bu cəfakeş qadın ömrünün

sonunadək də rus missionerlərinin, Sovet xüsusi xidmət orqanlarını təzyiqləri altında olsa da Ahmet Baytursunovun bütün ağrı və acılarına şərik olur (http://ksu.edu.kz/about/ego_imya_nosit_universitet/)

1896-cı ildən qazax çöllərini gəzərək etnoqrafik, folkor və dialek materialları toplayan gənc vətənsevər xalqının yaşadığı çoğrafiyanı, millətinin yaşam tərzini öyrənir, uşaqların daha yaxşı təhsil alması, biliklərə tez yiyələnməsi üçün metodlar axtarır. Yeniyetməliyində dombura çalmağa böyük maraq göstərən Ahmet həm də qazaxların cır (jır) adlandırdığı xalq mahnılarını toplayır. Bu axtarışlar onu köhnə tədris üsulu ilə dərs deyən, keçmişi olduğu kimi qoruyub saxlamaq istəyənlərdə ayırır və təhsili Avropa metodlarına uyğunlaşdırmaq istəyən, elmi-texniki yeniliyi tətbiq etməyə çalışan cədidçilərə yaxınlaşdırır. Lakin o cədidçilərlə də məsləkdaş ola bilmir.

5.Çədidçilər və qərbçilər

1905-ci ildə Rusiyada baş verən qarışıqlıqlar çar İkinci Nikolayı Oktyabr Mansifestini imzalama məcbur edir. Bundan sonra qazax ziyalıları da siyasi təşkilatlarını qurmağa başlayırlar. Həmin dövrdəki milli öndərləri dörd qrupa bölmək olar:

1.Ənənəni yaşatmaq istəyən, üsuli-qədim adlandırılan mədrəsənin ətrafında birləşən, ata-babalarının

keçmişdəki qəhramanlıqları ilə qürur duyanlar,(bunlar çox vaxt mühafizəkar adlandırılırdı-Ə.Ş.),

2.Sənayesi, iqtisadiyyatı inkişaf etmiş ölkələrin qabaqçıl təcrübəsindən bəhrələnərək milli inkişafa nail olmaq istəyən, üsuli-cədid məktəbləri ətrafında birləşən cədidçilər-yenilikçilər;

3.Rusiyanın və Avropanın güclü təsiri altında olan, milli ənənəyə o qədər də önəm verməyən qərbçilər.

4.İnqilabçı sosialistlərin təsiri altında sosial ədalətə nail olmaq istəyən, beynəlmiləlçiliyə önəm verən sosialistlər.

Üsuli-qədimçilər təşkilatlanıb siyasi partiyalarını qura bilmədikləri üçün siyasi həyatda öncüllər sırasına çıxa bilmədilər. Qazaxıstana sürgün edilmiş inqilabçı sosialistlərin təsiri altında olan qazaxların sayı az olduğundan onlar da müstəqil təşkilatlarını qurub siyasi mübarizədə aparıcı rol oynaya bilmədilər. Buna görə də rus sosialist qruplarının içərisində görünməz oldular.

Siyasi və milli mübarizədə öndərliyi ələ alan iki qüvvə vardı: Cədidşilər və qərbçilər. Bu qüvvələr bir çox məsələlərdə fikir birliyinə gələ bilsələr də, mübarizə metodlarındakı fərqlilik və fikir ayrılığı bəzən qarşıdurmaya da gətirib çıxarırdı.

Qərbçilər Osmanlıya və Buxaraya yön çevirməsinə pis baxır, gənclərin orada oxumalarını əngəlləyir, islam hüququ qəbul etmir, ənənədən tezliklə yaxa qurtarmağı təbliğ edirdilər. Türk xalqlarının birliyini

təbliğ edən qazax ziyalılarına gerilikçi kimi baxırdılar. Avropadakı ictimai-siyasi fikirin təsirində olan qazax qərbçiləri ölkənin iqtisadi-mədəni yüksəlişi üçün Rusiya vasitəsilə Qərbə yön çevirməyi, Avropadakı elmi və texnologiyanı gənclərə öyrətməklə xalqın rifahına nail olacaqlarına inanırdılar **(Dulatov M, 1991:45).**

Qazaxlararın oturaq həyata keçməsi məsələsində də cədidçilərlə qərbçilər arasında fikir ayrılığı vardı. Cədidçilər düşünürdülər ki, oturaq həyata keçilərsə, yeni qurulan kəndlərdə məktəblər açmaq olar, əkinçilik mədəniyyəyi yüksələr, bununla əhalinin gəliri artar, şəhərləşmə sürətlənər. Qərbçilər isə belə hesab edirdilər ki, oturq həyata keçilsə hökumət hər bir qazax ailəsinə 15 desyatin torpaq verəcək, qalan torpaqları dövlət mülkiyyətinə keçirəcək. Qazaxlar oturaq həyata keçdikdə ənənəvi həyat tərzindən uzaqlaşacaqlar. Bundan istifadə edən hökumət məmurları qazaxlar üzərində nəzarəti artıracaq, xristianlaşdırma və ruslaşdırma prosesi surətlənəcək.

Onların bu cür düşünməsi heç də səbəbsiz deyildi. Hökumətin apardığı xristianlaşdırma və ruslaşdırma siyasətinini görməmək mümkün deyildi. Rus ziyalılarının, hökumət məmurlarının əksəriyyəti də bu siyasəti dəstəkləyirdilər. Milliyətcə rus olan deputat Qilinko Dövlət Dumasında çıxışında təklif edirdi ki, qazaxları oturaq həyata keçirdikdən sonra boş qalan torpaqlarda rus kəndliləri yerləşdirilsin.

Ahmet Baytursunov məsələyə siyasi və mədəni yöndən baxaraq Rusiyanın qazaxları oturaq həyata keçirmə siyasətinin arxasında həm də ölkənin kənd təsərrüfatı məhsullarına artan tələbatını ödəmək istəyi durduğun yazırdı **(Özdemir E., 2007:173).**

Cədidçilər Rusiya məhkəmələrini bürümüş rüvətxorluğun kökünün kəsilməyəcəyini, qazaxların rus dilini bilmədiklərinə görə məhkəmələrdə uduzduqlarını əsas gətirərək şəriət məhkəmələrinə keçilməsinin vacibliyini vurğuladıqları halda, qərbçilər bunun əleyhinə çıxaraq qazax adət-ənənəsi əsasında Avropa tipli məhkəmələrin yaradılmasını istəyirdilər.

Qərbçilərlə cədidçilər arasında biri də qazaxçılıq məsələsi idi. Qərbçilər qazaxçılığı qabardır, ona daha çox önəm verir, türk xalqlarının yaxınlaşmasın məsələsin nəinki qeyri-ciddi yanaşır, hətta bir yerdə yaşadıqları türk xalqlarına yuxarıdan aşağı baxırdılar. Bu 1917-ci il hadisələrindən sonra özünü daha qabarıq göstərməyə başladı. Qərbçilər geridəqalmış saydıqları özbək, uyğur, türkmən və b. türksoylu xalqlarla bir çatı altında hökumət qurmağı az qala özlərinə təhqir sayırdılar.

Xalqını xoşbəxt görmək, firavan yaşamasını istəyən qərbçi və cədidçi öndərlər arasında ziddiyyətlər getdikçə o qədər dərinləşdi ki, qərbçilər türkçülük hərəkatına yaxın gəlmədilər və onların siyasi təşkilatları olan İttifaki-Müslüminlə əməkdaşlıq etməməklə yanaşı, 1905-1906-cı illərdə təşkil edilən

I, II və III. Rusiya Müsəlmanlar Qurultaylarına qatılmadılar **(Özdemir E, 2007:106).**

Qərbçilər islam dinində yeniləşməni Rusiya və Avropa mədəniyyətləri nümunəsi əsasında görürdülər. Xüsusən hüquq, qadın azadlığı məsələsi fikir ayrılığını dərinləşdirirdi. Cədidçilər isə yeniləşməni islam dinindən və milli ənənədən uzaqlaşmadan, Rusiya əsarəti altında olan türk xalqları arasında genişlənən cədidçilik hərəkatı ilə gerçəkləşə biləcəyinə inandılar.

Qərbçilər hərəkatının öndərləri Ahmet Baytursunov, Əlixan Bökeyxanov (1870-1937), Mircakıp Dulatovla (1885-1935) və b. cədidçilərin öndərləri isə Muhammetjan Seralin (1872-1925), Bakıtcan Karatayev (1870-1934), Cihanşa Seydalin (1877-1923) və b. idi **(Bökeyxan Ə., 1995:21).**

6.Ədəbi, ictimai-siyasi fəaliyyəti. Həbs edilməsi və sürgün həyatı

1896-1901-ci illərə Aktöbe, Kostanay, Karqaralı qəzalarındakı rus-qazax məktəblərində dərs deyən Ahmet Baytursunov 1902-ci ildə Torğay qəzasının Ombı qəsəbəsinə gəlir və burada müəllimlik fəaliyyətini davam etdirmək, direktor müavini işləməklə yanaşı İvan Krılovun təmsillərini də qazax dilinə tərcümə edir. Karqaralı qəzasında işlərkən ictimai-siyasi fəallığı artır. 1905-ci ildə Rusiyanı bürümüş

inqilabi əhval-ruhiyyə onun da siyasi cəhətdən aktivləşməsinə səbəb olur. O dövrdə çoxları hələ də elə bilirdi ki, çar İkinci Nikolay hümanist və ədalətlidir. Onun rüşvətxor, qəddar, xalqı haqsız yerə incidən məmurlardan xəbəri yoxdur. Xəbər tutarsa, günahkarları cəzalandırar. Buna görə də çoximzalı məktublar tərtib edərək çar İkinci Nikolaya təqdim etmək istəyirlər. İmza toplayanlar keşiş Qaponun öndərliyində, 1905-ci il yanvarın 9-da çar sarayına yaxınlaşdıqda mühafizə dəstələrinin odlu silahlardan açdığı atəşlə qarşılaşırlar. Faciə ilə sona çatan dinc yürüş tarixə Qanlı bazar günü kimi daxil olur. Bununla da çar İkinci Nikolaya olan inam sarsılır.

Qazax xalqı arasında çar İkinci Nikolaya və onun idarə aparatının demokratikləşəcəyinə ümüd bəsləyənlər çox idi. Bu inamı qırmaq üçün qazax ziyalıları 1905-ci ilin iyununda Karqaralı şəhərində keçirilən Kuyandı yarmarkasından istifadə etməyi qərara aldılar. Ahmet Baytursunov, Əlixan Bökeyxanov (1870-1937), Mircakıp Dulatov (1885-1935) və başqalarının fəallığı ilə açıq havada bir toplantı keçirilir. Orada hazırlanmış 47 maddəli diləkçədə qazax xalıqının istəkləri ümumiləşdirilir. 14500 imza atılan bu diləkçə qazax və rus dillərində hazırlanaraq çar İkinci Nikolaya, Rusiya Daxili İşlər Nazirliyinə, "Sın Oteçestva" və "Russkiye Vedomosti" kimi mətbuat orqanlarına göndərilir.

Tarixə “Karqaralı petisyası” adı ilə daxil olan bu petisya-diləkçənin hazırlanmasında gələcəyin fəal siyasi xadimləri Ahmet Birimcanov, Bakıtcan Karatayev, Cakıp Akbayev və b. da iştirak etdi. “Karqaralı petisyası” sanki Ahmet Baytursunovun, Əlixan Bökeyxanovun, Mircakıp Dulatovun taleyini bir-birinə bağlayır.

1870-90-cı illərdə Qazaxistanın Sortandı, Karqaralı, Oyıl, Temir, Çernoyarsk, Evliyaata, Kökçetav, Akmola, Tayınsagöl və b. şəhərlərində 50-dən çox kiçik və orta yarmarkalar fəaliyyət göstərirdi. Hər yaz və payız qurulan bu yarmarkalardan kənd təsərrüfatı malları ucuz qiymətə alınınb Rusiyanın və Avropanın iri şəhərlərinə göndərilirdi. Qazaxıstanda ticarətin inkişafı rus taçirlərini, fabrikantlarını zənginləşdirir, müstəmləkə altında yaşayan xalqı isə daha yoxsul hala salırdı **(Özdemir E., 2007:28).**

Bu yarmarkaları Rusiya hakim dairələri iqtisadi məqsədlə təşkil etsə də, oraya toplaşan qazaxlar da görüşür, dərdləşir, fikir mübasiləsi edir, necə deyərlər, təşkilatlanırdılar. “Karqaralı petisyası” qazaxların Rusiya tərəfindən istismarına qarşı yönəldilmiş siyasi bir hərəkat olsa da, qərbçilərlə və cədidçilər arasında bir rəqabət, mübarizə metodu ayrılığı olduğu da qabarıqlığı ilə özünü göstərdi. Birinci qrup çoxluq təşkil etdiyindən iclası Əlixan Bökeyxanov aparır və qərarlar da onların təsiri altında qəbul edilir. Hətta Rusiya Türklərinin I Qurultayında yaradılan İttifaqı-

Müslümin təşkilatı da onları dəstəklədi. İttifaqı-Müslümin Orenburq, Omsk, Semipalatinsk və Semeydə sürətlə təşkilatlanırdı. Onların fəaliyyəti qazax ziyalılarının siyasiləşməsini və etiraz hərəkatını gücləndirirdi.

Lakin Əlixan Bökeyxanov, Ahmet Baytursunov, Mircakıp Dulatov və bir çox qazax öndərləri İttifaqı-Müslümi qəbul etmədilər. Rusya Türklərinin I Qurultayında qazaxları Şahmərdan Koşcuqulov təmsil etmişdir. Siyasi təşkilat olaraq Rusiyadakı bütün müsəlmanları birləşdirmək istəyən İttifaqı-Müslümin mülayim-yumşaq bir sağçı siyasət yeridirdi. Onların proqramında müstəqillik və torpaq tələbi yox idi **(Özdemir E., 2007:200).**

Bundan az sonra "Qazax çöllərindəki torpaqların mərkəzi quberniyalardan köçürülənlərə verilməsinin dayandırılması, qazax dilinin məhkəmələrdə və dövlət idarələrində işlədilməsinə icazə verilməsi" diləkcəsilə qazax ziyalılarından və tayfa başçılarından təşkil edilmiş bir qrup Peterburqa çar İkinci Nikolayın qəbuluna gedir. Onların istəkləri baş tutmasa da, I Dövlət Dumasına seçkilər qarşısında olduğundan nümayəndə heyəti Kadetlər partiyasının rəhbərliyi ilə görüşür, onlarla əməkdaşlıq etmək haqqında razılığa gəlirlər. Razılaşılır ki, 1905-ci ilin dekabrında qazax-qırğızların bir konfransı keçirilsin **(Şamil Ə., 2013:33).**

Qazaxların, eləcə də Rusiya əsarətində olan bir çox xalqların öndərlərinin Kadetlər Partiyasına meyil etməsi heç də səbəbsiz deyildi. Həmin illərdə Rusiyada üç siaysi təşkilat daha fəal idi. Bunlardan birincisi-inqilabçı sosialistlər idi ki, onlar rus olmayan millətlərə ikinci dərəcəli kimi baxırdılar və Rusiyanın unitar bir dövlət kimi idarə edilməsini istəyirdilər. İkincisi- bolşevik-menşevik və sasial demokratlar idi ki, onlar nəinki Rusiyanı federal dövlət kimi idarə edilməsini istəyirdilər, əksinə dünya sosialist inqilabından, proletariatın birləşməsindən söz açırdılar. Üçüncülər isə Kadet adlandırılan Konstitusiyalı Demokratlar Partiyası idi. Kadetlər Qərb demokratiyasını müdafiə edir, ruslaşdırma əleyhinə çıxır, azsaylı xalqlara mədəniyyətlərini inkişaf etdirməkdə azad və sərbəst olacaqlarını vəd edir, əsarət altında olan xalqların övladlarını təhsilə ana dilində başlamalarını dəstəkləyirdilər.

1905-ci ildə Uralski şəhərində beş əyalətdən gələn qazax öndərləri Kadet Partiyasının Qazaxıstanda şöbəsini yaratdıqlarını elan etdilər. Elə ilk toplantıdan qazaxlarla ruslar arasında fikir ayrılığı yarandı. Qazaxlar torpaq məsələsini, Rusiyanın mərkəzi quberniyalarından aztorpaqlı kəndlilərin köçürülməsinin dayandırılmasını, Rusiyanın işğalçılıq siyasətinə son qoyulması, ana dilində məktəblər açılması məsələlərini proqrama salınmasını istədilər. Kadet Partiyası isə Uralski Konfransında qazaxların

qəbul etdiyi qərarlardan köçün durdurulması və Qazaxıstandakı torpaqların qazaxla məxsus olması fikrini qəbul etmədilər. Bundan narazı qalan qazaxların bir qrupu 1906-ci ilin aprelin 10-da Semey şəhərində bir konfrans keçirdilər. 150 nəfər nümayəndənin iştirak etdiyi konfransda Əlixan Bökeyxanov Xalq Azadlığı Partiyasının yaradılmasından söz açdı və partiyanın proqramı ilə konfrans nümayəndələrini tanış etdi. Lakin bu proqram bəyənilmədiyindən Əlixan Bökeyxanov, Ahmet Baytursunov, Mircakıp Dulatov siyasi fəaliyyətlərini Kadet Partiyasında davam etdirməli oldular **(Özdemir E., 2007:197-198).** Beləliklə, qazax cədidçilərinin də, qərbçilərinin də böyük bir qismi 1917-ci ilədək Kadet Partiyasının tərkibində siyasi fəaliyyət göstərmişlər.

İctimai-siyasi fəaliyyətini gündən günə genişləndirən Ahmet Baytursunov 1905-1908-ci illərdə Karqaralıdakı rus-qazax məktəbində dərs deyərkən proqramda dəyişiklər aparmaq istəyir. 1907-ci ildə valinin qazaxlar arasında tatarların maarifçilik fəaliyyətinin əngəllənməsi üçün cədidçilərin nəşr etdikləri qəzet və jurnalların bəziləri bağlanmış, senzur nəzarəti hər yerdə gücləndirilmişdir. Bu azmış kimi Step (Çöl) vilayətinin və Türküstan vilayətinin rəsmi hökumət qəzetlərində tatarlar əleyhinə məqalələr çap olunmağa başlamışdı. Bütün bunlar planlı surətdə tatar ziyalılarını gözdən salmağa, onları bölgənin təhsil

ocaqlarından, ticarət sahəsindən çıxarmağa hesablanmışdır **(Özdemir E., 2007:60).**

"Karqaralı petisyası" və Kadet Partıyasının Qurultayından sonra çar jandarması ona və əqidə yoldaşlarına nəzarəti artırır. Əlixan Bökeyxanovun, Yakup Akpayevin və Ahmet Baytursunovun və b. müsəlman qazaxların xristianlaşdırılması əleyhinə təşkilatlanmağa təşəbbüs göstərmələri, qəzetlərə məqalələr yazaraq hökümətin xristianlaşdırma planını tənqid etmələri, xüsusi xidmət orqanlarını bərk narahat edirdi. Birinci və İninci Dövlət Dumalarında qazax nümayəndələr torpaq məsələsində sərt mövqe nümayiş etdirdiklərinə, mərkəzi quberniyalardan rus kəndlilərinin qazax çöllərinə köçürülməsinə kəskin etirazlarını bildirdiklərinə görə onların 3-cü və 4-cü Dövlət Dumasına seçilməsinə içazə verilmədi. Hökumət qazax ziyalılarının öndərlərini həbs etməklə, sürgünə göndərməklə, təqib etməklə, sıxışdırmaqla kifayətlənmir, onlar arasında qarşıdurma yaratmağı, kiçik ziddiyyətləri dərinləşdirməyi də planlayırdı.

Hökümət əleyhinə təbliğat aparmaqda suçlanan Ahmet Baytursunovu 1908-ci ildə həbs edilərək Karqaralı jandarmasına aparırlar. Onun əqidə dostları da eyni illərdə cəzalandırılır. Çar İkinci Nikolay deputatların hökuməti sərt tənqid etməsindən əsəbləşib 1906-cı ildə I Dövlət Dumasının buraxılması haqqında sərəncam imzalayır. Buna etirza edən bir qurup deputat Vıborqda bir bəyanna

imzalayırlar. Tarixə Vıborq bəyannaməsi kimi daxil olan bu sənədə imza atanlar sırasında Əlixan Bökeyxanov da olur. Onu bəyannaməyə imza atdığına və hökümət əleyhin çıxışına görə 1908-ci ildə həbs edərək üç ay Semey şəhərində həbsxanada saxlandıqdan sonra Samaraya sürgün edirlər.

1907-ci ildə nəşrə başlayan "Serke" (serkerde, başçı-Ə.Ş.) qəzetinin birinci sayında Mircakıp Dulatov "Gənçlərə" şeirini, ikinci sayındakı "Bizim məqsədimiz" məqaləsini çap etdirir. Məqalədə Rusiyanın Qazaxıstandakı müstəmləkəçilik siyasətini kəskin tənqid edir. İlk saylarından hökumətin siyasətini gözdən salan məqalələri ilə diqqəti çəkən qəzeti senzor komitəsi bağladır. Şairin "Oyan Qazax" şeir az bir zamanda dillər əzbərinə çevrilir. Buna görə də Mircakıp Dulatovu 6 ay həbsxanada yatırtdıqdan sonra Akmollaya sürgünə göndərirlər. Kitabı satışdan və mətbəədən yığışdırılan şair sürgündə keçimini qazax uşaqlarına fərdi dərs deməklə təmin etməli olur **(Dulatov M., 1991:9).**

Ahmet Baytursunov çar jandarmasının diqqətini yayındırmaq üçün müəyyən müddət siyasi fəaliyyətini ədəbi fəaliyyətlə əvəzləyir. Rusiyanın təmsil ustası İvan Krılovun şeirlərinin tərcüməsi üzərindəki işini davam etdirir və 1909-cu ildə "Kırk masal" adı altında kitab halında çap etdirir.

Qazax ziyalılarının Rusiyaya qarşı silahlı müqavimətin uğur qazanmayacağını görüb xalqı maarif-

ləndirməyə girişmələri onunla nəticələnmişdi ki, 1912-ci ildə Qazaxıstanda cədidçilərin 121 məktəbində 1810 şagird oxuyur. Belə məktəblərin iqtisadi bazasının möhkəmləndirilməsi üçün yeni cəmiyyətlər qurulur.

Bunda rahatsız olan Türküstan valisininin təhsil müfəttişi Yedisu əyalətindəki rus-qazax məktəblərinin müfəttişinə 1910-cu ildə yazır: "Məktəb və mədrəsələrin xalq üzərində təsiri güclü olduğundan onların üzərində nəzarət gücləndirilsin və hər altı aydan bir yerlərdəki vəziyyət haqqında bizə yazılı raport göndərilsin".

Ruslaşdırma siyasəti əsasən iki xətt üzrə aparılırdı: 1.Türk xalqları arasındakı mədəni əlaqələri, dil birliyini pozmaq; 2.Türk xalqlarını ruslaşdırmaq.

Nikolay İlminski, Aleksandr Alekterov və N.P.Ostromov kimi missionerlər gizlində raportlar, təlimatlar hazırlayıb hökümət idarələrinə göndərməklə kifayətlənmirdilər. Onlar fikirlərini açıq şəkildə mətbuatda da söyləyirdilər. A.E.Alektorov "Rusiyanın Doğusundakı xiristianlaşdırma vəzifələrimiz haqqında bizim qəzetlər" məqaləsində Türküstan xalqlarını ruslaşdırmaq üçün birinci növbədə onların qızlarını, yəni gələcəyin analarını xristianlaşdırmağın vacib olduğunu vurğulayırdı. Onun fikrincə, uşaqlar ailə içində milli və mənəvi dəyərlərdə tərbiyə olunurlar. Analar xristian olarsa,

ruslaşdırmanı daha surətlə və asan həyata keçirmək olar **(Özdemir E., 2007:45).**

Professor L.N.Smirnov "Yerliləri ruslasdırma və ruslaşdırma siyasətinin məqsədləri" məqaləsində ruslaşdırma siyasətinin təməlində yerliləri xıristianlaşdırmaq durduğunu yazırdı **(Özdemir E., 2007:18).**

Qəzet və jurnallarda, kitablarda özünə geniş yer tapan bu və buna bənzər yazıları türk ziyalıları da oxuyur, xalqının necə bir təhlükə qarşısında qaldığını görür, onun qarşısını almaq üçün yollar arayırdılar**.** Yeniyetmə və gənclik illərində müəllimi A.E.Alektorovun təsiri altında olan Ahmet Baytursunov kamillik yaşına çatdıqda dünyagörüşündə xeyli dəyişiklər baş verir. Milli məsələyə daha həssaslıqla yanaşır. Hökumətin qazax-qırğız, qaraqalpaq, türkmən, özbək gənclərinin İdil (Volqa)-Ural bölgəsindəki, eləcə də xarici ölkələrdəki mədrəsələrdə oxumasını əngəlləyən qanunları ilə barışa bilmir. Sosialistlərin sosial ədalət uğrundakı mübarizəsini dəstəkləyir.

Bütün bunlar onu hökumətin nəzərindən salır, xüsusi xidmət orqanların ona diqqətini artırır. Nəticədə hökumət əleyhinə təbliğat aparmaqda suçlayıb yenidən, 1909-cu il iyulun 1-də Karqaralıda həbs edirlər. Oradan Semey şəhərindəki həbsxanaya göndərirlər. 1910-cu il fevralın 21-dək həbsdə saxlanan Ahmet Baytursunovu 1910-cu il martın 9-da isə Orenburqa sürgünə göndərirlər **(İmaxanbet R.S., 2013:92).**

Sürgün illərində çədidçilərin yeni nəşrinə başladıqları "Aykap" (1911-1915/16) jurnalına müntəzəm milli məsələ ilə bağlı məqalələr yazır. Azərbaycanda ədiblərimiz Mozalan, Zənbur və b. kimi imzalardan istifadə etdikləri kimi Ahmet Baytursunov da Masa (Ağcaqanad) imzasından istifadə edir. Kəskin satirik şeirləri və məqalələri ilə xalqını qəflət yuxusundan oyatmağa çalışır. Sürgün həyatı keçirdiyi Orenburq şəhərində rus siyasətçilərini, savadsız və öz şəxsi mənafeyindən çıxış edən din xadimlərini satira atəşinə tutan, həcv edən şeirlərini 1911-ci ildə "Masa"(Ağcaqanad) adıyla kitab kimi nəşr etdirir. İ. Krılovdan A.P.Sumarakov, V.İ.Maykov, İ.İ.Hemnitser, A.S.Puşkin, M.Lermantov və S.Y.Nadsondan etdiyi tərcümələrlə qazax dilinin bəddi vüsətini, zənginliyini ortaya qoymuş olur.

Bədii yaradıcılıqla yanaşı pedaqoji fəaliyyətini davam etdirən Ahmet Baytursunov təcrübəsinə dayanaraq "Əlippe-(Əlfba)" və "Okuv kuralı (Oxuma qaydası)" kitablarını yazıb çap etdirir. Müəllimlər üçün hazırlanmış kitabda qazaxlar ərəb əlifbası ilə yazıb-oxuyarkən səslilərin necə oxunmalı olduğu öyrədilir. Əslində bu İsmayıl bəy Qaspıralının başladığı üsuli-cədid təliminin qazaxlar arasında yayılmasına xidmət edirdi. Kitabı 1912-ci ildə Orenburqda çap etdirə bilir. Bir il sonra oxucuların diqqətini çəkdiyinə görə təkrar nəşr etdirməli olur.

7.Mətbuatda ilk çıxışları

Ahmet Baytursunov 1911-ci ildən başlayaraq "Türküstan valayatı" (1870-1918), "Dala valayatı" (1888-1902) qəzetlərində və Rızaeddin Fahrettinin redaktorluğu ilə Orenburqda çıxan türkçü-islamçı "Şora" (Şura) (1908-1918) jurnallarında məqalə və şeirlərini çap etdirir. Jurnalistik fəaliyyəti onu gələcəyin redaktoru kimi formalaşdırır.

Hökumət bölgədə rus dilində "Turkistanskiye Vedomosti" (1870-1917) (Daşkənddə çap olunan bu qəzet qazax və özbək dillərində də məqalələr verirdi-**Ə.Ş**.), "Dala vilayəti qəzeti" (1882-1902) (Ombi şəhərində çap olunan bu qəzet Step (Çöl) valiliyinin qəzeti idi.-Ə.Ş.), "Turqanskiye qazeta" (1895-1910) (Bu qəzet də Orenburq şəhərində çap olunurdu-Ə.Ş.) qəzetləri açmışdı. Hər üç qəzetin əsas materiallarını quberniya idarəsinin tərcüməçiləri hazırlasalar da, burada rus missionerlərinin və yerli ziyalılarının məqalələri də verilirdi. Yerli ziyalılar əsasən xalqlarının tarixindən və folklorundan yazırdılar. Onlar hansı mövzuda yazmalarından asılı olmayaraq dövlət siyasətinə xidmət edirdilər. Hökumətin qəzet açmaqda məqsədi qanunları, sərəncamları yerli xalqların dilinə çevirib yaymaq idi. Qəzetlərdə Avropa tipli məktəblərdə oxuyanların sayının çoxaldığı, oturaq həyata keçən qazaxların güzaranının yaxşılaşdığı tərənnüm olunurdu. İşğalçılar xilaskar mələk donunda

göstərilirdi. Bununla bölgədə hökumətin mövqeyini möhkəmlətmək istəyir, baş verə biləcək üsyanların, narazılıqların qarşısını ideoloji yolla almağa çalışırdılar. Əslində hökumətin maarifçiliyinin, təbliğatının arxasında ruslaşdırmanı sürətləndirmək dururdu **(Allabergen K., Nuskabayuli C, 1996:12).**

Rahimcan Dusenbayevin "Dala vilayəti qəzeti"nin 1897-ci il 10-cu sayında çap etdirdiyi məqaləsi ərəb hərflərinin qazax dilinə uyğun gəlmədiyinə həsr edilmişdir. Əksər islahatçılar kimi o da ərəb əlifbasının fonetik cəhətdən türk dillərinə uyğun olmadığını göstərir, "Qurani Kərim"dən başqa bütün kitabların islah olunmuş əlifbada çapını təklif edirdi. Hətta qazax, özbək dillərindəki bəzi məqalələr kiril əlifbası ilə çap olunurdu **(Özdemir E., 2007:76-88)**.

Ölkədə baş vermiş üsyanlardan, etiraz hərəkatlarından çəkinən hökumət 1905-ci il oktyabrın 17-də Manifest imzalasa da senzor nəzarəti aradan qaldırılmamışdı. Senzor qaydaları isə yeni açılan qeyri hökumət qəzet-jurnallarını da müstəmləkəçilik siyasətini təbliğ etmək məcburiyyətdə qoyurdu. Senzor nəzarətinin sərtliyinə baxmayaraq ziyalılar mətbuat yaratmağa, fikirlərini xalqa çatdırmaq üçün nəşriyyatların gücündən istifadə etməyə çan atırdılar. Belə bir gərgin vəziyyətdə cədidçilər "Aykap" jurnalını (1911-1915) nəşrə başladılar.1912-ci ilin martında isə azərbaycanlı xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin və Cahangir xanın nəvəsi Şengerey

Sulatanın maddi yardımı ilə rusca və qazaxca "Qazaxıstan" qəzeti nəşrə başlayır. Bu qəzet sosialist yönlü məqalələrə geniş yer verir **(Allabergen K., Nuskabayuli C., 1996:32).**Ahmet Baytursunov, Əlixan Bökeyxanov və b. qərbçilər "Qazaxıstan" qəzeti ilə deyil, "Aykap" jurnalı ilə əməkdaşlıq etməyə üstünlük verirlər. Lakin "Aykap" onları qane etmir. Odur ki, özlərini mətbuatını yaratmağı qərara alırlar.

8. "Kazax" qəzetinin redaktorluğu dövrü

Qərbçilərin öndərlərinin həbs edilməsi, sürgünə göndərilməsi, necə deyərlər, hökümətin nəzərindən düşmələri onların adına qəzetin açılmasını əngəlləyirdi. Odur ki, Samarada sürgündə olan I Dövlət Dumasının deputatı Əlixan Bökeyxanovun ideya rəhbərliyi və dəstəyi ilə Aliyə mədrəsəsinin məzunu, "Aykar" jurnalında məqalələri çap oluan, cədidçi Mustafa Orazayevin adına "Kazax" qəzetinin nəşrinə icazə alınır. Faktlar da onu göstərir ki, həmin illərdə hələ çədidçilərlə qərbçilər arasında qarşıdurma dərinləşməmişdi.

"Kazax" qəzetinin ilk sayı 1913-cü ilin fevralın 2-də nəşrə başlayır. Qəzetə redaktorluğu Ahmet Baytursunov edir. Akmollada sürgün müddətini başa vurduqdan sonra əqidə dostu Ahmet Baytursunov yanına - Orenburqa gələn Mircakıp Dulatov redaktor müavini sayılsa da, əslində hər ikisi işi bərabər

aparırdılar. Həftədə bir dəfə işıq üzü görən qəzetdə ilk vaxtlar Aliyə və Hüseyniyə mədrəsələrindəki qazax tələbələr, yəni çədidçilər fəallıq edirdilər **(Nurpeyisov K., 1995:55).**

Şərq mədrəsələrindəki tədris metoduna qarşı olan Ahmet Baytursunov "Kazak" qəzetində öncələr üsuli-cədid ilə təhsil verən Aliyə və Hüseyniye mədrəsələrin bitirənlərin hərtərəfli elmi biliklərə sahib olduqlarını, onların qazax ibtidai məktəblərində yüksək səviyyəli dərs keçdiklərini yazdı.

Ahmet Baytursunov ilk baş məqaləsində qəzeti millətin görən gözü, eşidən qulağı, danışan dili adlandırırdı. Odur ki, qəzetdən xalqının maarifləmməsi üçün var gücü ilə istifadə etməyə çalışır. **(Aytbayev Ö., 2013:13).** Qəzetin tirajını birinci il 3000-ə çatdırır. 1915-ci ildən həftədə iki dəfə çıxan qəzetin tirajı 8000-i keçir. "Aykar" jurnalı bağlandıqdan sonra isə "Kazak" qəzetinin oxucuları daha da artır. 1918-ci ildə bolşeviklər qəzeti bağlayana kimi 256 sayı çıxır.

Gənc redaktorun təşkilatçılığı sayəsində qəzetin ətrafına böyük bir ziyalı dəstəsi toplanır. Ahmet Orazayev qəzetə maddi dəstək verirdisə, Beyimbet Maylin şeir və məqalələr göndərir. Cakıp Akbayev adət-ənənəsi və hüquq, Ahmet Birimcanov hüquq, Xəlil Dostmuhammetov tibb və Alaş (Qazaxların əfsanəvi ataları olan Alaşın adından yaranmışdı. Çox vaxt Alaşla Orda eyniləşdirilir-**Ə.Ş.)** hərəkatı,

Muhammetjan Tınışbayev sosial və iqtisadi, Mustafa Çokay siyasi, Sabit Dönentayev təhsil və təlim-tərbiyə mövzularında olduqca aktual məqalələr yazır, təhlillər aparırdılar. Muhtar Avezovun, Cihanşa Seydalinin, Gumar Karaşeyin, Cusupbek Aymavıtovun, Sultan Mahmut Torayqırovun, Şekerim Kudayberdiyevin və b. da məqalələri maraqla qarşılanırdı **(Allabergen K., Nuskabayuli C., 1996:58).**

"Kazax" qəzetinin redaktoru gah ziyalıların gördükləri işləri təqdir edən məqalələr yazır, gah da diskussiyalar açırdı. Onun bəzi məqaləsi cədidçilər tərəfindən heç də yaxşı qarşılanmırdı. Xüsusən yaramaz, mühafizəkar və rüşvətxor məmurları kəskin tənqid edən məqalələri adamları qorxuya salırdı. Qəzetdəki tənqidlər və mübahisələr milli öndərlər arasında zəif hiss olunan qrşıdıurmanı getdikcə dərinləşdirirdi. Ahmet Baytursunovun "Aykap" jurnalının 1912-ci il dördüncü sayında çap etdirdiyi "Cazı tertibi" (yazı qaydaları) məqaləsində ərəb qrafikası əsasında qazax fonetikasına uyğun yeni bir əlifba yaradılmasından söz açılırdı. Cəditçi C.Şuyaşov isə jurnalın həmin il çap olunan altıncı sayındakı "Birge kozgalayık" ("Birliktə hərəkət etməliyik") məqaləsində Ahmet Baytursunun "Biz qazağız, bizim əlifabamiz fərqlı olmalı" tezisinə qarşı çıxır, bunu türk xalqlarını bir-birindən ayırmaq, işğalçılara qarşı dura biləcək gücləri parçalamaq kimi dəyərləndirirdi. Mircakıp Dulatov da C.Şuyaşovu Ahmet Baytur-

sunovun oxuma və yazmağı asanlaşdırmaq üçün düzəltdiyi yeni əlifbanı anlamamaqda təqsirləndirirdi. Beləcə qarşıdurma getdikcə dərinləşirdi.

Ahmet Baytursunovun "Kazak" qəzetinin 1914-cü il 61-ci sayında çap etdirdiyi "Bastavış Mektep" (Başlanğıc məktəb) və 62-ci sayında çap etdirdiyi "Mektep kerekleri" (Məktəb ehtiyacları) məqalələri də maariflənməyə nə qədər önəm verdiyini göstərir.

Qərbçilərlə cədidşilər arasındakı qadına münasibət məsələsində də fikir ayrılığı qarşıdurmaya səbəb olurdu. Qərçilər islam dininin qadını əzdiyini, kölə halına saldığını, cədidçilər isə islam dininin yüzillərdir qadınların hüququnu qoruduğunu yazırdılar.

"Kazak" qəzetinin səhifələrində Rusiyadan, Ukraynadan torpaqsız və aztorpaqlı kəndlilərin Qazaxıstana göndərilməsinə, oranın sürgün yerinə çevrilməsinə etiraz edən məqalələrə də geniş yer verilmişdir.

"Aykap" jurnalı səhifələrində başlamış bu və buna bənzər müzakirələri Ahmet Baytursunov "Kazax" qəzeti səhifələrində yenidən davam etdirdi. O, bununla öz fikrindən bir addım da olsa geri çəkilməyəcəyini bildirmiş oldu.

Qərbçilərlə cədidçilər arasında mübahisə heç də körkoranə, yəni "birisi nə deyirdisə o birisi də əksini söyləyirdi" şəkilində davam etmirdi. Fikirlərini əldə edə bildikləri faktlara söykənərək izah etməyə, xalqa çatdırmağa çalışırdılar. Buna görə də bəzən eyni

fikirə gəlirdilər. Məsələ, Mukaş Boştayev adlı tələbə redaksiyaya göndərdiyi məktubda maddi sıxıntı altında olan qazax tələbələrinin oxumaları üçün ruslarda və tatarlarda olduğu kimi yardım cəmiyyətləri qurularmasını vacib sayır. Əlixan Bökeyxanov da nüfuzundan istifadə edərək Mukaş Boştayevin fikrini dəstəkləyir və qəzet vasitəsilə xalqa müraciət edərək yardım cəmiyyəti qurmağa çağırır. Qəzetin 1915-ci il 112-ci sayında çap olunmuş "Sutudettere iyilik kavmı" məqaləsindən sonra "Erkin Dala", "Birlik", "Talap", "Birlik Kavımı", "Gılım", "Kazak Cedremi" və b. cəmiyyətlər qurulur.

Ahmet Baytursunovun 1913-cü ildə "Kazax" qəzetində çap etdirdiyi "Qazaqtın bas akını" (Qazağın baş şairi) məqaləsində Abayın (İbrahim Kunanbayev) həyatından, yaradıcılığından, ictimai fəaliyyətindən, qazax ədəbiyyatına gətirdiyi yeniliklərdən söz açırdı. Jurnalın 1914-cü ildəki 80-ci sayında çap etdirdiyi "Qırğız (qazax) vilayətini idarə etmə üsulları" tənqidi yazısı böyük əks-səda doğurur. Dəfələrlə qəzetin redaksiyasında axtarışlar aparıır, redaktoru qubernator və jandarma idarəsinin rəisi tərəfindən istintaqa çağrılır. Qubernator, general-leytenant Nikolay Aleksandroviç Suxumlinov qəzetin redaktoru Ahmet Baytursunovu 1500 manat cərimə edir. Beləcə "Kazax" qəzeti bağlanmaq təhlükəsi ilə üzləşir.

Redaktor qəzet bağlanmasın deyə cərimə əvəzində səkkiz ay həbsdə yatmağa razı olur. Səhhəti həbsxana

üçün münasib olmasa da, özü həbsxanaya gedir. Bundan xəbər tutan oxucular və xeyirxah insanlar müxtəlif şəhər və kəndlərdən cərimə pulunu teleqrafla göndərirlər. 4-5 gündən sonra Ahmet Baytursunov həbsdən azad edilir (1916-cı ildə qəzet yenidən üç min manat cərimə olunanda da, oxucular cəriməni ödəyərək qəzetin bağlanmasına yol vermirlər) **(Şamil Ə., 2013:52-53).**

"Kazax" qəzetinə redaktorluq etməklə böyük təşkilatçılıq işi görən, ciddi məqalələr yazmaqla xalqını qəflət yuxusundan oyadan, müəllim işləyən, metodik vəsaitlər çap etdirən Ahmet Baytursunov həm də istedadlı müsiqiçi və bacarıqlı bir folklor toplayıcısı, araşdırıcı olmuşdur. Belə ki, onun qazax yırçılarından (el nəğməkarı, aşıq – ***Ə.Ş.)*** toplayıb, yazıya aldığı və izahlar yazaraq 1913-cü ildə Moskvada çap etdirdiyi "Er Sayın" hələ də elmi əhəmiyyətini itirməyib.

Ahmet Baytursunov yalnız gəncliyində folklor toplamaqla kifayətlənmir. Sonralar da dastan, joqtav (ağı) və b. folklor nümunələri toplayıb, sistemə salaraq 1926-cı ildə Moskvada "Joqtaw" adlı ilə çap etdirir. Bu kitaba daxil etdiyi şeirlər Mamay Batır, Kaz Davıstı Kazıbek, Kenesarı-Navrızbay, Ertorı, Erğazı, Abdığapar və b. tarixi şəxsiyyətlər haqqında 23 joqvat (ağı) olur.

Bu nəşrlər qazax ədəbiyyatında folklorun toplanması, araşdırılması, sistemləşdiriməsi, pas-

portlaşdırılması sahəsində ilk nümunələr idi. Araşdırıcı A.V.Zataeviç Ahmet Baytursunovun qazax xalq müsiqisi və nəğmələri ilə bağlı "Qazax xalqının 1000 nəğməsi" adlı əsərinin olduğunu yazır **(Şamil Ə., 2013:52-53).**

Ahmet Baytursunov "Kazax" qəzetində yalnız qazax xalqının tarixindən, mədəniyyətindən, folklorundan, gündəlik mübarizəsindən bəhs edən yazılar çap etməklə kifayətlənmir. Birinci Dünya Savaşı illərində Rusiya İmperiyasının işğal dairəsində qalan Kars vilyətindəki aclıq və qıtlığı da gündəmə gətirir.

Çünki bu faciə minlərlə insanın ölümünə, yüzlərlə uşağın ata-anasız qalmasına səbəb olmuşdur. Belə ağır günlərdə Ahmet Baytursunov qəzetin 1915-ci ildə çap olunan 103-cü sayında qazax xalqına müraciət edərək onları Karslı soydaşlarına və dindaşlarına yardım etməyə çağırır. Bu çağırışdan sonra xalq qubernatora müraciət edərək "Karslı müsəlmanlara yardım komitəsi" yaratmağa nail olur. Mərkəzi Bakı şəhəri olan yardım təşkilatının Orenburda Ahmet Baytursunovun rəhbərliyi ilə bir komitəsi yaradılır **(Koygeldiyev M., :170).**Toplanan yardımlar Karsa göndərilir. Əslində bu Rusiya əsarətində olan müsəlmanların hökumətə etirazı idi.

Hökümətə loyal münasibətin, Rusiyanın müstəmləkəçilik siyasətinə qarşı sərt durmalarının, neçə deyərlər, Rusiyanın demokratikləşməsini istəmələrinin, bu demokratikləşmədə qazaxlara da pay dü-

şəcəyini düşündüklərinə görə, "Kazax" qəzetinin ayrı-ayrı məqalələrinə görə təzyiqlər olsa da, cərimələnsə də, çar hökuməti qəzeti bağlanmamışdı.

9.1916-cı il üsyanı və Ahmet Baytursunov

İqtisadi vəziyyəti onsuz da ağır olan Rusiyanı Birinci Dünya Savaşı çıxılmaz bir bataqlığa soxur. Ölkədə əhalinin vəziyyəti getdikcə pisləşir. H.Karasuyuulunun araşdırmasına görə, Türküstan və Qazaxıstanda1900-cu ildə 75 dəfə, 1905-ci ildə 235 dəfə, 1910-cu ildə 334 və 1915-ci ildə 372 dəfə kiçik üsyanlar və xalq etirazları olmuşdu **(Karasuyuulu H., 1993:217).** Etiraz və narazılıqlara baxmayaraq xalqdan toplanan vergilərin həcmi gündən günə artırılırdı. 1914-cü ilin avqustundan ötən müddətdə təkcə qazax-qırğızlardan vergilərdən əlavə 300.000 put[3] ət, 40.899.244 put pambıq,3.109.000 put pambıq yağı, 473.928 min put balıq, 299.000 put sabun, 38.044 arşın[4] keçə çadır,13.441 sadə çadır, 70 min at, 12.797 dəvə və b. kənd təsərrüfatı məhsulları alınmış **(Abdırahmanov C., 1991:385)**, əsgəri xidmətə aparılmadıqlarına görə gəlirlərinin 21 faiz əlavə vergiyə cəlb edilmiş**(İbraimov O., 1993:224),** 1916-

[3] Put- çəki vahidi. 16,3 kiloqrama bərabərdi.

[4] Arşın- keçmişdə içlədilmiş uzunluq ölçüsü. 71 santımetrə bərabərdir.

cı ildə xalqdan üç milyard som (pul vahidi – ***Ə.Ş***.) toplanmışdır.

Bölgəyə torpaqsız və ya aztorpaqlı rus kəndlilərinin yerləşdirilməsi yerli əhalinin vəziyyətini olduqca ağırlaşdırmışdı. Hökumətinin "Step qanunu" adlandırılan sərəncamının 119-cu maddəsini əldə əsas tutaraq quberniyalarda 1907-ci ildə "Qırgızları yerləşdirmə", 1908-ci ildə "Yedisu bölgəsini kalon-yalaşdırma" qərarlarını hazırlanmışdı. Bu qərarlarla yaylaq-qışlaq həyatı yaşayan yerli əhalinin torpaqları dövlət mülkiyəti hesab edilmişdir. Beləcə 45 milyon hektar torpaq yerli xalqın əlindən alınaraq Rusiyadan köçürülənlərə verilmiş, 1907-1912-ci illər arasında 2 milyon 400 min rus qazax torpaqlarında yerləş-dirilmişdi. Qazaxlar dağlıq və quraq bölgələrə sıxışıb qalmışdı 1916-cı ildə rus köçkünləri bölgənin bütün əkiləbilən torpaqlarının 58,6 faizinə sahiblənmişdi. Yerli əhali əkin sahələrində ən az haqqa sahib idi **(Kara F., 2011).**

Bütün bunlar xalqın səbrinin tükətdiyi bir zamanda, yəni 1916-cı il iyunun 25-də çar İkinci Nikolay xristian olmayan xalqların 19-43 yaşlı kişilərinin səfərbərliyə alınaraq səngər qazılmasına, hərbi sursat daşınmasına və s. işlər görülməsinə göndərilməsi haqqında fərman imzalayır. Çar İkinci Nikolayın Dövlət Dumasına millət vəkili seçil-mələrinə icazə verilmədiyi qazaxlarla hökumət indi savaş qanunları ilə davranmaq istəyirdi. Fərmandan

istifadə edən məmurlar da özbaşınalıq edir, 50-60 yaşlı kişilərin də yaşını az göstərərək səfərbərliyə cəlb edirlər **(Karasuyuulu H., 1993:263).**

Məhsul yığımının qızğın vaxtına və Ramazan ayına düşdüyündən Türküstanda və Qazax-Qırğız çöllərində yaşayan, oruc tutmuş müsəlmanlar elliklə çarın fərmanına qarşı çıxırlar. Beləliklə, kortəbii xalq üsyanı başlayır. Üsyanı yatırmaq üçün bölgəyə general İvanov-Runovun komandanlıq etdiyi ordu yeridilir.

Üsyanın ən qaynar nöqtələrindən olan Cizaq (Jizak) şəhəri yerlə yeksan edilir, qadınlar, uşaqlar, qocalar rəhm edilmədən öldürülür. Şəhər və kəndlər dağıdılsa da, minlərlə insan öldürülüb həbs edilsə də, üsyan ocaqları gah burda, gah orda alovlanır.

Qəribə görünən bu idi ki, vətənsevər, millətini azad və xoşbəxt görmək istəyən A. Baytursunov və onun məsləkdaşları üsyançılara qoşulmur. Hətta "Kazax" qəzetində üsyanla bağlı tənqidi fikirlər özünə yer tapır. Bu da səbəbsiz deyildi. Onlar düşünürdülər ki, kortəbii üsyan xalqın qırılmasından, öndərlərinin məhv edilməsindən başqa bir şey verməyəcək. Lidersiz, təşkilatsız üsyançı dəstələri nizami ordular vasitəsilə dağıdılacaq.

Tarixçilər bu üsyanın məğlubolma səbəblərini belə dəyərləndirir:

1. Üsyan çar İkinci Nikolayın fərmanına etiraz əlaməti olaraq heç bir hazırlıq aparılmadan, qəflətən başlamışdı.

2. Üsyanın müəyyən bir mərkəzi və idarəedəcək təşkilatı, lideri olmamışdı.

3. Üsyançı dəstələrin bir-birilə heç bir əlaqəsi, mübarizə planı olmadığı kimi, üsyan başlayandan sonra da aralarında əlaqə qura bilməmişlər.

4. Xalq hökumətə qarşı çıxmaq istəyində deyildi, sadəcə olaraq mallarının əllərindən alınmasına və səfərbərliyə alınmalarına etiraz əlaməti olaraq ayağa qalxmışdı.

5. Üsyançıların əlində lazımi qədər və atıcı silahlar yox idi.

6. Hökumət üsyanı yatırmaq üçün nizami silahlı dəstələr göndərməklə yanaşı, bölgəyə köçürdüyü rus kəndlilərini də silahlandırıb üsyançılara qarşı göndərmişdi **(Şamil Ə., 2013:56).**

Dəyişikliklərin inqilabi yolla deyil, islahatlarla aparılmasının tərəfdarı olan Ahmet Baytursunov qazax-qırğız xalqının öndə gedənlərinə üsyançı adı verilib məhv ediləcəyindən qorxurdu. Onun və məsləkdaşlarının düşündüyü kimi də oldu. Üsyan yatırıldıqdan sonra qurulan hərbi səhra məhkəmələri 1917-ci il fevralın 1-nə kimi 347 nəfərin edam edilməsi, 168 nəfərin sürgünə göndərilməsi, 129 nəfərin müxtəlif müddətli həbs cəzasına məhkum edilməsi haqqında qərar çıxardı. 300 min nəfərdən

çox qazax-qırğız isə Çinin batısına köçməli oldu. Bu köç zamanı da yollarda minlərlə insan və insanların yaşamını təmin edəcək heyvan tələf oldu **(Tursunov H., 1987:8, İsake B., 1993:109).**

"Kazak" qəzetini milli ziyalıların ideoloji mərkəzinə çevirən, ərəb əlifbasının türk dilləri üçün yaramadığını görüb yeni əlifba yaradan, ictimai-siyasi xadim kimi formalaşan Ahmet Baytursunov qazax-qırğızların üsyanını dəstəkləyənlər sırasında olmur. Qərbçilər üsyanın qazax xalqına qarşı edilən haqsızdıqdan doğduğu fikrində olsalar da, üsyanın xalqa xeyirdən çox zərər gətirəcəyi yönlərini qabardırdılar. Car ordusunun əsgəri birliklərini törətdiyi vəhşiliklər haqqında bəzi rus ziyalıları qədər cəsarətlə də söz açmırdılar. Məsələn, Sosialist Kerenski 13 dekabr 1916-cı ildə Dördüncü Dövlət Dumasındakı çıxışında hökuməti ittiham edərək demişdi: "Bütün cəbhələrə bir də Türküstan cəbhəsi əlavə edildi. Cənablar, görmürsünüzmü Türküstan və Qazax çölləri bir Tula və ya Tambov vilayətləri deyildir" **(Özdemir E., 2013:228).**

Mircakıp Dulatov "Kazak" qəzetinin 1916-cı ildə çap olunan 168-ci sayındakı "Qosudarstvennıy Duma hem soldattık meselesi" məqaləsində yazırdı ki, Samardan Əlixan Bökeyxanov, Aktöbeden Nısanqali Beqimbetov, Orenburqdan Ahmet Baytursunovdan ibarət bir heyət yaradılıb. Onlar Dövlət Duması ilə görüşə gedəcəklər. Heyət hökümətə təklif edəcək ki,

qazaxlar arxa cəbhə üçün səfərbərliyə alınmasınlar, onlardan süvari dəstələri yaradılıb ön xəttə, döyüşün qızğın bölgələrinə göndərsinlər. Bütün bunlar da yalnız cədidçiləri deyil, inqilabçıları da, müha-fizəkarları da onlardan uzaqlaşdırırdı.

10.A. Baytursunov siyasi partiya quruculuğunda və milli təşkilatlanmada

Çar İkinci Nikolay taxtdan salınıb Krenskinin başçılığı ilə Müvəqqəti Hökumət qurulduduqdan sonra qazaxlar arasında da siyasi təşkilatlanma gücləndi. Cəditçilərdən Cihanşa Seydalin 1913-cü ildə "Aykap" jurnalının 16-cı sayında qazaxların problemlərini həll etmələri, gələcək fəaliyyətlərini planlamaları üçün bir araya gəlmələrinin vacib-liyindən bəhs edən "Baş kosu" adlı məqaləsini çap etdirəndə qərbçilər onun əleyhinə çıxmışdılar. Ahmet Baytursunov "Kazak" qəzetinin 1913-cü il 21-ci sayındakı "Baskosuv turasında" və 32-ci sayındakı "Baskosuga rushat berilmedi" məqalələrində belə bir toplantıya tərəfdar olduqlarını, lakin hələ şəraitin yetişmədiyini yazırdı.

1916-cı ildə sürgün müddəti başa çatan Əlixan Bökeyxanov da Orunburqa gələrək siyasi fəaliyyətini burada davam etdirirdi. Müvəqqəti Hökümət yerlərdə dayaqlarını möhkəmlətmək üçün komitələr qur-muşdu. Bu komitələrə də rəhbərlik etməyi keçmiş

məmurlara tapşırdığından xalqda onlara qarşı bir inamsızlıq vardı. Buna görə də qazax öndərləri bu təşkilatlara paralel əyalətlərdə öz komitələrini yaradırdılar. Krenski yaxından tanıdığı Əlixan Bökeyxanovu Torğay əyalətinə komissar təyin edir. Kadetlər Partiyasının və Müvəqqəti Hökumətin qazax xalqına mədəni muxtariyyat belə vermək fikirində olmadığını gördükdə Əlixan Bökeyxanov partya üzvlüyündən çıxır. 1917-ci ilin aprelin 2-8-də Orenburqda qazaxların Torğay əyalət konfransı[5] keçirilir. 300 nəfərin iştirak etdiyi konfransda Müvəqqəti Hökumətin komissarı Əlixan Bökeyxanov, Mustafa Çokay, Maqcan Cumabayev, Mircakıp Dulatov, Ahmet Baytursunov və b. fəallıq göstərirlər. Ahmet Baytursunov konfransın sərdi, Velihan Taşanov ve Kalmanov onun müavini seçilir. Qərbçilərin böyük üstünlüyü ilə keçirilən və vilayət, qəza, şəhər və kəndlərdə Müvəqqəti Hökuməti dəstəkləyən komitələr yaradılmasını, Rusiyanın Demokratik Parlamentli Respublika olmasını istəyən konfrans 10 maddəlik qətnamə qəbil edir **(Özdemir E., 2013:236).**

[5] Sənədlərin orjinalında qırğız konfransı yazılır. Bu da ondan doğur ki, çar Rusiyası dövründə qazaxlar rəsmi sənədlərdə qırğız kimi yazılırdı. Qazax adətən yer adı kimi işlədilirdi. Bu gün qazaxlarla, qırğızlar ayrı-ayrı xalqlar kimi təqdim olunur. Kofransların, qurultayların əsas təşkilatçıları qazaxlar olduğundan oxucuda çaıqınlıq yaratmasın deyə rəsmi sənədlərdəki qırğız sözünü qazaxla əvəzlədik.- Ə.Ş.

Belə konfranslar və başqa toplantılar Qazaxıstanın, Türküstanın müxtəlif bölgələrində də keçirildi. Bunlar bir növ Ümumqazax Konfransının keçirilməsinə hazırlıq rolunu oynadı. Hazırlıqlar başa çatdıqdan sonra Orenburq şəhərində 1917-ci il iyulun 21-də Akmola, Semey, Torğay, Ural, Yedisu, Sırdərya və Fərqanədən gələn nümayəndələrin iştirakı ilə konfrans işinə başladı. İyulun 28-dək davam edən konfransda Xəlil Dosmuhammetov sədr, Ahmet Baytursun və Almuhambet Ketibarov sədr müavini seçilmişdi. Gündəlikdə Kazaxıstanın sosial və iqtisadi məsələləriylə əlaqədar 14 mövzu müzakirə edilmişdi.

Bu konfrans qərbçilər arasındakı fikir ayrılıqlarını da ortaya çıxardı. Ahmet Baytursunov, Mircakıp Dulatov inzibati-ərazi muxtariyyatı tələbi ilə çıxış etdilər. Bu da müstəqil Qazax dövləti yaratmağa doğru ilk təşəbbüs idi. Lakin ruspərəst mövqedə olan, Qazaxıstanın müstəqil dövlət qurması üçün kadrlarının və iqtisadi gücünün olmadığını söyləyən Əlixan Bökeyxanov Demokratik Federal Parlamentli Rusiya Respubilkası içərisində muxtar əyalət tələbini irəli sürdü. Əlixan Bekeyxanovun təklifi səs çoxluğu ilə qəbul edildi. Kadetlər Partiyasından ayrılmış qazaxlar özlərinin yeni siyasi təşkilatını yaratmalı oldular. Müvəqqəti Hökumətin Müəssisələr Məclisinə seçkilər haqqında qanunu qazax öndərlərini də siyasi partiya qurmaq məsələsini sürətləndirməyə məcbur etdi.

Çünki seçkilərə siyasi partiya şəkilində qatılmaq olardı **(Bökeyxanov Əli xan, 1994:120).**

Qazaxlar üçün yeni qurulacaq siyasi partiyanın proqramını hazırlamaq mərkəzi Peterburqda yerləşən Şura-i İslam Komitəsinin rəhbərliyinə tapşırılmışdı. Onlar da bu işi yubatdılar. Bu arada bolşeviklərin çevrilişlə hakimiyyəti ələ almaları qərbçiləri də, cədidçiləri də bərk rahatsız etdi. Bolşeviklər ilk bəyanatlarında sülh, xalqlara azadlıq, kəndliyə torpaq vədi ilə çıxış etsələr də, qazaxlar bunlara inamla yanaşmadılar. Ahmet Baytursunov bu çevrilişin qazaxları qorxutduğunu yazırdı. Onun fikrincə, qazaxlar fevral inqilabının xoş qarşılasalar da, oktyabr çevrilişinin anlaşılmaz olduğunu, üzüntü və qorxu yaratdığını söyləyirdi.

Bunu görən Əlixan Bökeyxanov, Ahmet Baytursunov, Mircakıp Dulatov, Eldes Qumarov, Esengali Turmuhammetov, Qabdulhamid Cundibayev, Kazimbek Birimcanov Birinci Ümumqazax Konfransının qərarları əsasında Alaş Partiyasının proqramını hazırladılar və onu əyalətlərdəki qazax komitələrinə göndərdilər. Partiyanın proqramında Rusiyanın Demokratik Federal Respublika kimi qurulması və bu ölkədə əyalətlərin özünüidarə hüququ olması planlaşdırılırdı. Əslində bu Kadet-Konustitusiyalı Sosialistlər Partiyası qazax şöbəsinin müstəqil milli partiyaya çevrilməsi idi **(Bökeyxanov Ə., 1994:260).** Qısa bir zamanda yeni partiyanın

Semey və Omsk şəhərlərində şöbələri yaradıldı. 1917-ci il avqustun 20-25-də Aktubinskdə Torğay Vilayətinin II Qazax Qurultayı keçirilir. Bu qurultayların təşkilatçılarından olan Ahmet Baytursunov Alaş hərəkatının partiyaya çevrilməsində böyük rol oynayır.

Beləcə Torğay qəzasında qurulan Alaş Partiyasının rəhbərliyinə Orenburq şəhərində yaşayanlardan 10, Qazaxıstanın başqa dörd qəzasının hər birindən bir nümayəndə seçildri. Onlar da Əlixan Bökeyxanovu sədr, Ahmet Baytursunovu sədr müavini, Mircakıp Dulatov katib seçirlər.

Yeni siyasi partiyanın yaradılması qazax öndərləri arasında fikir ayrılığını dərinləşdirdi. Qazaxıstanın müxtəlif bölgələrində keçirilən konfranslarda muxtariyyat məsələsi əsas müzakirə mövzusuna çevrilmişdir. Bir qrup qazaxlara muxtariyyat verilməsini istəyirdisə, ikinci qrup Sibirlə birlikdə, üçüncü qrup isə Türküstanla birlikdə muxtariyyata nail olmağın tərəfdarı idi.

1917-ci ilin noyabrın 26-da Kokandda keçirilən Dördüncü Fövqaladə Müsəlman Konfransı Türküstan Muxtar Respublikasının qurulduğunu elan etmişdi. Buraya keçmiş Türküstan quberniyası və Sırdərya, Yedisu əyalətləri daxil idi. Mustafa Çokayev yeni qurulmuş hökumətə daxil olmuş və qazaxların yaşadıqları əyalətlərin hamısının buraya daxil olmasını istəyirdi. Əli Beköyxanov isə nəinki iç-içə, birgə

yaşadıqları özbək, türkmən, uyğur türkləri ilə bir hökumət qurulmasını, heç Şərq ölkələri ilə də əlaqə yaradılmasını istəmirdi. Hətta çıxışlarının birində dəvə ilə eşşəyin bir arabaya qoşulmasının mümkünsüzlüyündən söz açmışdı. Yəni qazaxları dəvəyə, özbək və b. türk-müsəlman xalqlarını eşşəyə bənzətmişdi. O, xalqının gələcəyini Rusiyanın tərkibində görürdü. Odur ki, Sibir muxtariyyatına qatılmağı qazaxlar üçün daha məqbul sayırdı.

Əlixan Bökeyxanov Sibirdəki muxtariyyat tərəfdarlarından Tomskdəki toplantısına 9 nəfər qazaxla birlikdə qatılmışdı. Toplantı iştirakçılarına Birinci Ümumqazax Konfransının qərarı haqqında bilgi vermiş və yeni hazırlanacaq Konstitusiyaya qazaxların istədikləri vaxt ayrılma hüququnun yazılmasını istəmişdi. Lakin onun bu istəyi qəbul edilməmişdi. Sibirdə isə monarxiyapərəst Kolçak özünü Rusiyanın Ali Hökümdarı elan etmişdi.

Bütün bunlar da Əlixan Bökeyxanovla Ahmet Baytursunov və b. qərbçilər arasında fikir ayrılığını dərinləşdirirdi.

Rusyadakı Sosialist Partiyalarının, eləcə də tatar və başqırt sosialistlərinin təsiri ilə Kolbay Toqusov, Şaymerden Alcanov, Abulhayır Dosov, İshak Köbesov, Muhan Aytpesov və b. fəallar 1917-ci ilin aprelində Üç Cüz Partiyasını (sonralar bu partiya Qazax Sosialist Partiyası adlandırılsa da, çox yaşaya bilməmişdir. – ***Ə.Ş.)*** yaratdılar. Az sonra onlar

alaşçılara qatı müxalif oldular. Üç Cuzçular qərbçilərin əksinə olaraq şəriətdən uzaqlaşmaq istəmir, Türküstan Müxtariyyatını dəstəkləyir, Rusiya müsəlmanları ilə birləşərək bolşeviklərlə eyni cəbhədə çıxış etməyi tələb edirdilər.

Qərbçilər Rusiyada baş verən hadisələri müzakirə etmək və quracaqları hökumətin təşkilat strukturunu planlamaq üçün İninci Ümumqazax Konfransına hazırlıq görməyə başladılar. Toplantıda Əlixan Bökeyxanov, Ahmet Baytursunov, Cihanşah Dostmuhammetov və Mustafa Çokayev kimi Alaş liderləri ilə yanaşı başqırd Zaki Validov da iştirak edirdi. Toplantıda qərara alındı ki, Rusiyadakı Müəssisələr Məclisinə seçkiləri yüksək səviyyədə keçirsinlər, bolşeviklərlə iş birliyinə getməsinlər, Ukraynadakı kimi Muxtariyyata nail olmağa çalışsınlar. Bunun üçün 1917-ci ilin dekabrın sonlarında Ümumqazax və Başqırd Konfransların keçirməyi, Türküstandakı Muxtariyyatın yolu ilə getməyi planladılar.

Konfransa hazırlıq üçün Ahmet Baytursunov, Mircakıp Dulatov, Sağındık Dostcanov, Eldes Omaravdan ibarət beş nəfərlik bir komitə yaratdılar.. Əlixan Bökeyxanov da "Kazak" qəzetində iki bəyanat yayaraq arzu və istəklərini xalqa çatdırır. Komitə quracaqları Alaş Orda Muxtar Hökumətini qarışıqlıqdan, anarxiyadan qorumaq üçün 25 nəfərlik Xalq Şurası və idarə etmənin təşkili üçün Milli Məclis yaratmağı planladı.

Əlixan Bökeyxanovun rəhbərliyi altında Semey şəhərində qurulan Alaş Orda Hökumətində Əlixan Bökeyxanov prezident, Xəlil Abbas vitseprezident, Alim xan Ermək Hərbi Nazir, Ahmet Berimcan Ədliyyə Naziri, Muhammedjan Tınışbayev Daxili İşlər Naziri, Ahmet Baytursunov Milli Təhsil Naziri, Mustafa Şokayev (Çokayev) (Rusiyada yaşadığı dövürdə adı və soyadı Mustafa Şokayev (Çokayev) yazılırdı. Mühacirətə getdikdən sonra Mustafa Çokay kimi tanındı-**Ə.Ş**.) Xarici İşlər Naziri, Cihanşah Dostmuhammedov, Xəlil Dostmuhammedov və Ahmet bəy Sarsan isə Alaş Orda Hökumətinin batı bölgəsi üzrə məsul nazirlər təyin edilirlər.

Alaş Orda Muxtar Hökumətinin yarandığını elan etmək məsələsində yenə fikir ayrılığı meydana çıxır. Əlixan Bökeyxanov, Ahmet Baytursunov və Mircakıp Dulatovun başçılıq etdiyi qrup Muxtariyyat elan edilməsini yubadılmasını istəyirdilər. Onların fikrincə, qazaxların muxtariyyatlarını elan etmələri bölgədəki rusları qıcıqlandırar. Həm də Türküstan bölgəsindəki qazaxların Alaş Muxtariyyatına qatılıb qatılmayacaqları bəlli oluncaya qədər gözləmək gərəkdir. Vaxtı yubatmaqla onlar bolşeviklərlə ağqvardiyaçılar arasında savaşın necə nəticələnəcəyini bilmək istəyirdilər.

1917-ci il dekabrın 13-15-də Orenburq şəhərində Ümumqazax Konfransı çağırılır. Qurultayda Rusiyanın tərkibində Alaş Orda Hökumətinin qurulduğu

elan edilir. Ahmet Baytursunova və Mirjakıp Dulatova əhalini səfərbərliyə almaq, partiyanın gücünü artırmaq və özünümüdafiə məsələləri tapşırılır. Azsaylı qazax sosialistləri isə milli dövlətin qurulmasına etiraz edir. "Üç Cüz" qəzeti 2 mart 1918-ci il sayında Alaş Orda Muxtariyyatı haqqında yazırdı: "Qazax - qırğızlar elm-sənət və digər dünya zənginliklərindən uzaq qalmışlar. Müstəqil olmadan öncə zənginlik dəryasından az da olsa, faydalanmaq gərəkir. Belə çətin bir zamanda muxtariyyata necə baxa bilərik. Bizim qazax çöldəki yaban atı kimidir. Yaban atı qorxutmax nə qədər çətindirsə, qazax-qırğızları muxtariyyata alışdırmaq o qədər çətindir. Qazaxıstanın təkbaşına Muxtar Respublika olması imkansızdır. Qazax-qırğızın başı Həştərxanda, ayağı Çindədir. Ortamızdan İrtış, Esil, Tobul, İdil, Cayık kimi çaylar axmaqdadır. Bunların kənarında yerləşdirilən rus kəndləri var. Onlar bizimlə nə Muxtar Respubilka qurmaq istəyi, nə də Qazaxıstandan ayrılmaq. Qazaxlarla rusların dostluğu da imkansız görünür" **(Nurpeyisov K., 1995:149).**

Alaş Orda Muxtariyyatının elan edilməsi bir birinə düşmən olan, ölüm-qalım savaşı aparan bolşeviklərlə ağqvardiyaçıların hər ikisini eyni dərəcədə narahat edir. Alaş Ordaçılar Orenburqda əlində kazak hərbi birliklərini cəmləşdirmiş çar ordusunun polkovnik Birinci AleksandrDutovla və başqırdların lideri Zaki Validovla (Rusiyada yaşadığı dövürdə adı və soyadı

Zaki Validov yazılırdı. Mühacirətə getdikdən sonra Zeki Validi Toğan kimi tanındı-**Ə.Ş**.) ittifaqa girmək istəsələr də, bu istəkləri baş tutmur.

Qərbçilərin İkinci Ümumqazax Konfransında qazaxları birləşdirmək istəyi baş tutmadı. Bu birlik üçün ən çox səy göstərənlərdən biri Mustafa Çokayov idi. O, Sırdərya qazaxlarına müraciət edərək onları Alaş Orda bayrağı altında birləşməyə çağırmışdı. 1918-ci il yanvarın 5-də Sırdərya qazaxlarının toplantısında Kokand Muxtariyyatını qorumaqla Alaş Orda və Türküstan Muxtariyyatını federasiya şəkilində birləşdirilməsi haqqında qərar qəbul edildi. Bu da Əlixan Bökeyxanovu qane etmədi. Beləliklə, qazaxların bir bayraq altında birləşməsi arzusu puça çıxdı.

Böyük ərazisi olan Qazaxıstanı idarə etməyə Alaş Orda Hökumətinin nə kadrı çatır, nə də hərbi gücü. Çar İkinci Nikolayın taxtdan salındığı günlərdə qazaxlar arasında ali təhsillilərin sayı cəmi 70 nəfərə yaxın idi **(Özdemir E., 2007:73).** Bolşeviklər də Qazaxıstanın müxtəlif yerlərində qarışıqlıqlar, silahlı toqquşmalar yaradırdı.

Türküstanla birləşmə fikrinə qarşı olan Əlixan Bökeyxanov vəziyyətin getdikcə gərginləşdiyini, qazax bölgələrinin gah bolşeviklərin, gah ağ qvardiyaçıların təsir dairəsinə düşdüyünü, minlərlə soydaşının öldürüldüyünü, ev-eşiklərinin dağıdıldığını, kəndlərinin xarabalığa çevrildiyini görərək güzəştə getməyi qərara alır. O, görürdü ki,

istər bolşeviklər, istərsə də ağqıvardiyacılar onların gücündən rəqiblərinə qarşı istifadə etməyə çalışıqları halda qazaxlara və digər türk xalqlarına özünüidarə hüququ vermək istəmirlər.

Türk xalqlarının birliyinin qaçılmaz olduğunu görən Alaşçılar Başqırd və Türküstanlı liderlərlə öncə 1918-ci ilin iyulunda, sonra isə sentyabrda Orenburq və Samarada biraraya gəlirlər. Samaradakı toplantıda Alaş Ordadan Əlixan Bökeyxanov, Ahmet Baytursunov, Mircakıp Dulatov, Kokand Hökumətindən Mehmetcan Tınışbayev, Mustafa Çokayev, Ubeydullah Hocayev və Başqırdlardan Zaki Validov və b. iştirak edirlər.

Bu toplantıda hökumətlərdən "Güney-Doğu Müslüman Ölkələri Federasiyası" qurulması, Başqırd və qazax ordularının bir mərkəzdə idarə olunmasını, Sibir, Samara hökumətlərinə, Ural və Orenburq rus kazaklarına müraciət edərək, onların da iştirakı ilə ilə bir "Doğu-Rus İttifaqı" əsasında geniş federativ hökumət yaradılması müzakirə edilir **(Toğan Z. V., 1999:1994).**

Bundan sonra üç hökumətin nümayəndələri Ufa şəhərinə gedərək bolşeviklərə qarşı qüvvələri birləşdirmək üçün bir toplantı keçirirlər. Toplantıda Sibir Müvəqqəti Hökuməti, Yekaterinburq Əyalət Hökuməti, Məhəlli Bələdiyyələr, Alaş Orda Hökuməti, Başqırt Hökuməti, Kokand Hökuməti, Rusiya və Sibir Tatarları iştirak edir. Lakin Sibir

Müvəqqəti Hökumətinin sağçı nümayəndələri ilə Müəssisələr Məclisinin solçu nümayəndələri arasındakı qarşıdurma yaranır. Əlixan Bökeyxanov və digər türk nümayəndələrlə birlikdə solçuları dəstəkliyirlər. Toplantıda beş üzvdən ibarət bir direktorluq qurulması qərara alınır. Lakin Ayaz İsaki, Fuat Tukrar kimi tatar öndərlər belə bir federasiyanın yaranmasına xoş baxmırlar. Bu arada Osmanlı Qızıl Ay Təşkilatının nümayəndəsi kimi Rusiyaya gələn Yusif Akçuralı ilə görüşür və onunla məsləhətləşirlər. O da bu federasiyanın adının "Doğu Türkləri Federasiyası" olmasını təklif edir. Əlixan Bökeyxanov bu ada qurulacaq hökumətə pantürkizm damğası vrurlacağını söyləyir **(Toğan Z. V., 1999:1994).**

Çar hakimiyyəti illərində Orenburq valiliyində məmur olan, Muhammed Tunqaçinin Sovet Rusiyasının Millətlər Məsələsi Xalq Komissarlığında Kazak məsələləri müdiri təyin edilməsi, Üç Cüz Partiyasının rəhbəri Kolbay Toqusovun Torğay və Akmola bölgələrinə komissarı təyin edilməsi, bir ortodoks xristian missioneri olan Əli Cangəldini də Qazaxıstan Əyalətlərinə Fövqaladə Komissar təyin etilməsi və s. məsələlər onsuz da ağır olan Alaş Orda Hökumətinin vəziyyətini pisləşdirdi.

Vəziyyətin getdikcə bolşeviklərin xeyrinə dəyişdiyini görən Alaş Orda Hökumətinin bəzi üzvləri bolşeviklərlə danışıqlara getməyi daha münasib sayırlar.

1919-cu ilin yanvarında Ahmet Baytursunovun rəhbərliyi ilə Moskvaya bir nümayəndə heyəti getdi. Nümayəndə heyəti Sovet rəhbərlərindən Lenin, Stalin, Trodski və b. ilə görüşür. Ahmet Baytursunovun Rusiya Milli Məsələlər Üzrə Xalq Komissarı İosif Stalinin görüşü haqqında daha geniş yazırlar. Bu görüşlərdə razılığa gəlinir ki, bolşeviklər qazaxların muxtariyyatını tanıyacaq və Alaş Orda Hökumətinin bolşeviklərə qarşı vuruşmuş üzvləri əfv ediləcəklər. Alaş Ordaçılardan Ahmet Baytursunov, Mirjakıp Dulatov, Jusipbey Aymautov, Maqjan Jumabayev və başqa öncülləri də bolşeviklərin sırasına qoşulurlar. Moskvanın göstərişi ilə Diyar İnqilab Komitəsi qurulur. Komitəyə S.Pestkovskı sədr Ahmet Baytursunov, B.Karatayev, S.Mendeşev, M.Tunqaçin üzv seçilirlər.

Razılaşmadan sonra Alaş Ordaçıların bir qismi bölşeviklərin tərəfinə keçir, qazaxların Sovet Ordusuna müqavimət göstərməsinin qarşısını alır.

Sovet hökuməti 1920-ci ilin fevralında Qoleşçekin başçılıq etdiyi əsgəri birliyi Semeyə, Alaş Ordanın üzərinə yeridir. Bu hərbi hissə M.Tunqaçinin suvari alayı ilə birləşib Alaş Orda Hökumətinin polislərini atəşə tutur və hökuməti dağıdır. Yerində Qırğız Sovet Sosialist Muxtar Respublikası qurduqlarını elan edirlər. Hökumət başına da M.Tunqaçin gətirilir. Alaş Ordaçıların bir qismi isə təslim olmayaraq qazax

çöllərinə çəkilərək bolşeviklərə qarşı döyüşü davam etdirir.

Ruslar həmişəki kimi yenə də verdikləri vədə əməl etmirlər. Diyar İnqilab Komitəsi 1920-ci ilin martın 5-də Batı Alaş Ordasının ləğv edildiyini bildirir. Ahmet Baytursunovun yaxın dostu və məsləkdaşı, Alaş orda Hökumətinin rəbhəri Əlixan Bökeyxanovu da həbs edirlər **(Nurpeyisov K., 1995:221).**

Qaynaqlar Ahmet Baytursunovu Moskvada olarkən Miesaid Soltanqaliyev, Zəki Vəlidi Toğan, Turar Rıskulov, Vəli (Qali) İbrahimov, Feyzulla Xocayev və Nəzər Xocayev ilə birlikdə "İttihad və Tərəqqi" adlı gizli bir təşkilat da qurduqlarını yazırlar.

11.Ahmet Baytursunov bolşeviklərin xidmətində

Rusiya Kommunist (bolşeviklər) Partiyasının üzvlüyünə namizəd qəbul edilən Ahmet Baytursunovu 1919-cu il aprelin 24-də qurulan RSFSR Xalq Hərbi Komissarlığı yanındakı Qazax bölgəsini idarə edəcək Hərbi İnqilab Komitəsinə üzv təyin edirlər. Bölgədə bolşeviklər hakim olduqdan sonra Ahmet Baytursunov Qazaxıstan MSSR Maarif Komissarı olur. Ənənəvi təhsil sisteminə qarşı olan Ahmet Baytursunov öncələr fikirlərini “Aykap” jurnalındakı və “Kazak” qəzetindəki məqalələri ilə xalqa çatdırırdısa, indi nazir kimi onları rəsmi qərar və göstərişlərlə yerinə yetirilməsinə nail olmuşdur. O,

ərəb əlifbası əsasında hazırladığı qazax əlifbasını tədris etdirir, üsul-i sövtiyənin üzərində dəyişikliklər aparırdı.

Bolşeviklər əhalinin mal-mülkünü mənimsəməyə, kütləvi həbslər və sürgünlər təşkil etməyə, azacıq müqavimət göstərəni güllələməyə başlayırlar. Qazaxlar qonşu ölkələrə köçməklə ölümdən və alçaldılmadan qurtulmağa çalışırlar.

Ahmet Baytursunovu bir müddət Kommunist Partiyası Vilayət Komitəsinin mərkəzi aparatında, Qazaxıstan MSSR Mərkəzi İcraiyyə Komitəsində müxtəlif vəzifələrdə işlədirlər. Bolşeviklər mövqelərini möhkəmlətdikçə onlara sözsüz əməl etməyən, fikirlərini sərbəst söyləyən, keçmiş "müttəfiqlərini" rəsmi hökumət vəzifələrindən uzaqlaşdırırlar. Əksər Alaş Ordaçılar kimi Ahmet Baytursunov da hökumət vəzifələrindən uzaqlaşdırılır. O, pedaqoji, elmi, ədəbi sahələrdə çalışmağa başlayır. 1921-1925-ci illərdə elm və ədəbiyyat komissiyasına rəhbərlik edir, Orenburqdakı Qazax Pedoqoji İnstitutunda dərs deyir, Qazaxıstandakı Tədqiq-Tətöbbə Cəmiyyətinin fəxri sədri seçilir. Bütün bunlara baxmayaraq üzərində Sovet xüsusi xidmət orqanlarının nəzarəti bir an da olsun azalmır.

1924-cü il iyunun 12-18-də Orenburqda keçirilən Qazax-qırğız Elm və Mədəniyyət İşçilərinin Qurultayının təşkilində fəal iştirak edir. Yeni əlifba, ədəbi dil, qazax dilinin qrammatikası mövzusunda çıxışlar

edir. Onun ərəb əlifbasının əsasında hazırladığı yeni əlifba qazax-qırğızlar üçün rəsmi əlifaba kimi qəbul edilir və məktəblərdə tədrisinə göstəriş verilir. 1925-ci il mayın 25-27-də Pişpekdə keçirilən Birinci Elmi-Pedoqoji Qurultaydakı çıxışları da qazax-qırğız maarifçiləri tərəfindən maraqla qarşılanır **(Musayev S., 2013:33).**

1910-cu illərdən ərəb əlifbasının türk dilləri üçün uyğunlaşdırılması üzərində işləyən Ahmet Baytursunovun 1915-ci ildə Orenburqda "Til Qurah" (Dil qaydaları), 1920-ci ildə Kazanda nəşr etdirdiyi "Kazaxca əlippege bayanşı" (Qazaxca əlifbaya başlama), 1925-ci ildə Orenburqda çap etdirdiyi "Til tanıtkış" (Dil nəzəriyyəsi), 1926-cı ildə Daşkənddə çap etdirdiyi "Ədebiyet tanıtqış" (Ədəbiyyat nəzəriyyəsi) kitabları onun çoxsahəli elmi fəaliyyətindən xəbər verir. Muxtar Ayvazov isə məqalələrinin birində Ahmet Baytursunovun 1923-cü ildə "Mədəniyyət tarixi" adlı bir kitabını tamamladığını yazsa da, bu kitab haqqında bugünədək yeni bir bilgi əldə edilməmişdir. Aleksandr Nikolayeviç Kononov Ahmet Baytursunovun yazdığı qrammatika kitablarını yüksək qiymətləndirmiş, onun məşhur türkoloqlardan biri olduğunu yazmışdır. Ahmet Baytursunovun yazdığı şeirlərin və etdiyi poetik tərcümələrin sayı 100-ə çatmır. İstər satirik şeirləri, istər tərcümələri, istərsə də "Jubatuw" (Təsəlli), "Dostima hat" (Dostuma mektup), "Qazaksalti" (Qazax adətləri) və b. kimi

cidd, didaktik şeirləri bədii cəhətdən o qədər də güclü olmadöğından onların təhlilinə ehtiyac duymadım.

7. Bakıda keçirilən Birinci Türkoloji Qurultayda

Ahmet Baytursunov 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayda türk xalqları üçün hazırladığı əlifba layihəsini müzakirəsi üçün gəlir. Onu qurultayda böyük hörmətlə qarşılayırlar. Qurultayın ilk iclasını Səmədağa Ağamalı oğlu açır, onun qısa təbrik nitqindən sonra Əbdül Cəfərov aşağıdakı namizədlərin Qurultayın rəyasət heyətinə seçilməsini təklif edir: "1. Ağamalıoğlu, 2. Axundov Ruhulla - Azərbaycan, 3. Bartold , 4. Bəytursun (I Türkoloji Qurultayın materiallarında Ahmet Baytursunovun soyadı belə yazılıb-Ə.Ş.) - Qazaxıstan, 5. Barahov - Yakut Respublikası, 6. Borozdin - Şərqşünaslıq Assosasiyası (Bolşeviklər hakimiyyətə gəldikdən sonra, 1921-ci ildə yaratdıqları SSRİ Mərkəzi İcraiyyə Komitəsi yanında Ümumittifaq Elm Şərqşünaslıq Assosiyasıının adı qısa belə yazılırdı. İlya Nikolayeviç Borozdində (23.10.1883, Yaroslavl-13.10.1959, Voronej) həmin vaxt oradakı tarix-etnologiya şöbəsinin müdiri işləyirdi.-Ə.Ş.), 7. Cəbiyev Həbib, 8. İbrahimov Qalimcan - Tatarıstan, 9. İdelquzin - Başqırdıstan, 10. Köpürlüzadə - Türkiyə, 11. Qorxmasov - Dağıstan, 12.Nahamov İ. - Özbəkistan, 13. Naqovitsin - RSFSR Xalq Maarif Nazirliyi, 14. Oldenburq-akademik, 15. Pavloviç-Şərqşünaslıq Assosasiyası, 16.Samoyloviç-

professor, 17. Tinstanov-Qara - Qırğızıstan, 18. Çobanzadə - professor, 19. Berdiyev-Türkmənistan, 20. Akçokraklı-Krım, 21. Əliyev Umar - Şimali Qafqaz, 22. Menzel-professor, Avropa alimlərinin nümayəndəsi" **(1926-cı il, 2006:17-19).** Əbdül Şəfərovun təklifi qəbul edilir.

Əlişir Nəvainin 500 illik yübileyi Türkoloji Qurultay keçirilən günlərə düşdüyündən "Perenqiliyev, Bəytursun, Şakircan Rəhimi, İnoqamov, Nağıyev, Lemanov, İbrahimov, Çobanzadə, Məmmədzadə, Habbitovdan ibarət bir komissiya yaradılır" ki, yubiley tədbirlərini planlasın **(1926-cı il, 2006:127).**

Orfoqrafiya, terminologiya, ana dilinin tədrisi üzrə yaradılan komissiyalara, eləcə də qurultayın qəbul etdiyi qətnamələri redaktə edəcək qrupa Ahmet Baytursunovun seçilməsi onun qurultayda necə böyük nüfuz sahibi olduğundan xəbər verir. Qurultayın çıxış edən tatar siyasi xadimi və dövlət adamı onun hazırladığı əlifbanın mətbəədə sınaqdan keçirildiyindən söz açırsa, Turaqulov martın 3-dəki onbirinci iclasda Ahmet Baytursunovun türk xalqları üçün latın qrafikalı vahid əlifbasını yaradılması əleyhinə getməsini tənqid edir.

Qurultayda Fuad Köprülüzadə, Əli bəy Hüseynzadə və b. ilə görüşərək onlar vasitəsilə mühacirətdə olan keçmiş məsləkdaşları ilə əlaqə yaratmağa çalışan Ahmet Baytursunovun ərəb əlifbasını islah əsasında hazırladığı əlifba layihəsi qəbul edilimir. Səs çoxluğu ilə latın qrafikalı əlifbaya keçirilməsi qərara alınır.

12.Təqiblər, təzyiqlər və həbslər

Bir ara Türküstan Kommunist Partiyası Mərkəzi Komitəsinin orqanı "Ak jol" qəzetində işləyən, sonra Daşkənddəki Qazax Pedaqoji İnstitutunda qazax dili və ədəbiyyatından dərs deyən Ahmed Baytursunovu Kommunist Partiyası üzvlüyündən çıxarırlar. Bu açıq aşkar Sovet hökumətinin nəzərindən düşdüyü demək idi.

Bütün bunlara baxmayaraq, o, yorulmadan elmi və pedaqoji fəaliyyətini davam etdir. 1928-ci ildə Ahmet Baytursunovu Almatı Qazax Universitetinə işə dəvət edir və burada qazax dili və ədəbiyyatı profes-soru seçilir. Lakin onun professor işləməsi çox uzun sürmür. 1928-ci ildə Qızıl Ordada çap etdirdiyi "Til jumsar" (Dilin işlədilməsi) son kitabı olur.

Bolşeviklərə aldandığını anlayan Ahmet Baytur-sunov maarif sahəsində çalışsa da, elmi araş-dırmalarla məşğul olsa da gizlində siyasi fəaliyyətini davam etdirir. Qazaxların təkbaşına Sovetlərə qarşı duruş gətirə bilməyəcəyini görüb türk xalqlarının birg mübarizəsini planlayanlara qoşulur. Qazaxıstanda gizli millətçi təşkilatın qurulmasında iştirak edir.

Sonuc

Bolşeviklərin Qazaxıstanı və Türküstanı işğalına yardımçı olmasına, maarif və elm sahəsindəki böyük xidmətlərinə, qazax-qırğızlar üçün əlifba, fonetika,

sintaksis, etimoloji sözlük və s. yazmasına əhəmiyyət verməyən Sovet KGB-si Ahmet Baytursunovu 1929-cu il mayın 4-də 30 nəfərlə birlikdə həbs edir. Onu və yoldaşlarını antisovet fəaliyyətdə, millətçi təşkilat qurmaqda suclayırlar. Bir ay keçən işgəncəli istintaqdan sonra, yəni iyunun 12-də məhkmə güllələnməsi haqqında hökm oxuyur. Səkkiz ay güllələnəcəyi günü gözləyən Ahmet Baytursunovun hökmündə dəyişiklik edilir.Güllələnmə 10 illik həbslə əvəzlənir və Solovkidəki islah-əmək düşərgələrinə göndərilir. **(Aytbayev Ö., 2013:15).** Xanımını - Badisəfanı da xalq düşməninin arvadı kimi Tambova sürgün edilir.

Solovki adalarındakı islah-əmək düşərgələrindəki qeyir insani davranışlar haqqında xarici ölkələrdəki mətbuat çox yazıb. SSSİ dağıldıqdan sonra keçmiş Sovetlər Birliyində də bu mövzuda çox yazıldı, çoxlu arxiv sənədləri ortaya qoyuldu. Azərbaycanlı yazıçılar Solovkiyə səfər edərək əsərləri üçün material topladılar. Mühacirlərin İstanbulda çap etdirdiklər "Bildiriş" qəzetində hissə-hissə verilmiş "Solovkidə gördüklərim" xatirəsini bu sətirlərin müəllifi bir yerə toplayaraq Bakıdakı "Günış" nəşriyyatında kitab kimi çap etdirdi. **(Ağaoğlu B.E., 2004).**

Bolşeviklərin qəddarlıqlarına qarşı duran, canilərlə bir həbsxanada qalmaq istəməyən, onlara siyasi məhbus statusu verilməsini tələb edən Azərbaycanlı məhbuslar ilk dəfə siyasi tələblərlə kütləvi ölüm aclığı elan edirlər. 56 gün davam

edən açlığa rəhbərlik edənlərdən biri də 1923-cü illərdə Parisdəki Ali Siyasi Elmlər Akademiyasını bitirib vətənə dönmüş və 1927-ci il fevralın 28-də 10 illiyə islah əmək düşərgəsinə göndərilmiş şair Əli Yusif (Yusifzadə) olmuşdur. Aclığın 53-cü günü Gəncəli İbrahim Axundzadə və Şəkili Əlovsət (Əfsər) Nəcəfov şəhid olmuşlar. (**Qəhrəmanlı N., 2010:125**). Bütün bunlar Ahmet Baytursunovun gözləri qarşısında baş verirdi. Bir zamanlar millətçi görünməmək üçün özbəklərdən, türkmənlərdən, azərbaycanlılardan uzaq durmağa çalışan insanın indi olara böyük ehtiyacı vardı. Onu cəsarət edib ata bilmədiyi addımları, siyasi aksiyanı azərbaycanlılar həyata keçirirdi. İndi Ahmet Baytursunov onlara qoşulmasa da, onlarla qürur duyduğunu da gizlətmirdi.

Vladimr Lenin və 1917-ci ildə hakimiyyəti silah gücünə ələ almış bölşeviklərin öndərlərinin bir çoxu ilə yaxın dost olan, sosialist ədəbiyyatının banilərindən sayılan Maksim Qorki 1917-ci ildən sonra keçmiş dostlarının ölkədə yaratdıqları qarışıqlardan, yüzminlərlə insanı öldürdüklərindən qorxuya düşüb xaricə mühacirət etmişdi. Sovet rəhbərliyi bir neçə il çalışdıqdan sonra onu geri qaytara bilmişdi. Məqsədləri onu qurduqları dövlətin təbliğatçısına çevirmək idi. Odurki Maksim Qorkiyə müəyyən güzəştlər də vermişdilər. Hətta ona Solovki adalarındakı islah əmək düşərgəsinə, xalqın "buzlu cəhənnəm" adlandırdığı yerə getməsinə icazə vermişdilər.

Bu haqqda Azərbaycanın Tibb Unversidetinin müəllimi, gizli antisovet təşkilatının fəalı Mədinə Qayıbovanın (1897-1938) da bilgisi olmuşdur. Mədinə xanımı 1937-ci il dekabrın 8-də Bakıda həbs etmişdilər. İstintaq zamanı KQB müstəntiqinin suallarına cavabında Mədinə xanım demişdir ki, Maksim Qorki Solovki adalarına gedərək oradakı məhbuslarla görüşmüşdür. Düşərgələrindəki məhbuslar rəhbərliyin qorxusundan yazıcıya həqiqətləri açıq şəkildə deyə bilməmişlər. Lakin Solovkidə siyasi tələblərlə ilk ölüm aclığı elan etmiş Azərbaycandakı "Müsavat" Partiyasının üzvlərindən biri, həyatı bahasına da olsa dusdaqların çəkdikləri məhrumiyyət və gördükləri işgəncələr haqqında hazırladıqları sənədi gizlincə Maksim Qorkinin xanımına verə bilmişdi. (**Qəhrəmanlı Nazif, 2010:124, Bünyadov Ziya, 1993:61-62**). Bu sənədə əsaslanan Maksim Qorkinin xanımı E.P.Peşkovanın Dünya Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətlətinə, eləcə də RK(b)P Mərkəzi Komitəsinə məktubla müraciət edərək faciənin böyüklüyünü anlatmış və orada həbsdə olan ziyalıların, yazıçı və şairlərin silahlı müqavimətdə iştirak etmədiklərini, azad düşüncəli sənətkarlar olduqlarına görə həbs edildiklərini göstərmişdi. O, məktublarında yazır ki, yazıçı və şairlər, sənət və elm adamları fikirlərini sərbəst söylədiklərinə görə həbs edilmişlər. Bu da nəinki SSRİ-də, həm də dünyada mədəniyyətin, elmin inkişafına, ağır zərbə vurur. Müraciət etdiyi təşki-

latların rəhbərləərindən xahiş edir ki, fikirlərini sərbəst söylədiklərinə görə həbs edilmiş yazıçı və şairlər, elm və sənət adamları əfv edilsinlər. **(Aytbayev Ö., 2013:16).**

E.P.Peşkovanın bu məktubu ağzınadək dolmuş, yeni məhbusları qəbul edə bilməyəcək həddə çatmış həbsxanaların bir qisminin boşaldılmasına təkan vermişdir.

1934-cü ildəAhmet Baytursunov Solovkidəki həbsxanadan, xanımı Badisəfa da Tambov sürgünündən azad edilir. Onlar Almatıya dönərək çətinliklə də olsa övladları Aymatı, Kazixanı, Şolpanı müxtəlif şəhər və kəndlərdə tapıb yanlarına gətirirlər. Ahmet Baytursunovun sənədlərinin üzərinə "Heç bir peşə sahibi deyildir" yazdığına görə ona iş verən tapılmır. Ailə maddi sıxıntı içərisində qalır.

Həbs və sürgündə elmi və bədii yaradıcılıqla məşğul ola bilməyən Ahmet Baytursunov maddı sıxıntı içərisində olduğundan 1934-1937-ci illərdə də elə bir əsər yarada bilmir.

1937-ci ildə Ahmet Baytursunovu həbs edilərək Moskvadakı Butrsk həbsxanasına göndərilir. Keçmiş alaşçılardan Qabbas Nurumovla, Almuxammad Kasımovla, Alimxan Yermakovla, eləcə də Qazax Xalq Maarif Komissarı Teymurbek Jurqenevlə, RSFSR Xalq Komissarlar Sovetinin müavini Turar Rıskulovla, Bakıda yaşayan professorlardan Bəkir Çobanzadə və Qaziz Qubaydullinlə və b. ilə birlikdə an-

tisovet təbliğat aparmaqda, Sovet dövlətini devirməyə cəhd etməkdə suçlayıb 1937-ci il dekabrın 8-də güllələyirlər.(http://lists.memo.ru/index2.htm).

1956-cı ildə repressiya qurbanlarının çoxuna bəraət verilsə də, Ahmet Baytursunova bəraət verilmədi. Heç kimə gərək olmayan, əhəmiyyətini çoxdan itirmiş bəraət ona 1988-ci ildə SSRİ-nin dağılması ərəfəsində verilir. 1998-ci ildə isə anadan olmasının 125 illiyi qeyd edilərək əsərlərinin çapı, adının əbədiləşdirilməsi üçün bəzi işlər görüldü.

Qaynaqlar

1. 1926-cı il I Bakı Türkoloji Qurultayı (2006) (Stenoram materialları, bibloqrafiya və foto-sənədlər), Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri: professor Kamil Vəli Nərimanoğlu, Elmi işçi Əliheydər Atakişiyev. "Çinar-Çap" nəşriyyatı, Bakı.

2. Abdırahmanov C.(1991). "Kırgızdardın 1916-cıldagı Kötörülüşü Cönündö", Kırgızdar, Bişkek, s. 374-390.

3. Ağaoğlu B.E. (2004). Solovkidə gördüklərim (Nəşrə hazırlayan və ön söz yazan Əli Şamil), "Günəş" nəşriyyatı, Bakı.

4. Aldaşın A. (2013) Aydarmadağı janırlık-stildik erekşelikter (A. Baytursunulunun "Kırık mısalı" neqizinde), Ahmet Baytursınulı-Kazak ruxaniyatının kösemi (Xalkarlık ğılmi-teoryalık konfersntsiya materialdarı), "Eltanım" nəşriyyatı, Almatı.

5. Allabergen Kırıkbay, Nuskabayuli Carılkasın ve Orazay Fezolla.(1996). Kazak curnalistikasını tarıhı, Almatı.

6. Aytbayev Ö.(2013) Ult medenietinin xantəniri, Ahmet Baytursınulı-Kazak ruxaniyatının kösemi (Xalkarlık ğılmi-teoryalık konfersntsiya materialdarı), "Eltanım" nəşriyyatı, Almatı.

7. Baytursunov Ahmet.(1996). Cana Nizam, Almatı.

8. Bökeyhan Alihan (1994). Men Kadet Partiyasınnan nege şıgtım, Şıgarmaları, Haz. Mambet Koygeldiyev. Almatı, 261-262.

9. Bökeyhan Əlixan. (1995). Tandamalı, (Haz. R.N. Nurgaliyev), Almatı.

10. Bünyadov Ziya. (1993). Qırmızı terror, "Azərbəşir", Bakı.

11. Cumabayev Mağcan. (1996). Şıgarmaları, (Haz.M.Bazarbay), Almatı.

12. Dulatov Mırcakıp. (1991) "Tarşılık Halimiz Hakkında Az Munacat", Şıgarmaları, Haz.Marat Semetov ve Gulnar Dulatova, Almatı, 40-48.

13. Dulatov Mırcakıp.(1991) "Nasihat Gumimiya", Şıgarmaları, Haz. Marat Absemetov və Gülnar dulatova, Almatı, 58-75.

14. İbraimov O. 1993, s.224. "Kızıl kırgın", Ürkün, Bişkek.

15. İmaxanbet R.S. (2013). Ahmet Baytursınulının ömir jolı, Ahmet Baytursınulı-Kazak ruxaniyatının kösemi (Xalkarlık ğılmi-teoryalık konfersntsiya materialdarı), "Eltanım" nəşriyyatı, Almatı.

16. İsake B. (1993) "1916-cıl", Bişkek, Ürkün.

17. Kara Füsun. (2011). 1916. Büyük Kırgız isyanı: Ürkün,Turkish studies - ınternational periodical for the languages, literature and history of turkish or turkic volume 6/2 spring.

18. Koygeldiyev Mambet. (1996). Alaş kozgalışı, Almatı.

19. Qəhrəmanlı Nazif. (2010). Vətən və istiqlal aşiqi Əli Yusif, "Avropa" nəşriyyatı, Bakı.

20. Mirzahmetov Mekemtas. (1993).Kazak Kalay Orustandırıldı,Almatı. 31.

21. Mirzahmetov Mekemtas. (1998). Turkistanda Tugan Oydar, Almatı, 51

22. Nurpeyisov Kenes. (1995). Alaş hem Alaş Orda, Almatı. 55.

23. Özdemir Emin. (2007). 20. yüzyilin baslarinda Kazakistan'da fikir hareketleri, (Doktora tezi), Gazi Üniversitesi Sosyalb İlimler Enstitüsü Tarih Anabilim Dali Türkiye Cumhuriyeti Tarihi Bilim Dali, Ankara.

24. Pirmanov Adilcan və Kapeyeva Aycan. (1997). Kazak inteligetsiyası, Almatı. 68.

25. Şamil Əli. (2013). Türkçülüyün qurbanları. (Qazaxıstan), "Elm və təhsil" nəşriyyatı, Bakı. 164 səhifə.

26. Şamil Əli. Ahmet Baytursunov. http://www.trtazerbaycan.com/trtworld/az/newsDetail.aspx?_HaberKodu=6574ae18-3d99-4c5f-9955-e712fb2afd93

27. Şimşir Sebahettin. (2009). Dünden Bugüne Türküstan Türkleri, İQ kültür Sanat Yayıncılık, İstanbul.

28. Togan Zeki Velidi. (1999), Hatıralar, Ankara, 1994.

29. Tursunov H. (1987). Urta Osiyo Kozogistonda 1916 yılı halk Kuzgoloni, Taşkent.

30. Байтурсунов Ахмет Байтурсунович http://bankreferatov.kz/people/133-2009-01-13-15-58-37.html

31. Яркое светило казахской науки и культуры *Гордость казахского народа* http://ksu.edu.kz/about/ego_imya_nosit_universitet/

32. http://lists.memo.ru/index2.htm

Çap olunub: "Əlifba islahatçısı, folkorçu, pedaqoq, dövlət qurucusu Ahmet Baytursunov" məqaləsi Prof.Dr. Nuri Yüce Armağanı (editor Prof.Dr. Ali Akar) kitabında (Günce yayınları, 2017, səh. 240-285.) çap olunmuş və Ahmet Baytursunov haqqında hazırlanmış verliş TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il aprelin 9-da, saat 12.14-də efirə getmişdir.

.

SONUNCU QAZAX XANI KENESARI QASIM ULUNUN ŞƏRƏFLİ ÖLÜMÜ



Kensari Qasimoğlu, كنسارى قاسيموغلو, qaz. Кенесары Қасымұлы, rus. Кенесары́ хан, Кенесары Касымов, (1802-1745) https://ali-shamil.tr.gg/Kenesar%26%23305%3B-Qas%26%23305%3Bmo%26%23287%3Blu.htm

Rus işğalçılarına qarşı savaşda şəhid olmuş son qazax xanı Kenesarı haqqında çox az yazılıb, yazılanların böyük bir qismini də işğalçı dövlətin siyasətinə xidmət edənlərin yarınmaları təşkil edir. Bolşeviklər 1917-ci il oktyabrın 25-də (yeni təqvimlə noyabrın 7-də – **Ə.Ş**.) silahlı üsyan yolu ilə hakimiyyəti ələ aldıqdan sonra keçmişə, xüsusən də keçmişdəki idarəçilik sisteminə qarşı güçlü təbliğata başladı. Çox təəssüf ki, bu təbliğatda da səmimi olmadılar. Sinfi mübarizə adı altında çarlara və hakim

təbəqəyə qarşı yönəltdikləri bu təbliğat əməldə veliko-rus şovinizmindən, müstəmləkəçilik siyasətindən uzaq olmadı.

Sovetlər zamanında rus çarlarının yeritdiyi siyasət, onların idarəetmə üsulları tənqid edilsə də, işğal altına alınmış xalqların azadlıq mübarizəsi obyektiv öyrənilmədi. Bu səbəbdən də qazax xalqının qəhrəman oğlu Kenesarı Qasım oğlu lazımınca tanıdılmamışdı.

Nəsil şəcərəsi Çingiz xana bağlanan Ablay xanın nəslindən olan Qasım xanın 1802-ci ildə doğulan oğluna Kenesarı adı qoyurlar. Lakin sonralar onun adı və soyadı qaynaqlarda Kine Sarı Soltan, Kenesarı Qasımov kimi yazılır. Kenesarı doğulanda gündən-günə güclənən Rusiya artıq qazaxların böyük bir qismini öz təsiri altına salmışdı. Rusiya karvan yolları üzərində tikdiyi qalalar, bu qalalarda saxladığı əsgəri birliklər vasitəsilə ticarətə nəzarət edir, tacirlərdən xərac toplayırdı.

Lakin Rusiyanın yeni işğal etdiyi böyük əraziləri tam əldə saxlaya biləcək qədər nə ordusu, nə də o yerləri idarə edə biləcək sayda məmuru vardı. Buna görə də öncə Hindistandan və Çindən gələn karvan yollarını nəzarətdə saxlamaqla kifayətlənir və yerli xanlara təsir göstərsə də, onların daxili işlərinə qarışmırdı.

1715-ci ildən etibarən rus əsgəri birlikləri və qalalardakı silahlı dəstələr vasitəsilə qazax xalqının

ata-baba yurdunda yaşamağına əngəl törətməyə, yaylaq, qışlaq köçlərinin nizamını pozmağa başlayır. Yerli xanlar odlu silahlarla təchiz olunmuş, qalalarda möhkəmlənmiş rus əsgəri birliklərini vətənlərindən qova bilmədiklərindən onlarla danışıqlar aparır, sülh müqavilələri bağlayırdılar. Belə bir sülh müqaviləsi 1731-ci ildə Rusiyaya daha yaxın bölgədə yaşayan, qazaxların Kiçik juzunun (cuz) (Qazaxlar üç juza (cuz), yəni tayfaya bölünür. Bu juz-tayfalar Böyük juz (cuz), Orta juz (cuz), Kiçik juz (cuz) adlanır. – **Ə.Ş**) xanı Əbül Xeyri ilə bağlanır. Müqavilə şərtlərinə görə xanlıq Rusiya imperiyasının işğal dairəsinə daxil edilir.

1750-ci ildən sonra Rusiya qalalarının sayını sürətlə artıraraq təsir dairəsini daha da genişləndirir. Beləliklə, qazaxların Orta və Böyük juzu da Rusiyanın əsarəti altına düşür. Lakin xalq bununla razılaşmaq istəmir. Kiçik dəstələr şəkilində, pərakəndə də olsa, ruslara müqavimət göstərir.

Zəifləmiş, mərkəzi hökumətlərini itirmiş xalqlar onların torpaqlarını Rusiyanın getdikcə daha çox işğal etməsinə, hərəkətlərinin məhdudlaşdırılmasına etiraz etsələr də, güclü düşmənə qarşı sərt və qəti mübarizə apara bilmirdilər. 1785-1797-ci illərdə Kiçik juzdan Batır Sırım adıyla məşhurlaşan Sırım Datoğlunun öndərliyi ilə Rusiyaya qarşı üsyan baş qaldırır. Rusiya üsyanı qəddarlıqla yatırır. Bundan sonra qazaxlar İsatayın rəhbərliyi ilə yenidən ayaqlanırlar. Üsyan

dalğası sürətlə bölgəni bürüyür. Üç il davam edən bu üsyan rusların İsatayı aldadaraq öldürmələrilə başa çatır.

Kenesarı doğulandan 10 il sonra isə Bökey Ordada müqavimət hərəkatı başlayır. 1822-ci ildə Rusiya Kiçik və Orta juzda xanlıq idarəetmə sistemini ləğv edir. 1827-ci ildə Bökey Ordakı müqavimət hərəkatı, 1836-37-ci illərdə İ.Taymanov və M.Ötemişovun başçılıq etdiyi üsyanlar da Rusiyanın hakim dairələri tərəfindən qan içində boğulur.

Lakin bütün bunlar xalqın iradəsini qıra, azadlıq eşqini söndürə bilmir. Az sonra qazax çöllərində Rusiya əleyhinə yeni bir hərəkat – ayaqlanma başlanır. Bu hərəkata son qazax xanı Kenesarı başçılıq edir.

Atası Qasım xan və böyük qardaşı Sarcan xan öldükdən sonra milli mübarizənin başına keçən Kenesarı 1820-1830-cu illərdəki üsyanlardan özünə dərs götürür və yeni taktika seçir. Rusiyanın gündən-günə gücləndiyini, qalalarını möhkəmlətdiyini, ordusunu, təchizatını yaxşılaşdırdığını gördüyü üçün başqa bir yol tutur. Yaxşı bilirdi ki, nizami ordu, mərkəzləşmiş hakimiyyət olmadan düşmənə qalib gəlmək olmaz. Buna nail olmaq üçün gücünü iki istiqamətə yönəldir: Birincisi, rus əsgəri birliklərinə, qalalarına və karvanlarına qəflətən basqın edir, qənimətləri götürüb, gözdən yayınmaqla güc toplamaq. İkincisi, qazaxlar arasında mövcud olan tayfaları (Bö-

yük, Orta və Kiçik juzları), eləcə də Türküstandakı kiçik hökumətləri bir mərkəzdə birləşdirmək.

Kenesarı Qasım oğlu rusların aldadaraq öldürdüyü İsatayın döyüşçülərini də öz tərəfinə çəkir. Onun başladığı hərəkat ilk günlər nə işğalçılara qarşı savaşı, nə də üsyanı xatırladır.



Kenesarı Qasım oğluna Astana şəhərində qoyulmuş abidə. Heykəltaraş Şot-Amana Vəlixanovdur.

Kenesarının dəstəsi sanki bir yolkəsən, quldur dəstəsi idi. Onlar rus qalalarının zəiflərini, karvanların az mühafizə olunanını seçərək oraya basqın edirdilər. Basqını uğurla başa vurduqdan sonra qəniməti də götürüb geniş qazax çöllərində "yoxa" çıxırdılar.

Rus əsgəri birlikləri Kenesarının dəstəsini axtara-axtara əldən düşür, sonra da uğursuzcasına geri dönürdülər. Bəzən geri dönərkən gözlənilmədən ortaya çıxan qazaxlarla döyüşməli olurdular. Belə gözlənilməz döyüşlərdə isə məğlubiyyətdən yaxa qurtara bilmirdilər.

Bu döyüş taktikası ilə Kenesarı həm silah və hərbi sursat əldə etmiş olur, həm də rus əsgəri birliklərini bir səksəkə, qorxu içində yaşamağa məcbur edirdi. Bir-birindən min kilometrlərlə uzaq olan qalalara ərzaq, hərbi sursat aparan karvanlara basqın edərək "yoxa çıxan" Kenesarı xan haqqında əfsanələr dolaşmağa, xalq mahnıları yaranmağa başlayır. Qazaxlar onun timsalında müdafiəçilərini, xilaskarlarını görür və ətrafında toplaşmağa başlayırlar. Beləcə, Kenesarı xanın silahlı dəstəsi gündən-günə böyüdükcə yerli xanlar və hakimlər də onunla hesablaşmalı olurlar. 1841-1845-ci illər Kenesarının Rusiyaya qarşı apardığı mübarizənin ən yüksək mərhələsi olur. Bu illərdə o, cəsur və qorxmaz bir döyüşçü, bacarıqlı sərkərdə, mahir siyasətçi və diplomat olduğunu göstərir.

Kenesarı səriştəli, uzaqgörən bir lider idi və bu məziyyət döyüşlərdə onun qələbə çalmasına köməklik göstərirdi. Hələ 35 yaşında ikən Aktav ətrafında rus qoşunları ilə qarşılaşır və düşməni məğlub edərək xeyli miqdarda silah-sursat əldə edir. Bu qələbə onu yeni açıq döyüşlərə ruhlandırır. 1838-ci il aprelin 26-

da Akmola qalasına hücuma keçərək qısa mühasirədən sonra oranı alır.

Kenesarının bu qələbəsi Rusiyanın hakim dairələrini bərk narahat etsə də, hücumlarının qarşısını da ala bilmirlər. Onun rəhbərlik etdiyi dəstələr Akmoldan Torqaya qədər olan ərazini Rusiya işğalından azad edərək güneyə doğru irəliləyir.

Kenesarı döyüşləri qələbə ilə başa vurmaq üçün daxildə sərt intizam yaratmağa çalışır. Ruslarla işbirliyində olan boy – tayfa bəylərini cəzalandırır, həmçinin qonşuluqdakı kiçik xanlıqlarla möhkəm diplomatik münasibətlər yaradır. Güneydəki Buxara Əmirliyi, Çin ilə diplomatik və dostluq münasibətləri qurur. Orduda da islahatlar aparır. Nizami ordu və kəşfiyyat təşkilatı yaradır.

Orta və Kiçik juzu özünə tabe etdikdən sonra Kenesarı bütün qazaxların xanı elan edilir. Beləcə o, 1841-45-ci illərdə Qazaxıstanın ərazisinin böyük bölümünü idarə edir. Bu sərişẗəli, uzaqgörən xan ruslarla apardığı bütün döyüşlərdən qələbə ilə çıxır. Xivə xanı və Buxara Əmiri də ona hərbi yardımlar etməyə başlayırlar.

Ruslar 1844-cü ildə böyük qüvvə toplayaraq hücuma hazırlaşır. Kenesarı onunla ittifaqa girməyən, ruslara yardım göstərə biləcək Kokand xanını cəzalandırmaq üçün 1845-ci ildə yürüşə başlayır. Bundan xəbər tutan ruslar quzeydən, Baykal gölü tərəfdən qəfil hücuma keçir. Ruslarla Kokand xan-

lığının hərbi qüvvələri arasında mühasirədə qalan Kenesarı qardaş xalqa – qırğızlara müraciət edir.

Lakin istəyinə nail ola bilmir. Çünki ruslar qırğızları öncədən inandıra bilir ki, Çinlə ittifaqa girmiş Kenesarı xan Kokand xanlığını məğlub etdikdən sonra qırğızların üzərinə hücum edəcək. Düşmənin bu hiyləsinə inanan qırğızlar Kenesarıya kömək etməməklə həm qazaxların, həm də özlərinin Rusiya işğalı altına düşməsinə şərait yaratmış olurlar.



Kenesarı xan Qasım oğlunun şərəfinə hazırlanmış poçt markası

Qazaxların milli şüurunun oyanmasına böyük təsir göstərmiş Kenesarı xan 1845-ci ildə rus ordusunun mühasirəsinə düşür. Böyük ümid bəslədiyi dini bir, dili bir qırğızlardan kömək ala bilmir. Məğlubiyyətin qaçılmaz olduğunu görsə də, döyüşü davam etdirir. Hər zaman mərdliklə döyüşən sərkərdə bu dəfə də prinsipinə sadiq qalır. Böyük Qazax çöllərini,

dağlarını yaxşı tanıyan, mühasirəni yararaq qaçmaq imkanı olan Kenesarı Qasım oğlu sonadək döyüşü davam etdirir.

Odlu silahlarla təchiz olunmuş, toplardan istifadə edən rus ordusu qəhrəmanlıqla döyüşən qazax əsgəri birliyini dağıdıb, onun cəsur rəhbəri Kenesarı xan Qasım oğlunu döyüşdə Qırğızların əlilə öldürür, başını da kəsib Sankt Peterburqa, çara hədiyyə kimi göndərirlər. Bununla da qazaxlar yenidən Rusiyanın əsarətinə düşür.

Kenesarı xan vətən, millət və din uğrunda şəhid olur. Qazax xalqı Rusiyanın əsarətini qəbul etməyə məcbur olsa da, işğalçılara qarşı zaman-zaman üsyanlar, etiraz hərəkatları baş qaldırır. 1918-ci ildə qurmuş olduqları Alaş Orda dövlətini bolşeviklər dağıdırlar.

Qazax xalqı isə qəhraman oğlunu heç vaxt unutmur. Hətta Sovet hakimiyyətinin ən güclü dövrlərində belə görkəmli Qazax yazıçısı İlyas Esenberli yazdığı "Köcərilər" trilogiyasının bir cildini "Xan Kene" (1969) adı ilə nəşr etdirir..

Son ayaqlanma isə 1986-cı ilin dekabrında Almatıda baş verir. Həmin gün yüzlərlə insan şəhid olsa da, onların qanı yerdə qalmır. Bu ayaqlanma SSRİ deyilən nəhəng imperiyanın yaxınlarda çökəcəyindən xəbər verirdi. Nəhayət, azadlıq axtaran xalqlar istəklərinə nail oldular.

Almatı ayaqlanmasından sonra SSRİ-nin tərkibindəki respublikalar suverenlik aktlarını imzaladılar. Beləcə, Qazaxıstan da 1991-ci ildə müstəqilliyinə

qovuşur, Kenesarı xan Qasım oğlunun arzuları 146 il sonra reallaşır.

2001-ci ildə Astana şəhərində, İşim çayı sahilində Kenesarı xan Qasım oğlunun atlı heykəli (heykəltəraş Şot Aman Valixanovdur) qoyuldu. 2008-ci ildə "Kazaxpoçt" rəssam Əbilxan Kaseyeva Kenesarı xanın portiretini hazırlatdı və həmin portiret əsasında 25 təngəlik poçt markası çap etdirdi. 2002-ci ildə onun anadan olmasının 200 illiyi təntənəli şəkildə qeyd edildi.

Rusyanın ən məşhur nəşriyyatlarından olan "Molodaya qvardiya" nəşriyyatı "Məşhur adamların həyatı" seryasından Ediqe Valixanovun Kenesarı xanın həyatından bəhs edən kitabını nəşr etdi. Lakin Qazaxların tanınmış ictimai siyasi xadimlərinin, deputatlarının, yazıçı və şairlərinin təkidinə baxmayaraq hələ də Kenesarı xan kəlləsi Rusyadan alınıb vətən torpağında dəfn edilməyib.

(Bu yazı TRT "Türkiyənin səsi" və Azərbaycan İctimai Radiosunun birgə hazırladığı, hər gün Bakı vaxtı ilə saat 12.00-13.00 arasında efirə gedən "Qorqud Ata" proqramında "Türk dünyasının məşhurları" rubrikası ilə 2011-ci il fevralın 3-də efirdə səsləndirilmiş verliş (www.trtazerbaycan.com) və "525-ci qəzet"in 7 dekabr 2011-ci il sayında çap olunmuş "Sonuncu Qazax xanı Kenesarı Qasım oğlunun şərəfli ölümü" məqaləsi əsasında hazırlanmışdır).

RUSLARA XİDMƏT EDƏN VƏTƏNPƏRVƏR XAN NƏVƏSİ ŞOKAN VƏLİXANOV

Çokan Velihanov (1835-1865) (چوکان وئلیهانوو, qaz. Шоқан Шыңғысұлы Уәлиханұлы; rus. Чокан Чингисович Валиханов) https://ali-shamil.tr.gg/%26%23350%3Bokan--V%26%23601%3Blixanov.htm



Qazaxlar onun ad və soyadını Şokan Şınğıs ulı Uəlixan kimi yazırlar. Ruslar isə sənədlərdə Şokan və Çokan Valixanov kimi yazdıqlarından dünyanın çox yerində onu bu ad və soyadla tanıyırlar.

Orta juzda doğulan Şokanın qulağına əzan oxuyan Ablay xanın şəxsi həkimi, qazaxlar arasında Maral baba kimi tanınan Kalkay İşan ona Muxammed Xanafi adının verildiyini yazırlar. Vətəninin ağır günlərə düşdüyünü, xalqının güzəranının getdikcə pisləşdiyini görən Kalkay İşan istəyridi ki, 7-ci yüzildə Ərəb çöllərində Məhəmməd peyğəmbərin

xalqı üçün etdiklərinə bənzər bir işi də Ablay xanın nəvəsi görsün.

Bu şirin və xoş bir arzuydu. Zaman isə başqa bir zamandı. Şınğıs (Çingiz) Soltan oğlunun Zeynep Çormanovan doğulan oğluna Çokan (Şokan) adı verdikdən sonra onu xan övladlarına layiq bir təhsil verməyə çalışırdı. Onun üçün şəxsi müəllimlər və məşqçilər təyin etmişdi. Özü isə oğluna adət-ənənələri, nəslinin keçdiyi tarixi yolu öyrədirdi. Şokanın nənəsi Ayxanım oğlu Şınğıs (Çingiz) Soltanın təlim-tərbiyəsinə necə diqqət yetirmişdisə, nəvəsinə də eləcə diqqət yetirirdi. Şınğıs (Çingiz) Soltan qazax tarixi və ədəbiyyatını dərindən bilməklə kifayətlənmir, Sibir türklərinin miflərini, əfsanələrini, rəvayətlərini, dastanlarını, nağıllarını, geyim-keçim, məişət əşyalarını toplayır. İşğalçı rusların köləsi kimi deyil, xalqına bağlı bir ruhda böyüdüyünə görə Ayxanın tərəfini tutan soltanlar və bəylər Şınğısı (Çingiz) 1834-cü ildə "böyük soltan" elan edirlər. 1835-ci ilin noyabrında isə Şınğısın (Çingiz) oğlu Şokan dünyaya gəlir.

Qazax çöllərində Sırımbetdə dünyaya gələn Şokan uşaqlığını indiki Kustanay vilayətinin Kuşmurun qışlağında keçirir. Sonra isə ailəsi ilə birlikdə Kökçe dağına köçür. Onun uşaqlıq illəri Kenesarı Qasım oğlunun Ruslara qarşı qazaxları ayaqlandırdığı bir vaxta təsadüf edir. Nədənsə Şokanın aliəsi ruslara qarşı bu döyüşlərdə fəal iştirak etmirdi.

Şokanı 12 yaşında Omsk şəhərindəki Kadet korpusuna oxumağa göndərirlər. Çar ordusu üçün kadrlar hazırlayan bu tip məktəblərə yalnız əsilzadələrin uşaqları qəbul edilirdilər. Təhsil illərində F.N.Kostilevski, P.B.Qonsevski kimi təcrübəli pedaqoqlardan dərs alır, gələcəyin məşhur etnoqrafı, folklorçusu və səyyahı Q.N.Potanin və N.F.Anneniski ilə bir sinifdə oxuyur. Rus dili ilə yanaşı, fransız və alman dillərinin incəliklərini də öyrənir. Son sinifdə oxuyanda İ.N.Beryozinin xahişilə "Toxtamış xanın tamğalatı" mövzusunda ilk elmi məqaləsini yazır.

1853-cü il noyabrın 8-də Kadet korpusunu bitirən Şokan Valixanovu Sibirdəki rus-qazax Süvari Alayının şeypurçular bölüyünə komandir təyin edirlər. Türküstanda yaşayan türklərin ləhcələri ilə yanaşı, ərəb və fars dillərini bilməsi, iti yaddaşı, xüsusən dil öyrənmək marağı Şokanı tezliklə hərbçilər arasında məşhurlaşdırır.

Çara sui-qəsd təşkil etdiklərinə görə məsuliyyətə cəlb edilmiş, Rusiya tarixində "petraşevçilər" kimi tanınanların bir qismi Sibirə sürgün edilmişdi. 19 yaşlı Şokan 1854-cü ildə sürgündə olan psixoloji romanlar müəllifi F.M.Dos-toyevski və şair S.F.Durovla tanış olur. Şokan Dostayevski ilə sonradan Semplatinskdə də görüşür.

Batı Sibir valisi, general qubernator Qustav Qasfort onu özünə yavər götürür. Yüksək rütbəli hərbçilər onun məharəti haqqında rəhbərliklərinə raportlar yazırlar. İşğal dairəsini Doğuya geniş-

ləndirmək istəyən Rusiya rəhbərlərinin diqqətini belə bir kadrın olması dərhal çəkir. Ondan gələcəkdə işğal etmək istədikləri ölkələr haqqında bilgi toplamaqda istifadə etmək qərarına gədikləri üçün hərbi strateji araşdırmalar qrupuna daxil edirlər. Sonra isə Müdafiə və Daxili İşlər Nazirliklərinin Asiya departamentində işlədirlər.

Soykökünün Çingiz xana bağlılığı, müsəlman olması, çox dil bilməsi Şokan Valixanova şans verirdi ki, Doğu Türküstanda rahat və sərbəst dolaşsın, yerli hakimlərin saraylarına yol tapa bilsin.

1855-ci ildə onu qazaxların və Sibir türklərinin Yeddi su, rusların Semireçye adlandırdıqları bölgəyə və Kokand xanlığına gedən ekspedisiyanın tərkibinə daxil edirlər. Şokana öncə Batı Sibir xalqlarını, onların adət-ənənəsini, dünyagörüşünü öyrənmək tapşırılır. O, tapşırığı yüksək səviyyədə yerinə yetirir. Topladığı materiallar Rusiya hərbi-çilərinə və hökumət məmurlarına bir kəşfiyat materialı kimi yarayırdısa, alimlər də onun folklorçuluq və etnoqraflıq məharətinə heyran qalırdılar.

1856-cı ilin aprelində, yəni 21 yaşında İli çayı boyunca elmi heyətlə birlikdə ekspedisiyaya göndərilir. Çarı çayının İliyə qovuşduğu yerə, Karqaralıya gəlir. Mayın 26-da manasçılarla görüşür. Üç gün, üç gecə məşhur "Manas" dastanını dinləyir. Kuketay xan haqqında olan qolu toplayır. Bu dastanın ilk yazıya alınmış hissəsi olur.



Şəkildə: soldan Çokan Vəlihanov və Rusiyanın məşhur psixoloji romanlar müəllifi Fyodur Dostoyevski.

Şokan Valixanov yalnız “Manas” dastanını toplayıb rus dilinə çevirməklə kifayətlənmir, “Kozı Korpeş və Bayan Slu” dastanını da elm aləminə qazandırır.

Şokan Valixanovun rəssamlıq qabiliyyəti olduğuna görə o getdiyi yerləri yalnız sözlə təsvir etmir, qələm və fırça ilə də şəkillər çəkir. Fotonun geniş yayılmadığı bir dövrdə şəkillər Rusiya xüsusi xidmət orqanları üçün olduqca vacib olan materiallar sayılırdı. Onun vaxtilə çəkmiş olduğu Cuban ananın məzarüstü rəsmindən sonralar abidənin bərpasında istifadə edilmişdir.

1857-ci il fevralın 21-də Şokan Valixanov Pyotur Semyonovun zəmanətilə Rus İmperator Coğrafiya Cəmiyyətinə üzv qəbul edilir.

Rusiya Türküstanın böyük bir qismini – Qazax çöllərini işğal etsə də, Böyük Britaniya Hindistanı tutsa da, Çin isə Doğu Türküstanı ələ keçirmək üçün dəridən-qabıqdan çıxsa da, işğal altına aldıqları ərazilərlə kifayətlənmir, yeni torpaqlar tutmağa çalışırdılar. Onlar arasında yeni ərazilər ələ keçirmək üçün qarşıdurma dərinləşirdi.

Türküstan torpaqlarında Rusiyanın da, Böyük Britaniyanın da, Çinin də gözü vardı. Lakin bölgə haqqında bilgi yetərsiz idi. Oraya gedən yolların vəziyyəti, əhalinin milli tərkibi, hakimiyyət orqanlarına münasibəti və s. haqqında geniş bilgi olmadığından bölgəyə əsgəri birliklər yeridilməsi yubadılırdı. Rusiya lazımı kəşfiyyat bilgiləri əldə etmək üçün böyük bir ticarət karvanı təşkil edir. Şokan Valixanov da bu karvana qatılır.

Rusiya hökumətinin xüsusi tapşırığı ilə bölgəni öyrənən, çoğrafiyaçı alim, səyyah kimi məşhurlaşan, Rus İmperator Coğrafiya Cəmiyyətinin sədr müavini (1873-1914) Pyotr Petroviç Semyonov-Tyanşanski (14.01.1827-11.03.1914) ilə Şokan Valixanov 1856-cı ildə tanış our.

Doğu Türküstanın batısındakı Qulcudə olmuş, o yerləri öyrənmiş Şokan Valixanovu Rusiyanın xüsusi xidmət orqanları Kaşqara göndərməyi qərara alır. Hazırlanmış karvan 1858-ci il iyunun 28-də yola çıxır. Qazaxların Yeddi çadır, rusların Semipalatinski adlandırdıqları bölgəni keçib, Kaşqara gedən karvana "tacir" Şokan Valixanov rəhbərlik edir. Çingiz xanın nəslindən olması və ağllı və səbirli davranışı onu ölümün pəncəsindən qurtarır. Şokan Valixanov 1859-cu il aprelin 12-də Kaşqar haqqında zəngin məlumatla geri dönür.

Onun gətirdiyi məlumatlar və özünün davranışı quberniya sərhədlərini aşaraq mərkəzi hökumətə də çatır. Buna görə də Müdafiə Nazirinin göstərişi ilə Şokan Valixanov 1860-cı ilin əvvəllərində Peterburqa göndərilir. Paytaxtda onu yüksək səviyyədə qarşılayırlar. Çar II Aleksandr onu Müqəddəs Vladimir ordeni ilə təltif edir. Hərbi rütbəsi yüksəldilir. O, getdiyi yerlər, topladığı materiallar haqqında Coğrafiya Cəmiyyətində məruzə edir, elm xadimlərilər, ictimai təşkilatların öndərlərilə, ədəbiyyatçılarla görüşür, onların toplantılarına qatılır, müzakirələrdə işti-

rak edir. Çar ordusunun Baş ştabında Orta Asiya və Doğu Türkistanın xəritəsini hazırlayan qrupda işə götürülür. Lakin burada işləməsi o qədər də uzun sürmür. May ayında Xarici İşlər Naziri, knyaz A.M.Qorçakovun zəmanətilə Asiya departamentində işə qəbul edilir.

Peterburqda yaşadığı iki il müddətində Şokan Valixanov professor A.N.Beketovla, Rus İmperiya Coğrafiya Cəmiyyətinin jurnalına redaktorluq edən, diplomat, publisist E.P.Kovalevski ilə, univer-sitet müəllimi, alim, milli-yətcə Azərbaycan türkü olan, xristianlığı qəbul etdiyinə görə Aleksandr adını götürmüş Məhəmmədəli Kazım bəylə, İ.N.Berezinlə, V.P.Vasi-lyevlə, V.V.Qriqoryevlə və b. ilə görüşür, elmi fəaliyyətində onlardan məsləhətlər alır. Bir ara Parisə də gedir.



Şokan Vəlikanov katde məktəbində oxuyarkən

Şokan Valixanov qısa müddətdə Orta Asiya, Doğu Türküstan və Sibiri Peterburqda ən yaxşı bilən mütəxəssis kimi tanınır. Ensiklopediyaya "Ablay" məqaləsini yazır, Kaşqardan gətirdiyi "Təzkirə-i Boqrax", "Təzkirə-i Xocaxan" əlyazmalarını elmi ictimaiyyətə tanıdır, şair və yazıçılarla görüşür, onların söhbətlərində iştirak edir. "Muhammməd Heydər Dualtın "Tarix-i Rəşidi" əsərini dünya elminə qazandıran Şokan Valixanovun Peterburqda ictimai təşkilatlarla yaxınlıq etməsi, demokratik fikirli ziyalılarla tez-tez görüşməsi hökumət dairələrinin də diqqətindən yayınmır.

1861-ci ilin mayında vətənə dönən Şokan Valixanov yenə də elmi-ictimai fəaliyyətini davam etdirir. 1862-ci ildə isə Atbasar dairəsinə soltan secilir. Lakin general –qubernator onu bu vəzifəyə təsdiq etmir.

Dünyagörüşünün genişlənməsi, biliyinin artması, oturub-durduğu adamlardan eşitdikləri onun Rusiya hökumətinin işğalçı siyasətini dərindən anlamasına köməkçi olur. Kokand xanlığına 1864-cü ilin mart-iyun aylarında hücum edən rus ordusunun tərkibində Şokan Valixanov da olur. Hərbçilərin dinc əhaliyə tutduqları divanı gördükdə dözə bilmir. Onların qəddarlığını durdura bilməyəcəyini görüb geri dönür. Bu sadəcə xidmət etdiyi əsgəri birliyin hücumuna qatılmamaq, həmbi komandırın əmrini yerinə yetirməməklə nəticələnmir.



Çokan Vəlikanovun Omsk şəhərindəki heykəli. Heykəltaraş A.Bayarlin.

Ümumiyyətlə Rus Ordusundan və hökumət vəzifələrindən uzaqlaşır, Rus ordusunda ştabs kapitan[6] rutbəsində ikən istefaya çıxmalı olur.

Şokan Valixanov Rusiya hökumətinə xidmətdə yanıldığını başa düşərək hərbidən istefa verib, Məkkə ziyarətinə getmək istəyir. Lakin bu ziyarət baş tutmur. 1865- ci il aprelin 10-da

[6] Rusiya ordusunda 1797-1917-ci illərdə mövcud olmuş poruçikdən yüksək, kapitandan kiçik hərbi rütbə.

Taldı Kurqan vilayətinin Altınamel aşırımında dünyasını dəyişir və çəsədini Tezek kəndində dəfn edərək qəbri üzə-rində kərpicdən kumbəz tikirlər.

Avropa tipli ilk qazax rəssamı, "Böyük Orda qazaxları", "Sartay tayfasından olan Sarı Baqış", "Burumbayın portreti"
və b. tabloları çəkən, "Cunqirya oçerkləri", "Qırğızlar", "Çin imperiyasının batısı və Qulca şəhəri" və b. əsərlərin müəllifi 29 yaşında dünyasını dəyişir. Əsərləri isə yaşayır.

Onun fəaliyyətindən işğalçılar, hökumət dairələri xalqları əsarət altında saxlamaq məqsədilə istifadə ediblər. Xeyirxah insanlar isə onu bir alim, araşdırıcı kimi tanıyıb və tanıdıblar.

Bədxahların işləri unudulmaqda və pislən-məkdədir. Şokan Valixanov yaradıcılığı isə dünya mədəniyyətinə verdiyi töhfələrlə ölçülür. Ona görə də vətənində adının əbədiləş-dirilməsi üçün xeyli iş görülmüşdür.

(TRT "Türkiyənin səsi" və Azərbaycan İctimai Radiosunun birgə hazırladığı, hər gün Bakı vaxtı ilə saat 12.00-13.00 arasında efirə gedən "Qorqud Ata" proqramında "Türk dünyasının məşhurları" rub-rikası ilə 2012-ci il avqustun 16-da efirdə səslən-dirilmiş verlişin mətni. **www.trtazerbaycan.com*).***

CUCİ XANIN NƏSLİNDƏN OLAN ƏLİ XAN BÖKEYXANOVUN TALEYİ



Əlixan Bökeyxanov (1866-1937) (علی خان بؤکی خانوو, qaz. Әлихан Бөкейхан, rus. Алихан Букейханов) https://ali-shamil.tr.gg/%26%23399%3Bli-xan-B.oe.keyxanov.htm

Qazaxların adı və soyadını Əlixan Bökeyxan, Əlixan Bükeyxan ulu yazdıqları halda ruslar onu Alixan Bukeyxanov kimi tanıtmışlar. Dünyanın çox yerində, hətta eyni soylu xalqlar arasında belə onun ad və soyadı rus dilində olduğu kimi yazılır. Qaynaqlar onun nəslinin Çingiz xanın nəvəsi Cucuyə bağlı olduğunu göstərir. Doğum tarixini 1866-cı il, 1869-cu il, 1870-ci il kimi yazırlar.

Rusiya imperyiasının inzibati ərazi bölgüsünə görə Əlixan Nurmuhammed ulu Bökeyxanov Orenburq quberniyası Semiplatinski (Yeddi çadır) vilayəti Karqaralı qəzasının Tokrayın nahiyəsində doğulmuşdur.

Nurmuhammed xan oğlu Əlinin təhsil alması üçün özəl müəllimlər tutmuş, sonra isə Karqaralıdakı qazax uşaqları üçün açılmış məktəbə göndərmişdir. 1879-1886-cı illərdə bu məktəbdə oxuyan Əlixan təhsildəki başarısı ilə diqqəti cəlb edir. Bölgənin o dövrkü general-qubernatoru Q.A.Kolpakovskinin köməyi ilə Omsk Texniki Məktəbinə daxil olur. 1890-cı ildə məktəbi bitirib, Sankt-Peterburqa gedərək Peterburq İmperator Meşəçilik İnstitunun iqtisadiyyat fakültəsinə qəbul olunur.

Peterburqdakı mədəni mühit ilk günlər onu olduqca heyrətləndirir. Rusiyanın mərkəzi quberniyalarının Qazaxıstanla müqayisəyəgəlməz inkişafı bir vətənsevər kimi Əli xanı düşünməyə vadar edir. O, da xalqının dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi yaşamasını arzulayır.

Oxuduğu kitab və qəzet-jurnallardan, tez-tez görüşüb söhbət etdiyi demokratik fikirli rus ziyalılarından öyrənir ki, Avropa ölkələri istər mədəni, istər iqtisadi cəhətdən Rusiyadan da çox irəlidədir. Ona görə də Rusiyanın imkanlı, tərəqqipərvər insanları övladlarını oxumağa oradakı ali məktəblərə göndərməklə kifayətlənmir, özləri də tez-tez səfərə çıxır, Avropada yaşamağa üstünlük verirlər.

Rus ziyalılarının qərbmeyilliyi Əlixan Bökey-xanova təsir edir. Ölkəni islahatlar yolu ilə dəyiş-dirmək istəyənlərə qoşulur.

Tələbəlik illərində Rusiyadakı idarəetmə sistemini tənqid etdiyinə, əsarət altında olan xalqların hüquqlarının tapdandığını dilə gətirdiyinə görə adı jandarma idarəsinin "qara siyahı"sına düşür.

1894-cü ildə ali məktəbi başa vurub, Omsk şəhərinə qayıdıqdan sonra Əlixan Bökeyxanov Meşə Təsərrüfatı Məktəbində riyaziyyat müəllimi işləməyə başlayır.

Xalqının dünyanın inkişaf etmiş ölkələrinin əhalisi ilə müqayisədə çox geridə qalmasının səbəblərini və bu geriliyi aradan qaldırma yollarını axtarmaq üçün aulları, bölgələri gəzir, müxtəlif insanlarla görüşür, onlarla fikir mübadiləsi edir. Belə səfərlər ona xalqının yaşam şərtlərini, adət-ənəsini, tarixini, etnoqrafiyasını, folklorunu, düşüncə tərzini öyrənməyə şərait yaradır.

Onun marağından və araşdırmalarından xəbər tutan Rus İmperator Coğrafiya Cəmiyətinin Batı Sibir şöbəsi Əlixan Bökeyxanovun gücündən və bacarığından istifadə etməyi qərara alır.

1896-cı ildə Əlixan Bökeyxanovu Rus İmperator Coğrafiya Cəmiyyətinin Batı Sibir şöbəsinə həqiqi üzv seçirlər. Cəmiyyətə həqiqi üzv olması onu elmi axtarışlara həvəsləndirməklə yanaşı, bir çox alimlərlə və ziyalılarla yaxından tanış olmasına da şərait yaradır.

1903-cü ildə Peterburqda nəşr olunan "Rusiya. Vətənimizin tam coğrafi təsviri" çoxcildliyinin (1899-

1914-cü illərdə 19 cild halında çap olunmuşdur. – ***Ə.Ş.***) 18-ci cildindəki "Bölgədə yaşayan qazax-qırğız əhalisinin etnoqrafiyası, mədəniyyəti və məişəti" adlı məqaləni Əlixan Bökeyxanov yazır. Məqalədə qazaxların məşhur "Kozı-Kopreş və Bayan" dastanı da ilk dəfə geniş təhlil edilir.

Rusiya hökuməti Güney Sibirin təbii sərvətlərinin istismarına nail olmaq üçün F.A.Şerbinin rəhbərliyi altında bir ekspedisiya göndərir. Bu ekspedisiya bölgə ilə tanış olacaq, oradakı insanlarla ünsiyyət yararada biləcək, bir sözlə, həm bələdçilik, həm araşdırma apara biləcək birisinə ehtiyac duyur. F.A.Şerbin Əlixan Bökeyxanovu 1904-cü ildə ekspedisiyaya cəlb edir.

1905-ci ildə məşhur qazax ədibi Abayın, yəni İbrahim Kunanbayevin ölümü münasibətilə "Semiplatinskiy listok" qəzetində çap etdirdiyi məqaləsində ilk dəfə şairin yaradıcılığının özəlliklərini ortaya qoyan Əlixan Bökeyxanov 1907-ci ildə Rus İmperator Coğrafiya Cəmiyyətinin Batı Sibir Şöbəsi Semiplatiniski Bölməsinin "Zapiski" (Qeydlər) jurnalında çap etdirdiyi portret oçerklə Abayı rusdilli oxucuya tanıtmış olur.

Rusiyanın geri qalmış bir aqrar ölkə olması vətəndaşlarının çoxunu narahat edirdi. Onların çoxu geriliyin səbəbini monarxiya idarəçiliyində görürdülər. Ölkənin islahatlara böyük ehtiyacı vardı. Lakin islahatlar çox ləng aparılırdı. Buna görə də

ölkədə konstitusiyalı monarxiya tərəfdarlarının sayı gündən-günə artırdı. İkiqat zülm altında qalan, əsarət altına alınmış xalqların vəziyyəti isə daha çətin idi.



Şəkildə: Solda Ahmet Baytursunov, ortada Əlixan Bökeyxan və sağda Mirjakıp Dulatov.

1905-ci ildə rus-yapon savaşını Rusiyanın uduzması vəziyyəti daha da gərginləşdirdi. Ölkəni bir itaətsizlik, mitinqlər, etirazlar dalğası bürüdü. 19-cu yüzildə Avropada görünməyə başlayan "kommunizm kabusu" Rusiyada özünə daha çox tərəfdar tapmağa başladı. İnqilabi yolla dəyişiklərə çan atanların sayı da gündən-günə artdı. Əlixan Bökeyxanov mərkəzdən uzaqlarda olsa da, oxuduğu qəzet və jurnallardan, dostlarından aldığı məktublardan ölkədə baş verənləri diqqətlə izləyirdi.

1905-ci ildə tarixə "Karqaralı petisiyası" adı ilə daxil olan hökumətə etiraz məktubunu hazırlanmasını

təşkil edən Əlixan Bökeyxanov qısa bir zamanda 14500 nəfərin imzasını toplayıb petisiyanı hökumətə göndərir. Bu onun ictimai-siyasi fəaliyyəti haqqında Peterburqda, Moskvada və b. şəhərlərdə yaşayan demokratik fikirli ziyalıların xəbər tutmasına səbəb olur.

Ölkədə narazılığın artması hökumət orqanlarını islahatlar aparmağa məcbur edir. 1862-ci ildə Almaniyanın Drezden şəhərində anadan olan, Qrodno (1902) və Saratov (1903-06) vilayətlərində qubernator işləmiş P.A.Stolipin 17-19-cu yüzillərdə Avropanın bir sıra ölkələrində keçirilən aqrar islahatlarla yaxından tanış idi. O, bu islahatların Rusiyada da həyata keçirilməsini istəyirdi.

1906-cı ildən Daxili İşlər Naziri və Nazirlər Şurasının sədri olan P.A.Stolipin sərt cəza tədbirləri və aqrar islahatları ilə yaddaşlara hopmuşdur. O, Rusiyanın mərkəzi quberniyalarındakı az torpaqlı, narazı, üsyana hazır kəndliləri Sibirə, Türküstana, Qafqaza köçürərək böyük torpaq sahələri verməklə onları sakitləşdirmək və həm də bununla bölgələrdə ruslaşdırma siyasətini gücləndirmək istəyirdi. Lakin bu islahatlar, sərt cəzalar da Rusiyanı gerilik bataqlığından çıxarmırdı. Əslində bunlar ciddi deyil, kosmetik islahatlar təsiri bağışlayırdı.

Ölkədəki qarışıqlığı sakitləşdirmək üçün çar İkinci Nikolayın 1905-ci ilin oktyabrında imzaladığı manifest söz, mətbuat, toplantı azadlığına şərait

yaratdı. Siyasi partiyaların qurulmasını sürətləndirdi. 1905-ci ilin oktyabrında Moskvada Konstitusiyaçı Demokrat Partiyasının birinci qurultayı çağırıldı (Bu partiya əsasən rus dilində qısaca Kadetlər partiyası kimi tanındı. – ***Ə.Ş.*)**. Əlixan Bökeyxanov da bu qurultaya qatıldı.

Az sonra, yəni 1906-cı ilin yanvarında keçirilən ikinci qurultay proqram və nizamnaməni təsdiqləməklə yanaşı, P.N.Milyukov, S.A.Muromtsev, M.A.Maklakov, P.B.Struve və b. partiyanın rəhbər heyətinə seçdi. Rusiyanın əsarət altına aldığı xalqların bir çox öndərləri də bu partiyaya daxil oldular. İslahatlar yolu ilə Rusiyanı Avropanın inkişaf etmiş dövlətləri sırasına çıxaracaqlarına inanan bu insanlar bölgələrdə də partiyanın təşkilatlarını yaratdılar.



1906-cı ilin yanvarında Bakıda da partiyanın təsis yığıncağı keçirildi. Fabrikantlardan K.İ.Xatisov, M.Q. Alibekov, S.L.Şifrin, neft sənayeçilərindən S.S.Taqianosov, knyaz İ.İ.Dadiani, gəmi sahibi F.F.Skrepinski, Bakı şəhər Dumasının qlasnılarından İ.Hacınski, İ.Səfərəlibəyov, "Kaspi" qəzetinin redaktoru Ə.M.Topçu-

başov və yerli ziyalıların bir neçəsi büroya seçildilər. Yeni yaranan təşkilatın yerli nümayəndələrinin elə ilk gündən Qafqaza muxtariyyat tələb etməsi fikir ayrılığına səbəb oldu və onları nümayəndələrin tərkibindən çıxardılar.

Əlixan Bökeyxanovun təşkilatçılığı ilə Konstitusiyaçı Demokrat Partiyasının Uralsk şəhərində təsisi qurultayı keçirildi. Qurultayda qazaxlar, başqırdlar, tatarlar iştirak etsələr də, orada muxtariyyat tələbi irəli sürülmədi. Bundan xəbər tutan xüsusi xidmət orqanları Əlixan Bökeyxanovu və onun məsləkdaşlarının bir qismini qırğız (o dövrdə Qazaxıstan, qazax adı çox az işlədilirdi. Qazaxlar əsasən qırğız kimi tanıdılırdı. Buna görə də biz sənədlərdə olduğu kimi qırğız-lar, Qırğız-ıstan yazanda bu qazaxlar, Qazaxıstan kimi də qəbul edilməlidir. – ***Ə.Ş.***) siyasi hərəkatının rəhbəri kimi həbs edir. Lakin üç aydan sonra onları həbsdən azad etməli olurlar.

Akmolla vilayətindən Birinci Dövlət Dumasının seçkilərinə qatılan Əlixan Bökeyxanov seçimdə uğur qazanır. Dumanın toplantılarında fəallığı ilə seçilir, Dumadakı Çançılar fraksiyasına üzv olur. Çar İkinci Nikolay Dövlət Dumasını buraxdıqda deputatlardan bir qismi Vıborqa toplaşaraq etiraz bəyannaməsi imzalayırlar. Bəyannaməyə Əlixan Bökeyxanov da imza atır.

Əlixan Bökeyxanov Kadet partiyasının üzvü kimi Omskda nəşr olunan "İrtış", "Omiç", "Qolos stepi"

qəzetlərinə redaktorluq etməklə yanaşı, 1908-ci ildə menşeviklərin "Tovariş" qəzetininə də rəhbərlik edir, Kadetlərin Peterburqdakı "Reç", "Slova" nəşrlərinə də müntəzəm məqalələr göndərir.

Fəal ictimai-siayasi mövqeyinə görə onu 1908-ci ildə yenidən həbs edirlər. Bir müddət Semiplatinsk və Pavlodar həbsxanalarına saxladıqdan sonra Samaraya sürgün edirlər. Təqib və həbslər gənc vətənsevəri ruhdan salmır. "Yeni ensiklopedik sözlük" və "Müasir dövlətlərdə milli hərəkatın forması" toplusunda "Qazaxlar" elmi-siyasi məqaləsini çap etdirir.

Qaynaqlar onun Peterburqdakı masson tipli "Çeramka"nın (bəzi qaynaqlarda bu "Polyarnaya zvezda" da adlanır) lojasına da daxil olduğunu və təşkilatın Samaradakı bölməsini yaratdığını, bu təşkilatda da gələcəkdə Müvəqqəti Hökumətə rəhbərkik edəcək Aleksandr Kerenski ilə tanış olduğunu yazırlar. Fransız massonları ilə sıx əlaqədə olan Rusiyadakı "Kiçik ayıcıq" masson qrupuna adətən Kerenskinin təşkilatı deyilirdi. Əlixan Bökeyxanovun masson lojasına daxil olması onu Rusiyanın konstitusiyaçı monarxiya tərəfdarları ilə sıx bağlayır.

Sürgündə olmasına baxmayaraq 1913-cü ildə Ahmet Baytursunov və Mirjakıp Dulatovla birlikdə "Kazax" qəzetinin nəşrini təşkil edə bilir. Əlixan Bökeyxanov və məsləkdaşları qısa bir zamanda qəzeti milli ziyalıların ideoloji mərkəzinə çevirirlər. Qəzetlərdə açıq imza ilə və "Qır balası", "Stepniyak",

yəni Çöllü oğlu təxəllüsü ilə "Duma partiyası", "Duma və qazaxlar", "Avqust Bebel" və b. məqalələr çap etdirir.

Sürgündə də siyasi fəaliyyətini davam etdirən Əlixan Bökeyxanov 1914-cü ilin iyununda keçirilən Ümumrusiya Müsəlmanları Qurultayının da fəal təşkilatçılarından biri olur. O, Dövlət Dumasında müsəlman deputatlarının fraksiyasının təşkilatçılarından və fraksiyanın büro üzvü olmaqla yanaşı, 1912-17-ci illərdə Kadetlər partiyasının Mərkəzi Komitəsinin üzvü kimi də siyasi fəaliyyətini davam etdirir.

1915-ci ilin avqustunda Xalq Azadlıq Partiyasının Samara Quberniya Komitəsinə üzv seçilən Əlixan Bökeyxanov 1916-cı ildə Ümumrusiya Əkinçilər Qurultayının təşkilatçıları sırasında mühüm işlər görür. Həmin qurultay yaradılması planlaşdırılan Sibir Respublikasının tərkibində Qazaxıstana muxtariyyat verilməsini qərara alır.

1917-ci ilin fevralında çar İkinci Nikolay taxtdan uzaqlaşdırılır və Müvəqqəti Hökumət qurulur. Hökumətdə Sosialist İnqilabçılar aparıcı mövqe tutur. Partiyanın liderlərindən olan Aleksandr Kerenski hökumətə rəhbərlik edir. Müvəqqəti Hökumət yeni idarəetmə sistemi qurmağa çalışır. Müvəqqəti Hökumətin Məclisinə türk-müsəlmanlardan Sədri Maksudi, Muhammedjan Tınışbay və Əlixan Bökeyxanov qəbul edilir. Onlar məclisdə azlıq təşkil

etdiklərindən millətləri üçün gərəkli heç bir qərar qəbul etdirə bilmirlər.

Əllərindən zorla alınan torpaqları geri qaytarmaq, rusların bölgəyə axınının qarşısını almaq, müsəlmanların haqlarını müdafiəsinə nail olmaq üçün türküstanlılar 1917-ci ilin aprelində Müsəlman Konfransını çağırdılar. Müsəlmanların haqlarının qorumaq məqsədilə konfransda Türküstan Mərkəzi Şurası yaradılır ki, sonra bu təşkilatın adı dəyişdirilərək Milli Mərkəz adlandırılır.

1917-ci il mayın 14-24-də Moskvada Dördüncü Dövlət Dumasının müsəlman nümayəndələri və türk ziyalıları, siyasi xadimləri Rusiya Müsəlmanlarının Konfransını keçirirlər. Konfrans çox gərgin keçir. Gərginliyə səbəb isə milli mədəni muxtariyyat, mədəni muxtariyyat və müstəqillik tərəfdarlarının fikirləri üzərində qətiyyətlə durmaları idi.

Əlixan Bökeyxanov masson lojasındakı, Kadetlər partiyasının fəaliyyətinə və Aleksandr Kerenski ilə şəxsi münasibətinə görə Turqay vilayətinə Müvəqqəti Hökumətin Komissarı təyin edilir.

Lakin az keçmir ki, Əlixan Bökeyxanov "Mən Kadetlər partiyasından niyə çıxdım?" məqaləsini çap etdirir. Məqalədə göstərir ki, çar İkinci Nikolay hakimiyyətdən uzaqlaşdırılsa da, masson qardaşları və Kadet partiyasının rəhbərliyi imperiya təfəkküründən əl çəkməmişdir. Onlar əsarət altına

alınmış xalqların azadlığa qovuşmalarına əngəl törədirlər.

Əlixan Bökeyxanov muxtariyyata nail olmaq üçün siyasi qüvvələrlə danışıqlar aparır, ortaq məxrəcə gələcəkləri nöqtələri axtarırdı. 1917-ci ilin iyul ayında onun rəhbərliyi və təşkilatçılığı ilə Birinci Ümumqazax Qurultayı çağırılır və

Alaş (Hərəkat öz adını qazaxların əfsanəvi atası Alaş xandan almışdır. Qızıl Ordanın bir adı da Alaş Ordasıdır – ***Ə.Ş.***) xalq hərəkatı əsasında 1906-cı ildə yaradılan Konstitusiyaçı Demokrat Partiyasının Omsk qrupunun üzvlərinin çoxu yeni yaradılan milli Alaş Partiyasına daxil olur. Bu partiya yarandığı ilk gündən qazax-qırğızların muxtariyyatına nail olmağa çalışır.

Bolşeviklər 1917-ci il oktyabrın 25-də Müvəqqəti Hökuməti silah gücünə hakimiyyətdən uzaqlaşdırır və noyabrın 28-də (yeni təqvimlə dekabrın 11-də – ***Ə.Ş.***) Kadetlər partiyasını "xalq düşmənlərinin partiyası" elan edərək, fəaliyyətini yasaqlayır. Ökədə irticanın baş qaldırdığını görən Kadetlər gizli fəaliyyətə keçirlər. Baş verənlər qazaxların milli qüvvələrinin böyük əksəriyyətinin Alaş Partiyası ətrafında birləşməsini sürətləndirir. Alaşçıların hakimiyyəti ələ alan Sovetlərin antidemokratik hərəkatını kəskin tənqid etdiklərindən bolşeviklərlə aralarında dərin ixtilaf yaranır.

Çimkənd, Almatı, Bökeyevski Orda, Türküstan, Kazalinsk, Kokçetav, Akmolla müqavimətsiz Sovetlərin əlinə keçir. Lakin Orenburq, Uralsk, Semiplatinsk bölgələrində Sovetlərə qarşı güclü müqavimət hərəkatı başlayır. O dövrdə Orenburq qazaxların mərkəzi sayılırdı.



Şəkildə:Alaş Orda öndərlərinin 1918-ci ildə çəkdirdikləri bir şəkil.Birinci cərgədə: soldan Jakabay Atike ulı, Jubandık Bolqanbay ulı, Turaqul Abay ulı, Əlixan Bökeyxan, Rayımjan Marsekov, ikinci cərgədə soldan ikinci Mukan Jakenjan ulu və ondan sonrakı Kokbay Janatay ulı.

1917-ci il dekabrın 5-13-də Orenburq şəhərində keçirilən IBirinci Ümumqırğız Qurultayında

qazaxların necə yaşayacaqları, hansı idarəetmə formasından istifadə edəcəkləri, kimlərlə ittifaqa girəcəkləri geniş müzakirə olunur. Çoxluğun səsverməsi ilə Alaş Orda Muxtariyyatının qurulduğu elan edilir. Yeni hökumətin Müvəqqəti Xalq Şurasına 25 nəfər seçilir. Bölgədə yaşayan bütün xalqların Müvəqqəti Xalq Şurasında təmsil olunması üçün 15 yer qazax-qırğızlar, 10 yer isə burada yaşayan başqa xalqlar üçün ayrılır. Əlixan Bökeyxanov hökumətin rəhbəri seçilir. Əslində Qazaxıstan iki yerə bölünmüşdü. Batı tərəfin lideri Əlixan Bökeyxanov idisə, doğu bölməsinə Amangəldi İmanov rəhbərlik edirdi. 1905-06-cı il üsyanlarının fəal iştirakçısı, 1916-cı il üsyanının rəhbərlərindən biri olan Amangəldi İmanov (3.4.1873-18.5.1919) 1918-ci ildə Rusiya Kommunist (bolşeviklər) Partiyası sıralarına keçdiyindən Albi Jangildinlə birlikdə Sovetlərin mövqeyini müdafiə etdi.

Daşkənddə isə silah gücünə hakimiyyəti ələ alan sovetləri isə yalnız əsgərlər və dəmiryolçular müdafiə edirdilər. Əllərində silah hərbi güc olan sovetlər ermənilərı də səfərbərliyə alaraq, şəhərdə müsəlmanların kütləvi qırğınını təşkil etdilər. Hakimiyyəti ələ alan yerli əhali arasında proletariyyat, fəhlə sinfi olmadığını bəhanə edən bolşeviklər müsəlmanları hökumətin idarə edilməsinə yaxın buraxmadılar. Türküstan Sovet Komissarlığının yürütdüyü bu

siyasət Moskvanın xalqlara azadlıq verəcəyi haqda vədin puç olduğunu ortaya qoydu.

Çar İkinci Nikolay taxtdan salındıqdan sonra ona qarşı mübarizə aparan qüvvələr arasındakı fikir ayrılığı ölüm-dirim savaşına, vətəndaş müharibəsinə gətirib çıxarır. Əlixan Bökeyxanov və onunla həmfikir olanlar Başqırd-Tatarların milli qüvvələrilə və Kokandda Türküstan Muxtariyyatı elan edənlərlə razılığa gələ bilmirlər. Bu da milli qüvvələrin onsuz da zəif olan gücünün parçalanmasına səbəb olur.

Əlixan Bökeyxanovun rəhbərlik etdiyi hökumətin yetərincə kadrı, ordusu olmadığından qazaxların yaşadığı böyük bir ərazini yeni qaydalarla idarə edə bilmir. Bolşeviklərdən yardım alan və onların qazax xalqına azadlıq bəxş edəcəyinə inananlar ölkənin Quzey-Batısını nəzarətləri altından saxlayırlar. Çar ordusunun polkovniki, kazak qoşununun atamanı Aleksandr Dutov 1917-ci ilin noyabrında tatar, başqırd, qazax iş adamlarının, torpaq sahiblərinin və ziyalıların yardımı ilə Uralın güneyində Sovetlərə tabe olmadığını bildirərək dəmiryolunu və bir çox strateji məntəqələri tutmaqla sovetlərin Sibir və Türküstanla əlaqəsini kəsdi. 1918-ci ilin aprelinədək hakimiyyətini sürdürdüyü hərbi hökumət qurur. Belə gərgin, milli qüvvələrin parçalanmış halda olduğu vəziyyətdə Əlixan Bökeyxanov Tomskda keçirilən qurultayda yeni yaradılacaq Müvəqqəti Sibir

Hökumətinin tərkibində qazaxlara muxtariyyat verilməsi fikrilə razılaşır.

Bolşeviklər qazax inqilabçılarından Alibi Jangildinin başçılıq etdiyi əsgəri birlikləri Orenburq üzərinə, Aleksandr Dutova qarşı döyüşə göndərir. 1918-ci il yanvarın 29-dakı döyüşdə Dutovçular məğlub olaraq Yuxarı Urala çəkilirlər. Lakin bolşeviklər də Orenburqda çox qala bilmir.

Belə ki, 1918-ci il yanvarın 6-da bolşeviklərin göstərişi ilə matros Anatoli Jelezniyak Tavriya sarayında keçirilən Müəssislər Məclisinin toplantısını dağıdır. Çünki toplanmış 410 deputatların böyük əksəriyyəti eserler və kadetlər idi. Bolşeviklər silah gücünə əldə etdikləri hakimiyyəti seçimlə itirmək istəmirdilər. Onlar Müəssislər Məclisini dağıtmaqla kifayətlənməyib müxalif partiyaların fəaliyyətinə qadağa qoydular. Müəssislər Məclisinin üzvlərinin əksəriyyəti gizli fəaliyyətə keçdilər.

Birinci Dünya Savaşında Avstriya-Macarıstan ordusunun hərbi əsirlərindən və Rusiyada yaşayan çexlərdən təşkil edilmiş 45 min nəfərlik korpus ilə bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra özlərini Fransa ordusunun tərkib hissəsi elan edərək, Avropaya göndərilmələrini tələb etdilər. Bolşeviklər isə onlara qısa yolla getmələrinə izin verməyib, silahlarını təhvil vermələrini və Vladivostokdan getmələrini təklif etdi. Bolşeviklərin vədlərinə əməl

etməyəcəklərini düşünən Çexoslavakiya Korpusunda üsyan baş verdi.

1918-ci il mayın 25-də Marinskdə, 26-da Çelyabinskidə başlayan qiyam qısa müddətdə dəmir-boyunda, Vladivostokadək uzanan 7 min kilometrlik bir məsafəyə yayıldı. Samara şəhəri də onların əlinə keçir. İyulun 1-də Orenburq da bolşeviklərdən təmizlənir. Eserlərin böyük bir qismi də qiyamçıları müdafiə edir və bu üsyandan yararlanmağa çalışırlar.


Vəziyyətin gərginliyi, bolşeviklərin inqilabi dəyərlərə əməl etməyərək diktatura qurmalarından narazı qalan Müəssislər Məclisinin üzvlərindən 29 nədər 1918-ci il iyulun 8-də Samarada toplantılarını keçirdilər və qısa adı Komuç olan təşkilatı qurub Xalq Ordusu yaradaraq, bolşeviklərə qarşı döyüşlərə hazır-laşdılar. Onlar mövqelərini möhkəmlətmək üçün Alaş Ordaçılardan Əlixan Bökeyxanovu və Mustafa Çokayevi Samaraya dəvət edərək hərbi-siyasi ittifaq bağlamağı təklif edir.

Müəssislər Məclisi deputatlarının bir qismi də Omskda toplanaraq, Müvəqqəti Sibir Hökumətini qurdular. Sonra hər iki qurup birləşdi. 1918-ci il sentyabrın 23-də Uralsk şəhərində Ümumrusiya Müvəqqəti Hökuməti, Ufa Drektoriyası

1918-ci ilin oktyabrında Direktoriyası kimi tanınan Müvəqqəti Sibir hökuməti qurulur. Çox vaxt Ufa Direktoriyası adlandırılan bu hökumət 1918-ci ilin oktyabrında Omska köçürülür. Noyabr ayında isə

admiral Aleksandr Kolçak hökumətə Hərbi Dəniz Naziri təyin edilir. Az sonra Aleksandr Kolçakçevriliş edərək Drektoriyanın həbs edilməsi, eləcə də Alaş Orda və Başqırdıstan Müxtariyyatlarının ləğvi də sərancam imzalayır.

Qazax-qırğız vətənpərvərləri belə gərgin, tez-tez dəyişən bir vəziyyətdə kimin yanında olmaq, kiminlə əməkdaşlıq etmək məsələsində çətinlik çəkirdilər. Onların arasındakı fikir ayrılığı milli mənafeyə ağır zərbə vururdu.



Əlixan Bökeyxanovun çəkdirdiyi son şəkillərdən.

Həmişə Rusiya meyilli olan Əlixan Bökeyxanov belə gərgin və qarışıq bir dövrdə Aleksandr Kolçakla əməkdaşlıq etməyə üstünlük verir. Vladimr Leninin rəhbərliyi ilə bolşeviklərin silah gücünə hakimiyyəti ələ almalarını demokratiyaya və qanunçuluğa zidd sayan Əlixan Bökeyxanov "Ümumsibir qurultayı" məqaləsini "Sarı arka" qəzetində dərc etdirir.

Əlixan Bökeyev bir tərəfdən 1917-ci ilin dekabrında Kokandda qurulmuş Türküstan Muxtariyyatının rəhbərlərini Orenburqda dekabrın 5-

13-də keçirilən İkincBirinci Ümumqırğız Qurultayına dəvət edərək onlara Alaş Orda Muxtariyyatında nazir vəzifələri verir, bir tərəfdən Ahmet Baytursunovu Moskvaya bolşevik lərlə danışığa göndərir, o biri tərəfdən də Başqırdıstan Muxtariyyatı rəhbərlərilə, A.Dutov, Aleksandr Kolçakvə b. danışıqlar aparır. Alaş Ordaçılar Mustafa Çakoyev tərəfindən qurulmuş Türküstan Müslümanları Komitəsi ilə yaxınlıq etdikləri kimi Osmanlı dövlətindəki Gənc (Jön) Türklər hərəkatı və İtil-Kama bölgəsindəki Mirsaid Soltanqaliyev tərəfindən qurulmuş Türk-Tatar Komitəsi ilə də əməkdaşlıq etdiklərini yazırlar.

1919-cu ildə bolşeviklərin güclənərək ağqvardiyaçıları sıxışdırması Alaş Oradçılar arasında fikir ayrılığını artırır. 1919-cu ilin aprelində Moskvaya gələn Alaş Ordaçıların nümayəndə heyəti Sovet rəhbərlərindən Lenin, Stalin, Trodski və b. görüşür. Razılığa gəlinir ki, bolşeviklər qazaxların muxtariyyatını tanıyacaqlar və Alaş Orda hökumətinin bolşeviklərə qarşı vuruşmuş üzvlərinə aministiya verəcəklər.

Alaş Ordaçılardan Ahmet Baytursunov, Mirjakıp Dulatov, Jusipbey Aymautov, Maqjan Jumabayev və başqa öncülləri də bolşeviklərin sırasına qoşuldular.

Sovet hökuməti 1919-cu il noyabrın 4-də Alaş Ordaçılara aministiya verildiyi haqqında qərar qəbul edir. Bunun ardınca, yəni 1919-cu il dekabrın 21-də Alaş Orda Şurası Uş (Üç) juz (cuz) milli partiyasının

buraxılması və hökumətinin Sovet Rusiyasının tərkibində müxtariyyat hüququnda fəaliyyət göstərməsi haqqında qərar verir.

1917-ci il dekabrın 13-də yaradılmış Alaş Orda Muxtariyyatı 1920-ci il avqustun 26-da Qırğızıstan Muxtariyyatına çevrilir. Lakin bolşeviklər verdikləri vədə əməl etmirlər. Nümayəndə heyəti Moskvadan ayrılan kimi İosif Stalin Rusiya Fəhlə Kəndli Şurasına teleqram vuraraq, qazax milliyətçi-lərinə qarşı sərt tədbirlər görmələrini əmr edir. Bundan sonra bolşeviklərin Qızıl Ordu adlandırdıqları əsgəri birliklər Alaş Ordanın ərazisində yerləşdirilir.

Əlixan Bökeyxanovu yeni yaradılan Qırğızıstan Muxtar Sovet Sosialist Respublikası Xalq Torpaq Komissarlığında kollegiya üzvü təyin edirlər. Az sonra o, bolşeviklərlə əməkdaşlıq edəcək hökumətdən çəkilərək, mədəni quruculuq işlərində, xalqının maarifləndirilməsi sahəsində çalışmağı qərara alır.

1922-ci ildə bolşeviklərin basqısına tab gətirməyən alaş ordaçılar üsyan qaldırır. Milli kadrların böyük bir qismi həbs eilir və ya istintaqa çağırılır. Əlixan Bökeyxanov bu tutha-tutdan qurtularaq Moskvaya göndərilir. Əslində bunun arxasında onun xalqdan, Qazaxıstandan uzaqlaşdırılması dururdu. Moskvada Xalq Komissarlığı yanındakı Mərkəzi Nəşriyyatda milli məsələlər üzrə elmi işçi kimi fəaliyyətə başlayır. 1926-27-ci illərdə isə Rusiya Elmlər Akademiyasında elmi işçi kimi çalışır.

Onun Qazaxıstanın torpaqlarının bölüşdürülməsi komissi-yasında olduğuna dair də sənədlər var. Sənədlərdən aydın olur ki, Əlixan Bökeyxanov Qazaxıstana rusların köçürülməsinin münasib olmadığı haqqında arayış hazırlayıb. Lakin onun ha-zırladığı arayış nə Qazaxıstan Ölkə Partiya Komitəsinin birinci katibi F.İ. Qoloşşekin, nə də mərkəzin xoşuna gəlir.

Əlixan Bökeyxanovun Sovet hakimiyyəti illərindəki fə-aliyyəti haqqında geniş bilgi əldə edə bilmədik. Bir onu öyrənə bildik ki, daimi nəzarət, tə-qib və təziq altında olub. Sənədlərdən aydın olur ki, Sovet xüsusi xidmət orqanlarından icazəsiz Moskvadan çıxıb, Aktyubnskiyə gəldiyinə görə 1926-cı ildə həbs edilərək Moskvadakı Butırsk həbsxanasına göndərilir. İki həftəlik istintaqdan sonra onu hansısa şərtlərlə həbsdən azad edirlər.

Butırsk həbsxanasından buraxıldıqdan sonra harada işlədiyi, nə işlər gördüyü haqda bilgi toplaya bilmədik. Əldə etdiyimiz yeganə bilgi ondan ibarətdir ki, 1937-ci ildə yenidən həbs edilərək sentyabrın 27-də güllələnib.

Siyasət aləminə ilk addımımı atan hər bir şəxs dövrün ictimai-siyasi dəyərləndirməklə yanaşı, gələcəyi də görə bilməlidir. Belə olmadıqda xalqının və millətinin xoşbəxt gələcəyi naminə mübarizə meydanına atılanların atdıqları addımlar da həm onun istəklərinin əleyhinə olur, həm də xalqının və özünün həyatına ağır zərbə vurmuş olur. Əlixan Bökeyxanov

da istər Qazax xalqının oxumamış, Avropa mədəniyyətinə yiyələnməmiş təbəqələri, istərsə də Qazaxlarla eyni dildə danışan, eyni dinə inanan Özbəklərin, Türkmənlərin, Qırğızlarının, Qaraqalpaqların və b. xalqların nümayəndələri ilə dil tapmaq, onlarla iş birliyinə getmək istəmədi. Bu da həm xalqı, həm də öz həyatı üçün faciəli nəticə verdi.

1937-ci ildə həbs edilənlərin əksəriyyətinə Sov.İKP XX qurultayından sonra bəraət verilsə də, Əlixan Bökeyxanova bəraət verilməmişdir. Sovet hökumətinin dağılması ərəfəsində, yəni 1989-cu il mayın 14-də bəraət verilmişdir.

Uzun illər adının çəkilməsi qadağan olunsa belə, qazax xalqı onun xidmətlərini unutmamışdır. Sovet hökuməti dağıldıqdan sonra Qazaxıstanda Əlixan Bökeyxanovun adı əbədiləşdirilib, əsərləri nəşr olunmağa başlayıb.

Əlixan Bökeyxanov haqqında hazırlanmış verliş TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il martın 14-də, saat 12.14-də efirə getmişdir

ÇILĞIN ŞAİR, COŞĞUN VƏTƏNSEVƏR MİRJAKIP DULATOV



Miryakup Dulatov (1885-1935) (ميرياكوپ دولاتوو), qaz. Міржақып Дулатұлы, rus. Миржакип (Мыржакып, Мир-Якуб) Дулатов) Маг-жаном Жумабаевым) https://ali-shamil.tr.gg/Miryaqub-Dulatov.htm https://ali-shamil.tr.gg/Miryaqub-Dulatov.htm

Onun adını və soyadını qazaxlar Mirjakıp Dulat ulu kimi yazsalar da, rusdilli sənədlərdə Miryakub və ya Mir-Yakup Dulatov kimi yazılır. O, 1885-ci il noyabrın 25-də Kustanay vilayətinin Sarıkopa kəndində anadan olmuşdur. Qazaxların Orta cuzuna daxil olan Arqın tayfasının zadəganlarının ailəsində doğulan Mirjakıp 2 yaşında anası Dəmeşi, 12 yaşında isə atası Dulatı itirmiş və qardaşı Askarın himayəsində böyümüşdür.

1893-cü ildə kənd mollası yanına oxumağa gedən Mirjakıp orada Quran oxumağı, şəriəti, fars və türk

dillərini öyrənir. 12 yaşında olanda onu Torqaydakı ikisinifli rus-tuzem məktəbinə göndərirlər. Bu məktəbləri bitirənlərin böyük əksəriyyəti sonralar rus dili vasitəsilə Rusiyadakı millətçilik şüuru ilə tanış olmuş və beləcə vətənlərini Rusiya əsarətindən qurtarmaq uğrunda mübarizə aparan vətənsevərlərə çevrilmişlər. Mirjakıp Dulatov da belə bir yol keçmişdir.

Mirjakıp Dulatov rus-tuzem məktəbi adlandırılan, Avropa tipli təhsil ocağını bitirdikdən sonra əsası Ufa şəhərində 1906-cı ildə qoyulan Qaliya mədrəsəsində oxumağa gedir. Daha çox Ziya Kamal kimi tanınan Pərvaz əddin Camal əddin Kamal əd-Dinovun rəhbərlik etdiyi mədrəsədə təhsil sistemi Doğu-Batı metodlarının sintezi əsasında qurulmuşdu. Mədrəsədə təhsil dörd pilləli idi və burada oxuyan şagirdlərdən təhsil xərci alınmırdı. Üç illik təhsil ibtidai, sonrakı dörd illik təhsil rüşdi, ondan sonrakı dörd illik təhsil iqdadiyə, son üç illik mərhələ isə qaliyə, yəni ali (tatar və başqırdlarda səssizi ilə başlayan bir çox sözlərin əvvəlində q səslisi işlədilir. – ***Ə.Ş.***). Buraya xarici ölkələrdən qəzet, jurnal, kitab gətirilməsi ilə yanaşı, şagird və tələbələri əlyazma hüququnda ədəbi-bədi, elmi, publisist jurnallar hazırlamağa həvəsləndirirdilər.

Mədrəsədə Lütfülla Bayçurun, Xatmulla Fazılov, Zarif Hazret Alkayev kimi dövrünün tanınmış pedaqoqları dərs deyirdilər. Bölgənin ən məşhur elmi ocaqlarından olan bu mədrəsədə oxuyanların

əksəriyyəti tatar-başqırdlar olsa da, 154 qazax yeniyetməsi də buranı bitirmişdir.

Qaliyya mədrəsəsində tatar, başqırd, özbək, qazax, qırğız mədəniyyətinin inkişafına və ictimai fikrin formalaşmasına təsir göstərmiş Qalimcan İbrahimov, Şeyxzadə Babiç, Məcid Qafuri, Səid Kudaş, Kərim .Xakimov, Bedreddin İşemqul, Səid Atnaqulov, Qazi Alparov, Qabdulla Kudoyarov və b. tanınmış şəxsiyyətlər oxumuşlar. Belə bir mühitdə təhsil alan Mirjakıp Dulatov da çox gənc yaşlarında bədii yaradıcılıqla məşğul olur və ictimai-siyasi məsələlərə böyük maraq göstərir.

Qaliya mədrəsəsini bitirib müəllim işləməyə başlayan Mirjakıp Dulatov 1905-ci ildən ölkəni bürüyən inqilabi hərəkata qoşulanlardan olur. Karqaralıdakı demokratlara qoşulan Mirjakıp 1906-cı ildə Əlixan Bökeyxanovun təşəbbüsü ilə Uralskidə



təşkil edilən Konstitusiyaçı Demokrat Partiyasının (Kadet) təsis qurultayında fəal iştirak edir. Qurultayda onu rəhbər heyətə seçirlər və bu heyətin tərkibində Peterburqa gedir.

Çar Rusiyasının mərkəzi quberniyalarının rus əhali-sini Qazaxıstanın ən

məh-suldar torpaqlarına köçürül-məsinə qarşı çıxan-lardan olan Mirjakıp Dulatov ide-yalarını həm də şeirlərilə təbliğ etməyə çalışır.

"Gənclərə" adlı ilk şeirini1907-ci ildə Peter-burqda Abdülleşid İbrahi-movun qazaxca nəşr etdir-diyi "Ser-ke" (qazaxlar qoyun sürüsü borana düşəndə onun qar-şısına keçərək sürünü labüd məhvdən xilas edən insana serke deyirlər. – ***Ə.Ş.***) qəzetinin birinci nömrəsində işıq üzü görür. Qəzetin ikinci nömrəsində isə onun "Bizim vəzifələrimiz" məqaləsi çap olundu. Bu məqaləyə görə, senzor qəzetin bağlanması haqqında qərar verir və məqalənin müəllifi də həbs edilərək Semeplatinsk həbsxanasına göndərilir.

Qəzetin naşiri məşhur din adamı, ictimai-siyasi xadim Abdülleşid İbrahimovun "Serke"dən əvvəl Peterburqda ortaq türk dilində çap etdiirdiyi "Ülfət" və müsəlman xalqlarını bir araya gətirmək üçün ərəbcə nəşr etdirdiyi "Tilimiz" jurnalları da bağlanmışdı.

Millətinin dərdini şeirləri və publisistik yazıları ilə təsvir edən, xalqını oyatmağa, mübarizəyə çağıran şair 1909-cu ildə "Oyan, qazax" adlı şeirlər kitabını çap etdirir. Kitab böyük uğur qazanır. Qısa müddətdə satılıb qurtarır.

Bədii yaradıcılıqda qazandığı ilk uğurdan ruhlanan Mirjakıp Dulatov 1910-cu ildə "Baxtsız Jamal" romanını yazır. Başlıq qarşılığında varlı bir kişiyə verilən Jamalın acı taleyindən bəhs edən roman qazax ədəbiyyatında ilk roman olaraq, maraqla qarşılanır.

Mirjakıp Dulatov 1911-ci ildə "Oyan, qazax" kitabını təkrar nəşr etdirdi. Lakin kitabdakı şeirlər və ona yazılmış ön söz bu dəfə hökumət dairələrinin diqqətini cəlb edir. "Oyan, qazax" şeirlər kitabı müsadirə edilir.

İndiki Qazaxıstan ərazisində rus dilində qəzetlər nəşr edilsə də bu qazax ziyalılarını təmin etmirdi. Onlara xalqa ana dilində müraciət etmək, şeir və hekayələrini, topladıqları folklor nümunələrini ana dilində dərc etməyə qəzet və jurnal lazım idi. Belə bir vaxtda Samarada sürgündə olan, Əlixan Bökeyxanov "Kazax" adlı qəzetin nəşrinə icazə ala bilir. Qəzetin 1913-cü ilin yazında Orenburqda nəşrə başlaması isə heç də təsadüfi deyildi. Həmin dövrdə Orenburq qazaxların əsas mədəni mərkəzi, baş şəhərləri sayılırdı.

Əlixan Bökeyxanov nəşrinə icazə aldığı qəzetin redaktorluğuna yaradıcılıqlarına və ictimai-siyasi fəaliyyətlərinə yaxından bələd olduğu Mirjakıp Dulatov və Ahmet Baytursunovu təyin edir. Onlar qısa bir zamanda yazıları və təşkilatçılıq bacarığıyla qəzeti ictimai-siyasi, milli fikir mərkəzinə çevirə bilirlər.

Abayın (İbrahim Kunanbayovun) başladığı maarifçilik hərəkatının ən fəallarından olan Mirjakıp Dulatov, Ahmet Baytursunov, Maqjan Jumabayev var gücləri ilə müstəmləkəçiliyə qarşı mübarizə aparır, xalqı öz haqları uğrunda mübarizəyə səsləyirlər.

Bədii yaradıcılıqla ya-naşı, ardıcıl ictimai-siyasi fəaliyyətlə də məşğul olan Mirjakıp Dulatov 1913-cü

ildə “Azamat”(İnsan) adlı şeir kitabını çap etdirir. Kitaba müəllif öz şeirləri ilə yanaşı, Fridrix Şillerdən, Aleksandr Puşkindən, Abdulla Tukaydan, Mixail Lermantovdan etdiyi tərcümələri də daxi edir. 1915-ci ildə isə “Terme” adlı kitabını nəşr etdirir. Kitaba ədib ədəbi-bədii, publisistik məqalələrini daxil edir. Həmin il onun Gülnar adlı qızı anadan olur. (Məşəqqətlər içində yaşayan Gülnara çətinliklə də olsa oxuyub həkim olmuş, atasının əsərlərini toplayaraq, qorunub saxlanmış, atasının və onun əqidə dostlarının bəraət alması üçün mübarizə aparmışdır. 1992-ci ilin oktyabrında Mirjakip Dulatovun 1935-ci ilin oktyabrın 5-də dəfn olunduğu Karelyadakı Sosnovetsk həbs düşərgəsinin qəbristanlığından gətirdilməsinə nail olmuşdur. Onun cənazəsi Torqay vilayətindəki Jangeldi rayonunun Bidayık kəndində İslami qaydada dəfn edilmişdir. Gülnar xanım 2013-cü ilin fevralın 13-də Almatada dünyasını dəyişmişdir.)

1917-ci ilin oktyabrınadək müxtəlif qəzet və jurnallarda işləyən, haqsızlığa, zülmə qarşı məqalə və şeirlərində meydan oxuyan, sosial ədaləti tərənnüm edən Mirjakıp Dulatov xalq arasında sayılıb-seçilən öndərlərdən birinə çevrilir.

1917-ci ilin fevralında çar İkinci Nikolayın taxtdan salınıb, Müvəqqəti Hökumətin qurulması Mirjakıp Dulatovun həyatdının



ən gərgin günlərinin başlanğıcını qoyur. Millətini azad və firavan görmək istəyən, zülmə, haqsızlığa son qoyulması üçün var gücü ilə çalışan vətənpərvər şair sanki bir burulğana düşür. Yaxın dostlarının bir qismi qazax xalqının Rusiya işğalından azad olub öz dövlətini qurmaq uğrunda mübarizə meydanına atılmışdırsa, başqa bir qismi kadr çatışmazlığından, ordu yetməzliyindən qazaxların Rusiya tərkibində muxtariyyatla kifayətlənməsini daha münasib sayırdı. Zülmə və savaşlara son qoymaq, sosial ədalətə nail olmaq istəyənlər də dünya inqilabı eşqiylə yaşayırdılar.

Mirjakıp Dulatov ideyaca sosialist olsa da, milli dəyərlərə də önəm verir, hörmət və ehtiram bəslədiyi Əlixan Bökeyxanovun qazaxların Rusiya Federasiyasının tərkibində olması ideyasından da uzaqlaşa bilmirdi.

Mirjakıp Dulatov 1906-cı ildə qurulmuş Konstitusiyaçı Sosialistlər Partiyasının Alaş Partiyasına çevrilməsinin tərəfdarlarından olmuşdur. 1917-1918-ci illərdə bölgədə keçirilən qurultay və toplantılarda fəal iştirak edən Mirjakıp Dulatov Alaş Orda dövlətinin

quruçuları sırasında olsa da, az sonra hökumətin Sibir Respubilikası və onun rəhbərBirinci AleksandrKolçakla əməkdaşlığından narazı qalır.

1918-ci ilin yanvarında Ahmet Baytursunov Moskvaya gələrək Sovet rəhbərləri ilə danışıqlar aparılmasının tərəfdarlarından olur. Sovet rəhbərlərinin verdiyi vədə aldanan Mirjakıp Dulatov 1919-cu ildən bolşeviklərlə bir sırada həyatının yeni mərhələsini başlayır. 1920-30-cu illərdə "Ak jol", "Yenbekap kazax" qəzetlərində, "Qızıl Kazaxıstan" jurnalında işləyir. Madiyar, Azamat, Taymıner, Türik balası və Arğın balası imzaları ilə çeirlər yazır. Kommunist partiyasının üzvü olsa da, sosializmi tərənnüm etsə də, Sovet rəhbərliyi ona heç vaxt etimad göstərib rəhbər vəzifəyə irəli çəkmir. Tərcüməçi kimi işlətməklə kifayətlənir.

Alaş Partiyasının üzvləri ilə əlaqəsini kəsməyən, partiyanın gizli təşkilatlarının işində fəal iştirak edən Mirjakıp Dulatov daimi təzyiq və təqib altında olduğunu hiss etsə də, millətinin xoşbəxt gələcəyi naminə mübarizəsindən əl çəkmir. 1922-ci ildə alaşçılar ölkənin müxtəlif bölgələrində üsyan qaldırırlar. Mirjakıp Dulatovu da bu üsyanın ideoloqu kimi həbs edirlər. Lakin silahlı müqavimətdə iştirak etmədiyinə görə, ölkədə savadlı milli kadrlara böyük ehtiyac duyulduğunu düşünüb onu az sonra həbsdən azad edirlər.

SSRİ-də ərəb əlifbasının latın əlifbasi ilə əvəzlənməsi kampaniyası başlayanda Mirjakıp Dulatov bunun əleyhinə çıxır və Ahmet Baytursunovla bir

cəbhədə olur. Bunu xalqın keçmişi, tarixi ilə əlaqəsinin kəsilməsi kimi qiymətləndirir. Qazax dilində islahat adı altında türk xalqları arasında ayrımçılıq siyasəti yeridildiyinə də kəskin etirazını bildirir. Onun fikirlərini açıq söyləməsini dövlət siyasətinə qarşı çıxması kimi dəyərləndirir və 1928-ci ildə yenidən həbs edirlər. Hələ rəbər vəzifələrdə olan milli qüvvələrin təsiri və təzyiqi ilə onun həbsdən azad edilməsi mümkün olur.

Lakin 1930-cu ilin aprelində yenidən həbs edildikdə onu heç kim xilas edə bilmir. Uzun və işgəncəli istintaq onun antiso-vet fəaliyyətini aşkarlayır. Sovet məhkəməsi qanunlara uyğun olaraq Mirjakıp Dulatova güllələnmə hökmü oxuyur. Bir neçə ay güllələnmə hökmü ilə həbsxanada saxlandıqdan son-ra güllələnmə hökmü 10 il həbslə əvəz edilərək Solovetski adalarındakı Sosnovets həbs düşərgələ-rinə göndərilir. Mirjakıp Dulatov 1935-ci il oktyabrın 5-də Murmanski dəmir yolunun beşinci şöbəsinin mərkəzi xəstəxa-nasında dünyasını dəyişir. Ona bəraət çox gec, 1988-ci ildə verilir.



Bəraət gec də verilsə, istər qazax xalqının vətənsevər oğulları, istərsə də, dünyanın demokratik

fikirli insanları Mirjakıp Dulatovu unutmur, onun əsərlərini qoruyub saxlayırlar. 1909-cu ildə "Oyan! Qazaq!", 1910-cu ildə "Baxtsız Jamal", 1915-ci ildə "Terme", 1922-ci ildə "Esep Kurali", 1924-cü ildə "Kiyragat kitabı" kitablarında və qəzet-jurnallarda çap olunmuş əsərləri toplanaraq 1991-ci ildə "Oyan, kazak", 2 cildlik "Şıqarmaları" (Seçilmiş əsərləri), 2002-2003-cü illərdə isə 5 cildlik "Əsərləri" adı altında nəşr edildi.

Sovetlər Birliyi dağıldıqdan sonra Mirjakıp Dulatovun əsərlərinin nəşri ilə kifayətlənilmədi, Qazaxıstan Yazıçılar Birliyi Mirjakıp Dulatov adına illik ədəbi mükafat təsis etdi, 2003-cü ildə Kostanay Mühəndis- İqtisad Universitetinə və Astanada bir küçəyə onun adı verildi, 2005-ci ildə Almatıdakı Əl Fərabi adına Qazax Milli Universitetinin həyətində Əlixan Bökeyxanovun, Ahmet Baytursunovun və Mirjakip Dilatovun baralyefi açıldı, onun şərəfinə 2010-cu ildə poçt markası hazırlanıb. "Kazaxtelefilm" studiyasında rejissor Xalil Omarov (Kalila Umarov) 1993-cü ildə "Mirjakıpın oralyı"(Mirjakıpın qayıtması) 1994-cü ildə "Alaş turalı söz" adlı sənədli filimlərini çəkib.

Əlixan Bökeyxanov haqqında hazırlanmış verliş TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il aprelin 5-də, saat 12.14-də efirə getmişdir

İŞĞALÇILARA QARŞI MÜBARİZƏNİ VƏTƏNDƏ BAŞLAYIB, MÜHACİRƏTDƏ DAVAM ETDİRMİŞ MUSTAFA ÇOKAY (ŞOKAY)



Mustafa Çokoy (Şokay), موصطافا چوکوی, qaz. Мұстафа Шоқай ұлы, rus. Мустафа Шокай оглы (Чокаев) (1890-1941). https://ali-shamil.tr.gg/6-.--Mustafa-%C7okay.htm

Mustafa Çokayın soyadı Çokay oğlu, Çokay ulu, Çokayev, Şoqay ulu, Şokay oğlu, Şokay ulu, Şokayev kimi də yazılır. Bunun bir səbəbi türk dillərində [ç] səsinin [ş] səsi ilə əvəzlənməsidir. Qazax-qırğız dillərində aktiv olan bu səsdəyişimi Azərbaycan türkcəsində passivləşmişdir. "Qapını aç", "qapını açdım" və s. yazsaq da, danışıqda [qapıyı aş], [qapıyı aşdım] kimi işlədirik. Oğuz qrupuna daxil olan türklər "oğlu" deyir və yazırlarsa, qıbçaq dil qrupunda bu "ulu" kimi işlədilir.

Əslində Çokay Mustafanın atasının adıdır. Rusiya qaydalarına görə ona "ov" şəkilçisi artırmaqla soyadı yaratmışlar. Mustafanın atası Çokayın şəcərəsi Xivə xanlarına, anası Baxtı xanımın şəcərəsi isə Çingiz xanın nəvəsi Batı xana dayanır.

Mustafa Çokayın doğum tarixi haqqındakı rəqəmlər də fərqlidir. Belə ki, onun doğum tarixini gah 1890-cı il dekabrın 25-i, gah da 1891-ci il yanvarın 7-i kimi yazırlar. Bu yanlışlıq Rusiyanın 1918-ci ildə köhnə təqvimdən yeni təqvimə keçməsindən doğmuşdur. Mustafa köhnə təqvimlə 1890-cı ilin dekabrın 25-də anadan olmuşdur. Yeni təqvimlə bu 1891-ci ilin yanvarın 7-nə uyğun gəlir. Nədənsə, onun yanvarın 7-də doğulduğunu yazanlar da ili yanlış olaraq 1890-cı il kimi göstərirlər.

Mustafa Sırdərya kənarındakı Qırğız çölləri adlanan bölgədə, yəni Akmescit (indiki Qızıl Orda) yaxınlığındakı Taranqul aulunda doğulub. Onun nəsli ata tərəfdən Orta Juzun Toraqay tayfa ittifaqının Şaştı tirəsindəndir. Şaştı tirəsi də bir neçə nəsildən ibarətdir. Mustafagilin nəsli böyük Boşay adlanır. Mustafa da Boşay nəslindən gələn qoldakı Janaylara bağlıdır. Mustafa uşaqlıq və yeniyetməliyini Akmescitdə keçirmiş, ilk təhsilini də burada almışdır. Buna görə də çox vaxt onun Akmescitdə doğulduğunu yazırlar.

Rusiya Türküstanın böyük qismini işğal etdiyindən orada Türküstan quberniyası yaratmışdır.

Mustafa Çokay da işğal altında olan bölgədə doğulduğundan Rusiya vətandaşı sayılırdı.

Mustafa istər ata, istərsə də ana tərəfdən xan nəslindən olsa da, onların ailəsi o qədər də zəngin olmamışdı. Soykökü Xarəzmşahlara bağlı olan bu böyük insan gənc yaşlarından zülmə və haqsızlığa qarşı mübarizəyə atılmış, keçməkeşli bir ömür sürmüşdür.

Heyvandarlıq və əkinçiliklə gün keçirən, lakin nüfuzlu bir qazax ailəsində dünyaya göz açmış Mustafanın atası Çokay birinci qadından övladı olmadığına görə ikinci dəfə evlənir. İkinci qadından onun iki qızı və Sadıq, Nurtaza, Mustafa adlı oğul uşaqları olur. Ailənin sonbeşiyi olan Mustafa ilə Sadıq arasındakı yaş fərqi 15 ilə çatır. Uşaqların təlim-tərbiyəsi ilə birinci qadını məşğul olduğundan Mustafa onu həmişə böyük məhəbbət və ehtiramla xatırlayıb.

Aulda uşaqlara dərs deyən müəllimin də çoxlu sayda əlyazma kitabı olur. Mustafa da kiçik yaşlarında auldakı müəllim-molla yanında təhsil alır, Qurani-Kərimi bəlağətlə oxumağı, şəriəti, eləcə də ərəb, fars dillərini öyrənir.

Dövlət idarələrində rus dili hakim olduğundan, dövlət məmurları da Rusiya quberniyasından köçürülərək Türküstanda, qazax-qırğız çöllərində yerləşdirilən rusların tərəfini saxladığından yerli xalqlar həmişə əziyyət çəkirdi. İşi dövlət idarələrinə,

məhkəmələrə düşənlər haqlı ikən haqsız duruma düşmələrinin səbəbini dil bilməməkdə, fikirlərini məhkəmələrdə, hökumət məmurları yanında doğru ifadə edə bilməməkdə görmüşlər. Buna görə də Çokay kiçik oğlu Mustafanı rus-tuzem məktəbində oxutmağı qərara alır. Öncə onu Daşkəndə aparmaq istəyir. Ora auldan min kilometrdən çox uzaqda yerləşdiyindən oğlunu daha yaxındakı məktəbə – Akmescitə aparır. Atası yeddi yaşlı Mustafanı Akmescitə aparanda ailə üzvləri onun böyüdükdə ailəsindən, elindən-obasından uzaq düşəcəyindən, xristian dininə etiqad edəcəyindən, öz dilini unudub rusca danışacağından, adət-ənəni unudacağından çox nigaran qalıblar.

Atası bütün bu narahatlıqları göz önünə alaraq oğlunu Akmescitdəki milliyyətcə tatar olan, tacir dostunun evinə aparır. Mustafaya da tapşırır ki, məktəbdə deyilənləri öyrənsin, amma adət-ənənədə tatar tacir dediyi kimi hərəkət etsin. Məktəbdə yaxşı oxuyan, musiqi yaddaşına görə yaşıdlarından seçilən Mustafa Çokay son sinfə keçib yay tətilinə aula – evlərinə gələndə qara çiçək xəstəliyinə tutulur, ölümdən zorla qurtulur. Buna görə də Akmescitdəki məktəbə deyil, aullarına nisbətən yaxın olan Sarışıqanaq stansiyasındakı məktəbdə oxumalı olur. Buna görə də yaşıdlarından gec, yəni 12 yaşında ibtidai məktəbi bitirir.

1902-ci ildə imtahan verərək Daşkənddəki bir saylı oğlan gimnaziyasına qəbul olunan Mustafa

Şokayevin (Çokayev) təhsil illəri olduqca xoş və yaddaqalan keçir. Dərs əlaçısı olmaqla yanaşı, nümunəvi davranışı, dombrada qazax xalq mahnılarını məharətlə ifa etməsi ilə yaşıdlarının və müəllimlərinin sevimlisinə çevrilir. Yerli xalqların ərizə və şikayətlərini rus dilinə çevirib, hökumət idarələrinə çatdırdığına görə onu rəhbər işçilər yaxından tanıyırlar. Hətta bölgənin qubernatoru general Samsonov da tərcüməçi kimi ondan istifadə edir. Generalın onu yaxşı tanımasına baxmayaraq, gimnaziyanı bitirdikdə böyük bir qalmaqalla rastlaşır. Mustafa Şokayevə (Çokayev) tərifnamə və qızıl medala təqdim edilməsi general Samsonovu razı salmır. O, qızıl medalın milliyyətçə rus olan Zepremetova, gümüş medalın isə yerli xalqlardan olan Mustafa Şokayevə (Çokayev) verilməsini tələb edir. Generalın bu tələbi nəinki bölgənin yerli xalqlarından olan ziyalılarının, hətta məktəbdə dərs deyən rusların da narazılığına səbəb olur. Vəziyyət o qədər gərginləşir ki, Zepremetov Mustafa Şokayevin (Çokayev) ondan yaxşı oxuduğunu, buna görə də onun qızıl medala, özünün isə gümüş medala layiq olduğunu bildirir.

General Samsonov Mustafa Şokayevdən (Çokayev) təhsilini harada davam etdirəcəyi ilə maraqlanır. Onun Peterburq Universitetinin hüquq fakültəsində oxumaq istədiyini eşitdikdə deyir ki, Türküstan quberniyasından hüquq təhsili alanlardan

yalnız ruslara təqaüd verilir. Ona görə yaxşı olar ki, sən tibb fakültəsində oxuyasan. Mustafa Şokayev (Çokayev) bu təklifi qəbul etmir. Gələcəkdə xalqının hüquqlarını qorumaq arzusuyla hüquq fakültəsinə qəbul olunur. Tatar iş adamları isə qazax gəncini təqaüdlə təmin edirlər.

1910-cu ildə Peterburq Universitetinin Hüquq fakültəsinə qəbul olunan Mustafa Şokayev(Çokayev) 1912-ci ildə vətənə dönməli olur. Atası öldüyündən onu tayfa rəhbəri seçmək istəyirlər. Bu illər Rusiya tarixinə Stolipinin islahatları illəri kimi daxil olub. Rusiyanın daxili işlər naziri olduğu zaman müxalifətlə sərt davranan Stolipin Baş Nazir təyin olunduqda bir sıra islahatlar həyata keçirməyə çalışdı. Onlardan biri də Rusiyanın Avropa hissəsində yaşayan, torpaqları olmayan və ya aztorpaqlı rus kəndlilərinin kütləvi surətdə Qazaxıstana və Sibirə köçürməsi oldu. Ata-baba torpaqlarının gəlmələrə verilməsindən, onların hökumət məmurları tərəfindən müdafiə olunmasından qazaxlar, qırğızlar, başqırdlar və Sibirin yerlı xalqları narazı qalsalar da ciddi müqavimət də göstərə bilmirdilər. Pərakəndə göstərilən müqavimət də sərt yatırılırdı. Mustafa Şokayevin (Çokayev) həmyerliləri düşünürdülər ki, doğru-dürüst olan, rus dilini və Rusiyanın qanunlarını yaxşı bilən, neçə deyərlər hökumət məmurlarının da hörmətlə yanaşdığı Mustafa Şokayev(Çokayev) nəinki tayfanı yaxşı idarə edər, həm də bölgəyə

köçürülmüş ruslara verilən ata-baba torpaqlarını geri almaqda onlara kömək göstərər.



Mustafa Çokayev vətənə dönsə də, buradakı durumu dəyərləndirdikdən sonra geri qayıtmağı qərara alır. O, yalnız öz tayfasının deyil, bütövlükdə Türküstanda və qazax-qırğız çöllərində yaşayan soydaşlarının mənafeyini qorumaq, onların hüquqlarının tapdalanmasının qarşısını almaq istəyirdi.

Mustafa Çokayevın Peterburqda oxuduğ illər Rusiyanın və Avropanın bir sıra irticaçı dövlətlərinin Balkan xalqlarını Osmanlıya qarşı üsyana təhrik etdiyi vaxta təsadüf edir. Belə ağır bir zamanda Mustafa Çokayev dostlariyla Osmanlı dövlətinə yardım dərnəyi qurur. Onlar müxtəlif tədbirlər həyata keçirirərək Rusiya vətəndaşı olan türklərdən və müsəlmanlardan pul toplayıb, Osmanlı dövlətinin Rusiyadakı Büyük elçisi Turhan Paşaya verirlər.

Təhsil illərində müəllim və tələbələr arasında özünə nüfuz qazanmış gənc Mustafa Çokayevi paytaxtla əlaqəsi olan, orada yaşayan və işləyən türküstanlı, qafqazlı, kırımlı, tatarıstanlı müsəlmanların nümayəndələrinin əksəriyyəti də tanıyırdı. 1914-cü ildə onu keçmiş Duma üzvü, Katet Partiyasının

fəallarından olan Əlixan Bökeyxanovun zəmanəti ilə Dördüncü Dövlət Dumasının müsəlman fraksiyasının katibi seçirlər. İşinə olduqca məsuliyyətlə yanaşan gənc hüquqşünas az zamanda müsəlman deputatlar arasında deyil, dumanın əksər üzvləri arasında bacarıqlı və savadlı bir işçi kimi tanınır. Burada Azərbaycandan Əlimərdan bəy Topçubaşovla, Xəlil Xasməmmədovla, Qüzey Qafqazdan Ahmed Salikovla, Kırımdan İsmayıl Lemanovla və b. tanış olur. Gələcək Başqırdıstan Muxtar Respublikasının rəhbəri Əhməd Zəki Vəlidovla da burada tanış olur və dostlaşır. Onların milli məsələyə münasibətdəki baxışlarında da bir oxşarlıq vardı. Düşünürdülər ki, Rusiya güclü və böyük dövlətdir. Rusiyanın işğal altında saxladığı xalqların isə müstəqil hökumət qura biləcək kadrları və dövləti qoruyacaq ordusu yoxdur. Buna görə də Rusiyasız yaşaya bilməzlər. Odur ki, başqırdlar, qazaxlar, tatarlar və b. xalqlar da Rusiyanın tərkibində muxtariyyət əldə etməli, xalqlarının hüquqlarını qorumalıdırlar. Muxtariyyat uğrunda mübarizə aparanların fikirləri Rusiyanın federasiya kimi idarə olunmasını arzulayan Kadetlər Partiyasının proqramına çox yaxın idi.

Birinci Dünya Savaşının ağır günlərində, Rusiyanın savaşda uduzmağa doğru getdiyini görən çar İkinci Nikolay 1916-cı il iyunun 25-də qeyri-xristian xalqlarının 18-45 yaşlı kişilərinin səfərbərliyə alınaraq səngər qazılmasında, hərbi sursat

daşınmasında və s. işlərdə çalışdırılması haqqında fərman imzalayır. Türküstanda məhsul yığımının qızğın vaxtına və Ramazan ayına düşdüyündən oruc tutmuş müsəlmanlar elliklə çarın fərmanına qarşı çıxırlar. Amangəldi İmanovun rəhbərlik etdiyi üsyanı yatırmaq üçün bölgəyə general İvanov-Runovun komandanlıq etdiyi ordu yeridilir. Üsyanın mərkəzi olan Cizaq (Jizak) şəhərini yerlə yeskan edir, qadınlara, uşaqlara, qocalara da rəhm etmədən öldürür. Şəhər və kəndlər dağıdılsa da, minlərlə insan öldürülsə və həbs edilsə də üsyan dalğası sönmək bilmirdi.

Vəziyyəti aydınlaşdırmaq və bölgədə stabillik yaratmaq üçün Dövlət Duması komissiya yaradır. Senatın üzvü Kutluq Muhammed Tevkelev və Dumada qətiyyətli çıxışları ilə diqqəti cəlb etmiş, deputat A.F.Kereniskinin rəhbərlik etdiyi komissiyaya Mustafa Çokayev də tərcüməçi kimi daxil edilir. Aleksandr Fyodroviç Kerenskini Mustafa Çokayevdən on il əvvəl Daşkənddəki gimnaziyanı bitirmiş və ondan on il əvvəl də Peterburq Universitetinin Hüquq fakültəsinə daxil olmuşdu. Fərqli illərdə eyni gimnaziya və universitetdə təhsil almış gələcəyin iki siyasi xadimi 1916-cı ilin avqustunda bir komissiyanın tərkibində Daşkəndə gəlir. Aleksandr Kreniski bu səfər zamanı Mustafa Çokayevlə yaxından tanış olur və onun işgüzarlığını, baş verən hadisələrə tərəfsiz yanaşmasını yüksək

qiymətləndirir. Aleksandr Kreniskinin Dördüncü Dövlət Dumasındakı məruzəsi Rusiyada böyük əks-səda doğurur və onun çar hökumətinin Türküstanda yeritdiyi siyasətini kəskin tənqid etməsi demokratik fikirli insanlar tərəfindən yüksək qarşılanır. Bununla da İkinci Nikolay taxtdan əl çəkməyə məcbur edilən-də yaradılan Müfəqqəti Hökumətə onun rəhbər seçilməsinə şərait yaranır.

Mustafa Çokayev də müsəlman fraksiyası adından geniş məruzə hazırlayır. Lakin İkinci Nikolay Dördüncü Dövlət Dumasını buraxdığından həmin məruzə Dumada oxunmur.

Bir çox qaynaqlar Mustafa Çokayevin 1910-cu ildə universitetin Hüquq fakültəsinə daxil olduğunu əsas gətirərək 1914-cü ildə ali məktəbi bitirdiyini yazır. Lakin Mariya Qorina-Çokayın xatirələrində göstərir ki, Mustafa Çokayev 1912-ci ildə vətənə döndüyündən və ictimai işlərə qoşulduğundan universiteti 1914-cü ildə deyil, 1917-ci ildə bitirir.

Aleksandr Kreniskinin rəhbərlik etdiyi Müvəq-qəti Hökumət zamanında quberniyaların özünüidarə hüquqları artır. Bölgələrə yeni, demokratik düşüncəli qubernatorlar təyin edilir. 1917-ci il aprelin 7(20)-də Müvəqqəti Hökumətin Türküstan Komitəsi təşkil edilir və hakimiyyət bu komitədə olur. Ölkəninin demokratik yolla idarə edilməsi üçün yeni qanun-verici orqan-Müəssislər Məclisi yaradılması planlaş-dırılır. (Lakin Müəssislər Məclisinə seçkilər 1917-ci

ilin sonlarında başa çatsa da, bolşeviklər hərbi çevrilişlə hakimiyyəti ələ aldıqlarından təşkilat fəaliyyət göstərə bilmir, zor gücünə qapadılır – ***Ə.Ş***.).

Rusiyada yaşayan türklərin və digər müsəlmanların öndərləri xalqlarına xoşbəxt gələcək arzulasalar da, bu yöndə apardıqları mübarizədə fikir birliyinə gələ bilmirdilər. Böyük çoxluq Rusiyanın tərkibində qalmağın tərəfdarı olsa da, onlar arasında da fikir ayrılığı vardı. Bir qismi demokratikləşmiş unitar Rusiyanın tərəfdarı idisə, böyük qismi Rusiyanın Fedarasiya şəklində idarə olunmasını istəyirdi. 1917-ci il mayın 1-11-də qızğın müzakirələrlə davam edən I Ümum-rusiya Müsəlmanlar Qurultayında federasiya tərəfdarları çoxluq təşkil edərək istədikləri qərarın qəbuluna nail ola biliblər. "Demokratikləşmiş Rusiya" tərəfdarlarından olan Mustafa Çokayev Orenburqda keçirilən I Qırğız (qazax) Qurultayında (21-28 iyun 1917-ci il) Sırdəryadan seçilmiş nümayəndə kimi iştirak edir. Sonra yeniyetməlikdə yaşadığı və təhsil aldığı Akmescitə gəlir. Akmescitdə onun çıxışları etirazla qarşılanır. Mustafa Çokayev görür ki, xalqının azadlığı uğrunda mübarizəyə qoşulanlar arasında kəskin fikir ayrılığı var.

Odur ki, Türküstanın mərkəzi sayılan Daşkəndə gəlməyi qərara alır. Yolboyu kənd və qəsəbələrdə görüşdüyü insanların onlara qarşı edilən haqsızlıqdan şikayətçi olduğunu görür.

1917-ci ilin aprelində Daşkəndə gələn Mustafa Çokayev burada yüksək qarşılanır. Vali və yüksək vəzifəli hökumət məmurları ilə görüşür. O, xalqını cəhalət yuxusundan oyatmaq üçün jurnalistika ilə ardıcıl məşğul olmağa başlayır. Daşkənddə keçirilən Türküstan İctimai Təşkilatlarının Qurultayında bölgənin demokratik üsullarla idarə edilməsi müzakirə edilir. Qurultay Milli Soveti seçir. Sovetə rəhbərlik isə 27 yaşlı Mustafa Çokayevə həvalə olunur.

Daşkənddəki "Uluğ Türküstan" qəzetinin ən fəal müxbirlərindən birinə çevrilir. Sonra özü Daşkənddə "Birlik tuı"(Birlik bayrağı) qəzetini nəşr etməyə başlayır. Qəzetində ilk dəfə türk xalqlarının müstəqilliyi ideyası irəli sürülür. Rus dilində nəşr etdirdiyi "Svobodnıy Turkestana" (Azad Türküstan) qəzetində isə demokratiya təbliğ olunurdu. Qəzet və jurnallar ona yalnız fikrlərini yaymaq üçün deyil, həm də özünə məsləkdaşlar tapmaq, onları bir araya gətirmək üçün əvəzsiz vasitə idi.

İctimai-siyasi təşkilatların toplantılarında fəal iştirak edən, fikirlərini mətbuat vasitəsilə yayan və yeni yaranan təşkilatların formalaşmasında böyük rolu olan Mustafa Çokayevi Ümumrusiya Müəssislər Məclisinə və Ümumrusiya Müsəlmanlarının Şurai-İslam Qurultayına da nümayəndə seçirlər.

1917-ci il aprelin 17-də Daşkənddə 440 nümayəndənin iştirak etdiyi Türküstan Müsəlmanları

Qurultayında “Rusiyanın gələcəkdəki idarəetmə sistemi və burada Türküstanın vəziyyəti”, eləcə “Bölgəyə köçürülmüş ruslara verilmiş torpaqlar” məsələsi müzakirə edilmişdir.



Şəkildə: Mustafa Çokayev Gürcüstan Demokratik Respublikasında mühacirətdə olarkən xanımı Mariya min bir müsibətlə onun arxasından gəlib Tiflisə çatdıqdan sonra çəkdirdikləri şəkil.

Konfransda Ubeydulla Xoca türküstanlıları bir mərkəzdə birləşdirmək məqsədilə Milli Mərkəz yaradılmasını təklif etmişdir. Numayəndələr bu təklifi qəbul edərək Mustafa Çokanovun rəhbərliyi ilə Türküstan Müsəlman Mərkəzi Şurasını qurmağı qərara almışlar.

Lakin mühafizəkarlar Şurada lazımınca təmsil edilmədiklərini bəhanə gətirərək iyun ayında Şir Ali (Şirəli) Lapinin rəhbərliyində Ülamə Cəmiyyətini yaratmışlar. Bu cəmiyyətin üzvləri dindar olsalar da, öz soydaşlarından olan cədidçilərlə əlbir işləməkdənsə, rus mühafizakarlarla əməkdaşlıq etməyi üstün tuturlar.

Müvəqqəti Hökumətin zəifliyi və demokratik islahatlar keçirə bilməməsi Türküstan Müsəlmanlarının ikinci konfransının keçirilməsinə səbəb olmuşdur. Konfransda Rusiya təsirindən kənar bir çıxış yolu axtarılması gündəmə gətirilmişdir. Milli qüvvələr Türküstanda Rusiya qanunlarının işləməməsini, milli dəyərlər əsasında qanunlar hazırlanmasını istəyirdilər. Müvəqqəti Hökumətin Türküstandakı Mərkəzi idarə orqanında milli kadrlara ayrılan yerin 35-ə çatdırılması və onların səlahiyyətlərinin artırılmasını tələb etmək məqsədilə Mustafa Çokayev, Narbutabek, Polatcan və Şah İsmayıldan ibarət bir heyət Petroqrada-Mərkzə yola salınır. Nümayəndə heyəti ilə müzakirələrdə Aleksandr Kreniski "Türküstanda Rusiyaya qarşı bir üsyan baş qaldıracağına

inanmıram. Baş qaldırsa belə sərt tədbirlərlə qarşısı alınacaqdır" – deyir.

Müvəqqəti Hökumətin başçısı Aleksandr Kreniski 1917-ci il avqustun 31-də Türküstan Milli Şurasının zəmanəti ilə Mustafa Çokayevi, I və İkinci Dövlət Dumasının üzvü olmuş Əlixan Bökeyxanovu və Muhammedjan Tınışpayevi Turküstan Komitəsinə üzv təyin edir. Türküstanda milli qüvvələr arasında fikir birliyi olmadığından onlar bu komitəni milli demokratik bir orqana çevirə bilmirlər. Ölkə qarmaşa içərisində olduğundan siyasi partiyalar, hətta siyasətdən uzaq, müxtəlif mənafe birliklərinə görə formalaşmış qruplaşmalar da hakimiyyəti ələ almaq uğrunda qızğın mübarizəyə girişirlər.

Hökumət idarələrində işləyən rusların böyük bir qismi bu qarışıqlıqdan şəxsi mənafeləri üçün istifadə edir. Akmesçit və çevrəsindən çoxlu şikayət gəlir. Şikayətləri doğuran səbəbləri araşdırmaq və aradan qaldırılması yollarını öyrənmək üçün bölgəyə 50 nəfərli bir yoxlama qrupu göndərilir. Mustafa Çokayev də bu qrupun tərkibində olur. Qrup üzvlərinin hazırladıqları arayışa əsasən xalqa zülm edən məmurlardan Aqapov, Selokov, Tunkuncov və Yerdyev izahat verməyə cağırılır. Onlar arayışda yazılanların doğru olduğunu, lakin gördükləri işi "inqilab naminə" etdiklərini söyləyirlər.

1917-ci ilin avqustunda Ali Baş Komandan təyin edilən Lavra Kornilov Müvəqqəti Hökumətdən

hərcmərcliyə son qoymaq üçün sərt tərbirlər həyata keçirməsini tələb edir. Bu tələbinin demokratiyaya zidd olduğunu düşünən Aleksandr Kreniski hökuməti qüvvələr balansı yaratmaq üçün Fəhlə və Əsgər Deputatları Sovetlərinin silahlanmasına şərait yaradır. Bu da qarşıdurmaları, toqquşmaları daha da artırır.

1917-ci il noyabrın 1(14)-də Daşkənddə əsgəri birliklərin və dəmiryolçuların gücü ilə Müvəqqəti Hökumətin binasına basqın edilərək Fəhlə və Əsgər Sovetlərinin hakimiyyəti ələ aldıqlarını elan edirlər. Bu hadisə şəhərdə müsəlmanlara qarşı kütləvi qırğın, zorakılıq və talanla davam edir. Daşnaksütun Partiyası adı altında birləşmiş erməni silahlı dəstələrinin əlilə birlikdə minlərlə dinc müsəlman sakini öldürülür, malını-mülkünü qarət edilir. Onlar yeni-yeni formalaşmağa başlayan demokratik görüntülü hökumətin fəaliyyətini dayandırır və hökumət üzvlərinə qarşı sərt tədbirlər görməyə başlayır.

Şir Ali (Şirəli) Lapinin rəhbərliyi ilə Ülamə Cəmiyyəti Daşkənd 525 nümayəndənin iştirakı ilə bir konfrans təşkil edir. Şir Ali (Şirəli) Lapinin Fəhlə və Əsgər Sovetlərinin rəhbərlərinə təklif edir ki, qırğın dayandırılsın, müsəlman və rusların bərabər səviyyədə iştirak etdiyi bir komissiya yaradılsın. Dəmiryol işçisi olan, Sovetin rəhbəri Fyodur Kolesnikov bu təklifə "yerli xalq arasında proletariyat olmadığına görə onlar proletar dövlətinin idarə edilməsində iştirak edə bilməzlər" – cavabını verir.

Mustafa Çokayev və Sovetlərə müxalif olanlar Fərqanə vadisindəki Kokand şəhərinə çəkilməli olurlar. Uzun illər Kokand xanlığının mərkəzi olmuş bu şəhərin əhalisi antirusiya əhval-ruhiyyəliliyi ilə seçilirdi. Türküstanlı mühafizəkarlar ruslarla birgə işləməyin mümkünsüzlüyünü gördükdən sonra cədid-çilərlə əməkdaşlıq etməli olurlar. Hər iki qrupun nümayəndələri 1917-ci iln noyabrında Kokandda bir toplantı keçirmək qərarına gəlirlər.

1917-ci il dekabrın 9-da Kokanddakı Xan Sarayında 180 nəfər nümayəndənin iştirakı ilə Türküstan Müsəlmanlarının Fövqəladə Dördüncü Qurultayı keçirilir. Gündəliyə dörd məsələ çıxarılır:

1.Türküstanın hökumət qurluşu:

2.Türküstanın Güney-Doğu Fedarasiyonuna girməsi məsələsi,

3.İcraiyyə Komitəsinin yaradılması,

4.Türküstanda bir Konstitusiya Məclisinin qurulması.

Dekabrın 10-da Mustafa Çokayev Rusiyanın tərkibində Kokandda Türküstan Məhəlli Muxtar Hökumətin qurulduğunu elan edir. Şir Ali (Şirəli) Lapin hökumətin başçısı seçilir. Dekabrın 11-də isə 10 nəfərlik bir İcraiyyə Komitəsi yaradılır.

1917-ci il dekabrın 5-13-də Orenburqda keçirilən IBirinci Ümumqırğız Qurultayında Türküstan Məhəlli Muxtariyyatının Baş naziri kimi Mustafa Çokayev də iştirak edir. 1917-ci il dekabrın 26-da isə Əlixan

Bökeyxanovun rəhbərlik etdiyi Alaş Orda Hökuməti qurulur. Yeni hökumət özünü Rusiya Federasiyasının muxtar bir subyekti elan edir. Qazaxların qurduğu bu hökumətin 25 üzvündən 10-u ruslar və yerli olmayan xalqlardan idi. Qəribədir ki, Muhammedjan Tınış-bayev Kokand Hökumətinin Baş naziri və Alaş Orda Hökumətinin daxili işlər naziri, Mustafa Çokayev hər iki hökumətdə xarici işlər naziri işləmələrinə baxmayaraq bu hökumətləri birləşdirmək üçün göstərilən səylər bir nəticə vermir.

Kokand Hökumətinin maliyyə naziri Şah İsmayıl 1918-ci il yanvarın 15-də iqtisadi vəziyyəti düzəltmək üçün xalqdan 30 milyon som kredit toplanması təklifini irəli sürür. Xalq Şurası bu təklifə səs vermir. M.Tanışpayev Şuranın tərkibindəki fikir ayrılığına son qoya bilmədiyi üçün istefa verir. Yerinə Ubeydulla Hocanı təklif etsələr də, o bu təklifi qəbul etmir. Beləcə Mustafa Çokayev Baş nazir, Ubeydulla Hoca isə ona müavin təyin edilir.


Mustafa Çokayev platformasını şərh edərkən deyir ki, bizim müstəqil dövlət qurmamız çətindir. Buna bizim nə kadrımız var, nə də təcrübəmiz. Yaradacağımız dövləti qoruyacaq ordumuz da yoxdur. Rusiya nə qədər zəifləsə də, bizdən qat-qat güclüdür. Buna görə də Rusiya ilə sülh və dostluq şəra-itində yaşamağa çalışmalıyıq. Mən bolşeviklərin yeritdiyi siyasətlə razılaşa bilmirəm, lakin onların necə bir dağıdıcı gücə malik olduğunu görürəm.

Kokand hökuməti 1918-ci il martın 20-də seçki keçirərək yeni parlament formalaşdıracağını elan edir. Bu parlamentin üçdə ikisini yerli xalqlar, üçdə birini isə rus və yerli olmayan xalqlardan seçilən nümayəndələr formalaşdıracaqdı. Bunu Türküstanda demokratiyanın ilk addımı saymaq olardı.

Daşkənddə silah gücünə hakimiyyəti ələ almış, özlərini Fəhlə və Əsgər Sovetləri adlandıran qüvvələr yanvarın 31-də Konfrans keçirərək Kokand Muxtariyyatını "qiyamcı burjua dövləti" kimi qiymətləndirib, ona qənim kəsildiklərini elan etdilər. Onların yaratdığı Türküstan Hökumətinin 14 üzvü arasında bir nəfər də olsun yerli xalqların nümayəndəsi yox idi.

Mustafa Çokayev 1918-ci ilin yanvarında bəyanat verir ki, qeyri demokratik addımlar atan, yerli xalqların hüququnu tapdalayan Sovetləri tanımayacaq. Bundan qəzəblənən Moskva Daşkəndə 11 qatar top, pluemyot və avtomat silahlarla silahlanmış ordu birləşməsi göndərir. Daşkənddəki qarnizon və erməni daşnakları da bolşevik hərbi hissələri ilə birlikdə şəhərin müsəlmanlar yaşayan hissəsinə hücuma keçir. O zaman Daşkəndin müsəlmanlar yaşayan hissəsində, köhnə Daşkənd adlanan yerdə yarım milyona yaxın müsəlman, xristianlar yaşayan, yeni Daşkənd adlanan hissədə isə 75 min insan vardı. O dövrdə Türküstanda, xüsusilə, Daşkənddə avstriyalılar, macarlar, çexlərdən ibarət xeyli hərbi

əsir vardı. Almanlar çox az idi. Avstriyalıların bəzi imtiyazları vardı, onlar aşbaz, xarrat işləyir, həmçinin musiqi və dil dərsləri verirdilər. Çexlər də bu işlərlə məşğul olurdular. Deyilənə görə macarlar, qismən də türklər özbək ordusunda xidmət etməyə hazırlaşırdılar. Bolşeviklərin əsgəri birlikləri və erməni daşnakları fevralın 6-da Kokanda hücuma keçir. Üç gün içərisində şəhəri dağıdır və talayırlar. Oradan sağ qurtulanlar Fərqanə vadisinin kəndlərinə və dağlarına qaçırlar.



1918-ci il fevralın 18-də Kokand Muxtariyyatında silahlı müqavimət başa çatır. Yeni ordu yaratmağa imkan tapmamış, könüllülərdən təşkil edilmiş dəstələri zəif silahlandırmış Muxtariyyat Kokandın müdafiəsini təşkil edə bilmir. Dinc əhalini qəddarlıqla qırmaq və mal-mülklərini talamaqla qürrələnən sovet rəhbərləri anlamadılar ki, bu addımları ilə so-vetlərə qarşı 15 ilə yaxın davam etmiş Basmaçı hərəkatının əsasını qoymuş oldular.

Sovetlərin yaratdığı proletar diktaturası qırmızı terrora başlayır. Milli qüvvələri yerindəcə güllələyən, həbs edən və ağır işgəncə verən bolşeviklərin əlindən Mustafa Çokayev sağ qurtularaq Fərqanə vadisinə qaça bilir. Bolşeviklər onun başını gətirənə 1000 manat verəcəklərini vəd etməsinə baxmayaraq, Mustafa Çokayev Fərqanə vadisini xeyli dolaşdıqdan sonra yaxın silahdaşlarının köməyi ilə Daşkəndə gəlir. Vaxtilə Türküstan qiyamını araşdıran komissiyanın tərkibində gələrkən tanış olduğu aktrisa Mariya Qorinanın evində gizlənir və apreldə isə onunla evlənir. Onun Daşkənddə qalması öz həyatı və onu qoruyanlar üçün təhlükə yaratdığından oranı tərk etməyi planlayır. Lakin şəhərdən çıxmaq o qədər də asan olmur. Həmin günlərdə tərk edilmiş, işsiz qalmış, zor günlərini yaşayan Mariya Qorinaya da Moskva Opera və Balet Teatrından işə də təklif gəlir.

Mariya Qorninanın təkidi və qurduğu plan əsasında və düzəltdiyi saxta sənədlərlə Mustafa

Çokayevi yaralı hərbçi kimi üz-gözünü sarıyıb Moskvaya gedən qatara mindirirlər. Qatarla 1918-ci ildə mayın 1-də Daşkənddən hərəkət edir. Pulsuz-parasız, geyimsiz və ərzaqsız yola düşən gənc ailəyə Akmolla stansiyasında Mustafanın dostları yardım edir.

Volqadakı hərbi döyüşlərə görə Aktübinskdən sonra onlar yollarına davam edə bilmirlər. 10 gün orada qaldıqdan sonra Temir qəsəbəsinə gedirlər. Orada da həbs olunurlar. Qısamüddətli həbsdən qurtardıqdan sonra Mustafa Uralskə getməyi qərara alır. Çöllərdə, aullarda dolandıqdan sonra yayda qazaxların yun və dəri satmaq üçün Qızılkurtda təşkil etdikləri yarmarkaya gəlirlər. Orada Alaş Ordanın nümayəndələri Xəlilin və Caniş Dosməhəmmədin aulunu tapır və yenidən siyasi mübarizələrə qoşulur.

Birinci Dünya Savaşında Avstriya-Macarıstan ordusunun tərkibində döyüşərək Rusiyaya əsir düşmüş Çexoslavakiya Korpusunun (bu korpusda 45 min nəfər silahlı hərbçi vardı – ***Ə.Ş***.) vətənə dönməsini bolşeviklər müxtəlif bəhanələrlə əngəl-ləyirlər. Onlar da üsyan qaldırıb, Penza yaxınlığından Vladivastoka qədər dəmiryol stansiyalarını tuturlar. Samara şəhəri də onların əlinə keçir. Eserlərin böyük bir qismi də onları müdafiə edir və bu üsyandan yararlanmağa çalışırlar. Bolşeviklərin demokratik seçimdə uduzduqlarını görərək matros Jelezniyakın rəhbərliyi ilə cəbhədəki bir qrup matrosu Müəssislər

Məclisinin toplantısı keçirilən Tavriya sarayına göndərir. Onlar toplantını yanvarın 6-da dağıdırlar. Yanvarın 7-də Müəssislər Məclisinin üzvlərindən Şinqaryov və Kokaş-kin öldürülür.

Vəziyyətin gərginliyi, bolşeviklərin inqilabi dəyərlərə əməl etməyərək diktatura qurmaları eserlərdən V.K.Volsk başda olmaqla, 29 nəfər Müəssislər Məclisinin üzvü 1918-ci il iyulun 8-də qısa adı Komuç olan Ümumrusiya Direktoriyasını təşkil edirlər. Onlar Xalq Ordusu yaradaraq bolşeviklərə qarşı döyüşlərə başlayırlar. Mövqelərini möhkəmlətmək üçün də Alaş Ordaçılardan Əlixan Bökeyxanovu və Mustafa Çokayevi Samaraya dəvət edərək, hərbi-siyasi ittifaq bağlamağı təklif edirlər.

1918-ci il sentyabrın 23-də Ufadakı iclasda tarixə "Ufa direktoriyası" kimi daxil olan Ümumrusiya Müvəqqəti Hökumətini yaradırlar. Mustafa Çokayev də komitəyə büro üzvü seçilsə də, ona nazir vəzifəsi verilmir. Oktyabrın 9-da "Ufa direktoriyası" Omska köçür və antisovet güclərini birləşdirmək məqsədilə əvvəlcə bütün kazak qoşununu, sonra da Alaş Orda Hökumətinin, Başqırd Muxtar Respublikasının eləcə də Sibirin, Uralın antibolşevik qüvvələrinin rəhbərləri ilə danışıqlar aparılır.

Çar ordusunun admiralı Aleksandr Kolçakın yeni yaradılmış Sibir Hökumətinə hərbi və dəniz naziri təyin edilməsi nəinki danışıqları dayandırır, Alaş

Orda Hökuməti ilə münasibətlərin dəyişməsinə səbəb olur.

Müəssislər Məclisi nümayəndələrinin Yekaterinburqda 1918-ci ilin noyabrında keçirdikləri qurultayda qərara alınır ki, ABŞ Prezidenti Vudro Uilsonun yanına nümayəndə heyəti yola salınsın. Bu nümayəndə heyəti Rusiyadakı xalqların durumunu ona çatdıraraq yardım istəsin. ABŞ-a gedəcək nümayəndə heyətinin tərkibinə Mustafa Çokayev, İdil Ural Hökumətinin nümayəndəsi tatar İlyas Akin, Türkmənistan eseri Vadim Çaykın, Yusif Minar və b. daxil edilir. Onlar üçün qatara bilet də alınır. Mustafa Çokayevin xanımı Mariya Qornina-Çokayeva nümayəndə heyətilə birlikdə getməsi planlaşdırılır. 1918-ci ilin noyabrın 19-da Yekaterinburqda Amerikaya getməli olan nümayəndələrin qaldığı hoteldə partlayışı törədilir. Bu partlayışda bir neçə nəfər həlak olur ki, onların biri də Amerikaya getməli olan nümayəndə idi.

Bu, Aleksandr Kolçaka bölgədə əmin-amanlıq yaratmaq adı altında hərbi çevriliş etməyə imkan yaradır. O, hökuməti silah gücünə devirərək Ufa Direktoriyasının rəhbərlərini həbs etdirir və Alaş Orda Hökumətinin, Başqırdıstan Muxtariyyatının ləğv edildiyini bildirir. Mustafa Çokay və onun məsləkdaşları da həbs edilərək Çelyabinskiyə göndərilir. Aleksandr Kolçak bununla güclü bir

hökumət yaratmağa çalışır və özünü Rusiya Dövlətinin Ali Hakimi elan edir.

Ölkədə vəziyyətin hər an dəyişdiyini yaxşı bilən, şəhər və qəsəbələrin tez-tez bu və ya başqa bir silahlı qruplaşmanın əlinə keçdiyinin dəfələrlə şahidi olan Mustafa Çokayev oradan qaça bilir.

Aleksandr Kolçakın diktator davranışları hətta ona tabe olan zabitlər, onun hökumətində olan demokratik fikirli insanlar və eserlər arasında etirazlar doğurur. Yaranmış vəziyyətdən istifadə edən eserlər başqırd və qazax hərbi güclərini polkovnik Maxinin rəhbərliyində olan Orenburq və Ural qazaxlarının demokratik qanadı birləşdirərək antisovet cəbhədə birləşdirməyə təşəbbüs göstərirlər. Bu fikri reallaşdırmaq məqsədilə 1918-ci il 1 dekabrda Orenburqda Karvansaray binasında Başqırd Hökumətinin və Ufa Drektoriyasının təmsilçiləri toplanılar. Rus eserlərinin rəhbəri Viktor Çexov, Ufa Direktoriyasının xarici işlər naziri, eser Mikayıl Vedenyapin Şetqeman, Türküstan eserlərinin rəhbəri, eser Vadim Çaykin, eləcə də Alaş qazax hərəkatından Mustafa Şokay, Başqırd Hökumətindən Ahmet Zeki Validov və b. toplantıda iştirak edir.

Uraldakı kazak qoşunlarının atamanı A.Dutov onların həbsinə göstəriş verir. Mustafa Çokayev oradan da qaça bilir. Yaxın dostu Ahmet Zeki Validov 1919-c il martın 20-də Lenin, Satlin və b. danışığa girərək Sovet Başqırd Respublikasının

yaradılması şərti ilə Sovetlərin tərəfinə keçir. Sonralar Mustafa Çokayev yazır: "Validi xaincəsinə Sovetlərin tərəfinə keçdi, bununla da bizim aksiyalarımıza mənəvi və siyasi zərbə vurdu".

Mustafa Çokayev bir neçə dəfə ölümlə üzləşərək, Uralın bir neçə şəhər və qəsəbəsini dolaşaraq Qüzey Qafqaza gələ bilir. Burada Sovet Rusiyasına qarşı mübarizəni davam etdirir. Oradan Gürcüstana gəlir və Tiflisdə çıxardığı **"Azad dağlılar"** adlı həftəlik qəzetdə Türküstanda baş verənləri oxuculara çatdırmağa çalışır.

Xanımı Mariya da aylarla çətin, təhlükəli və üzücü yollar keçərək ərinin arxasınca gəlir.1920-ci ildə Qüzey Qafqaz Milli Təşkilatının və Türküstan Milli Mərkəzinin nəşr etdiyi **"Yeni dünya"** qəzetinə rəhbərlik edən Mustafa Çokayev burada dəyərli məqalələr yazır. O, Tiflisdə çıxardığı **"Şəfəq"** qəzetində Anadoludakı Kuvay-i Milliyə hərəkatını dəstəkləyən yazılar çap etdirir.

Azərbaycan Xalq Cümhuriyyətini dəstəkləyən və daima ona yardımçı olan Mustafa Çokayev Bol-şeviklər Qafqazı iş-ğal etdikdən sonra Batum-Trabzon dəniz yolu ilə İstanbula gedir.

İstanbulda çıxan "Yeni Türküstan", Berlində yayımlanan "Yaş Türküstan" adlı jurnallarda və Avropa dillərində çıxan mətbuatda Mustafa Çokayev deyil Çokay imzası ilə həmişə Türküstan ve türklük mübarizəsini davam etdirir. Mustafa Çokay 1921-ci

ilin yazında İstanbuldan gəmi ilə Fransanın Marsel limanına gəlir və oradan qatarla Parisə gedir.

Tatar liderlərindən Fuat Toktar Mustafa Çokay və xanımı Mari-yanı qarşılayaraq kasıb bir oteldə yerləşdirir. Bir neçə gün sonra Çokaylar ailəsi iki otaqlı kiçik bir mənzilə köçməli olur. İki həftə sonra maddi sıxıntı çəkdiklərinə görə mənzillərini yeməkxanaya çevirirlər. Burada Rusiyadan gəlmiş qaç-qınlar üçün ucuz qiymətə yemək hazırlayırlar.

Bir zamanlar Türküstan Hökumətinin rəhbəri olmuş Mustafa Çokay Parisdə çörəkpulu qazanmaq üçün kartof, soğan soymaqla, düyü təmizləməklə gün keçirir. Azərbaycanın mühacirətdə olan lideri Məhəmmədəmin Rəsulzadə onunla görüşə gələrkən Çokay üzr istəyərək kartof soya-soya söhbətini davam etdirir. Məhəmmədəmin Rəsulzadə Mustafa Çokayı belə gördüyünə üzülmür. Əksinə, onun əyilməzliyinə, qüruruna, ağıl və mətanətinə heyran qaldığını yazır.

1922-ci ilin ortalarında Mustafa Çokayın xanımı Mariya xəstələnir. Onu Parisdə müalicə etdirməyə pulları çatmadığına görə Almaniyaya aparırlar. Çünkü Almaniyada infilasiyaya görə hər şey Parislə müqayisədə ucuz idi. Belə ki, 100 Fransız frankı ilə aylarla bir pansiyonda qalmaq olurmuş. Çokay-lar ailəsi altı ay Almaniyada qaldıqdan sonra 1923-cü ildə Fransaya dönür.

Mustafa Çokay Parisdə yalnız ideoloji baxışıyla deyil, doğruluğu, dürüstlüyü və dostlarına olan vəfası

ilə də məşhurlaşır. O, Parisdə yaşayan Azərbaycan mühacirləri Əli-mərdan bəy Topçubaşov və Ceyhun bəy Hacıbəyli ilə tez-tez görüşür, birgə mübarizə planları hazırlayır, toplantılar keçirir, fikir mübadiləsi edir.

Həyatının son iyirmi ilini Mustafa Çokay Parisdə keçirir. 1921-1941-ci illərdə Parisdə yaşayıb ictimai-siyasi fəaliyyətini davam etdirməklə yanaşı, tez-tez Berlinə də gedir. Bu da səbəbsiz deyildi. Həm oradakı siyasi mühacirlərlə görüşür, həm də "Yaş Türküstan" jurnalı orada çap etdirirdi. O, 1929-1939-cu illər arasında "Yaş Türküstan" jurnalının 117 sayını çap etdirərək oxuculara çatdıra bilir. Bu jurnalda yalnız Tür-küstanın azadlığı uğrunda gedən mübarizədən söz açılmırdı. Keçmiş Rusiya ərazisində əsarətdə yaşayan xalqların milli mübarizəsi burada öz əksini tapır. Jurnalın səhifələrində Azərbaycan siyasi mühacirlərinin məqalələrinə də rast gəlinir. Jurnalın əsas qayəsi əsarətdə olan xalqları Sovet əsarətindən qurtarmaqla yanaşı, türk xalqlarının birliyinə də nail olmaq idi. Buna görə də araşdırıcılar "Yaş Türküstan" jurnalını Mustafa Çokayın ən böyuk əsəri sayırlar. Çokayın baxışları jurnalda dərc olunan məqalələrdə özünə geniş yer tapır.

Faşist Almaniyası Fransanı az zamanda işğal etdikdə siyasi mühacirlərin çoxu bu ölkəni tərk etməli oldu. Mustafa Çokay isə bu ölkəni özünə ikinci vətən saydığından Parisi tərk etmir. Bu da onun siyasi

fəaliyyətinin zəifləməsinə səbəb olur. Lakin faşist rejimi onun bu hərəkətindən də razı qalmır. 1941-ci ilin iyunun 22-də Almaniya ilə SSRİ ara-sında başlayan müharibədən az sonra Mustafa Çokay evində həbs edilir və Berlinə aparılır. Alman faşistlə-rinin məqsədi Mustafa Çokayın nüfuzundan istifadə edərək əsir alınmış türküstanlılardan, tatar və baş-qırdlardan ordu yaradaraq Sovetlər Birliyinə qarşı döyüşə göndərmək idi. Mustafa Çokay müharibədən sonra Türküstanın azadlıq əldə edə bilməyəcəyini gördüyündən Alman faşistləri ilə işbirliyinə getmir. 1941-ci ilin dekabrın 27-də anidən xəstələnərək dünyasını dəyişir. Onun şübhəli ölümü məsləkdaş-larını üzsə də, xanımı Mariyanın köməyi ilə cəna-zəsini alıb islami adətlərlə, Quran oxutduraraq Berlindəki Müsəlman qəbristanlığında dəfn etdi-rirlər. Hətta ölümünün 40-cı günü Parisdəki ən böyük məs-ciddə ehsan da verirlər.

Mustafa Çokaydan söz açarkən onun xanımı, milliyətcə rus olan Mariyanın xidmətlərini unutmamaq lazımdır. Mus-tafa Çokay mənalı ömrünü rus müstəmləkəçilərinə qarşı mübarizəyə həsr edəndə Mariya xanım həmişə onunla birlikdə olmuşdur. Mariya Mustafa Çokayı müsəlman adətlərilə dəfn et-məklə yanaşı, onun irsinin qorunmasında da mühüm rol oynamışdır. Mustafa Çokayın ölümündən sonra onun arxivini Parisdəki Şərq Dilləri və Mədəniyyətləri İnstitutuna vermişdir. Orada Mustafa Çokayın şəxsi

sənədlərindən ibarət bir arxiv yaradılmışdır. Mariya Mustafa Çokayın zəngin kitabxanasını da Mustafa Çokayın adı veriləcək bir şəxsi sənədlərindən ibarət bir arxiv yaradılmışdır.



Mustafa Şokayın Fransada ucaldılmış büstü. Heykəltaraş Amangəldi Kenenbayevdir.

Mariya Mustafa Çokayın zəngin kitabxanasını da Mustafa Çokayın adı veriləcək bir bölüm yaradılmaq

şərtilə İnstituta bağışlamışdı. Bununla yanaşı, Mustafa Çokay haq-qında xatirələrini yazaraq çap etdirmişdir. Almatıdakı Qazaxıstan Dövlət Arxivi Parisdən Mustafa Çokayın arxivinin mikrofilmlərini apararaq qazax araşdırıcılarının istifadəsinə vermişdir. Buna görə də Qazax xalqı Mariya Çokayı da həmişə hörmətlə xatırlayacaq.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Türküstan bir-liyi yaratmaq ideyasını ortaya atdıqdan sonra Mustafa Çokaya diqqət yenidən artmışdır. Belə ki, Qazaxıstan BTA Bankının sponsorluğuyla 2008-ci ildə Mustafa Çokayın həyatını əks etdirən sənədli film çəkilmişdir. Bu filmin bir çox kadrları Özbəkistanın Daşkənd, Kokand, Qazaxıstanın Qızıl Orda, Rusiyanın Peterburq, Azərbaycanın Bakı, Gürcüstanın Tiflis, Türkiyənin İstanbul şəhərlərində, Fransa və Almaniyada çəkilmişdir. Onun adının əbədiləşdirilməsi, ideyalarının təbliği sahəsində də işlər davam etdirilir.

Mustafa Çokaya ***haqqında hazırlanmış verliş TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2010-cü il martın 22-də, saat 12.14-də efirə getmişdir***

VAHİD TÜRK-TATAR DÖVLƏTİ QURMAQ İSTƏYƏN KOMMUNİST SANJAR ASFANDİYAROV

Sanjar Asfendiarov (1889-1938) (سانژار آسفندییار اوو, qaz. Санжар Сейітжапарұлы Аспандияров rus. Сан жар Сейтджафарович Асфендиаров) https://ali-shamil.tr.gg/Sanjar-Asfandiyarov.htm



Sanjar Aspandiyarovun adına ilk dəfə SSRİ dağıl-dıqdan sonra Azərbay-canda 1937-ci ildə həbs edilən ictimai-siyasi xa-dimlərin və alimlərin istin-taq materiallarında rast gəlmişdim. Ziya Bünya-dovun 1993-cü ildə Azər-baycan Dövlət Nəşriyyatında çap etdirdiyi "Qırmızı terror" kitabında onun haqqında RSFSR MİK-in keçmiş katibi Səncər İsfəndiyarov ki-mi yazılır. Ruhulla Axundovun, Bəkir Çobanzadənin və b. da istintaq materiallarında ad və soyad azərbaycanlıların söylədiyi kimi yazılır.

Qazaxlarda onun adı və soyadı Sanjar Jafar ulu (Seyitjapar ulu, Jağıpar, Seyitjağıpar), rusdilli qaynaqlar isə Sanjar Djafaroviç Asfandiyarov (Aspandiyarov) kimidir. Onun şəcərəsi Əbilxayır xana bağlıdır. Əbilxayır xandan Sanjara gələn nəsil xətti belə göstərilir: Əbilxayır xan-Ayşşyak xan-Sıqalı (Syuqaliy) soltan-Asfendiar (İsfindiar) sultan-Seytjapar-Seytsanjar. Anası Güləndam da qazax xalqının qəhrəman oğlu, rus işğalcılarına qarşı savaşda şəhid olmuş Kensarı Qasım oğlunun nəvələrindən olduğunu ehtimal edirlər. Rusiyanın işğal etdiyi qazax torpaqlarının hökmdarlarının nəslindən olan Seyitjapar Türküstan Quberniya İdarəsində general-qubernatorun doğu dilləri üzrə tərcüməçisi işləmiş və polkovnik vəzifəsinədək yüksəlmişdir. Buna görə də Sanjar ata-baba mülklərində deyil, 1889-cu ilin oktyabrın 20-də atasının işlədiyi Daşkənd şəhərində anadan olur.

Sanjar Asfandiyarov ilk təhsilini evdə xüsusi müəllimlərdən alaraq ərəb, fars, fransız, ingilis dillərini, Türküstanda yaşayan xalqların ləhcələrini, şəriəti öyrənir. Sonra Daşkənd realnı məktəbinə daxil olur və oranı 1907-ci ildə bitirir.

Sankt-Peterburqdakı Hərbi Tibb Akademiyasını Rusiya Hərbi Dəniz Nazirliyinin təqaüdü ilə oxuyan Sanjar Asfandiyarov 1912-ci ildə ali təhsilini başa vurur. Təhsil illərində Sankt Peterburqda keçirilən bir təntənəli gecədə iki qazax qızı Rabiqa və Rahilə tanış

olur. Öyrənir ki, bu qızlar ixtisasca hüquqşünas olan, Dördüncü Dövlət Dumasına üzv seçilmiş Serali Lapun qızlarıdır. Serali Lapin məşhur qazax öndərlərindən idi. Türk xalqlarının, eləcə də ərəb, fars dillərini gözəl bilən Serali Lapin Əbülqasım Firdovsinin "Şahnamə" əsərini qazaxcaya çevirmişdi. Ədəbi-bədii yaradıcılıqla məşğul olan, ictimai-siyasi həyatda fəal olan Serali Lapin millətinin maariflənməsinə də böyük diqqət yetirmiş, qızlarını da Smolndakı Müqəddəs Qızlar İnstitutunda oxutmuşdu. Sanjar Asfandiyarov da həmyerlisi Serali Lapunun ailəsi ilə yaxınlıq etmiş və Rabiqa ilə evlənmişdir.

Sanjar Asfandiyarov Hərbi Tibb Akademiyasını bitirdikdən sonra onu Buxara əmirliyinin Termez şəhərindəki Rusiyanın hərbi hissəsinin 10-cu süvari polkunda hərbi həkim işləməyə göndərirlər. Az sonra isə onu 9-cu süvari polkuna baş həkim, oradan da Səmərqənd və Aşqabad şəhərlərindəki süvari polkunda xidmətə göndərirlər.

1914-cü ilin avqustunda Birinci Dünya Savaşı başlayanda Sanjarın xidmət etdiyi 5-ci Türküstan süvari polkunu Polşanın Prussiya ilə sərhəddəki Lodz qalasının müdafiəsinə göndərirlər. Lakin müdafiə düzgün təşkil edilmədiyindən elə ilk həmlədəcə alman orduları Lodz qalasını alır. Əsirləri Almaniyanın içərilərindəki hərbi əsir düşərgəsinə göndərirlər. Bir neçə dil bilməsi, qazax ailəsində doğulması, həkim olması Sanjarın köməyinə çatır.

Əsir düşərgəsində tərcüməçi, həkim kimi işləyir və qısa bir vaxtda alman dilini də öyrənir.

Bir ilə yaxın Tornodakı, Kutnodakı, Aleksandrovkadakı əsir düşərgələrində həkim işlədikdən sonra, yəni 1915-ci ilin axırlarında Qırmızı Xaç Cəmiyyəti Alman əsirliyində olanların bir qrupunun azad edilməsi haqında hökumətin razılığını alır. Rusiya ordusundan əsir düşənlər İsveçrəyə gətirilir. Onların arasında Sanjar Asfandiyarov da olur. İsveçrədən də keçmiş əsirləri Sankt-Peterburqa yola salırlar.

Rusiyaya qayıdan Sanjar Asfandiyarovu alman hərbi əsirlərinin düşərgəsində həkim işləməyə göndərirlər. 1917-ci ildə Romanovlar sülaləsinin 300 illik hakimiyyətinə son qoyulur, İkinci Nikolay çar taxtından salınır. Əsarət altında olan xalqlar arasında milli azadlıq ideyası genişlənir. Geridə qalmış, aqrar bölgə sayılan Türküstan da siyasi mübari-zələr meydanına çevrilir. Sanjar Asfandiyarov da siyasi fəaliyyətə baş-layır.



1917-ci ildə Buxara Müsəlman Şurasına üzv seçilən Sanjar Asfandiyarov, sonra Daşkənd Sovetinin deputatı,

Türküstan Quberniyası Müsəlman Şurasının üzvü kimi ictimai-siyasi fəaliyyət göstərir. Həmin illərdə o, Türküstanın Rusiyadan ayrılaraq müstəqil yaşaya biləcəyinə inanmır. Buna görə də vətəninin xoşbəxt gələcəyini Rusiyanın tərkibində görür.

Hərbi hakim və Çerniyayevski polku Müsəlman bürosunun üzvü olan və Daşkənd Sovetinə Köhnəşəhər seçki dairəsindən müsəlman deputatı seçilən Sanjar Asfandiyarov boşeviklərin səkkiz saatlıq iş günü, əsarətdə olan xalqlara azadlıq, sosial bərabərlik, torpaqların kəndilərə verilməsi, söz və vicdan azadlığı kimi şüarlarına aldanır. Onlarla birgə çalışır, xalqının xoşbəxtliyini bolşeviklərin hakimiyyətə gəlməsində görür. Bolşeviklərin də yerli xalqlardan olan Sanjar kimi savadlı və işgüzar kadrlara böyük ehtiyacı vardı.

Odur ki, Sanjar Asfandiyarovu Türküstan Muxtar Sovet Sosialist Respublikasında səhiyyə komissarı, sonra da torpaq və su təsərrüfatı komissarı vəzifəsinə təyin edirlər. 1919-1920-ci illərdə nazir işləyən Sanjar Asfandiyarov Turar Riskulovla dostlaşır. Partiya, sovet işində rəhbər vəzifələr tutan qazax xalqının bu iki mübariz oğlunun dostluğu və məsləkdaşlığı ömürlərinin sonuna kimi davam edir.

1923-1925-ci illərdə Türküstan MSSR Xalq Komissarlığında Torpaq və Su Təsərrüfatı şöbəsinin müdiri, Rusiya Kommunist (bolşeviklər) Partiyası Türküstan Vilayət Komitəsinin məsul katibi, RK(b)P

Mərkəzi Komitəsinin Orta Asiya bürosunun üzvü olan Sanjar Asfandiyarov xalqına divan tutulduğunun şahidi olur. Özü rəhbər vəzifədə işləsə də, rusların çarizm dövründəki kimi xalqına yuxarıdan aşağı baxılmasının, hüquqlarını tapdamasının qarşısını ala bilmir. Odur ki, hakimiyyətdən narazı olan rəhbər işçilər və ziyalıların qurduqları gizli təşkilata daxil olur.

İdarəetmədən narazılığını hiss edən hakim dairələr onu vətənindən, çevrəsindəki yaxın adamlarından və məsləkdaşlarından uzaqlaşdıraraq Moskvaya rəhbər işə aparırlar.

Sandjar Asfandiyarov Moskva Dövlət Universitetinin professoru, N.Nərimanov adına Şərqşünasılq İnstitutunun rektoru oldu-ğu müddətdə Sovetlərin yeritdiyi siyasətdən narazı qalan rəhbər partiya-sovet işçilərilə yaxından tanış olur. RSFSR Xalq Komissarlar Şurası sədrinin müavini işləmiş Turar Rıskulovla, Özbəkistan K(b)P Mərkəzi Komitəsinin katibi işləmiş Rahimbayovla, Kırım MSSR Xalq Kommisarlar Şurasının sədri işləmiş Şuqu Əmirəsənlə, RSFSR Xalq Maarif Komisarlığının əməkdaşı olmuş Xaris Jumanqulovla, Dağıstan MSSR Xalq Maarif Komissarı işləmiş Toxo Qodi, Qaraçay-Çərkəz İcraiyyə Komitəsinin sədri işləmiş Ömər Əliyevlə, Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının xalq torpaq komissarı işləmiş Dadaş Bünyadzadə, Azərbaycandan Mərkəzi İcraiyyə

Komitəsinin sədri işləmiş Soltanməcid Əfəndiyevlə, xalq maarif komissarı Mustafa Quliyev, ali müktəblərdə dərs deyən, elmi idarələrdə çalışan, məşhur professor Bəkir Çobanzadə və b. ilə birlikdə Vahid Türk-Tatar Respublikası qurmağı planlayırlar. Bu adamların hər birinin rəhbərlik etdiyi gizli quruplarda da onlarla ziyalı, tələbə, rəhbər partiya-sovet işçisi, hərbçi olur.



Şəkildə: Sanjar Djafar oğlu Asfandiyarov Rabiqa xanımı Serali qızı Lapuna ilə birlikdə Sankt Peterburkda

Sandjar Asfandiyarovu Moskvadan uzaqlaş-dıraraq Qazaxıstana göndərirlər. 1928-1931-ci illərdə Qazaxıstan Pedaqoji İnstitutunun rektoru və tarix kafedrasının müdiri işləyən Sandjar Asfandiyarov

1931-1933-cü illərdə Qazaxıstan MSSR səhiyyə komissarı və Qazaxıstan Tibb İnstitunun rektoru vəzifələrində çalışır.

1933-1934-cü illərdə Qazaxıstan MSSR Xalq Maarif Komissarının müavini işləyən Sandjar Asfandiyarovu rəhbər partiya-sovet işindən uzaqlaşdırıb elmi-tədqiqat sahəsinə göndərirlər. Bu o demək idi ki, sovetlərin ona inamı və etibarı azalmışdı.

1934-1937-ci illərdə SSRİ EA Qazaxıstan filialında tarix-arxeologiya komissiyasında şöbə müdiri, Filial direktorunun müavini işləyən, ali məktəblərdə dərs deyən, professor Sandjar Asfandiyarov gizli fəaliyyətini də davam etdirir, ətrafina daha çox elmi kadrlar toplayır.

Qazaxıstanın yaxın tarixinə dair bir neçə sanballı əsər yazan Sandjar Asfandiyarov əleyhinə 1937-ci ildə kampaniya başlayır. Həmin ilin avqustun 22-də onu həbs edərək istintaqa başlayırlar. Sentyabrın 27-də isə Almatı şəhər Partiya Komitəsinin bürosu onu kommunist partiyası sıralarından azad edir. İki gün sonra çap olunan "Kazaxıstanskoye pravda" qəzet onun əleyhinə kəskin məqalə yazır.


Асфендияров С.Д.

KQB tərəfindən

həbs edilən Sandjar Asfandiyarovu uzun və işgəncəli istintaqdan sonra 1938-ci il fevralın 25-də güllələyirlər. Alimin ölümünü ailəsindən və qohumlarından gizli saxlayırlar.

Sandjar Asfandiyarov güllələndikdən sonra Smolndakı Müqəddəs Qızlar İnstitutu bitirmiş, xanımı Rabiqanı da xalq düşmən arvadı kimi 8 il həbs cəzasına məhkum edərək Karelya SSR-dəki həbs düşərgələrindən birinə göndərirlər. Sandjar Asfandiyarovun qızlar Aliya və Dilya (Adolat) başsız qalır. Xalq düşməni adı ilə həbs edilən və güllələnən insanların yaxınları, qohumları da təqib edildiyindən, həbsxanalara gön-də rildiyindən uzun müddət bir birindən xəbər belə tuta bilmirdilər. Sandjar Asfandiyarov güllələndikdə 17 yaşında olan kiçik qızı Dilyanı (Adolat) nənəsi təqibdən qorumaq üçün Moskvaya göndərir. O, Moskvada bir müddət Xarici Dillər İnstitutunu bitirmiş böyük bacısı Aliyanın yanında qalır. Müharibə başladıqda isə Moskvada yaşamaq çətinləşdiyinə, dinc əhalinin bir qismini Türküstana və Sibirə köcürdüklərinə görə Dilyan (Adolat) Sanjarın Daşkənddə yaşayan bacıları Gülüsüm və Anelin yanında köçməli olur. O dövrdə həkim işləyən Gülüsüm xanımın xalq arasında hörməti böyük olur. O, nəinki qardaşı qızına yardımçı olur, hətta 1943-cü ildə Rabiqa həbsdən döndükdən sonra kiçik qızı Dilyanı (Adolat) yanına köçməsinə və Daşkəndə yaşamasına köməklik göstərir.

1958-ci ilin maya ayının 27-də isə SSRİ Ali Məhkəməsi ona bəraət verir.

Sovetlər Birliyi dağıldıqdan sonra Qazaxısdanda Əbülxair xan fondu yaradılır. Fond xanın nəslindən olanları axtaraıb haqqlarında məlumat toplayır. Fondun çağrışı ilə Dilyanın (Adolat) Daşkənddə yaşayan qızı, 1944-cü ildə anadan olmuş Sofiya Temurbay qızı Sultanova Almatıya gəlir və ailə üzvləri, qohumları haqqında bildiklərini fondun əməkdaşlarına söyləyir. O bildirir ki, anası 1976-cı ildə 55 yaşında korbağarsağından əməliyyat edilərkən dünyasını dəyişib. Sofiya Temurbay qızı Sultanova 1966-cı ildə Daşkənd Dövlət Universitetının Biologiya Fakültəsini bitirir və orada Muxambet Sultanovla ailə qurur. Bu evlilikdən bir oğulları və bir qızları olur. Oğlanları hazırda Rusiyada, qızları isə onunla bilikdə Daşkənddə yaşayır.

Qohumlarının verdiyi bilgiyə görə Aliyə Moskvada bir yəhudiyə ərə gedir, ondan Maşa adlı bir qızı da olur. Bu ailə sonralar İsrailə köçür. "Kazaxstanskaya pravda" qəzeti 2013-cü il iyulin 13-də, 232-ci (27506) sayında dərc olunmuş bir məqalədə Sandjar Asfandiyarovun nəvəsinin vətənə dönmək istəyindən söz açılır.

Sovetlər dağıldıqdan və Qazaxıstan azadlığına qovuşduqdan sonra Sandjar Asfandiyarov adının əbədiləşdirilməsi üçün bir sıra tədbirlər həyata keçirilir.Qazaxıstan SSR nazirlər Sovetinin 11 fevral

1989-cu il qərarıyla Sandjar Asfandiyarovun vaxtilə dərs dediyi və rektor işlədiyi Tibbi İnstitutuna onun adı verilir, 1928-1937-ci illərdə yaşadığı binanın qarşısına xatirə lövhəsi vurulur, Almatada bir küçə onun adı ilə adlandırılır.

Sandjar Asfandiyarov haqqında hazırlanmış verliş TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il yanvarın 18-də, saat 12.14-də efirə getmişdir

TÜRKÇÜ BAXIŞLARINA GÖRƏ HƏBS EDİLƏN VƏ HƏBSXANADA ÖLƏN MAQJAN JUMABAYOV (CUMABAYOV)



Maqjan Jumabayov (1893-1938) (ماقژان ژومابایوو, qaz. Мағжан Жұмабай (Әбілмағжан) Бекенұлы, rus. Магжа́н Жумаба́ев) https://ali-shamil.tr.gg/MAQJAN-JUMABAYOV-k1-Cumabay-k2-.htm

Qazax-qırğız türkcəsində [j] səsinin [c] səsinə çevrilməsinin geniş yayıldığı haqqında söbət açacağımız Maqjanın adı Maqcan, soyadı Jumabayov, hətta Cumabayov kimi də yazılır. Maqjan Beken bəy (Ceken bəy) oğlu Jumabayov 1893-cü il iyunun 25-də Qazaxıstanın qüzeyində – Akmolla vilayətinin Qızıljar bölgəsindəki Sarıayqır rayonunun Sasıkkul aulunda doğulmuşdur. Beken bəy və Gülsüm xanımın nigahından Əbümüslüm, Qəhrəman, **Maqjan**, Muhamedjan, Saltay, Qalijan, Sabirjan adlı oğlanlar və Güləndam, Gülbahar adlı qızlar doğulmuşlar.

Atası Beken bəy oğlu Maqjanı din xadimi görmək ümidilə xalq arasında mollaxana adlandırılan ibtidai məktəbə oxumağa göndərir. O, ibtidai məktəbi dərs əlaçısı kimi başa vurduqdan sonra Qızıljar şəhərindəki Çala Qazax Mədrəsəsində oxumağa gedir. Dörd il, 1906-1910-cu illərdə Petropavlovski-dəki mədrəsədə oxuyur. Oradan da Ufaya gedərək 1910-1911-ci illərdə məşhur Qaliya mədrəsəsində təhsilini davam etdirir. Burada dərs deyən müxtəlif dünyağörüşlü müəllimlərlə tanış olur. Mədrəsəni bitirib, orada müəllimlik edən Qalimcan İbrahimovla dostlaşır. Gələcəyin ünlü tatar ziyalısı, yeni tatar ədəbiyyatının klassiki adlandırılan Qalimcan İbrahimov aralarında yaş fərqinin az olmasına baxmayaraq, Maqjanın dünyagörüşünün formalaşmasına, ədəbiyyata marağının artmasına güclü təsir edir. Qalimcan İbrahimovla söhbətlərindən cəsarətlənərək ilk şeirlərini gənc müəlliminə oxuyur. Muəllimi də onu yaradıcılığa ruhlandırır və dəyərli məsləhətlər verir.

Lakin Qalimcan İbrahimov keçmiş müəllimləri ilə arasındakı fikir ayrılığına görə mədrəsəni tərk edir. Avropanın bəzi sosioloq və siyasətşünaslarının, xüsusən onların təsiri altında olan Rusiya sosialistlərinin təbliğatına uyaraq, islahatlarla dəyişiklikləri qəbul etmir, dünyanın düzənə salınmasının, ədələtin hakim olmasının yeganə yolunu inqilabda, qan axıtmaqda görür.

Dini və dünyəvi elmlərlə yanaşı, ərəb, fars, rus və cağatay türkcəsini öyrənən Maqjan müəllimindən uzaqlqşmalı olsa da, onun təsirindən çıxa bilmir. Omsk şəhərindəki Rusiya hökumətinin açdığı seminariyada oxuyanda inqilabi təbliğat aparır. Valideynləri ilə məsləhətləşmədən atdığı bu addımlar oğlunu İslam dinini təbliğ edən bir molla görmək istəyən Beken bəylə Maqjanın münasibətlərinin pozulmasına səbəb olur.

Ailənin maddi yardımından məhrum olan Maqjan Jumabayov xeyriyyəçi insanların köməyi sayəsində nəinki seminariyanı qızıl medalla başa vurur, həm də 1912-ci ildə Uralsk şəhərində qazax dilində nəşr edilən "Qazaxıstan" qəzetinin (Qumar Karaşın (Ömər Qaraş) «Qazaqstan» qəzetinin (Qəzet 1911-ci ildə Orda şəhərində nəşr edilməyə başlamış sonra fəaliyyətini Uralsk şəhərində davam etdirmişdir.) 1912-ci il martın 6-da çap olunan 8-ci sayındakı , "Bakı" başlıqlı xəbərində Hacı Zeynalabdin Tağıyevin qəzetin nəşri üçün 1000 som (rubl) ianə etməsini yazmışdır) mətbəəsində çap olunan "Uzuk" toplusunda "Qazaxların keçmiş vəziyyəti" şeirini və Kazanda Kərimov qardaşlarının nəşriyyatında "Şolpan" (Dan ulduzu) şeir toplusunu nəşr etdirir.

Qazax dilində və ərəb əlifbası ilə çap olunan "Şolpan" kitabındakı şeirlərin milli ruhu Maqjana nəinki qazaxlar arasında, qırğız, tatar, başqırd, özbək gəncləri arasında marağı artırır. O dövrdə türk,

müsəlman xalqlarının əksəriyyəti ərəb əlifbasından istifadə etdiklərindən Maqjanın millətsevər şeirlərini asanlıqla oxuyub başa düşürdülər.

Maqjan Jumabayovun "Şolpan" kitabına daxil edimiş şeirləri sadəcə duyğusal bir şair düşüncəsinin məhsulu deyildi. Burada Şokan Velixanovdan, İbray Altınsarından, Abaydan (İbrahim Kunanbayev) gəlmə bir maarifçilik xətti vardı. Maarifçilərin təsiri altında da çox gənc yaşlarından bir ictimai-siyasi xadim kimi formalaşırdı.

1913-1916-cı illərdə Omsk Müəllimlər Seminariyasında oxuyanda burada gələcəkdə ünlü Sovet şairi Saken Seyfullin kimi tanınacaq Səid Vakkasla tanış olur. Onlara gələcəkdə akademik kimi tanınacaq, məşhur etnoqraf, folklorçu Qriqori Nikolayeviç Potanin, isdedadlı şair və pedaqoq Mirjakıp Dulatov dərs deyirlər. Seminariyanın direktoru Aleksandr Nikitiç Sidelnikov da yeniyetmə Maqjana xüsusi diqqət yetirir. Qriqori Potanin elə ilk görüşdəcə Maqjan haqqında "bu gənc gələcəyin Şokan Valixanovu olacaq"-deyir. Seminariyada oxuduğu illərdə əlyazma şəklində "Birlik" adlı



ədəbi-bədii jurnal da hazırlayır.

Çılğın şairlərin əksəriyyəti kimi Maqjan Jumabayov da gəncliyində tanınmış tatar yazıçısı Kamalovun bacısı gözəl Gülüsümə vurulur. Gülüsüm 1914-cü ildə Sankt Peterburqdakı Nəcib Qızlar İnstitutunu bitirmişdi. Birinci Dünya Savaşı başlayanda onu da bir çox tatar-başqırd qızları kimi səfərbərliyə alaraq tibb bacısı kimi Osmanlı cəbhəsinə göndərmişdilər. Gülüsüm Maqjana deyil Akçurunə ərə getsə də şairin bu sevdasından lirik məhəbbət şeirləri qalmışdır.

Sonralar Maqjan gimnaziya şagirdi Jamile Kuanışbayevə vurulsa da onunla da evlənə bilmir.

Maqjan yalnız şeirləri ilə deyil, geyimi, davranışı ilə də qadınların ürəyini ovladığı haqqında çoxlu xatirələr var.

Birinci Dünya Savaşı illərində çar İkinci Nikolay Qafqazda, Türküstanda, Sibirdə müsəlman kişilərin məcburi surətdə cəbhəyə yaxın bölgələrdə işlətmək üçün səfərbərliyə alınması haqqında fərman imzalayır. Türküstanlılar isə çarın fərmanına əməl etmirlər.

1916-cı ildə Turqay vilayətində Amangəldi İmanovun başçılıq etdiyi üsyan, xüsusilə, fərqləndi. Üsyanın yatırılması üçün cəbhə xəttindən də əsgəri birliklər gətirməyə məcbur olurlar. Düşmənlə savaş üçün hazırlanmış əsgəri birliklər çar hökuməti silahsız təbəələrinin üzərinə yeridir. Mərkəzi quberniyalardan

Qazaxıstana köçürülmüş ruslar da əsgəri birliklərə kömək etdiyindən Türküstanda onminlərlə dinc sakin öldürülür. Kəndləri yandırıldığından, mal-mülkləri əllərindən alındığından, aclıqdan, soyuqdan və xəstəlikdən ölənlərin sayı da az olmur.

Rus ordusu xalqa divan tutsa da, qiyam ocaqlarını tam söndürə bilmədi. 1917-ci ilin fevralında İkinci Nikolayın taxtdan əl çəkməyə məcbur edilməsi qırğız-qazaxların milli təşkilatlarını formalaşdırmasını sürətləndirir.

Omskdakı Pedaqoji Seminariyasnda oxuduğu illərdə "Kazax" qəzeti, "Aybək" jurnalı ilə əməkdaşlıq edən, əlyzama şəklində "Balapan" jurnalı hazırlayan Maqjan Jumabayov Miryakıp Dulatovla, Ahmet Baytursunovla, Əlixan Bökeyxanovla, Saken Seyfullinlə, Muhammedjan Seydalin və b. tanış olur, şeirlərilə, publisistik məqalələrilə Alaş hərəkatına siyasi dəstək verir.

Alaş Partiyasının Qurultayına Akmolla vilayətindən nümayəndə seçilən Maqjan Jumabayov qurultayın işində fəal iştirak etməklə kifayətlənmir, 1917-ci il dekabrında yaradılan Alaş Orda Hökuməti qurucularından birinə çevrilir. Orenburqda keçirilən IBirinci Ümumqırğız qurultayında Maqjanı Ahmet Baytursunovla birlikdə səfərbərlik komissiyasına seçirlər. Milli qüvvələrin qələbəsindən ruhlanan gənc şair "Nə görsəm də, Alaş üçün görərəm, Mənə

ərmağandır, ulu xalqım üçün ölərəm" – deyə hayqırdı.

1917-ci ildə seminariyanı bitirən Maqjan öz təşəbbüsü ilə Omsk və Petropavlovskidə qazax müəllimləri üçün kurslar açır və bu kurslara rəhbərlik etdi. Lakin o arzu və istəklərini həyata keçirə bilmir. Bölşeviklərin, ağqvadriyaçıların, eləcə də ayrı-ayrı silahlı dəstələrin əsgəri birlikləri Türküstana ağır zərbələr vurur.

1916-cı ildə, yəni seminariyanı qurtaran kimi Çokan Valixanovun qohumlarından olan gözəl və yaraşıqlı Zeynəblə evlənir. Yeni ailə qurmasına baxmayaraq ictimai siyasi mübarizədən əl çəkmir. Belə qarışıq günlərdə, yəni 1918-ci ildə bolşeviklər Maqjan Jumabayovu Uş juz (üç cuz) milli qazax prtiyasının nümayəndəsi və ideoloqu kimi həbs edirlər. Yeddi aya yaxın Omsk həbsxanasında saxlanılan gənc şair zamanədən şikayət dolu bir sıra şeirlər yazır. Həbsxanada xanımına yazdığı "Yanjarımdı bir suyein tusimde" həsrət şeiri dillər əzbərinə şevrilir.

Bolşeviklərin əsgəri birlikləri Alaş Orda Hökumətinin pərakəndə halda olan əsgəri birliklərini dağıdır, qazax, qırğız, özbək milliyətçilərinin bir qismini öldürür, həbsxanalara göndərir və ya mühacirətə getməyə məcbur edir. Bununla da Rusiya yenidən qazaxlar və b. türk, müsəlman xalqlar yaşa-

yan Orenburq, Türküstan quberniyalarını işğal etmiş olur.

Maqjan Jumabayov bir müddət Almatıda yaşamalı olur. Həmin günləri yazıçısı Yuri Osipoviç Dombrovski belə xatırlayır: "Mən Almatıda ateizmi muzeyində işləyərkən Maqjan Jumabayovla bir müddət eyni mənzildə yaşadıq. O, ağacdan at, xoruz, dovşan və b. heyvan fiqurları düzəldir, mən də onları Nikolsk bazarında satıb çörək və süd alırdım. O, xahiş edirdi ki, pula qənaət edib rənglər alım. Bu rənglərlə düzəltdiyi fiqurları rəngləsin. Çox kasıb yaşayırdıq. Yaşadığımız mənzil də yararsız idi."

Ruh etibarı ilə millətçi olmasına baxmayaraq, bolşeviklərin xalqlara azadlıq, sosial ədalət, bərabərlik şüarları Maqjanı da aldadır. Hətta doğulub boya-başa çatdığı bölgədə – Qızıljarda qazax dilində çap olunan ilk Sovet qəzeti "Bostandıq tuı"nin redaktoru olur.

1922-ci ildə onu Türküstan Muxtar Respublikası Xalq Komissarlar Sovetinin sədri Turar Rıskulov Daşkənddəki Qazax-Qırğız İnstitutuna müəllim işləməyə göndərir. Daşkənddə müəllim işləyərkən vətənsevər, millətçi şeirlərini, publisistik məqalələrini "Ak jol", "Sana", "Şolpan" və b. mətbuat orqanlarında dərc etdirir. Daşkənd dövrü Maqjan Jumabayovun yaradıcılığının ən məhsuldar dövrü hesab edilir. O, burada "Şərq", "Peyğəmbər", "Azadlıq", "Alov", "Yoldaş" və b. şeirlərini,

“Erteqi”, “Batır Bayan” və “Qorqud” poemalarını yazır.

“Kokşe tay”, “Ural dağları”, “Meşə”, “Ağcaqayın”, “Qış yolları” və b. şeirlərində vətənin gözəlliklərini tərənnüm edirdisə, “Külək”, “Alov”, “Əhval-ruhiyyəm”, “Dalğa”, “Ölüm, mənə layla çal” şeirlərində yaşam fəlsəfəsini ortaya qoyur. Onun qadınlara həsr etdiyi “Gülsaram”, “Sən hamıdan gözəlsən”, “Cəmilə” şeirləri ictimai məzmunlu da olsa, “Arzum”, “Sevirəm”, “Ey, Sarsembay”, “Qaranlıq burulğanlı gecə” və b. şeirləri dərin intim məzmunu ilə seçilirdi. Hansı mövzuda yazmasından asılı olmayaraq onun şeirlərində həmişə milli ruh hakim olur.



Necə deyərlər, ilham pərisinin qanad çaldığı, poeziyada böyük uğurlar qazandığı bir dövrdə onun dünyagörüşündə dəyişikliklər baş verir. Bolşeviklərin verdiyi vədlərə əməl etmədiklərini görür. Odur ki, keçmiş əqidə yolaşları ilə görüşüb məsləhətləşərək xalqa divan tutan sovet məmurlarını durdurmaq üçün gizli təşkilatların işini fəallaşdırmağa çalışırlar.

1922-ci ildə Orenburqda pedaqoji məqalələr toplusu olan “Pedaqoqika” kitabını nəşr etdirir. Bu kitab ona yalnız elmi, pedaqoji sahədə deyil, siyasi dairələrdə də böyük nüfuz qazandırır. İkinci bədii kitabı, şeir və poemalarını daxil etdiyi “Maqjan Jumabayevin şeirləri” kitabı 1923-cü ildə Daşkənddə işıq üzü görür.

Savaşlar, bolşeviklərin əsilzadələrə və ziyalılara tutduğu divan hər yerdə bir kadr qıtlığı yaratmışdı. Sovetlər kadra olan tələbatlarını ödəmək üçün yeni təhsil ocaqlarının açılmasına, oraya gənc kadrların cəlb edilməsinə xüsusi diqqət yetirirdi. Turar Rıskulov Maqjan Jumabayovun bacarığını, istedadını, işgüzarlığını yüksək qiymətləndirən, yaradıcılığını diqqətlə izləyən rəhbər işçilərdən olmuşdu.

Seminariyanı bitirsə də, ali məktəbdə dərs deyən şairi Türküstan Muxtar Respublikası Xalq Komissarlar Soveti 1923-cü ildə Moskvada yeni təşkil edilmiş V.Bryusov adına Ali Ədəbiyyat İnstitutunda oxumağa göndərir. Orada oxuyarkən Lermontovdan, Koltsovdan, Balmontadan, Merejkovskdən, İvanovdan, Mamina-Sibiryakdan, Maksim Qorkidən, Blokdan, eləcə də Hötedən və başqalarından bədii tərcümələr etməklə kifayətlənmir, Karl Marksın, Fridrix Engelsin, Vladimr Leninin siyasi əsərlərindən də tərcümələr etməklə sanki qazax dilinin zənginliyini ortaya qoyur. Onu qazax ədəbiyyatının gah Puşkini, gah Bayronu, gah da Şekspiri

adlandırırlar. Xarici görnüşünə, şeir oxuyarkən göstərdiyi jestlərə görə onu Sergey Yeseninə bənzədənlər də olur.

Moskvada Ali Ədəbiyyat İnstitutunda oxuyarkən dünyagörüşünü genişləndirməklə yanaşı, qırğız-qazax yazıçılarını birləşdirəcək "Alka" (Dairə) adlı ədəbiyyat təşkilatının proqramını hazırlayaraq poçtla Türküstanda tanıdığı ədiblərə göndərir. Bu proqramdan Sovet xüsusi xidmət orqanları xəbər tutur. Proqramı diqqətlə incələyərək, onu Alaş Orda ideyalarının davamı, millətçiliyin təbliğinə xidmət edən bir sənəd kimi qiymətləndirirlər.

Ali Ədəbiyyat İnstitutunda oxuyan və Kommunist İnternasionalı Universitetində Şərq dillərindən dərs deyən Maqjan Jumabayev qırğız-qazax ibtidai məktəblərində ana dilinin tədrisi metodikası kitabını yazaraq 1925-ci ildə Moskvada çap etdirir.

Lakin Maqjan Jumabayevə qarşı hücumlar da ara vermirdi. Onu millətçilikdə, antisovet təbliğatı aparmaqda suçlayırdılar. Şairin bolşeviklərin hakimiyyətə gəlməsindən əvvəl yazdığı, Rusiyanın müstəmləkəçilik siyasətini tənqid edən şeir və poemalarındakı baxışlarını antisovet təbliğat, Rus xalqına qarşı nifrət oyadan əsərlər kimi təhlil edirlər.

1924-cü ilin sonlarında Moskvada təhsil alan qırğız- qazax tələbələr Maqjan Jumabayevin şeirlər kitabını müzakirə edərək belə qərar qəbul edirlər: Birincisi, Jumabayın bütün əsərləri əksinqilabi,

antipartiya və əməkçilər üçün yararsız hesab edilsin, ikincisi, nəşr edilmiş toplu böyük yanlışlıq kimi müəyyənləşdirilsin, yaxın əlli illikdə kitabın haqqında söz açılması qadağan edilsin,

... Biz Moskvada oxuyan qazax gəncləri Maqjan Jumabayevə ideya mövqeyinin yanlış olduğunu xatırladır və bütün gəncləri səsimizə səs verməyə çağırmağı özümüzə borc bilirik".

Maqjan Jumabayevə xalqının ata-baba yurduna sahib çıxıb azadlığına qovuşmaq çağırışları, nəsihətləri, Turançılıq eşqi, Türkiyəyə məhəbbəti hakimiyyəti çox rahatsız edirdi. Bu cür düşüncəsinə görə Sovet hökumətinin qara siyahısına düşdü. Başqa əsərləri o yana Türkiyədəki istiqlal savaşına həsr etdiyi "Alıstaki bavrım" (Uzaqdakı qardaşıma) şeiri kifayət etdi ki, Sovet xüsusi xidmət orqanları Maqjanı təqib etsinlər. Türkiyəyə müraciətlə "Uzaqdakı qardaşıma" şerində yazırdı:

Uzaqda ağır əzab çəkən qardaşım!
Qurumuş lalə kimi çökən qardaşım!
Ətrafını sarmış düşman ortasında
Göl qılıp göz yaşını tökən qardaşım!
Önünü ağır qayğı örtmüş qardaşım!
Ömrüncə yaddan cəfa görmüş qardaşım!

1927-ci ildə milli kadrlara böyuk ehtiyac olması adı ilə Maqjan Jumabayovu Qazaxıstana gətirdirlər.

Lakin ona burada nəinki münasib bir iş verirlər, əksinə təqib etməyə, təzyiqlər göstərməyə başlayırlar. Vətənə dönən gənc şair Kızıljarda müəllimlik etməyə başlayır. Turançılıq ruhu aşılayan "Türküstan" şeiri, milləti azadlıq eşqilə alovlandıran "Jusıb xan", "Taksan Tobu" poemalarını yazır.

Qazaxıstan Diyar Partiya Komitəsinin birinci katibi Qoloşekin 1927-ci ildəki çıxışında yaşlı nəsl yazıçı və alimlərindən söz açarkən deyir ki, siz Maqjan Jumabayın məşhur "90"-a şeirini oxumusunuz və bir çoxunuz onun səmimi olduğunu düşünürsünüzsə yanılırsınız. "100"-ə, bütün qazax xalqına istinad etsələr də onlar məğlub oldular. Bu məğlubiyyəti qəbul edə bilmədikləri üçün bu dəfə "90"-a şeirini yazıb, öz ideyalarını yaya bilmək üçün bizimlə belə bir oyun oynayırlar. Belələrinə aldanmaq və onların bizimlə olduğuna inanmaq olmaz.

Ədəbi tənqidçi Qabiden Toqjanov da məqalələrində partiya işçilərinin dediklərini təkrarlayaraq yazır ki, Maqjan özünün təsirli "90" şeirini yazmaqla əsas məsələni dəyişməyə çalışır. O, bu şeirində oxucunu "90" uğrunda "10"dan vaz keçdiyinə inandırmağa çalışır. Məhz elə burda onun heç bir ciddi problemi olmayıb.

Əslində Partiya Komitəsinin birinci katibi Qoloşekin də, tənqidçi Qabiden Toqjanov da doğru bilmişdi. Maqjan Jumabayın şeirində qazaxların yüzdə 90 faizinin Sovetlərin tərəfində olduğunu,

yüzdə 10 faizinin isə Sovetlərin əleyhinə olduğunu pafoslu və poetik bir dillə qələmə almışdı. Şeirdə güclü suarçılıq vardı. Bu şeiri oxuyanlar Maqjan Jumabayı tanımasaydılar elə bilərdilə şair yüzdə 90-ın hesabına, yüzdə 10 qurban verməyə də hazırdır. Maqjan Jumabay yaxşı tanıyanlar isə açıq-aşkar görürdülər ki, şair yüzdə 10-un dilindən dedikləri qazax xalqının çoxunun arzu və istəyirir.

Şair-alimin 1929-cu ildə Moskvada böyüklərə əlifba öyrədən "Savadlı ol" kitabı nəşr olunur. Lakin bu nəşrlər, rus şairlərinin onun haqqında yazdıqları xoş sözlər Maqjan Jumabayovu 1929-cu ilin kütləvi həbslərindən xilas edə bilmir. İyul ayinda onu da Petropavlovskdə 42 nəfər keçmiş alaşordaçılarla birlikdə tuturlar. O, pantürkizmdə və Yaponiyaya casusluqda ittiham edilərək 10 il azadlıqdan məhrum edilir. Öncə Moskvadakı siyasi dustaqların saxlandığı Butırka həbsxanasında saxlanılır, sonra da Kareliya və Arxangelski vilayətlərindəki həbs düşərgələrinə göndərilir.

Maqjan Jumabayov müxtəlif hökumət orqanlarına haqsız həbs edildiyi haqqında ərizələr yazsa da, heç bir cavab çıxmır. 1934-cü ildə Maksim Qorkiyə məktub yazaraq onun hekayələrini qazax dilinə tərcümə etdiyindən, yaradıcılıq yolundan, rus və Avropa yazıçılarının əsərlərini qazaxcaya çevirdiyindən söz açır, vəziyyətini anladır. Xanımı Züleyxa bu məktubun ünvanına çatdırılmasına nail

olur. Maksim Qorki və xanımı Yekaterina Peşkovanın Dünya Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətlərinə, eləcə də RK(b)P Mərkəzi Komitəsinə yazdığı məktublardan sonra Maqjan Jumabayovun adı da əfv olunanlar sırasına salınır. Svirski həbs düşərgəsindən azad edildikdən sonra 1936-cı ildə Petropavlovska dönərək texnikumda dərs deməyə başlayır. Dar günlərində ona maddi kömək edən Saken Seyfullin də çox vaxt kömək edib onu təqib və təzyiqlərdən qoruya bilmir.



Şairin vətəni Petropavlovskidə 1993-cü ildə qoyuşmuş heykəli. Heykəltaraş Marat Aynekovdur.

1937-ci il dekabrın 30-da Almatıda yenidən həbs edilən Maqjan Jumabayovu 1938-ci il martın 19-da güllələyirlər.

Züleyxa Maqjan Jumabayovun əsərlərinin bir qismini qoruyub saxlaya bilir. 1956-cı ildə Sov.İKP-nin XX qurultayından sonra Maqjan Jumabayov və onun kimi on minlərlə insana bəraət verildiyi elan edilsə də, əsərlərinin çapına icazə verilmir.

1937-ci il repressiyası yalnız Maqjanı "udmaq"la

kifayətlənmir. Hazırda Maqjan Jumabayov fonduna rəhbərlik edən, Maqjanın qardaşı Qalıjanın qızı Rayxan Jumabayeva yazır ki, əmilərim Əbümüslüm, Qəhrəman da 1937-ci ildə "yoxa çıxdlıar". Onlardan hələ də bir iz tapa bilmirəm. Əmim Muhamedjana da xalq düşmanı kimi 10 il həbs cəzası kəsmişdilər. Onu 1980-ci ildə gördüm. Yaşı 80 keçsə də yaraşıqlı, qəddi-qamətli bir el ağsaqqalıydı. Ensklopedik məlumatlı bu insan bizim şəcərəni gözəl bilirdi.

1931-ci ildə Maqjanı Leninqrada məhkəməsi olanda əmim Salimjan iki atını sataraq pulunu da göyürüb oraya gedir ki, qardaşına kömək etsin. Lakin məhkəməyə heç cür təsir edə bilmir. Geri döndükdə onu "kolxozun qeydiyyatında olan atları satdığına görə" həbs edirlər. 1934-cü ildə həbsdən gəlib briqadir işləsə də onu müharibədən sonra bir də həbs edirlər. Bu dəfə də Maqjanın Knesarı haqqında poema yazdığına gö-rə həbs edirlər. O, 1955-ci ildə həbsdən azad edilir.

Atam Qalijan və kiçik əmim Sabırjan həbsdən qurtarmaq üçün nəinki familyalarını dəyişdirir, tez tez yerlərini dəyişirlər ki, onların taniyanlarla rastlaşmasınlar. Əmim Cabırjan milliyətini qırğız yazdırmaqla kifayətlənmir, rus qadını ilə evlənir ondan olan övladlarına da Vladimir, Yuri, Oleq, iqor və Mixail adları verir.

Yalnız Maqjanın qardaşlarını deyil, bacıları Güləndam və Gülbahar və onların ailələri, dayısı oğlu Serqazı Nurmaqa-mbetov, yaxın qohumları Jamal,

Zilix, Sofiya və onların ərləri də 1937-ci ilin repressiyasından qurtula bilmirlər. Ser-qazı Nurmaqambetov 10 il Volqoloq İslah Əmək Düşərgəsində, əzabkeş şair Xamzı Abdullin isə Kolmda həbsdə olur. Onların uşaqları yetimxanalarda böyüyür, sağ qalanlar xalq düşamı Maqjan Jumabayovun qohumu olduqlarına görə min bir əziyyət çəkməli olurlar.

Sovetlərin bütün qəddarlıqlarına baxmayaraq qəlbi Türklük, Turançılıq eşqilə yanan Maqjan Jumabayovun arzuları gec də olsa, reallaşır. Qazaxıstan və başqa türk respublikaları Rusiya əsarətindən xilas olur. 1993-cü ildə Petropavlovskdə üç metrlik qranitdən şairin oturaraq kürəyini qayaya söykəmiş təsviri olan heykəlini, 2000-ci ildə Bulakev qəsəbəsində və 2003-cü ildə doğulduğu kənddə büstünü qoyurlar. 1990-cı ildə "Qazaxtelefilim" "Maqjan" adlı sənədli film və 1993-cü ildə şairin eyni adlı poeması əsasında "Bayır Bayan" adlı bədii filmi çəkilir.

Qazaxıstan Sovetlər Birliyindən qopduqdan sonra Maqjan Jumabayovun əsərlərinin kütləvi nəşrlərinə başlanır və onun türkologiya, tarixçilik, dilçilik, pedaqoqika sahəsindəki fəaliyyəti araşdırılıb məqalə və kitablar şəklində xalqa təqdim edilir.

Maqjan Jumabayov haqqında hazırlanmış verliş TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2011-ci il martın 31-də, saat 12.14-də efirə getmişdir

RSFSR XALQ KOMİSSARLARI SOVETİ SƏDRİNİN MÜAVİNLİYİNƏ YÜKSƏLDİLƏN VƏ MƏHV EDİLƏN TURAR RISKULOV

Turar Rıskulov, (تورار ريسكولوو, qaz. Тұрар Рысқұлов, rus. Турар Рыскулов(1894-1938)) https://ali-shamil.tr.gg/Turar-R%26%23305%3Bskulov.htm



Qazaxıstanda rəhbər vəzi-fələdə işləyən azərbaycanlıların sayı çox olub. Amma Azərbaycanda rəhbər vəzifələrdə işləmiş qazağı axtarmaq samanlıqda iynə axtarmaq kimidir. Bunun bir səbəbi də mövzunun işlənməməsi, aktuallaşdırılmamasıdır.

Turar Rıskulovun 1921-22-ci illərdə Bakıda işlədiyi haqqında bilgim vardı. Onun haqqında yazmaq istəyəndə qaynaqları yenidən gözdən keçirsəm də, rastıma kiçik informasiyadan başqa bir şey çıxmadı.

Turar 1894-cü il dekabrın 26-da Semreç vilayətinin Besaqaş (Beşağac – ***Ə.Ş***.) aulunda (indi bu kənd Almatı vilayətinin Talqar rayonuna daxildir –

Ə.Ş.) Dulat tayfasından olan Rıskul Jılkaydar ulunun, yəni Jılkaydar oğlunun ailəsində dünyaya göz açmışdır. Aulda Turar Rıskululı kimin tanındığı halda rus məktəblərinə getdikdən sonra sənədlərində adı və soyadı Turar Rıskulov kimi yazılmağa başlamışdır. Beləcə atasının adı Rıskul çevrilib Turarın soyadı olmuşdur.

Turarın atası Rıskul Jılkaydar ulu haqqını tələb etdiyinə görə onun hərəkatını hökumətə qarşı çıxmaq kimi qiymətləndiriblər. 1904-cü ildə onu 10 illiyə Sibirə sürgünə göndərirlər. Atasının həbsi və ailəsinin iqtisadi vəziyyətinin ağırlaşması balaca Turarı ruhdan salmır. O, əsas diqqətini oxumağa yönəldir.

Ortabab kəndli ailəsinin tək övadı olan Turar Rıskulovu ailəsi oxuda bilir. Aullarında molla yanında ibtidai təhsilini başa vurduqdan sonra onu 1907-ci ildə Merke qəsəbəsindəki rus-tuzem məktəbinə göndərirlər. Bu məktəbin proqramı bizlərdə rus-tatar məktəbi kimi tanınan təhsil ocaqlarının proqramı ilə eyni idi. Üç il burada oxuduqdan sonra Turar Rıskulov indi Biştek kimi tanınan Pişpek şəhərinə yollanır. 1914-cü ildə Pişpek şəhərindəki kənd təsərrüfatı məktəbini bitirdikdən sonra Daşkənd şəhərində işləməyə gəlir.

Daşkənd Müəllimlər İnstitutunda oxuyarkən inqilabçılarla yaxından tanış olur və gənclik çılğınlığı ilə monarxiyanı devirmək, sosial ədaləti bərpa etmək istəyənlərin sırasına qoşulur. 1916-cı ildə çar İkinci

Nikolayın ölkədə vergi alınaraq əsgəri xidmətə cağrılmayan müsəlmanların 19-43 yaşlı kişilərinin səfərbərliyə alınması haqqında fərman verməsi Türküstanda üsyana səbəb olur.

Xalqı arxasınca apara biləcək adamlar peşəsindən, yaşından asılı olmayaraq üsyançıların dəstələrinə rəhbərlik edir. Yeddisu (Semireçiye) bölgəsində də üsyan rəhbərləri sırasında Tokaş Bökin, Bekbolat Eşekeyev, Uzak Saurıkovla yanaşı 22 yaşlı Turar Rıskulovun da adı çəkilir. Rus əsgəri birliklərinin yüzlərlə insanın öldürüldüyü, həbs edildiyi günlərdə üsyançı qruplarından birinə rəhbəri kimi onu da tüturlar.

1917-ci ilin fevralında Romanovlar sülaləsinin hakimiyyətinə son qoyulması, Aleksandr Kerenskinin rəhbərliyi ilə Müvəqqəti Hökumət qurulması, bu hökumətin Rusiyanı federativ idarəetmə istəyi Turar Rıskulovun həbsdən qurtarıb, inqilabi mübarizəyə qoşulmasına şərait yaradır.

O, Merkeyə dönərək, qırğız-qazax gənclərinin inqilabi təşkilatını yaradır və Aulietidəki sovetlərlə əlaqəyə girir. 1917-ci ilin sentyabrında isə Rusiya Kommunist (bolşeviklər) Partiyasına daxil olaraq fəal siyasi mübarizəyə başlayır. Kokandda qurulan Türküstan Muxtariyyatına qarşı çıxan Turar Rıskulov Aulieti Soveti İcraiyyə Komitəsinə sədr seçilir. 23 yaşlı, heç bir həyat və idarəçilik təcrübəsi olmayan bir

gəncin belə böyük vəzifənin öhdəsindən gəlməsi heç də asan olmur.

Ölkədəki hərc-mərclik, Sovetlərin görməli olduğu işlərin dəqiq müəyyənləşdirilməməsi, inqilabçılar arasındakı fikir ayrılığı, rus əsgəri birliklərinin ermənilərin silahlı dəstələri ilə birlikdə Daşkənddə, Kokandda törətdikləri kütləvi qırğınlar Turar Rıskulovu və onun kimi inqilabçıları çətin vəziyyətdə qoyur. Bütün çətinliklərə baxmayaraq o, həm yerli əhalinin müəyyən qisminin, həm də Moskvanın diqqətini özünə çəkə bilir.

Turar Rıskılov K.Puşkarevin qızını almaqla ona əks cəbhədə döyüşən, Alaş Orda Muxtariyyatının batı bölgəsi nazirlərindən olan D.Docmuxammedovla bacanaq olur. Sovetlərin Türküstan qoşun quruplaşmasını komandırı olarkən Mixail Frunze Rusiya Xalq Komissarlar Sovetinin sədri Vladimr Leninə yazır: "Əksər yerli kadrlar arasında Rıskulov və Xocayev çox fərqlənirdi. Onlar sadəcə ağılları ilə deyil, qeyriadi xarakterləri ilə də diqqət mərkəzindədirlər".



1918-ci ilin iyul- dekabrı ayları yeni yaradılan Türküstan Muxtar Sovet Sosialist Respublikasının səhiyyə naziri işləyən Turar Rıskulova bolşeviklər daha böyük etimad göstərib onu Muxtar Respublika Xalq Komissarlar Soveti sədrinə müavin təyin edillər. Turar Rıskulov bir vəzifədə möhkəmlənməmiş onu bu vəzifədən o vəzifəyə göndərirlər. Bunun bir səbəbi kadr çatışmazlığı, inqilabçılar arasında fikir ayrılığı, ölkəni idarə edəcək qanunların stabilləşməməsi idisə, başqa bir səbəbi də rusların müsəlman xalqlarından olan məsləkdaşlarına inamsızlığı idi.

Rusiya Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi Türküstanda və qırğız-qazax çöllərində yaşayanların onlara inamsız yanaşdığını görüb yeni bir taktika seçdilər. Onlar partiyanın "Müsəlman bürosu"nu yaratmağı qərara aldılar. Həmin dövürdə Türküstanda milliyyətindən asılı olmayaraq partiyanın üzvlərinin sayının 900 nəfərə yaxın olduğu qeyd edilir.

1919-cu ilin may ayında təşkil edilən "Müsəlman bürosu"na rəhbərliyə Turar Rıskulov, Abbas Əliyev, Tursun Hocayev və b. seçilir. Sovet rəhbərliyi "Müsəlman bürosu"nun fəaliyyətindən razı qalmasa da, ona qarşı sərt tədbirlər də görə bilmir. Sovet ordusunun komandanı M.V.Frunzenin rəhbərliyində "Müsəlman bürosu"na gizli alternativ kimi düşünülmüş bir Türküstan Komissiyası (Türkkomissiya)

qurur. Bu təşkilata Kuybişev, Rudzutakla yanaşı Turar Rıskulov da daxil edilir.

Türkkomissiya iki məsələyə xüsusi diqqət yetirir: birincisi, Türküstana qonşu ölkələrdəki inqilabi hərəkata kömək etmək, ikincisi, Türküstanın iktisadiyyatını yüksəldib ondan Rusiyanın xeyrinə istifadə etmək.

Türküstanlı ziyalılar Sovetlərə qarşı açıq silahlı mübarizədə uğur qazana bilməyəcəklərini görüb "Müsəlman bürosu"nun tərkibində saylarını artırmağa başlayırlar. Kommunist Partiyasının onlara partiya ədəbiyyatını milli dillərə çevirmək, qəzet, jurnal nəşr etmək, təbliğatçı kadrlar hazırlamaq üçün ayırdığı vəsaiti milli məsələlərə xərcləməyə çalışırdılar. Bu da Moskvanı bərk rahatsız edirdi.

1920-ci il yanvarın 12-18-də Müsəlman bürosunun üçüncü və Türküstan Kommunist Partiyasının beşinci konfransları keçirilir. Konfranslarda Turur Rıskulov "Milli məsələlər və milli kommunist şöbələri" mövzusunda bir çıxış etdi. T.Rıskılov və tərəfdarları təkli edirdilər:

1. Türküstan Sovet Sosialist Respublikasının adı dəyişilib Türk Respublikası adlandırlsın. Çünki belə olduqda çar Rusiyası zamanı Türküstan və Çöl quberniyaları kimi inzibati bölgələr birləşər. Bu bölgələrdə yaşayan türk xalqları və müsəlmanlar bir mərkəzdən idarə olunarlar.

2. Türküstan Kommunist Partiyasının adı da dəyişilib Türk Kommunist Partiyası olsun.

3. Müsəlmanlardan ibarət Türk ordusu qurulsun, Müsəlmanlardan təşkil edilməyən hərbi hissələr ölkədən çıxarılsın

4. Yeni qurulacaq Türk Respublikası kənar təzyiq və təsirlər olmadan özünün konstitusiyasını yaratsın

5. Xarici siyasət, hərbi, ticarət və maliyyə siyasəti Türk Respublikasının nəzarətində olsun.

Müsəlman bürosunun III Konfransının iştirakşıları yekdilliklə bu layihəni qəbul etməsi Moskvanı bərk narahat edir.

Mixail Frunze Daşkəndə gələrək fevralın 24-də Türkkomissiyanın iclasını və konfranslar keçirərək qərarın qəbulunu sərt tənqid edir, narahatlıqla bu barədə Leninə xəbər verir. RK(b)P MK-sı 1920-ci il martın 8-də bu qərarı ləğv edərək və aşağldakı təlimatı göndərir: "Türküstanda Moskvaya bağlı tək bir kommunist partiyası ola bilər. Məhəlli komitələr isə milli bürolar və şöbələr təşkil edə bilər. Türküstan Kommunist Partiyası bir bölgə kommunist partiyasıdır və RK(b)P MK tabedir".

Turar Rıskılov və onunla həmfikir olan Tursun Hoca, Soltan Hoca, Abdulla Muhittin, İbrahim İbrahim və b. bu təlimatın əleyhinə çıxmışlar. Problemi həll etmək üçün 1920-ci ilin mayında Turar Rıskulov, Nizamettin Hoca Bek, İvanov Moskvaya gedir. Gərgin keçən müzakirələr heç bir nəticə

vermədiyini görən Moskva 1920-ci il iyulun 19-da Turar Rıskulov və məsləkdaşlarından yaxa qurtarmaq üçün Türküstan Komissiyasını və Türküstan Kommunist Partiyasını ləğv edib, yeni bir komitə yaradır.

Turar Rıskulov təkidlə Türküstan Muxtar Sovet Sosialist Respublikasının konstitutusiyasında əsaslı dəyişikliklər edilməsini istəyir. Ondan yaxa qurtarmaq üçün 1921-ci ildə Xalq Komissarlığının milli məsələlər üzrə səlahiyyətli nümayəndəsi kimi Azərbaycana işləməyə göndərirlər. Burada da çox qalmağa imkan vermirlər. Turar Rıskulovu 1922-ci ilin əvvəllərində yenidən Moskvaya apararaq Rusiya Sovet Federativ Sosialist Respublikasının Xalq Komissarlar Soveti sədrinin milli məsələlər üzrə müavin təyin edirlər.

Ədalətli cəmiyyət quracaqlarına, xalqların bərabərhüquqlu və firavan bir dövlətdə yaşayacağına ürəkdən inanan Turar Rıskulovu 1922-ci il sentyabrın 6-da Türküstan Mərkəzi İcraiyyə Komitəsinə sədr göndərdilər. Həmin günlərdə Türküstanindiki Qazaxıstanın bir hissəsini, Qırğızıstan, Özbəkistan, Tacikistan,



Türkmənistan dövlətlərini əhatə edirdi. Əhalinin böyük əksəriyyəti də bölgənin Rusiya tərəfindən yenidən işğal edilməsi ilə razılaşa bilmirdi. Müqavimət hərəkatına bölgənin hər yerində rast gəlmək olurdu. Sovet əsgəri birliklərinə və təşkilatlarına qəflətən basqın edərək aradan çıxan dəstələri basmaçılar adlandırırdılar. Türküstandakı bu müqavimət hərəkatı tarixə də basmaçı hərəkatı adıyla daxil olmuşdur.

Turar Rıskulovu Sovet Sosialist Respublikaları İttifaqı yaradılması üçün Türküstanı hazırlamağa göndərirlər. Bir ay sonra isə onu geri çağırırlar. Çünkü o eyni dilin, eyni dinin, eyni mədəniyyətin daşıyıcısı olan xalqların vahid bir dövlət halında idarə olunmasını istəyirdi. Türküstanın beş yerə bölünməsi, beş müttəfiq və bir muxtar respublika yaradılması ideyasını bəyənmirdi. Odur ki, onu pantürkizmdə ittiham edərək rəhbər vəzifədən və idarəetmədən uzaqlaşdırıb, Kommunist İnternasionalına işə göndərirlər. 1924-cü ilin aprelindən 1926-cı ilin iyununadək Kominter Şərq şöbəsinin müdir müavini işləyir və burada dünya kommunist hərəkatının liderləri arasındakı fikir ayrılıqları və qarşıdurma ilə yaxından tanış olur.

Kommunterndə çalışarkən əqidə yoldaşları saydığı, mətin inqilabçı kimi tanıdığı insanların öncədən verdikləri vədlərə əməl etmədiklərini, bütün güclərini hakimiyyətlərini möhkəmləndirməyə

yönəltdiklərini və sosializm yaymaq adı altında Rusiya imperiyasının sərhədlərini bərpa etməyə çalışdıqlarını görür. Turar Rıskulov da sosialistlərin verdiyi vədlərə inanıb fikrini sərbəst ifadə edir, idarəetmədəki nöqsanları göstərərək onların aradan qaldırılmasını təklif edir.

Onun proletar diktaturası qurulmasına əngəl olacağını görürlər. Türküstanı Rusiyadan ayrmaq istəyən birisinin Türküstan Respublikasının sədri vəzifəsində olması olduqca təhlükəli idi. Rusiya bununla barışa bilmirdi. Odur ki, zəngin bir bölgəni əldən verməmək üçün tədbirlər görməyə başlayır. Turar Rıskulovun və məsləkdaşlarının əvvəlcə "Türküstanın Birliyini qorumaq!" şüarı tənqid edilməyə başlanılır. 1925-ci ildə İ. Stalin müsəlman bölgələrinin rəhbərlərinin müşavirəsini keçirir və çıxışında Turar Rıskulovu basmaçılarla eyni fikirdə olmaqda, Tatar inqilabının başçısı Mirsaid Soltanqaliyevi dəstəkləməkdə günahlandırır.

Turar Rıskulovu ölkədən uzaqlaşdırıb, Kommunternin Monqolustanda səlahiyyətli nümayəndəsi vəzifəsinə göndərirlər. Əslində Monqolustanda Kommunist İnternasionallıq elə bir iş yox idi. Sovetləşmiş Rusiya sadəcə olaraq yeni adla oranı da işğal dairəsində saxlamaq istəyirdi. 1925-26-cı illərdə Monqolustanda işləyən Turar Rıskulov çətinliklə də olsa geri qayıda bilir.

Bu dəfə onu 1926-cı ilin martında RK(b)P MK-nın Qazaxıstan üzrə mətbuat şöbəsinə müdir təyin edirlər.

Turar Rıskulov yanıldığını, bolşeviklərin vədlərinə aldandığını anlayır və mübarizəsini gizli davam etdirməyi planlaşdırır. Bunun üçün də rəhbər vəzifələrdə işləyən, ziyalı, maarifpərvər türk-müsəlman xalqlarının nümayəndələri ilə görüşür, onların yaratmış olduğu gizli təşkilata yardım edir.

1926-cı ilin iyulunda Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarlar Soveti sədrinə müavin təyin edilir. O, 1927-1930-cu illərdə Türküstan-Sibir Dəmiryol Çəkilişinin Yardım Komitəsinə rəhbərlik etdiyinə görə tez-tez Qazaxıstana gəlməli olur.

Turar Rıskulovun həyatı 1929-cu ildə tükdən asılı vəziyyətdə olur. Tatar komministi və dövlət xadimi Mirsaid Soltanqaliyevi pantürkzmdə suçlayıb həbs edəndə onun məsləkdaşları sırasında Turar Rıskulovun da adı çəkilir. Turar Rıskulov isə 1929-cu ildə "İzvestiya" qəzetində bir məqalə çap etdirir. Orada göstərir ki, yanlışlığa yol verib, kommunist partiyasının siyasətindən uzaqlaşıb. Bu etirafına görə, ya da hər hansı başqa səbəblərdən dolayı Turar Rıskulovu vəzifədən azad edib, həbsxanaya göndərmirlər.

Turar Rıskulov iş yerini tez-tez dəyişdiyindənmi, yoxsa nə səbəbdənsə bir neçə dəfə evlənməli olur.

Onun ikinci evliliyindən, Nadejda Konistantinovna Puşkarevadan (1902-1976) olan nəvəsi Vladimir Rıskulov yazır ki, babası Turar birinci dəfə Türküstan general qubernatoru Vladimir Pavloviç Kolosovskinin qızı Tatyana ilə evlənib. Ondan Aleksandir (İsgəndər) adlı bir oğlu olub. Tatyana boşandıqdan sonra uşağı Aleksandrı (İsgəndər) anası Varvara Valeryanovnanın yanında qoyub başqa ərə gedib.

Aleksandir (İsgəndər) atası həbs ediləndə 10-cu sinifdə oxuyurmuş. Atasından xəbər tutmaq üçün Mockvadakı Lubyanki həbsxanasına gedib. KGB işçiləri onun Turar Rıskılovun oğlu olduğunu bildikdə həbs ediblər və Arxangelskdəki həbsxanalardan birinə göndəriblər. Orada vərəm xəstəliyinə tutulub. Həbsdən buraxılsa da yaşaya bilməyib. 1940-ci ildə dünyasını dəyişib.

Vladimir Rıskulovun anası Maya da təqiblərdən qurtula bilməyib. İkinci Dünya Savaşından sonra həbs edilib və İ.Stalinin ölümündən sonrakı illərdə həbsdən azad edilib.

Vladimir Rıskulovun Sofiya adlı bir xalası da olub.

Vera İvanovna adlı qadından da Turar Rıskulovun May adlı bir qızı olub. Anası onu da atıb başqa ərə-çar generalı L.M. Mordovskiyə gedib.

Turar Rıskulov Türküstanın iqtisadi cəhətdən inkişafına diqqət yetirməklə kifayətlənmirdi. Qazax gənclərinin təhsil almalarına, rəhbər vəzifələrə irəli

çəkilmələrinə də diqqət yetirirdi. O, 1928-ci ildə Almatıya növbəti gəlişində qazaxların birinci ali təhsilli mühəndisi, 1918-ci ildə qazaxlar üçün milli dövlət quran və ona müvəqqəti rəhbərlik edən, Sovet hakimiyyəti illərində Türküstan-Sibir dəmiryolunun çəkilişində müxtəlif rəhbər vəzifələrdə işləyən Muhammetjan Tınışpayevin oğlu İsgəndəri də Moskvaya Kinomotoqrafiya İnstitutunda oxumağa göndərir ki, ali təhsilli kino operator olsun. 1929-cu ildə Almatıya növbəti gəlişində İsgəndər Tınış-payevin vasitəsilə şəhərin ən gözəl qızlarından biri, 18 yaşlı Əzizə (06.08.1911-06.06.1988) ilə tanış olur və bir könüldən min könülə ona vurulur.

Əzizənin ailəsi şəhərin ən nüfuzlu ailələrindən sayılırdı. Atası Kazan Baytarlıq İnstitunun məzunu, milliyətcə qazax olan Tubek İsenqulov, anası isə milliyətçə tatar olan Arifə Ataulla qızı Mineyeva idi. Onlar Almatıya 1922-ci ildə gəlmişdilər. Əzizənin atası İskəndərin atası Muhammetjan Tınışpayevlə dost idi və eyni sahədə Türküstan-Sibir Dəmiryolu Tikintisində çalışırdılar. Tubek İsenqulov Türküstan MSSR Baytarlıq İdarəsinin və Türksib Dəmir Yolu Baytarlıq İdarəsinin rəsisi işləyirdi.

Turarın Əzizə ilə tanışlığından sonra onların məktublaş-ması başlayır və bu yazışma 1931-ci il oktyabrın 24-də Mos-kvada nigahla başa çatır. 1929-cu ildə Almatıdakı Zoobay-tarliq Texnikumu bitirən Əzizə baytarlıq instituna qəbul olunur. Lakin ailə

qurduğuna, əri də Moskvada işlədiyinə görə təhsilini Moskvadakı Zoobaytar İnstitutunda davam etdirir. Oranı 1935-ci ildə bitirdikdən sonra Moskva Baytarlıq Akademiyasının mikrobiologiya kafedrasında kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlayır. Turar Rıskulovun Əzizədən 1933-cü ildə Saule, 1937-ci ildə isə Ridu adlı qızı olur.

Ataları həbs edildikdən sonra minbir məşəqqətlər çəksələr də Saule ali məktəbi bitirir, biologiya elmlər doktoru elmi adı alır, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasına akade-mik seçilir, Almatada yaşayır və 2013-cü ildə dünyasını dəyişir. Ridu isə Xarici Dillər İnstitututunu bitirir, Moskvada yaşayır və 2009-cu ildə dünyasını dəyişir.

Əzizə ailə qurmamışdan əvvəl böyük qardaşı Rəşid Mos-kvada Aviasiya məktəbini bitirmişdi. Atası isə 1930-cu ildə dünyasını dəyişmişdi. Əzizə Turarla evləndikdən sonra anası və qardaşları Moskvaya köçür. Ailə üzvləri tez-tez teatra, konsertlerə gedir, tanınmış partiya-sovet rəhbər işçiləri, elm və mədəniyyət xadimlərilə, xüsusən də Qazaxıstandan gələn qonaqlarla birlikdə bağ evində məclislər təşkil edirlər. Birlikdə yaşayır şən və firavan günlər keçirirlər. Lakin belə gözəl günlərin ömrü çox uzun olmur.

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının 16 və 17-ci qurultaylarına nümayəndə seçilən Turar Rıskılov 1927-ci il dekabrın 2-19-da Moskvada

keçirilən 16-cı qurultayda deyir ki, Rusiyadakı kəndlilər ilə Mərkəzi Asiyadakı dixanların (əkinçilərin) vəziyyətini eyniləşdirmək olmaz. Mərkəzi Asiya hələ də çar Rusiyasının kolonial rejiminin izlərini özündə daşıyır. Mərkəzi Asiyada Mosbüronun rəhbəri və Türküstanın idarəçisi olaraq o, konkret olaraq Türküstanın birliyi məsələsini ortaya qoyur. O, Türküstanın türk dilli xalqlarının eyni millət olduğunu, tarixən bölündüyünü, ayrı düşdüyünü sübut etdi. Onu pantürkizmdə günahlandırdılar. Turar haqlı idi. Ancaq onun belə prinsipial mövqeyi pariyanın məqsədlərinə xidmət etmirdi. Turar Rıskulovun



2009-cu ilin deka-brında Çimkənddəki Jibek Jolu və Turar Rıskulov küçələrinin kəsişdiyi yerdə Turar Rıskulova ucaldılmış heykəl. Heykəltaraşlar çimkəndli Dauren Albekov və Nasır Rustamovdur.

dürüstlüyünü və prinsipiallığı bir çoxlarını qıcıqlandırırdı.

Turar 1937-ci il may ayınadək RSFSR Xalq Komissarları Soveti sədrinin müavini vəzifəsini yerinə yetirir. May ayının 21-də isə onu Kislavodskdəki sanatoriyada həbs edirlər. Ondan bir az əvvəl, 1937-ci il yanvarın 26-da həmin yerdə əqidə və məsləkdostu professor Bəkir Çobanzadəni həbs etmişdilər.

Ağır və işgəncəli istintaq öz təsirini göstərir. Turar Rıskulov keçmiş Rusiya imperiyası ərazisindəki türk-tatar xalqlarını Sovet əsarətindən qurtarıb Vahid Türk-Tatar Dövləti qurmaq məqsədilə gizli təşkilat yaratdıqlarını, bu təşkilatın üzvləri və onların planları haqqında istintaqa geniş bilgi verir. Bu bilgilər də onun və məsləkdaşlarının güllələnməsi haqqında qərar çıxarmağa kifayət edir.

1938-ci il fevralın 10-da Turar Rıskulovu da Moskva vila-yətindəki Kaluqa şossesinin 25 kilometirliyində, DTK-nin (KQB) "Kommunarka" adlandırdığı yerdə güllələyirlər. Memorial fondu 1999-cu ildə "Kommunarka"da 4,5 min nəfər siyasi xadimin güllələndiyini müəyyənləşdirir.

Turar Rıskulovun həbsindən sonra 26 yaşlı xanımı Əzizəni, 20 yaşıl qayını Şamili, 50 yaşlı qaynanası Arifəni də cəsusluqda suçlayıb həbsxanalara göndəririlr.

Turar Rıskulov güllələnsə də, istintaqa verdiyi bilgilər xalqımızın mübariz oğullarının ömür yoluna işıq saçır.

Onun adının əbədiləşdirilməsi üçün Qazaxıstandakı Qazax İqtisad Universitetinə, bir rayona, ölkənin bir çox şəhərində küçələrə onun adı verilmiş, əsərləri çap edilmişdir.

Turar Rıskulov haqqında hazırlanmış verliş TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il noyabrın 29-da, saat 12.14-də efirə getmişdir

SOVETLƏRİN SƏUDİYYƏ ƏRƏBİSTANINDA SƏFİR KİMİ İSTİFADƏ EDİB SONRA MƏHV ETDİYİ NƏZİR TÖREKULOV



Nəzir Terekulov (1892-1937) (نظير تئرئكولوو, qaz. Həzip

(Həzim) Төрекұлұлы Төрекұлов, rus. Назúр Тюрякýлович Тюрякýлов (Торекýлов) https://ali-shamil.tr.gg/N%26%23601%3Bzir-T.oe.r%26%23601%3Bqulov.htm

Nəzir Törekulovun adını bəzən Nəzim kimi də yazırlar. Törequl isə onun atasının adıdır ki, sonradan soyadı kimi işlədilməyə başlanmışdır. Rusdilli qaynaqlarda isə onun adı Nazir, soyadı Törekulov, Tyurekulov kimi yazılır. Onun 1892-ci ildə Fərqanə vilayəti-nin Kokand şəhərində pambıq tacirinin ailəsində doğuldu-ğunu yazırlar. Lakin indiki Qa-zaxıstan Respublikasının Türkmənistan şəhəri yaxın-

lığındakı Kandaz kəndində doğulduğunu yazanlar da var.

Kokand şəhərində məhəllə məktəbində, yəni mollaxanada oxuduqdan sonra mədrəsədə təhsilini davam etdirmişdir. Atası Törequl rus dilinə tələbin gündən-günə artdığını görüb oğlunu bölgədə rus-tuzem məktəbi adlanan təhsil ocağına göndərir. Oranı bitirdikdən sonra, 1905-ci ildə Kokanddakı ticarət kadrları hazırlayan məktəbə daxil olur. Səkkiz il burada oxuduqdan sonra müxtəlif sahələrdə çalışır.

1914-cü ildə isə Moskvaya gedərək İqtisad İnstitutuna qəbul olunur. Qazax və rus dillərini mükəmməl bilən, ərəb və fars dillərindən, islam dini və tarixindən, türk ləhcələrindən xəbərdar olan Nəzir təhsil illərində fransız və alman dillərini də öyrənir.

Rusiyada baş verən qarışıqlıq Türküstana da öz təsirini göstərir. Vətəninin ağır durumda olduğunu görən Nəzir təhsilini yarımçıq qoyaraq, 1916-cı ildə Kokanda qayıdır.

Nəzir Törekulov millətinin alçaldılmasına və kölə halına salınmasına dözə bilmir. Xalqını azad və xoşbəxt görmək üçün yollar axtarır. Rusiya Sosial Demokratlarının irəli sürdüyü şüarlar, dünyanı dəyişmək istəkləri ona çox şirin gəlir. “Azad torpaq” adlı dərnək qurur.

1917-ci ilin fevralında çar İkinci Nikolayın hakimiyyətdən uzaqlaşdırılması, oktyabrın 25-də bolşeviklərin zor gücünə hakimiyyəti ələ keçirib

ölkəni vətəndaş mühribəsinə sürükləməsi Türküstanda da vəziyyəti ağırlaşdırır. Əsarət altına düşmüş qazax, qırğız, özbək, türkmən və b. xalqların bir qrup öndə gedəni vəziyyətdən istifadə edərək müstəqil döv-lətlərini qurmağa can atırlar. Sosial ədalət şüarının şirinliyinə aldanmışlar isə Rusiyanın müxtəlif siyasi təşkilatlarına daxil olmaları xalqlarının müstəmləkə zülmü altında qalmasına şərait yaradır.

Nəzir Törekulov da belələrindən olur. O, 1917-ci ildə qısa adı eser olan Rusiya Sosialist İnqilabçlıar Partiyasına daxil olur. 1901-ci ildə yaradılan bu partiyanın liderleri Biktor Çernov, Nikolay Avksentyev, Boris Savinkov idi. Eserlər 1917-ci ildə İkinci Nikolay taxtdan salınıb, Müvəqqəti Hökumət quru-landa həmin hökumətə daxil olurlar. 1917-ci ilin yayında Eserlər Partiyasından Sol fraksiya ayrılaraq sol eserlər partiyasını yaradır.

1918-ci ildə Nəzir Törekulov Müvəqqəti Hökumətin Kokand Sovetinin İcraiyyə Komitəsinə katib seçirlər və həmin günlərdə Kokanddakı Sol Eserlər Partiyasına sədrlik edir.

Müvəqqəti Hökumət Rusiyada seckili orqan-Müəssislər Məclisi yaratmağı planlaşdırır. 1917-ci ilin noyabr-dekabrında Müəssislər Məclisinə seçkilər baş tutur. Lakin ucqarlarda seçkiləri başa çatdırmaq 1918-ci ilin yanvarında mümkün olur. 1918-ci il yanvarın 5-də (yeni təqvimlə 18-də – ***Ə.Ş.***)

Müəssislər Məclisinin iclası başlayır. Rəhbər heyətə seçkilər zamanı bolşeviklər azlıqda qaldıqlarını görüb toplantı keçirilən binanı mühasirəyə alır və seçkinin nəticələrinin elan olunmasına imkan vermirlər. İki gün sonra isə Ümumirusiya Mərkəzi İcraiyyə Komitəsi Vladimr Leninin məruzəsi əsasında Müəssislər Məclisinin buraxılması haqqında dekret verir. Məclisdə çoxluq təşkil edən eserlər, kadetlər və b. partiyalara qarşı təzyiqlər başlanır. Bundan sonra Nəzir Törekulov Eserlər Partiyasından çıxıb, 1918-ci ilin sentyabrında Rusiya Kommunist (bolşeviklər) Partiyasının sıralarına daxil olur və Qızıl Ordu adlandırılan silahlı dəstələrdə xidmət etməyə başlayır.

Nəzir Törekulovun bu xidmətlətini nəzərə alan bolşeviklər onu müxtəlif rəhbər vəzifələrə işə göndərirlər. 1918-19-cu illərdə Kokand İnqilab Komitəsinin katibi, Fərqanə Vilayət İnqilab Komitəsinin üzvü, maarif komissarı, xalq təhsil şurasında şöbə müdirinin müavini işlədikdən sonra onu bolşeviklərin müsəlman bürosunun Daşkənddə nəşr olunan "İştiratiyyun" qəzetinə redaktor göndərirlər.

Lakin bu vəzifədə də çox saxlamırlar. 1920-ci il iyulun 19-da onu Türküstan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Müvəqqəti İcra Bürosuna sədr təyin edirlər. Bu vəzifədə cəmi bir ay iyrimi dörd gün işlədikdən sonra başqa işə keçirirlər.

Kadr çatışmazlığına görə Nəzir Törekulov eyni vaxtda bir neçə vəzifəni yerinə yetirməli olur. 1922-ci ilədək onu Türküstan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitənin məsul katibi, Rusiya Kommunist (bolşeviklər) Partiyası Orta Asiya bürosunun üzvü, Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsi Türküstan Komissiyasının üzvü, Türküstan Müxtar Sovet Sosialist Respublikasının təhsil naziri, Hərbi İnqilab Şurası Türküstan Cəbhəsinin üzvü, Türküstan Muxtar Sovet Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsinin sədri vəzifələrində görmək olur.



Nəzir Törekulov qızı Anellə birlikdə

Kokandda "Xalq" qəzeti çıxaran, "İnqilab", "Həqiqət", "Elm ocağı", "Türkmən yurdu" və b. jurnallara redaktorluq edən Nəzir Törekulov həm də bir jurnalist kimi formalaşır. Məqalələrində xalqının kasıb təbəqələrini iqtisadi sıxıntıdan, yoxsulluqdan qurtarmaq üçün yollar axtarır. Bolşeviklərin fitvasına uyaraq Fərqanə vadisinin varlılarını və ağıllı adam-larını kütləvi surətdə həbs etdirir. Kasıb və yoxsullar

onun bu hərəkətini sevinclə qarşılayır, onu qəhrəman kimi alqış-layırlar.

Amma vəziyyət getdikcə gərginləşir. İdarəçilik bacarığı olmayan yoxsullar varlılardan alınıb onlara verilmiş təsərrüfatları idarə edə bilmirlər, əllərindən var-dövləti alınmışlar isə hökumətdən narazı qalırlar.

Nəzir Törekulov kasıb və yoxsulların övladlarını oxut-mağa, savadsızlığın aradan qaldırılmasına ciddi diqqət yetirir. Əhalinin böyük əksəriyyətinin savadsız olmasının səbəbini iqtisadi çətinlikdə, çar Rusiyasının yeritdiyi siya-sətdə deyil, ərəb əlifbasında görür.

Rusiya Kommunist Partiyası Orta Asiya bü-rosunun, Türküstan Hərbi İnqilab Komitəsinin üzvü olarkən ərəb əlifbasının latın əlifbası ilə əvəzlənməsi üçün əlindən gələni əsirgəmir. Hətta bir müddət əlifba komitəsinə də rəbərlik edir.

1922-ci ildə Alaş Ordaçılar bolşeviklərin təqib, təhqir və təzyiqlərinə dözə bilməyib üsyan qaldırırlar. Üsyanın yatırıl-ması üçün minlərlə insan öldürülür, həbs edilir, sürgünə göndərilir, evindən-eşiyindən didərgin salınır, xarici ölkələrə qaçmağa məcbur edilir.

Moskvadan üsyanın qarşısını vaxtında ala bilmədiklərinə görə milli kadrların bir çoxunu bölgədən uzaqlaşdırmaq məqsədilə mərkəzə – göz önünə gətirir və ya Rusiyanın müxtəlif yerlərinə göndərir. Nəzir Törekulovu da 1922-ci ildə Moskvaya – Mərkəzi Şərq Xalqları Nəşriyyatı İdarəsinə di-

rektor təyin edirlər. Ona həm də müsəlman türk xalqlarını ərəb qrafikalı əlifbadan uzaqlaşdırılıb latın qrafikalı əlifbaya keçmlərini təşkil etmək tapşırılır. O, latın qrafikalı yeni türk əlifbasının layihəsini hazırlayanlardan olur.

1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultaya gələn Nəzir Törekulov toplantıda olduqca fəallıq göstərir. Ərəb qrafikalı əlifbanı islah etməklə yeni türk əlifbası yaratmaq istəyənlərin məntiqli çıxışları qarşısında əsaslı dəlillər gətirə bilmədiyindən onlara yumşaldıcı, elmi deyil, siyasi məzmun-lu cavablar verir. O, deyir ki, əlifbamızı dəyişdirmək dün-yanın sonu gəldi demək deyil. Hamınızın gördüyünüz kimi, yeni hərflər gündən-günə geniş yayılır və ozünə çoxlu tərəfdar tapır. Bizim ruhumuza uyğun, ehtiyaclarımızı qarşılayacaq yazı ərəb hərfləri deyil, latın qrafikalı əlifbadır.

Ehtiyaclara cavab verə biləcək, çağdaş, mədəni, texniki olaraq hadisələrə cavab verə biləcək əlifba latın əsaslı türk yazısıdır. Bu yazı Qərbin elm və texnologiyasını qəbul etməkdə bizə köməklik göstərəcək. Bizim əski yazını dəyişdirmək istə-məmizin ən önəmli səbəblərindən biri budur.

Nəzir Törekulovun vətənsevərliyi, millətinin savadlanması və təşkilatlanması üçün bir çox işlər görməsi müstəmləkəçilərin xoşuna gəlmir. Bol-şeviklər hakimiyyətlərini mökəmlədənə kimi bu tip kadrları özlərindən narazı salmamağa çalışırdılar.

Onlardan bacarıqla da istifadə etdilər. Sonra isə onları "rəhbər vəzifəyə irəli çəkirik" adı altında vətəndən uzaqlaşdırırdılar.

Nəzir Törekulov Moskvada işlədiyi beş il ərzində milli dillərdə onlarla dərslik, elmi kitab, jurnal və s. çap etdirməyə nail olur.

1928-ci ildə onu SSRİ Xarici İşlər Komissarlığında işləməyə göndərirlər. Ata-babası müsəlman olan, özü də gəncliyində islami dəyərlərə sadiq, mədrəsə təhsilli Nəzir Törekulovu həmin ilin iyulunda Səudiyyə Ərəbistan Kırallığının Hicaz və Necd şəhərinə diplomatik agent və baş konsul təyin edirlər. Bu təyinat birbaşa İ.Stalinin tərəfin-dən verilməsinə baxmayaraq, onun Sədiyyə Ərəbistanına gəlişi 8 aya yaxın çəkir.

Heç bir diplomatik təcrübəsi və bu sahədə təhsili belə olmayan Nəzir Törekulov təcrübəli sovet diplomatı Kərim Həkimovdan az vaxt içərisində çox şey öyrənir.1932-ci ilin mayında onu Kərim Həkimovun yerinə səfir təyin edirlər. Nəzir Törekulov qısa müddətdə Səudiyyə Ərəbistanının kralı Əziz Abdunun diqqətini özünə çəkir. Kralın övladları da ona böyük etimad göstərir və sevirlər. Kral Əziz Abdunun ya-nında böyük nüfuza malik Türkiyə səfiri Seni bəy ölkəsinə qayıtdıqdan sonra onun yerini Nəzir Törekulov tutur.

Diplomat şəxsi nüfuzundan istifadə edərək Rusiya ilə Səudiyyə Ərəbistanı arasındakı ticarət əlaqələrini

inkişaf etdirir və canlandırır. O, Moskvaya göndəriyi məktublarda Qırmızı dəniz ətrafındakı ölkələrlə ticarətin vacibliyini dəfələrlə vurğulayır. İxtisasca iqtisadçı olan Nəzir Töreku lovun iqtisadi məsələlərə çox önəm verməklə SSRİ-nin dirçəlməsinə yardım göstərdiyini düşünür.

O, 1932-ci ilin mayında Səudiyyə Ərəbistan Kırallığının şahzadəsi Feysəl ibn Əbdül Əziz əs-Saudun Moskvaya səfərini yüksək səviyyədə təşkil edir. Lakin onun uğurları monarxiyaya düşmən gözlə baxan, hər bir işə ideoloji yanaşan, dünyaya proletar inqilabını yayacaqlarını düşünənlərin heç də xoşuna gəlmir. Onların fikrincə, proletar diktaturası qurmuş, sosializmə doğru "sürətlə irəliləyən" bir ölkənin monarxiyalarla, xüsusən Şərq şahları və kralları ilə heç bir xoş münasibəti ola bilməz. Onlar ideoloji məsələlərə daha çox önəm verir, səfirdən az qala Səudiyyə Ərəbistanını ateist bir dövlətə çevirməsini istəyirlər.

Nəzir Törekulov dəfələrlə şəxsi nüfuzundan istifadə edərək SSRİ ilə Səudiyyə Ərəbistanı Krallığı arasında gərginləşən münasibətləri yoluna qoya bilir. Lakin SSRİ xarici işlər nazirinin müavini Lev Qaraxanovun Türkiyəyə səfir göndərilməsilə Nəzir Törekulovun vəziyyəti pisləşir.



Nəzir Törekulov Səudiyyə Ərəbistanında səfir işlərkən. Nəzir Törekulovun sağındakı Səudiyyə Ərəbistanının kralı Əziz Abdundur.

1934-35-ci illərdə Nəzir Törekulov Səudiyyə Ərəbistanında səfirlik etdiyi halda, demək olar ki, heç bir iş görə bilmir. Nəhayət, 1935-ci ilin sonlarında Nəzir Törekulovu "başqa işə təyin edilməsi" adıyla Moskvaya çağırırlar. Onu Leninqiraddakı (Peterburq) Şərq Xalqları İnstitunda işləməyə göndərirlər. Az sonra isə Nəzir Törekulovu Moskvadakı Şərq Xalqlarının Dili və Yazısı İnstituna gətirirlər.

Sovet İttifaqı ciddi cəhdlə İkinci Dünya Savaşına hazırlaşdığından ölkə daxilindəki etibarsız saydığı, müxalif gördüyü insanlardan xilas olma planları hazırlayır. Beləcə kütləvi həbslər başlanır. Həbsə alınanlar arasında bir neçə xarici dil bilən, mədrəsə təhsili görmüş, müsəlmanların dini mərkəzi – Məkkənin yerləşdiyi ölkədə səfir olmuş, dərin zəkalı və millətsevər Nəzir Törekulovun həbsdən xilas ola bilməsi mümkünsüz olur.

Uzun-uzadı istintaqdan sonra onu xarici ölkələrə casusluqdan tutmuş Trotskiçi qrupun üzvu olduğuna və türkçü terrorist qrupun başçıları və üzvləri ilə sıx əlaqə qurmağa kimi müxtəlif cinayətlərdə suçlayaraq, 1937-ci il iyulun 15-də həbs edirlər.

O dövr üçün qısa sayıla biləcək bir istintaqdan sonra ok-tyabrın 3-də (başqa bir varianta görə noyabrın 9-da) güllələyirlər. Onun edamından sonra qohum-əqrabası sürgün edilir, arvadı Nina Aleksandrovna Törekulovaya 5 il həbs cəzacı verirlər.

Nəzir Törequlovun harada və neçə öldürüldüyü haqqında bilgimiz yoxdur. Bildiyimiz odur ki, Anelin ata-anası cəzalandırıldıqdan sonra Sovet rejimi onu Moskvadakı Aviasiya Materialları İnstitunun gizli labaratoriyalarında işlədib. Daimi nəzarətdə saxlamaq üçünmü, yoxsa əldə etdiyi uğurlara görəmi Kremlin yaxınlığında, Moskva çayının sahilindəki Serafimovic küçəsindəki 2 saylı binadan mənzil də veriblər. Labarantlıqdan baş mühəndisliyə kimi yüksələn Anel

Nəzir qızı Kokoşvili 2003-cü ilin fevralın 22-də dünyasını dəyişib. Ölümündən sonra vəsiyyətinə görə onu atasının vətəni Türküstanda müsəlman kimi dəfn ediblər. Bununla Törekulovların Nəzir xəttindən gələn soyağacı kəsilib. Törekulovlar nəslində qalan isə Nəzirin qardaşı Qədirin nəvəsi Elyar Törekulov(Musabayovdur). O, hazırda Kokandda yaşayır.

Nəzir Törekulovun ölümündən iyrimi il sonra, yəni Sov.İKP-nin 20-ci Qurultayından sonra onun suçsuz olduğu elan edilir. Əslində bu cəmiyyətdə bir sakitləşdirici addım kimi düşünülmüşdü. Bütün günahlar İosif Stalin və onunla birlidə çalışmış Lavrenti Beriyanın adına yazıldı. Həmin dövürdə rəhbər vəzifələrdə işləyən, "xalq düşməni" palanını artırılmasını istəyən Nikita Sergeyeviç Xoruşşov kimiləri isə vəzifələrini daha da yüksəltdilər. Neçə deyərlər, hay-harayla, təbliğatlar, hakimiyyətdə bəzi yumşalmalara nail olmaqla Sovetlərin ömrünü 40 ilə yaxın uzatmış oldular.

Xalqına işıqlı gələcək vermək üçün kommunistlərə qoşulan insanın ömrü faciə ilə başa catır. Onlar haqqında həqiqətlər isə Sovetlər Birliyi dağıldıqdan sonra aşkara çatdı.

Nəzirin qardaşı Qədirin qızı Saidin təkidli şikayət və yazışmalarından sonr Kokandda Nəzir Terekulovun adına 1974-cü ildə küçə verilib. Sovetlər Birliyi dağıldıqdan sonra Türküstanda Nəzir Törekulovun yubileyi təntənə ilə qeyd edilib, muzey və

fond yaradılıb, Qazaxıstanda və Özbəkistanda bir neçə orta məktəb onun adı ilə adlandırılıb, üzərində rəsmi olan poçt markası hazırlanıb. Qazaxıstan hökümətinin fərmanı ilə 2003-cü ilin yanvarın 20-də Nəzir Törekulovun şərəfinə "Kazaxıstan Respublikasının ən çevik xarici siyasətini yürüdən" medalı təsis olunub.

Səduyə Ərəbistanının kıralı da Nəzir Törekulava şükranlıqlarını bildirmək üçün Türküstanda məscid tikdirib.

Nəzir Törekulava haqqında hazırlanmış verliş TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2010-cu il noyabrın 25-də, saat 12.14-də efirə getmişdir

ŞƏKƏRİM KUDAYBERDİYEV

Şəkərim Kudayberdiyev, (شكريم كودايبئردىئو, qaz. Шәкәрім Құдайбердіұлы, rus. Шакарим Кудайбердиев (1858-1931) https://ali-shamil.tr.gg/%26%23350%3B%26%23601%3Bk%26%23601%3Brim-Kudayberdiyev.htm



Şəkərim Kudayberdi ulı Kudayberdiyev 1858-ci il iyulun 11-də Semplatinski qəzasının Genbulaq aulunda doğulub. Qazax-qırğızlar arasında məşhur olan Arqın tayfasının Tobuktılar nəslindən Kudayberdinin oğlu, Kunanbayın nəvəsidir. İndi bu kənd Doğu Qazaxıstanın Abay rayonuna daxildir.

Şəkərimin 5 yaşı olanda atası onu kənd mollasının yanına oxumağa göndərir və özü isə oğlunun yaxşı təhsil almasının qayğısına qalır. Kudayberdi Şəkərim 7 yaşında olanda dünyadan köçür. O, babası Kunanbayın ailəsində böyüyür.

Şəkərimin təhsili və tərbiyəsinə əmisi, qazaxların böyük şairi və cədidçisi Abay diqqət yetirməli olur.

Abay onun onun dünyagörüşünün formalaşmasına yardımçı olur.

Abayın evinə aydınlar toplanarmış. Burada söhbt yalnız elmdən sənətdən, musiqidən getmirmiş, ovçular, pəhlivanlar, qılınc oynadanlar, ox atanlar da təcrübə mübadiləsi edirlərmiş.

Buna görə də Şəkərim kiçik yaşlarından at minməyi, at çapa-çapa hədəfi vurmağı, şahini əhilləşdirib onunla ov etməyi öyrənməklə yanaşı, dombrada, qarmonda, şarmankada, skripkada çalmağı, musiqi alətləri düzəltməyi, rəsm çəkməyi, daş yonmağı, dəri aşılayıb ondan geyim hazırlamağı də öyrənir.

Gənc yaşlarından ədəbiyyata, tarixə, fəlsəfəyə, xüsusən fizikaya böyük maraq göstərir. Mədrəsə, universitet təhsili görməsə də Abay ailəsinə gəlib-gedənlərdən öyrəndikləri onu bir araşdırıcı, ictimai xadim kimi formalaşdırır. Doğu filosoflarının, xüsusən sufilərin təsiri altında özünübərk, həqiqət axtarışına başlayır. Bu axtarışlar onu ictimai işlərdə fəal iştirak etməyə haəvəsləndirir. Gəncliyində siyasətlə maraqlanır, İslam və Roma hüququna dairə bilgilər əldə edir.

20 yaşlarında Rusiyanın təşkil etdiyi qəza idarəsində məmur işləmək üçün namizədliyini də irəli sürür. Rus məmurları onu böyük həvəslə işə götürürlər. Diribaş, aydın görüşlü gənc olan Şəkərim müstəmləkici məmurların əsarət altındakı xalqlardan virgi toplamaqla, qayda-qanuna nəzarət etməklə

qalmadıqlarını, hakimiyyətə təhlükə yaratmasınlar deyə tayfalar, nəsillər arasına nifaq toxumu da səpdiklərini görür.

Gəncliyində maarifçi demokratların təsir altında olan Şəkərim Kudayberdiyev türk, ərəb, fars, rus dillərini dərindən öyrənir. Semipalatinskidən, Omskdən, Orenburqdan kitablar, qəzet və jurnallar gətirdib oxuyan Şakərim görür ki, oxuduğu kitablar onu qane etmir. Səyyahətə çıxır, getdiyi yerlərdəki savadlı, müdrik, yaşadıqları bölgənin tarixini, mədəniyyətini, təbiətini dərindən bilən insanlarla söhbətlər edir, onlardan öyrəndiyini yaddaşına köçürür.

Hafizin, Fizulinin, Nəvainin, Bayronun, Puşkinin, Lermontovun, Nekrasovun, Tolstoyun əsərlərini təhlil edə-edə oxuyur. Sonra da Aleksandır Puşkinin "Dubroviski" haqqında hekayələrini, "Tufan" əsərini nəzmlə, Lev Tolustoyun "Asarxidon", "Üç sual", "Çar Krez" hekayələrini, Biçer-Stoyun "Tom dayının koması" povestini nəsrlə qazax dilinə çevirərək ana dilinin zənginliyini göstərməyə çalışır.

Batı Avropa filosoflarından Oqyust Kont və Artur Şopenqfuerin fəlsəfi əsərlərini dönə-dönə oxusa da sufilərin yaşam tərzi, mənəviyyatı, dünyagörüşü onu daha çox özünə çəkir.

Türküstanın və Sibir Türklərinin tarixini dərindən öyrənməyə çalışan, soydaşlarının taleyi üçün narahat olan, xalqının azadlığı və xoşbəxtliyi yollarını axtaran gənc vətənpərvər bədii yaradıcılığa nisbətən geç

başlayır. 1891-ci ildə “Enlik-Kebek” və “Kalkaman-Mamır”, 1908-ci ildə “Leyli-Məcnun” poemalarını yazır.

Elm və marif sahəsindəki fəaliyyətinə görən 1903-cü ildə Rusiya İmperator Coğrafiya Cəmiyyəti Batı Sibir şöbəsinin üzvlüyünə qəbul edilir.

1906-cı ildə hac ziyarətinə yola düşən Şəkərim Kudayberdiyev uzun bir yolçuluq keçir. O, sadəcə Məkkəyə gedərək hac mərasimində iştirak edib geri qayıtmır. Qahirədəki, İstanbuldakı kitabxanalarda olur, onu maraqlandıran kitabları oxumaqla kifayətlənmir, diqqətini çəkən kitabları alaraq poçt vasitəsilə Semipalatinskiyə göndərir. Məkkədə və Doğunun mədəni mərkəzlərində islam aləmini nüfuzlu aydınları ilə görüşərək onlarla fikir mübadiləsi edir.

Stolipin irticası adlandırılan illərdə hökümətin baş nazirinin verdiyi qərarların əleyihinə çıxan Şəkərim Kudayberdiyev xüsusən Ruslyanın mərkəzi vilayətlərindəki aztorpaqlı Rus kəndlilərinin Qazaxıstana göndərilməsilə, qazaxların məhsuldar torpaqlarının zorla əllərindən alınaraq Rus mujiklərinə verilməsi ilə heç cür barışa bilmir. Onun dünyagörüşünün formalaşmasında böyük rolu olmuş Abay və oğlanları Akılbayın, Maqayın ölümündən sarsılaraq tənhalığa çəkilir. Bir müddət zahidvari həyat sürür.

Birinci Dünya Savaşı başladıqdan sonra qazaxların güzaranının gündən-günə ağırlaşması hümanist şair-filosofu narahat edir. O, yenidən xalq

işərisinə qayıdır, millətinə dar gündə yardım etməyə çalışır. 1916-cı ildə çar İkinci Nikolayın orucluq ayında müsəlmanları arxa cəbhəyə işələtmək üçün səfərbərlik elan etməsinin əleyihinə baş verən üsyanı alqışlarla qarşılayanlardan olur. Üsyanın pərakəndəliyi və qan içində boğulması onu çox bədbinləşdirir.

1912-1922-ci illərdə Kenkonda yaşayan Şəkərim Kudayberdiyev çar İkinci Nikolayın taxtan salınıb Müvəqqəti hökümət qurulmasını da, milli qüvvələrin yaratdıqları Alaş Orda Hökumətini də alqışlarla qarşılamır. Vətənini azad və xoşbəxt görməyək istəyən şair-filosof mili qüvvələrin Rusiyanın tərkibində muxtariyyata nail olmaq istəkləri ilə barışa bilmir.

Bolşeviklərin, ağqıvardiyaçıların, dutovçuların toqquşmalarını xalqların xeyiri üçün deyil zərər kimi qiymətləndirir. Böyük vətənpərvər filosofun dediyi kimi də olur. İnsanları xoşbəxtliyə çıxaracaqlarını vəd edənlərin apardıqları savaşlar xalqa bədbəxtlik gətirir. Minlərlə insan öldürülür, yüzlərlə kənd və qəsəbə xarabalığa çevrilir.

1913-1924-cü illərdə "Abay", "Aykap", "Şolpan" jurnalları və "Kazak" qəzeyi ilə əməkdaşlıq edən Şəkərim Kudayberdiyev yalnız tərcümələrini deyil, özünün bədii əsərlərini, cəmiyyətin müxtəlif problemlərinə münasibətini əks etdirən məqalələrini çap elətdirir. Din və fəlsəfə sahəsində uzun illər araşdırmalar apararaq "Qurani Kərim"in təfsirini

hazırlayır, "Müslümanlığın şərtləri" və "Üç hekayə" adlı kitablarını yazır. 1911-ci ildə nəşr etdirdiyi "Xanların şəcərəsi" kitabı qazax-qırğız xalqının tarixini öyrənmək istəyənlərə dəyərli qaynaq olur.

Filosof-şair, bəstəkar, rəssam Sovetlərin gəlişini də xoş qarşılamır. Onların yeritdiyi siyasət nəticəsində 1920-1921-ci illərdə Qazaxıstanı qıtlıq bürüyür. Minlərlə insan acından və yoluxucu xəstəlikdən məhv olur. Əsilzadələrin alçaldılması və təqibi başlayır.

Şairin "Unudulmuşun həyatı" avtobioqrafik poeması sadəcə fəlsəfi baxışlarını deyil, həm də qazax xalqının sanki səlnaməsini özündə əks etdirib.

Bütün bunlarda bədbinləşən şair-filosof 1922-ci ildə yenidən tənhalığa çəkilir. Çingiztaydayın Şapkan adlanan yerindəki ovçu evində yaşamağa başlayır. Onun bu hərəkatı Sovet məmurlarını olduqca rahatsız edir. "Ya bizdən ol, ya bizə qarşı ol!" süarı ilə yaşayan, sosialist inqilabını dünyanın hər yerinə yayacaqlarını, bununla insanları xoşbəxt gələcəyə-kommunizmə aparacaqlarını düşünənlər Şəkərim Kudayberdiyev kimi zəif saydıqları sufi-şairin onlara tabe olmamasını bağışlaya bilmirlər.

1928-ci ildə əhalinin malını-mülkünü əlindən alaraq, 1930-cu illərin kütləvi aclığını yaradan bolşeviklər Şəkərim Kudayberdiyevi yollarında bir əngəl görürdülər. Fikirləşirdilər ki, tabe etmək istədikləri insanların bir çoxu Şəkərim Kudayberdiyev

kimi hərəkət edə bilər. Odur ki, 1931-ci ilin oktyabrın 2-də onu öldürüb quyuya atmaqla kifayətlənmir, adının çəkilməsini, əsərlərinin oxunmasını da qadağan edirlər.

1958-ci ildə Şəkərim Kudayberdiyevə bəraət verilir. Lakin onu istintaqsız, məhkəməsiz güllələyənlərə, əsərlərini qadağan edənlərə heç bir cəza verilmir. Əsərlərindən yalnız Sovet senzurasından keçə bilənlərinin nəşrinə icazə verirlər.

Şəkərim Kudayberdiyevin əsərlərinə bəraət Sovet hökuməti yıxıldıqdan sonra verilir. Haqqında araşdırmalar aparılır, əsərləri Qazaxıstanda və Türkiyədə çap olunur. .

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il oktyabrın 10-da, saat 12.14-də efirə getmişdir.

MUHAMMETJAN SERALİN



Muhammetjan Seralin, (محمدجان سئرالين , qaz. Мұхамеджан Сералин, rus. Мухамеджан Сералин (1872-1929) https://ali-shamil.tr.gg/Muhammedcan-Seralin.htm

Muhammetjan Seralin 1872-ci ildə Stepnoy quberniyası Turqay qəzasının Kustanay şəhəri yaxınlığındakı Örnək aulunda doğulub. Üç yaşında ikən atasını itirdiyindən tatar olan anası oğlunu da yanına alıb Troisk şəhərinə köcmüşdür. Tanınmış tatar taciri və xeyriyyəçisi Molla Əhməd Yauşevlə bu ailənin yaxınlığı Muhammetjan Seralinin gələcək həyat yolunu müəyyənləşdirmişdir.

Belə ki, Molla Əhməd Yauşevin evi sanki bölgənin müsəlman millətsevərlərinin mərkəzi idi. Tatarlar da, başqırdalar da, qazaxlar da bu evdə toplanıb Rusiya işğalından xilas yollarını, millətlərinin gələcəyini müzakirə edidilər.

Öncə məhəllə məktəbində molla yanında təhsil alan Muhammetjan Seralin burada Quran-i Kərimi oxumağı öyrənir, səriətlə yaxından tanış olur, bir müsəlman kimi onun qaydalarına əməl edir. Həmin dövrün müsəlman məktəblərini tədris proqramı şagirdlərə ərəb, fars dilləri haqqında ilkin bilik verilməsinə, türk dilində yazıb-oxumalarına imkan yaradırdı.

Məhəllə məktəbini bitirdikdən sonra onu Troisk şəhərindədəki Beşinci Cümə Məscidinin nəzdində açılmış Rəsuliyyə mədrəsəsinə oxumağa göndərirlər. Rəsuliyyədə dərslər üsul-i qədim mədrəsələrindən fərqli tədris edilirdi. Çünki mədrəsənin yaradıcısı və müdərrisi olan Zeynulla Rəsulyev sxolastikanın əleyhinə idi. Qabdennasir Kursavi və Şiqabutdin Mərcani kimi islamı çağdaş zamana uyğunlaşdırmaq istəyən aydın pedaqoqların əsərləri bu mədrəsədə tədris edilirdi. Mərcani təlimi yeniyetmə Muhammetjan Seraline o qədər güclü təsir edir ki, ömrünün sonunadə onun təsiri altında qalır.

Muhammetjan Seralin Rəsuliyyə mədrəsəsini bitirdikdən sonra doğulduğu şəhərə, Kustanaya qayıdır və orada rus-qazax məktəbində oxuyaraq müəllim işləmək hüququ əldə etmiş olur. İslamı dəyərlərə sayqı ilə yanaşan, səriət qaydalarına əməl edən, rus dilini bilən gənc müəllimə soydaşları qayğı və hörmətlə yanaşır. O, İrqız bölgəsinin kəndlərinin birində məktəb açaraq müəllim işləməyə başlayır.

Şagirdlərinə yeni üsulla, yəni İsmayıl bəy Qaspıralının üsul-i cədid metodu ilə dərsə deyən gənc müəllim boş vaxtlarında bölgəni gəzir, oranın təbiəti, təbii sərvətləri, soydaşlarının yaşam tərzi ilə yaxından tanış olur. Neçə deyərlər bir növ özü üçün folklor, etnoqrafik ekispedisiyalar təşkil edərək materiallar toplayır. 1888-ci ildə hökumətun Stepnoy quber-niyasında qazax dilində açdığı "Dala Vilayeti qazeti"ndə ilk yazılarını çap etdirən Muhammetjan Seralin burada bir publisist kimi formalaşır.

Muhammetjan Seralin xalq akınlarından eçitdiyi çoxsaylı cırları (bayatı) əzbərləryir, onların təsiri ilə şeirlər yazmağa başlayır. Dövrün ictimai-siyasi hadisələrini diqqətlə izləməsi, qəzetləri və yeni çap olunan kitabları oxuması yaradıcılığına güclü təsir edir. Cırların təsiri altında ruslara qarşı qəhramanlıqla savaşıb şəhid olan son qazax sultanı Kenesarı Qasım ulunun həyatından bəhs edən "Top Carqan" adlı şeirlər kitabını 1903-cü ildə çap etdirir. Şeirlər romantik-qəhrəmanlıq ruhunda yazılsa da gənç şair Rusya təbliğatının təsindən qurtula bilmir. Şeirlər həsr etdiyi qəhramanını qazax xalqının azadlığı uğrunda savaşan mübariz kimi deyil, şəxsi mənfəəti naminə döyüşən cəngavər kimi tanıtmağa çalışır.

Muhammetjan Seralinnin 1901-ci ildə çap olunan "Gulqaşima" kitabında toplanan şeirlərində də müsəlmanların zamanla ayaqlaşa bilməməsindən doğan üzüntülərini dilə gətirir, xalq arasında adət şəkilində yaşayan pis əməlləri tənqid edir.

1903-cü ildə yenidən Troisk şəhərinə qayıdan Muhammetjan Seralin bir ara tacir Yauşevin yanında işləyir. Bu dövürdə daha çox qəzet, kitab oxuduğunu, müxtəlif dünyagörüşlü insanlarla söhbətlər etdiyini, İsmayıl bəy Qaspıralının ölümünə həsr etdiyi "Yeri dolmayan ölüm" şerində də dilə gətirmişdi. Yauşevin tapşırıqlarını yerinə yetirmək üçün tez-tez Qazaxıstanın, Başqırdıstanın müxtəlif bölgələrinə getməli olan gənc şair hökümətin işğalçılq siyasətinin müsəlman xalqlarını necə çıxılmaz vəziyyətə qoyduğunun şahidi olur. Rusiyanın mərkəzi quberniyalardan xristian kəndlilərinin Qazaxıstana köçürülməsinin, cəmiyyət üçün təhlükəli sayılanların bölgəyə sürgün edilməsinin arxasında hökumətin ruslaşdırma siyasəti durduğunu görür.

Muhammetjan Serali sürgündə olan inqilabçılarla görüşür, onların alovlu çıxışlarından, əqidələri yolunda dönməzliklərindən xoşlanır. Təşkilatlarının proqramlarında yazılanlar ona çox şinin gəlir. İnqilabçı Sosial Demokrat Partiyasının Kustanay təşkilatı ilə əməkdaşlıq edir. Elə düşünür ki, partiyaya daxil olmaq, orada fəal yer tutmaqla proqramda dəyişikliyə nail ola bilər. Hətta Birinci Dövlət Dumasına deputat da seçilir. Dumada hökumətin qazaxları xristianlaşdırmaq siyasətini tənqid də edir.

1905-ci ildə baş verən qarışıqlıqlar, hökumətə etimadsızlıq çar İkinci Nikolayı 17 oktyabr Manifestini imzalamağa məcbur etdi. Söz və vicdan azadlığına nisbi yol açan, qəzet və jurnalların nəşrinə

icazəni asanlaşdıran bu manifestdən sonra qazax öndərləri də təşkilatlanmağa, ana dilində hökumətə bağlı olamayan qəzet və jurnallarını nəşr etməyə başlayırlar. Muhammetjan Serali də imkandan yararlanaraq 1907-ci ildə Troisk şəhərində "Kazak" adlı qəzetin nəşrinə nail olur. Qəzetin iqilabi əhval-ruhiyyəsi və hökümət əleyhinə kəskin məqalələr çap etməsi çox qısa ömür sürməsinə səbəb olur. Elə həmin ilin martında bağlanır.

Muhammetjan Serali 1911-ci ildə "Aykap" adlı jurnalın nəşrinə icazə ala bilir. Jurnal qazax ictimai fikrinə güclü təsir göstərir. Burada Muhammetjan Seralinin mənsub olduğu cədidçilər hərəkatı ilə yanaşı Batıyanlıları də fəal iştirak edirlər. Batıyanlılar cədidçilərin Rusiyada yaşayan turk-müsəlman xalqlarının birliyinə nail olmaq istəyindən dönməyəcəklərini gördükdə onlardan ayrılaraq 1913-cü ildə "Kazak" qəzet nəşr etməyə başlayırlar.

Cəditçi qazax ziyalıları qazax tarixi haqqında araşdırmalarında soy-köklərinin türk olduğunu yazır və bu konsepsiyanın əleyhinə çıxanları faktlarla susdururlar. Muhammetjan Seralin "Aykap" jurnalında çap etdirdiyi bir məqaləsində qazaxların türk nəslindən gəldiyini, türk tarixinə də böyük cahangirlər, hökümdarlar və elm adamları vermiş olduğunu qürurla yazır.

Cədidçilərin hökumət tərəfindən sıxışdırması və Batıyanlıların arasındakı ziddiyətin dərinləşməsi

1915-ci ildə “Aykap” jurnalının bağlanması ilə nəticələnir.

1917-1919-cu illərin qarışıq günlərində Muhammetjan Serali xalqını demokratik dəyişikliklərdə fəal ştirak etməyə, bu yolda mübarizədə türk-tatar öndərləri ilə birgə hərəkat etməyə çağırır. Lakin baş verən dəyişikliklər ona da təsir edir. 1919-cu ildə Qazax İnsilap Komitəsinə üzv seçilir. Onu sosialist hökumətinin orqanı olan “Uçgun” qəzetinə redaktor təyin edirlər.

Muhammetjan Serali bolşeviklərin xalqlara azadlıq və xoşbəxtlik vədlərini təbliğ etməklə yanaşı qəzetdə turk xalqlarının birliyi mövzusunu da diqqətdən kənarda qoymur.

Bolşeviklərin 1923-1926-cı illərdə qazaxlar arasında təbliğatı gücləndirmək məqsəsilə nəşr etdikləri “Avıl” qəzetinə redaktorluk edən Muhammetjan Serali qəzetdə “Türkiyə Cümhuriyyəti” adlı geniş məqaləsini çap etdirir. Türküyə Cümhuriyyətinin elan edilməsi qazaxların çoxunu, xüsusən də dindarları bərk narahat etmişdi. Hər cümə günü məscidin minbərində xəlifə adından xütbə oxumağa alışmış mollalar böyük narahtlıq işərisindəydi. Belə qarışıq günlərdə xalqı sakitləşdirmək, onların Türkiyədə qurulan yeni hökumətə münasibəyini yaxşılaşdırmaq məqsədilə Serali yazırdı ki, Osmanlı dövlətinin yerində Türkiyə Cümhuriyyəti yaradılıb. Bu xəlifəliyin ləğvi demək deyil, sadəcə dinin

dövlətdən ayrılması deməkdir. Əslində bu Seralin və onun kimi düşünən ziyalıların arzusu idi.

Bolşeviklər hakimiyyətlərinin zəif vaxtında Muhammetjan Serali kimi milli kadırların hərəkatlarına güzəştə getməyə məcbur idi. Elə ki, müxalifəti məhv etməyə, etiraz edə biləcək gücləri aradan qaldırmağa nail olduqdan sonra loyal milli ziyalıları təqib etməyə, onlara təziq göstərməyə başladı.

Serali və onun kimilər də bolşeviklərin xalqlara azadlıq verəcəyi vədinin boşa çıxdığını, onlar da ruslaşdırma siyasəti yeritdiklərini gördükdə etiraz səslərini ucaltmaq istəyirdilər. Lakin onların söykənəcəyi qüvvələr məhv edildiyindən sözləri, səsləri eşidilməz olmuşdu.

Ölkəni bürümüş aclıq, yoluxucu xəstəliklər Muhammetjan Seralindən də yan keçmir. Təqib və xəstəlik onu Kustanaya dönməyə vadar edir. Böyük vətənpərvər və türk xalqlarının birliyinə çalışan insan 1929-cu il noyabrın 8-də dünyasını dəyişir.

Az sonra onu millətçilikdə suçlayıb adının çəkilməsini və əsərlərinin oxunmasını, araşdırılmasını qadağan edirlər. SSRİ dağılmağa başlayanda qazax vətənpərvərləri yenidən onun əsərlərini çap etməyə və ömür yolunu öyrənməyə başladılar.

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il dekabrın 16-da, saat 12.14-də efirə getmişdir.

MUHAMMEDJAN TINIŞBAYEV

Muhammedjan Tınışbayev (حمد جان تینیشبایئو , qaz. Мұхаметжан Тынышбайұлы, rus. Мухамеджáн Тынышпáевич Тынышпáев) (1879-1937) https://ali-shamil.tr.gg/Muxammedjan-T%26%23305%3Bn%26%23305%3B%26%23351%3Bbayev.htm



Muhammedjan Tınışbay oğlu Tınışbayev Qazaxıstanın əsilzadələrindəndir. 1879-cu il mayın 12-də Rusiyanın işğal etdiyi qazax-qırğız torpaqlarında yaratdığı Stepnoy, yəni Çöl quberniyası Semireciye, yəni Yeddiçay vilayətinin Jilanda dağındakı Makançi-Sadırov kəndində anadan olub. Rus hərbi qubernatoru Kolpakovski işğal edilmiş torpaqların bölünməsi üçün yaradılmış komitəyə Muhammedjanın atası Tınışbayı da daxil etmişdir.

Muhammedjan ilk təhsilini molla yanında almışdır. Atası bölgənin bəylərindən olduğundan ona hökumətin yerlərdə Rus dilində açdığı məktəbdə

oxumağa icazə vermişdir. Rus dilində təhsili uğurla başa vurduğuna görə atası onu 1889-cu ildə Verni şəhərindəki gimnaziyanın nəzdindəki ikisinifli hazırlıq bölməsində oxumağa göndərmişdir. Oranı uğurla bitirərək təhsilini həmin şəhərdəki oğlan gimnaziyasında davam etdirmişdir. Gimnaziyanı 1900-cü ildə uğurla başa vurub tərifnamə alan Muhammedjan Tınışbayev elə həmin il Peterburqdakı Birinci Aleksandradına İmperator Yollar Mühəndisi İnstitutuna qəbul olmuşdur.

İnstitutda oxuduğu illərdə Semireciye general-qubernatorunun Peterburqda türküstanlı tələbələr üçün təşkil etdiyi yataqxanada qalan, məsrəfləri ödənilən, Orenburqa, Daşkəndə təcrübəyə göndərilən Muhammedjan Tınışbayev yaradılmış imkandan çox bacarıqla istifadə edir. 1905-ci ildə onun "Türküstan-Sibir dəmir yol tikintisi" mövzusunda yazdığı diplom işi yüksək qiymətləndirilir, ona kollegiya katibi rütbəsi və hökumət qulluqçusu statusu verirlər.

Bu gənc mühəndisə böyük etimad göstərilməsi demək idi. Muhammedjan Tınışbayev 1906-cı ildən Türküstan Dəmiryolunun Xəzər sahilindəki, Qızılsu (keçmiş Krasnovodski, indiki Türkmənbaşı) stansiyasından Cərcoya qədər olan sahəsinin yenidən qurulmasında işləməyə başlayır. O, Amudərya çayı üzərindəki taxta körpünün daha davamlı və uzunömürlü dəmir konstruksiyalı körpü ilə əvəzlənməsində fəal iştirak edir. Doğulub boya-başa çatdığı

bölgə ilə də əlaqəsini kəsmir. Hər dəfə vətəninə gəldikdə soydaşlarının vəziyyəti ilə maraqlanır, onlara məsləhətlər verir, əhalinin güzəranının yaxşılaşdırılması üçün soydaşları ilə müzakirələr aparır.

İctimai işlərdə fəallığına, insanlarla xoş münasibətə və dərin təfəkkürünə görə onu 1907-ci il aprelin 3-də Semireciye vilayətindən Dövlət Dumasına deputat seçirlər. Muhammedjan Tınışbayev Dövlət Dumasının toplantılarında iştirak etmək üçün aprel ayının 26-da Peterburqa gəlir. O, Dumanın Müsəlman fraksiyasına və Sibir qrupuna daxil olur. Aqrar komissiyaya üzv seçilən Muhammedjan Tınışbayev torpaq məsələsində qətiyyətli mövqe tutur və Rusiyanın mərkəzi quberniyalarından qazax-qırğız çöllərinə rus kəndlilərinin köçürülməsinin əleyhinə çıxır.

55 deputatın imzaladığı, tarixə Viborsk bəyannaməsi kimi daxil olan sənədi Rusiya Nazirlər Sovetinə rəhbərlik edən Pyotr Stolıpin çar ailəsi əleyhinə sövdələşmə adlandırır və İkinci Dövlət Dumasını buraxılmasına nail olur.

Muhammedjan Tınışbayev Peterburqdan Türküstana qayıdır və Türküstan-Sibir dəmiryolu xəttinin keçəcəyi yerləri müəyyənləşdirəcək ekspedisiyanın tərkibinə daxil olur. O, Aıslı stansiyasından İli çayına kimi dəmiryol xəttinin keçəcəyi yerləri müəyyənləşdirir.

1907-1910-cu illərdə Aşqabad-Daşkənd dəmiryolunun tikintisində xüsusi təyinatlı mühəndis kimi işləyən Muhammedjan Tınışbayev 1911-ci ildə Ursat-Əndican dəmiryol sahəsinin tikintisinə şöbə müdiri, sonra da baş mühəndis təyin edirlər. 1914-cü ildə isə o Türksib adlandırılan dəmiryol xəttinin Semirecyedeki sahəsində işləməyə gəlir. Burada işlədiyi dövrdə ictimai-siyasi təşkilatların işində fəal iştirak edir.

Xalqının tarixi onu daha çox maraqlandırdığından juzlar, yəni qazax tayfaları, onlara rəbərlik etmiş xanlar, xanlar arasındakı qohumluq əlaqələri, batırlar, yəni igidlər, qəhrəmanlar, akınlar, yəni xalq nəğməkarları, aşıqlar haqqında məlumat toplayır. Əldə etdiyi materiallar əsasında Rusiya Coğrafiya Cəmiyyətinin Türküstan şöbəsində məruzələr oxuyur.

1917-ci ilin fevralında çar İkinci Nikolay taxtdan uzaqlaşdırılıb Krenskinin başçılığı ilə Müvəqqəti Hökumət qurulanda Türküstanın idarə olunması üçün Komitə qurulur. Krenski tanıdığı, İkinci Dövlət Dumasında çıxışlarını dinlədiyi Muhammedjan Tınışbayevin Türküstan Komitəsinə daxil olmasını istəyir.

Muhammedjan Tınışbayev 1917-ci ilin iyulunda Orenburqda keçirilən Birinci Ümumqırğız qurultayında iştirak edir. Müvəqqəti hökumətin yaratdığı Müəsissələr Məclisinin tərkibinə seçilir. Bolşeviklərin silahlı üsyanla hakimiyyəti ələ almaları Müəsissələr

Məclisinin işini pozur. Daşkənddə hakimiyyəti ələ almaq, Fəhlə və Əsgər Sovetlərinin hakimiyyətini yaratmaq istəyən Rus hərbçilər və Erməni silahlı dəstələri bölgənin yerli əhalisi olan müsəlmanları qırmağa başlayır.

Muhammedjan Tınışbayev və bölgənin yerli əhalisindən olan ziyalılar, iş adamları, məmurlar qırğının qarşısını almaq üçün milli güclərdən yeni bir hökumət qurmağa calışırlar Daşkənd Rusiya hərbçilərinin və Erməni silahlı qüvvələrinin əlində olduğundan orada yeni hökumət yarada bilmədiklərindən 1917-ci ilin noyabrında Kokand şəhərində yaradılır. Onlar bölgədə yaradılan yeni hökumətləri Türküstan Muxtar Hökuməti adı altında birləşdirmək istəyirlər.

Muhammedjan Tınışbayev Rusiyanın tərkibində yaradılan Kokand Muxtar Hökumətinin baş naziri seçilir. Ardıcıl siyasətlə məşğul olmayan, bölgədə baş verən qarışıqlardan çıxış yolu tapa bilməyən, xüsusən də yeni yaradılmış hökumətin xarici işlər naziri seçilmiş Mustafa Çokayevlə hökumətin idarəedilməsində və xarici siyasətində fərqli görüşdə olan Muhammedjan Tınışbayev baş nazir vəzifəsindən istefa verir.

Mustafa Çokayev və kabinetin bir neçə üzvü, eləcə də qazaxların ondərləri Kokand hökumətidə Əlixan Bökeyxanovun rəhbərlik etdiyi Alaş Orda Hökuməti ilə birləşməsini istəyirdi. Muhammedjan Tınışbayev isə Alaş Orda Hökuməti ilə birləşmənin

tərəfdarı deyildi. Bunu bölgənin parçalanması kimi dəyərləndirirdi.

Milli qüvvələrdən uzaqlaşan Muhammedjan Tınışbayev 1919-cu ildə bolşeviklərin yaratdıqları Türküstan Muxtar Respublikasını alqışlarla qarşılayır. Yeni hökumət onu 1921-ci ildə Xalq Torpaq Komissarlığının Su Təsərrüfatı İdarəsinə rəis təyin edir. Təcrübəli dəmiryol mühəndisi dağıdılmış su təsərrüfatını qaydaya salmaq üçün Türküstan Muxtar Respublikasının paytaxtı elan edilmiş Daşkənd şəhərinə gəlir.

1922-ci ildə onu Çimkənd şəhərinə işləməyə göndərirlər. Bu təyinat Muhammedjan Tınışbayev üçün çox ağır olur. Çimkənddə yayılmış vəba xəstəliyindən xanımı Gülbəhram 1922-ci il iyulun 22-də dünyasını dəyişir. Muhammedjan Tınışbayev yetim qalmış övladları İsgəndər, Fatma və Dinanı da alıb yenidən Daşkəndə qayıdır.

1924-cü ildən hökumət qulluğundan uzaqlaşan Muhammedjan Tınışbayev Daşkənddəki Qazax Pedaqoji İnstitutunda Fizika və Riyaziyyat fənlərindən dərs deməyə başlayır. Fizka-riyaziyyatdan dərs desə də, qazax xalqının tarixini öyrənib təbliğ etməyi də unutmur. "Göysudakı qəbirlər və Kaylak şəhərciyi", "Daşkənd qəzasında yaşayan əhalinin tarixi, milli tərkibi haqqında arayış", "Qazaxlar 17-18-ci yüzildə", "Qazax-qırğız xalqının tarixi haqqında materiallar" kimi elmi məqalələrini çap etdirir.

Muhammedjan Tınışbayev bolşeviklərin xalqlara azadlıq verəcəkləri haqqında vədlərinin boşa çıxdığını, sosial ədaləti yaratmaq adı altında varlıların var-dövlətini əllərindən alıb xalqı kasıba çevirdiklərini gördükdə aldadıldığını başa düşür. Geriyə dönməyə isə yol qalmayıb. Bütün aldadılmışlar kimi o da Sovet orqanlarında işləməklə gizlində milli qüvvələri birləşdirib yeni azadlıq mübarizəsinə başlamağı planlaşdırır.

1925-ci ildə Qazaxıstan Muxtar Respublikasının paytaxtının Orenburqdan Akmescid şəhərinə köçürülməsi, Orenburqun Rusiyanın vilayətinə çevrilməsi məsələsi gündəmə gələndə onu şəhərdə gedən tikintiyə baş mühəndis vəzifəsinə göndərirlər. O, kərpicdən yeni inzibati binaların, yaşayış binalarının tikintisinə, Sarkıramdan yeni paytaxta, Qızıl Ordaya su kanalı çəkilməsini təşkil edir.

Rusiya Sosialist Federativ Respublikası Xalq Komissarlar Soveti sədrinin müavini, milliyətcə qazax olan Turar Rıskulovum məsləhəti ilə Muhammedjan Tınışbayev təcrübəli mütəxəssis kimi Türksib dəmiryolunun çəkilişinə işə göndərilir.

Dəmiryol tikintisində çalışan Muhammedjan Tınışbayevi 1930-cu il avqustun 3-də həbs edirlər. Uzun istintaqdan sonra mütəxəssis çatışmadığına görə onu həbsdən azad etmək məcburiyyətində qalırlar. Lakin xüsusu xidmət orqanları bir an da olsun onu nəzarətdən kənarda qoymurlar. 1932-ci il aprelin 20-

də məhkəməni əvəz edən üçlüyün qərarı ilə 5 il müddətinə Voronej şəhərinə sürgünə göndərirlər. O, nəzarət altında Moskva-Donets Dəmiryol İdarəsində işləyir.

Sürgündən azad edildikdən sonra bir müddət Kandaqaç-Quryev dəmiryolunda işləyir. Orada ağır xəstələndiyinə görə Daşkəndə gəlir. Burada da təqib edildiyini görüb oğlu Dulatın familyasını dəyişdirir və xanımı Əminəni Şeyx Əli ilə birlikdə Ufaya göndərir.

1937-ci il noyabrın 21-də Muhammedjan Tınış-bayev yenidən həbs edilir, uzun sürən istintaqdan sonra 1938-ci ildə güllələnir. Onun adının çəkilməsi, əsərlərinin təbliğ olunması uzun illər qadağan olunsa da, Sovet hökumətinin dağılmasından sonra qazax xalqı sevimli oğlunun adının əbədiləşdirilməsi, əsər-lərinin təbliği uçun bir sıra işlər görür.

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il oktyabrın 24-də, saat 12.14-də efirə getmişdir.

ƏLİ ŞAMİL

QAZAXISTAN:

yol qeydləri, məqalələr

Direktor: **Səbuhi Aslan**
Dizayner: **Nigar Sadıqova**
Texniki redaktor: **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 04.04.2026
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru

Qeyd üçün: